GƏNCƏ ŞƏHƏR İCRA HAKİMİYYƏTİ

# HEYDƏR ƏLİYEV VƏ SÜLH SİYASƏTİ

## III CİLD

*Kitab Gəncə Şəhər İcra Hakimiyyətinin sərəncamı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunur*

Şərq-Qərb 1986-cı ildən
East-West since 1986
BAKI 2013

**Ulu öndər.** 5 cilddə. III cild
Bakı, "Şərq-Qərb" Nəşriyyat Evi, 2013, 208 səh.

***Redaksiya heyəti***

*Redaksiya heyətinin sədri:*

**Elmar Vəliyev**
Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı

*Redaksiya heyətinin üzvləri:*

**Nailə Vəlixanlı**
AMEA-nın vitse-prezidenti

**Yaqub Mahmudov**
AMEA-nın müxbir üzvü

**Fuad Əliyev**
AMEA-nın müxbir üzvü

**Samir Pişnamazzadə**
tarix üzrə fəlsəfə doktoru

**Xəlil Yusifli**
əməkdar elm xadimi, professor

**Həsənbala Sadıqov**
tarix elmləri doktoru, professor

**İradə Hüseynova**
tarix elmləri doktoru, professor

**Fəxrəddin Məmmədov**
tarix elmləri doktoru, professor

**Təhminə Bədəlova**
AMEA Gəncə bölməsinin böyük elmi işçisi

**Aynur Mirişli**
AMEA Gəncə bölməsinin böyük elmi işçisi

Kitab Gəncə Şəhər İcra Hakimiyyətinin sərəncamı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunur.

5 clddən ibarət olan kitabın 3-cü cildində Qafqazda sülh prosesinin vacibliyini doğuran sosial-siyasi, iqtisadi və mədəni amillər araşdırılır, "Ümumqafqaz Evi" ideyasının yaranmasında, Qafqazda sülh və təhlükəsizliyin təmin olunması və regionun dünyanın inkişaf etmiş dövlətləri ilə inteqrasiyası kimi qlobal proseslərdə Ulu Öndərin geniş fəaliyyəti haqda ətraflı məlumat verilir.

Bu nəfis və dəyərli beşcildlik geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**ISBN** 978 9952 32 085 5
**ISBN** 978 9952 32 088 6

© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

Şərq Qərb 1986-cı ildən East West since 1986 BAKI 2013
www.eastwest.az
www.fb.com/eastwest.az



*Gəncə Azərbaycanın, Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən bir diyardır, gözəl şəhərdir. Biz hamımız – harada yaşamağımızdan asılı olmayaraq, hər bir azərbaycanlı Gəncə ilə, onun qədim və zəngin, şanlı tarixi ilə fəxr etməlidir. Gəncənin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərə görə gəncəlilər əbədi minnətdarlığa layiqdirlər.*

***Ulu Öndər***
***Heydər Əliyev***



*Gəncə Şərqin mədəniyyət mərkəzidir. Mən şadam ki, doğma Gəncəmiz qədim ənənələr üzərində müasirləşir və gözəlləşir.*

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***

## AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN 90 İLLİK YUBİLEYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN S Ə R Ə N C A M I

*Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycan dövlətçilik tarixində müstəsna yeri vardır. Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı kimi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.*

*Azərbaycanda müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin əsas qanunu Konstitusiyanın qəbul edilməsi, hakimiyyətlərin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Heydər Əliyevin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir.*

*Azərbaycanın dünya miqyasında neft-qaz hasil və ixrac edən ölkəyə çevrilməsi, milli neft strategiyasının uğurla həyata keçirilməsi, xarici dövlətlərin aparıcı neft şirkətləri ilə müqavilələrin bağlanması, neft sənayesinin müasir tələblərə uyğun infrastrukturunun qurulması, neftin Bakı-Tbilisi-Ceyhan,*

*Bakı-Supsa, Bakı-Novorossiysk boru kəmərləri vasitəsilə şaxələnmiş şəkildə nəqli bilavasitə Heydər Əliyevin xidmətləridir.*

*Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir.*

*Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir.*

*Postsovet məkanında analoqu olmayan cəsarətli qərarları ilə Heydər Əliyev torpağın şəxsi mülkiyyətə verilməsi ilə ölkəmizin ərzaq təhlükəsizliyini təmin etmiş oldu. Bu gün müxtəlif kənd təsərrüfatı komplekslərinin uğurlu fəaliyyəti onun aqrar siyasətinin parlaq təzahürüdür.*

*Ulu Öndərin vaxtilə Cəmşid Naxçıvanski adına hərbi liseyin açılması ilə həyata keçirməyə başladığı müdrik siyasəti milli ordumuzun formalaşması və Azərbaycan Silahlı Qüvvələrinin yaradılması mərhələlərindən keçərək onun Cənubi Qafqazda aparıcı hərbi qüvvə olmasına gətirib çıxarmışdır.*

*Ana dilimizin dövlət dili kimi tətbiqində, onun imkanlarının genişləndirilməsi və Azərbaycan xalqının ən böyük sərvəti kimi dəyərləndirilməsində Heydər Əliyev şəxsiyyətinin rolu danılmazdır. Azərbaycan mədəniyyətinin və zəngin tarixi irsimizin dünya ictimaiyyətinə tanıdılması Heydər Əliyevin misilsiz xidmətlərindəndir. Məhəmməd Füzulinin 500 illik və "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileylərinin UNESCO səviyyəsində keçirilməsi Azərbaycan mədəniyyətinin təbliğinə xidmət edərək beynəlxalq mədəni ictimaiyyətlə yeni əməkdaşlıq formalarının bərqərar olmasına gətirib çıxarmışdır.*

*Heydər Əliyevin rəhbərliyi altında milli maraqlara əsaslanan və siyasi perspektivləri nəzərə alan xarici siyasət kursu müəyyənləşmiş, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə qarşılıqlı münasibətlər qurulmuşdur. Onun uğurlu xarici siyasəti ölkəmizin etibarlı tərəfdaş kimi qəbul edilərək beynəlxalq miqyasda nüfuzunun artmasına, islahatçı və təşəbbüskar dövlət olaraq tanınmasına xidmət göstərmişdir. Heydər Əliyevin beynəlxalq aləmdə atdığı qətiyyətli addımlar sayəsində diplomatiyamızın fəal mövqeyi formalaşmış, Azərbaycanın zorla cəlb olunduğu Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dünya ictimaiyyətinin münasibəti dəyişmiş, ölkəmizin suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı bütün beynəlxalq hüquqi-normativ sənədlərdə öz əksini tapmışdır.*

*Heydər Əliyev Böyük İpək yolunun mühüm mərkəzi olan, mədəniyyətlərin və sivilizasiyaların qovşağında yerləşən ölkəmizi dünyada tolerantlığın və dözümlülüyün məkanı kimi tanıtmışdır. Onun beynəlxalq səfərləri, siyasi, ictimai və dini xadimlərlə görüşləri ölkəmizin yeni imicinin formalaşmasına xidmət edirdi.*

*Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir. Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyev fəaliyyətinin nəticəsidir.*

*Heydər Əliyevin XX əsrdə totalitarizmin Azərbaycana qarşı törətdiyi faciələrin davamı kimi qanlı 20 Yanvarı xalqımız əleyhinə hərbi, siyasi və mənəvi təcavüz kimi qiymətləndirməsi onun ömrü boyu sadiq qaldığı siyasi məfkurəsinin və yüksək vətənpərvərliyinin yeni siyasi şəraitdə təcəssümü idi. Mövcud siyasi, iqtisadi və sosial böhran müstəqilliyimizin ilk illərində Azərbaycanı vətəndaş müharibəsi həddinə çatdırdığı bir dövrdə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəldiyi gün – 1993-cü ilin 15 iyunu tariximizə Qurtuluş Günü kimi daxil olmuşdur. Bu qurtuluş qısa bir zamanda özünü nəinki siyasətdə, həm də iqtisadiyyatda, təhsildə, mədəniyyətdə və insanların gündəlik real həyatında büruzə vermişdir.*

*Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zamanda iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Heydər Əliyevin qurduğu dövlətin iqtisadi siyasəti əhalinin sosial müdafiəsini daim diqqət mərkəzində saxlamaqla sosial yönümü ilə səciyyələnirdi. Bu gün Azərbaycan nüfuzlu vətəndaş cəmiyyətinin əsaslarının qurulduğu, müxtəlif siyasi partiyaların sərbəst fəaliyyət göstərdiyi, yüzlərlə senzurasız qəzet və jurnalın nəşr olunduğu, eləcə də çox sayda özəl telekanalların yayımlandığı və İnternet şəbəkəsi istifadəçilərinin sayının sürətlə artdığı bir ölkədir.*

*Heydər Əliyev öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuşdur. Onun siyasəti nəticəsində əldə olunan misilsiz nailiyyətlər göz qabağındadır. Bu uğurlar paytaxtımızın daim yeniləşən görkəmində, şəhər və rayonlarımızın sürətlə modernləşməsində, iqtisadiyyat və elmdə, təhsil, mədəniyyət və səhiyyədə, eləcə də ictimai-siyasi həyatımızda öz əksini tapmışdır.*

*Heydər Əliyevin memarı olduğu Azərbaycan bu gün böyük tikinti meydançasını xatırladır. Yüzlərlə sənaye və infrastruktur obyektləri, məktəblər, xəstəxanalar, idman qurğuları, yaşayış evləri, inzibati binalar və digər tikililər ucaldılır, yollar salınır. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası bizim gələcək planlarımızı əks etdirməklə yanaşı, bir daha sübuta yetirir ki, Heydər Əliyevin ölkəmizin sürəkli tərəqqisini bu gün də təmin edən irimiqyaslı proqramları xalqımızın sosial-iqtisadi vəziyyətinin daim yaxşılaşmasına xidmət göstərir.*

*Müstəqil Azərbaycan dövlətinin hərtərəfli inkişafı yolunda əvəzsiz tarixi xidmətlərini nəzərə alaraq, milli dövlətçilik ideyasının bərqərar olması və ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması naminə misilsiz töhfələr vermiş Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyinin ölkə miqyasında layiqincə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:*

1. *Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.*
2. *Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyinin keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilsin.*
3. *Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 yanvar 2013-cü il*

# HEYDƏR ƏLİYEV –
# QAFQAZDA SÜLHÜN TƏŞƏBBÜSÇÜSÜ

## ÖN SÖZ

Bəşər sivilizasiyasının ən qədim məskənlərindən biri olan Qafqaz etnodil, etnodemoqrafik, etnososial, etnomədəniyyət və etnik baxımdan dünyanın unikal bölgəsidir. Qafqaz geosiyasi mövqeyinə görə də Şərqlə Qərb, Cənubla Şimal arasında mühüm strateji məkanda yerləşir. Müasir mərhələdə, XXI əsrin başlanğıcında Qafqaz dünya siyasətində geostrateji bölgə kimi daha önəmli yer tutmaqdadır. Tarixən Qafqaz böyük imperiyaların, aparıcı dövlətlərin maraq və mənafelərinin toqquşduğu bölgələrdən biri olmuşdur. Zəmanəmizdə də Qafqaz regionu dünyanın aparıcı dövlətlərinin milli maraqlarının, dövlət mənafelərinin kəsişdiyi coğrafi məkanlar içərisində öncüllərdən sayılır. Çünki Qafqaz regionu Asiya ilə Avropanı iqtisadi və mədəni cəhətdən bir-birinə qovuşduran, inteqrasiyaya yardım edən körpü rolunu oynayır. Bu mənada Qərb və Şərq sivilizasiyalarının bir-birinə inteqrasiyasında, qoca Şərqin qədim və zəngin klassik mədəni irsinin Qərbin yeni, müasir texnologiyaları ilə daha da zənginləşməsində Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi müstəsna əhəmiyyət daşıyır. Digər tərəfdən, Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının, Orta Asiya və Qazaxıstan xammalının, hazır məhsullarının Qərbə nəqlində Cənubi Qafqaz bölgəsi, o cümlədən Azərbaycan Respublikası həlledici rola malikdir.

Bütün bunları nəzərə alan ABŞ-ın və Qərb dövlətlərinin Qafqaz siyasətində Cənubi Qafqaz respublikalarının müstəqilliyinin və ərazi bütövlüyünün qorunması, bu regionda demokratiyanın və sərbəst bazar iqtisadiyyatı münasibətlərinin inkişafına, Şimali Qafqazda qeyri-sabitliyin aradan qaldırılmasına, Qafqaz dövlətlərinin Qərbə inteqrasiyasına, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılmasına və inkişaf etdirilməsinə, nəhayət, Xəzərin enerji ehtiyatlarının Qərbə təhlükəsiz nəqlinə yardım göstərilməsi əsas yer tutur.

XXI əsrin başlanğıcında bütün dünyanı ilk növbədə qloballaşma və inteqrasiya prosesləri, eləcə də hər iki müasir inkişaf tendensiyasının normal getməsini təmin edən, əslində onlar üçün əsas amil olan sülh, əmin-amanlıq, təhlükəsizlik problemləri narahat edir. Yeni əsri "intellekt əsri"nə çevirməyi qarşısına məqsəd qoyan çağdaş dünya 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən dəhşətli terror aktından sonra sülhə, əmin-amanlığa, təhlükəsizliyə təcavüz edən hər cür tədbirlərə qarşı birgə beynəlxalq mübarizəyə qalxmışdır. Bu gün bütün bəşəriyyəti, hər şeydən öncə, xalqların xöşbəxt gələcəyi naminə sülh, əmin-amanlıq, qarşılıqlı əməkdaşlıq məsələləri düşündürür. Təsadüfi deyildir ki, BMT həm ötən əsrin son ilini "Sülh mədəniyyəti ili" elan etməklə, həm də üçüncü minilliyin ilk on ilini "Sülh mədəniyyəti onilliyi" adlandırmaqla tərəqqipərvər dünyanın sülhə, əmin-amanlığa bu gün həmişəkindən daha çox ehtiyacı olduğunu etiraf edir. Sülh mədəniyyəti mahiyyətcə sülh prosesinin mürəkkəb daxili quruluşunu, inkişaf dinamikasını, dramatizmini dərk etməklə yanaşı, incə yollarla, düşünülmüş daxili və xarici siyasət yeritməklə qansız-qadasız mübarizə üsullarına yiyələnmək vasitələri ilə ölkədə, bölgədə və bütün dünyada sülh proseslərinə yardım etməkdən ibarətdir. Bu baxımdan tarixşünaslıq və geosi-

yasət, geosiyasi-iqtisadi siyasət də, coğrafi transsiyasət də, azad ticarət və iqtisadi məkan uğrunda mübarizə də, xalqların, dövlətlərin mədəni və iqtisadi inteqrasiyası da, sözün geniş mənasında, haqlı olaraq sülh mədəniyyətinin tərkib hissələri, onun komponentləri hesab olunur.

Hazırda terror bəlasına düçar olmuş dünyanın ən gərgin ocaqlarından sayılan Qafqazda sülh mədəniyyətinin qorunması, sülh prosesinin hər vasitə ilə inkişaf etdirilməsi nəticə etibarı ilə "Ümumqafqaz Evi"nin təhlükəsizliyi və əmin-amanlığı üçün böyük imkanlar açır. Bu baxımdan etnik cəhətdən özünəməxsus bölgələrdən sayılan Qafqazda mövcud olan münaqişə ocaqları təkcə region dövlətləri üçün deyil, bütün dünya ölkələri üçün ciddi təhlükə, sabit, davamlı sülhə, milli təhlükəsizliyə maneçilik törədən amil kimi qiymətləndirilməkdədir.

Çağdaş dünyada baş verən qlobal və regional hadisələri düzgün qiymətləndirən Ulu Öndər Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısı olmuş, "Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur" – deyərək öz xarici siyasət xəttini bütün dünyaya bəyan etmişdir.

Ulu Öndər Heydər Əliyevin Qafqazda sülh ideyasının əsasında "Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!" konseptual modeli dururdu. Bu bir tarixi həqiqətdir ki, Heydər Əliyev bütün Qafqaz bölgəsində sülhün yaradılması təşəbbüsü ilə çıxış etmiş, onun təklifi ilə 1996-cı ildə imzalanmış "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında Tbilisi Bəyannaməsi"ndə "Ümumqafqaz Evi" ideyası dəstəklənmiş, 1999-cu ildə isə onun ATƏT-in İstanbul zirvə görüşündə "Cənubi Qafqazda Sülh, Təhlükəsizlik və Əməkdaşlıq Paktı"nın yaradılması təklifi bir çox region dövlətləri tərəfindən müdafiə olunmuşdur. Bütün bu geniş və perspektivli fəaliyyətinə görə Qafqaz xalqları Ulu Öndəri "Ümumqafqaz evinin ağsaqqalı" kimi dəyərləndirmişlər.

1991-ci ildə öz dövlət müstəqilliyini bərpa etmiş və daha geniş demokratik dəyərlərə qovuşmaq imkanından istifadə edərək, özünün milli dövlətçilik ənənələrinə, tarixi və mədəni irsinə söykənən müasir demokratik hüquqi dövlət quruculuğu yolunu seçmiş Azərbaycan xalqı müstəqilliyin ilk illərində Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmış, daxili qeyri-sabitlik, iqtisadi böhran, keçid dövrünün çətinlikləri və digər ciddi problemlərlə üzləşmişdir. Buna baxmayaraq, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası bütün çətinlikləri qısa müddətdə dəf edərək, düzgün strateji inkişaf yolunu müəyyən edərək, regionda və dünyada öz mövqelərini möhkəmləndirən, iqtisadi, siyasi və digər baxımdan dinamik inkişaf edən müasir bir ölkəyə çevrilə bildi.

Ulu Öndər Heydər Əliyevin sayəsində Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olan Azərbaycan, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamağa başladı. Ulu Öndər Heydər Əliyev tərəfindən hazırlanmış və həyata keçirilmiş bu ümumi strategiyanın başlıca məqsədi Azərbaycan Respublikasının çiçəklənməsi, davamlı inkişafı və əhalinin rifahının təmin edilməsilə yanaşı həm də bütün Qafqaz-

da təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verməkdən ibarətdir. Məhz buna görə Ulu Öndərin Azərbaycan Respublikasında təhlükəsizlik mühitini, ərazi bütövlüyünü, sərhədlərin toxunulmazlığını, milli maraqları, davamlı inkişafı, əhalinin rifah və milli-mənəvi dəyərlərinin qorunmasını təmin etməsi siyasi xadimlər və politoloqlar tərəfindən Qafqazda sülh prosesinə təsir edən ən böyük amil kimi qiymətləndirilmişdir. Heç şübhəsiz, Qafqazda sülhü və sabitliyi təmin etmədən Şərqlə Qərb, Cənubla Şimal arasında, həmçinin region ölkələrinin bir-biri ilə iqtisadi, siyasi və mədəni inteqrasiyasından söhbət gedə bilməz. Bütün bu tarixi, ictimai-siyasi, iqtisadi və mədəni amillər deməyə əsas verir ki, Ulu Öndərin "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modeli bu gün beynəlxalq aləmi düşündürən başlıca amillərdən, dünyanı narahat edən qlobal problemlərdəndir. Bütün bunlar bir daha problemin nə qədər böyük aktuallıq kəsb etdiyini göstərir.

Cənubi Qafqazda mövcud olan separatçılıq, etnik, siyasi və dini ekstremizmi bölgədə yerləşən dövlətlərin, xalqların və millətlərin fundamental əsaslarını sarsıdan və ümumi təhlükəsizliyə ciddi təhlükə kimi qiymətləndirən Ulu Öndərin bu istiqamətdə səmərəli fəaliyyəti onu Qafqaz xalqlarının ümumi tarixi ilə bilavasitə bağlamışdır. O, Qafqazda strateji tərəfdaşlığın təməlini qoymuş, dostluğun, qarşılıqlı anlaşmanın və sabitliyin təmin edilməsinə böyük siyasi-tarixi və şəxsi töhfə vermişdir. Dağlıq Qarabağ faciəsinin beynəlxalq hüquq normaları əsasında sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində Ulu Öndərin nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda onun qətiyyətli mövqeyi və göstərdiyi səylər Azərbaycanın və ümumilikdə regionun iqtisadi inkişafını möhkəmləndirən böyük həcmli xarici sərmayələrin cəlb olunmasında əsas rol oynamışdır. Bu baxımdan Qafqazda sülhün ilk təşəbbüskarı kimi tanınan Heydər Əliyevin "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modelinin fəlsəfi, sosioloji, tarixi, mədəni, iqtisadi, siyasi məzmun və aspektləri yeni elmi nəticələrlə "Heydər Əliyev və Qafqazda sülhün, sabitliyin təminatı " kitabında öz əksini tapmışdır.

Bu da inkarolunmaz həqiqətdir ki, Qafqaz mürəkkəb etnik münaqişələrin çoxluğu və miqyası baxımından da müasir dünyanın unikal çoğrafi məkanlarından biridir. Hazırkı şəraitdə dünyanın ən qaynar nöqtələrindən birinə çevrilən Qafqazda sülh, təhlükəsizlik, sabitlik təkcə region ölkələri üçün deyil, bütövlükdə Asiya və Avropa ölkələri üçün də faydalı və əlverişli olub həyati əhəmiyyət daşıyır. Qafqaz xalqlarının milli varlığının əsas qarantı və bütün dünya üçün faydalı hesab olunan sülh prosesinin təmin edilməsi konsepsiyasının formalaşması isə bir qayda olaraq Ulu Öndər Heydər Əliyev kimi xarizmatik liderlərin adı ilə bağlıdır. Tarixin əlverişli, eyni zamanda mürəkkəb mərhələsində geniş fəlsəfi, sosioloji, tarixi, mədəni, iqtisadi, siyasi məzmuna malik olan "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modelini həyata keçirmək kimi ağır missiyanı üzərinə götürməklə Ulu Öndər Qafqaz xalqlarının müdhiş bəlalardan qurtuluşu yollarını və gələcək yaşam fəlsəfəsini müəyyən etmişdir. Heydər Əliyevin "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modelinin fəlsəfi mahiyyəti kiçik məfhumdan böyük məfhuma

doğru istiqamətləndirilmiş sülh və təhlükəsizliyin bərpa edilməsindən ibarətdir. Belə ki, Ulu Öndər tərəfindən Azərbaycanda sülhün, sabitliyin və əmin-amanlığın təmin edilməsi, heç şübhəsiz, bütövlükdə Qafqazda sülh prosesinə öz müsbət təsirini göstərmişdir. Gələcəkdə Qafqaz regionunda davamlı sülhə nail olunsa, bu da dünyada gedən sülh prosesinə öz təsirini göstərəcəkdir. Buna görə "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modeli lokal səviyyədən qlobal səviyyəyə yönəlmiş geniş fəlsəfi, sosioloji, tarixi, mədəni, iqtisadi, siyasi məzmuna malik olan ideya kimi qəbul olunmaqdadır.

"Vətəndə sülh, regionda sülh, dünyada sülh!" konsepsiyası əsasında həyata keçirdiyi qlobal tədbirlər sayəsində Ulu Öndər "Ümumqafqaz Evi" ideyasının əsas müəlliflərindən biri və "Ümumqafqaz Evi"nin ağsaqqalı kimi nəinki Qafqazda, eləcə də bütün dünyada tanınmış və şöhrət qazanmışdır. Bu bir tarixi reallıqdır ki, hazırda Qafqazda sülh, əmin-amanlıq təkcə region ölkələri üçün deyil, bütün dünya dövlətləri üçün də iqtisadi və mədəni inteqrasiyanın əsas şərtlərindən biridir. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyası hazırda qloballaşan və qloballaşdıqca terrordan əziyyət çəkən narahat dünyamızın ən qaynar nöqtələrindən və strateji cəhətdən ən əhəmiyyətli geosiyasi məkanlarından sayılan Qafqazda sülh mədəniyyətinin qorunması, sülh prosesinin hər vasitə ilə inkişaf etdirilməsi istiqamətində xidmət göstərməsi nəticə etibarı ilə "Ümumqafqaz Evi"nin təhlükəsizliyi, ölkələrin və dövlətlərin birgəyaşayışı, əmin-amanlığı, əməkdaşlığı üçün böyük imkanlar açır.

Ulu Öndər Heydər Əliyev "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modelini irəli sürməklə nəinki Qafqazda, hətta bütün dünyada mövcud olan münaqişələrin həlli yollarının yalnız onun səbəblərini, ifadə formalarını və təbiətini dərindən öyrənməklə, xalqların və millətlərin qarşılıqlı fəaliyyətinin qanunauyğunluqlarının tədqiqi əsasında mümkün olması məsələsini irəli sürdü və əsaslandırdı.

Təkcə Azərbaycanda deyil, bütün Qafqaz bölgəsinin ən ağır günlərində hakimiyyətə qayıdan Ulu Öndər yorulmaq bilmədən, qətiyyət və böyük bacarıqla Qafqazda mövcud olan münaqişələrin həlli istiqamətində mühüm işlər görmüşdür. Belə ki, Ulu Öndər tərəfindən Cənubi Qafqazın ən önəmli və lider dövləti olan Azərbaycanda vətəndaş müharibəsi alovunun söndürülməsi, ölkədə baş alıb gedən qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsi, ictimai-siyasi sabitliyin tam bərpası, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi, cəbhə bölgəsində atəşkəs rejiminə nail olunması, habelə demokratik inkişaf kursu ilə uzlaşan sosial-iqtisadi siyasət strategiyasının irəli sürülməsi bütün bölgədə təhlükəsizliyin təmin edilməsi istiqamətində əhəmiyyət kəsb etdi. Ulu Öndər Heydər Əliyevin bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə sülhün təminedicisi kimi, Qafqaz dövlətlərinin qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə müəllifi olduğu "Vətəndə sülh, regionda sülh, dünyada sülh!" modelinin praktiki surətdə gerçəkləşdirilməsi istiqamətində tarixi fəaliyyəti əbədi yaşayacaqdır!

**Elmar VƏLİYEV,**
***Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı***

## SOVET İDARƏETMƏ SİSTEMİNDƏ BÖHRAN VƏ TƏNƏZZÜLÜN BAŞLANMASI

SSRİ bəşər tarixinə məlum olan ən böyük və qüdrətli imperiyalardan biri olmuşdur. Məhz buna görə də SSRİ-nin dağılma prosesi böyük və qüdrətli imperiyanın çökməsi kimi qiymətləndirilməlidir. İmperiyaların süqutu səbəbləri haqqında dünyanın bir sıra görkəmli alimləri müxtəlif fikirlər söyləmişlər. Lakin hər bir imperiyanın dağılması prosesində oxşar cəhətlər olsa da, özünəməxsus səbəblər də mövcud olmuşdur.

Ümumi götürdükdə, sovet idarəetmə sistemində böhran və tənəzzülün başlanmasının səbəbləri sırasına ictimai-siyasi, sosialist xalq təsərrüfatı kompleksi adlandırılan iqtisadi vəziyyətin normal istiqamətdə cərəyan etməməsi kimi məsələlər daxildir. Ancaq bununla yanaşı, sovet imperiyasının idarəetmə sisteminin böhran və tənəzzülə uğramasının səbəbləri kifayət qədər çoxdur.

Bu sahədə elmi tədqiqat və araşdırmalar aparmış E.Batalov, A.Zubov, T.Kamoza, V.Sederbaum, Levski və başqa tanınmış politoloqlar SSRİ hökumətinin yeritdiyi etnosiyasətin geosiyasətlə uzlaşmadığını Sovet imperiyasının idarəetmə sisteminin böhran və tənəzzülə uğramasının əsas səbəbi kimi göstərmişlər. Tanınmış politoloq N.Qolovin isə SSRİ ordusunun zəifləməsini Sovet imperiyasının idarəetmə sisteminin böhran və tənəzzülünün başlıca səbəbinə çevrildiyini söyləmişdir. Qeyd olunan bütün səbəbləri iki başlıca amillə izah etmək mümkündür. SSRİ imperiyasının öz real çərçivəsindən çıxması (ekstensiv inkişaf) və ölkəni idarə edənlərin daxili, xarici siyasətin dəyişdirilməsinin zəruriliyini (intensifikasiya) qəbul etməmələri nəticədə sovet imperiyasının idarəetmə sisteminin böhran və tənəzzülə uğramasına gətirib çıxardı.

Qeyd edək ki, sovet idarəetmə sistemində böhran və tənəzzülün başlanması onunla soyuq müharibə şəraitində yaşayan Qərb dövlətlərinin də maraqlarına uyğun idi. Danılmaz faktdır ki, ABŞ başda olmaqla, Qərbin böyük dövlətləri SSRİ imperiyasının süqutunda kifayət qədər əhəmiyyətli rol oynamışlar. Fəqət əsas məsələ sovet liderlərinin səriştəsizliyi ilə bağlı idi. ABŞ və başqa Qərb dövlətləri isə yaranmış xoşagəlməz şəraitdən istifadə edirdilər. Bu xoşagəlməz şəraiti isə qeyd-şərtsiz sovet liderlərinin özləri yaradırdılar.

Sovet idarəetmə sistemi əleyhinə Qərbin dəstəklədiyi qüvvələrdən biri də islami hərəkatlarla bağlı olmuşdur. Qərbin düşünən başları imperiyanın tərkibində kifayət qədər islam dininə etiqad edənlərin olduğunu və bu dövlət tərəfindən islami dəyərlərin buxovda saxlandığını nəzərə alaraq islam müxalifətini gücləndirirdilər. Ümumdünya antikommunist liqası ilə bərabər, 1968-ci ildə müsəlmanların müqəddəs şəhəri Məkkədə yaranmış Ümumdünya İslam Liqası və 1978-ci ildə təşkil olunmuş İslam internasionalı da sovet imperiyasının əleyhinə müba-

rizəyə başlamışdı. Məhz Ümumdünya İslam Liqası tərəfindən 1976-cı ildə kommunizmə qarşı cihad elan olunmuşdur. Dünyanın demokratik qüvvələri hesab olunan Qərb dövlətləri SSRİ-nin hüdudlarında fəaliyyət göstərən islami hərəkatların vasitəsi ilə SSRİ-dəki müsəlman antikommunist və antisovet qüvvələri birləşdirməyə cəhd göstərirdi. Bütün bunlar isə idarəetmə sistemində mövcud olan böhranı genişləndirirdi.

1970-ci ildən başlayaraq yenidən ölkədə hərbiləşməyə üstünlük verilməyə başlandı. Hərbi maşınqayırma sənayesinə büdcədən külli miqdarda vəsaitlər xərclənirdi. Qeyri-hərbi sənaye sahəsinə büdcədən 23%, hərbi sənayeyə isə 60% vəsait ayrılırdı. Ölkənin bütün gücünün hərbi sənayeyə yönəldilməsi xalq təsərrüfatı sahəsində disproporsiya yaratmış oldu. Bununla kifayətlənməyən sovet liderləri elə həmin ildən başlayaraq bazar iqtisadiyyatı məfhumunun əleyhinə böyük kampaniyalara start vermiş oldular.

Sovet idarəetmə sisteminin ciddi şəkildə laxladığı bir vaxtda, 1985-ci ilin mart ayında M.S.Qorbaçov hakimiyyət başına gəldi. O, ilkin mərhələdə idarəetmə sisteminin böhran və tənəzzüldən çıxarılması istiqamətində ciddi addımların atılacağı və ölkənin bütün sahələrinin yenidən dirçəldiləcəyi xüsusunda enerjili və inandırıcı çıxışlar etməyə başladı.

1985-ci ilin mart ayında Sov. İKP MK-nın Baş katibi vəzifəsini tutan M.S.Qorbaçov sovet idarəetmə sistemində başlanmış böhran və tənəzzülün səbəblərini köhnə partiya rəhbərlərinin səriştəsizliyi ilə bağlamağa çalışırdı. Məhz bu səbəbə görə də özü də səriştəsiz siyasətçilərdən biri olan M.S.Qorbaçov "yenidənqurma" adı altında radikal islahatların keçirilməsinə cəhd göstərirdi. M.S.Qorbaçovun həyata keçirdiyi "yenidənqurma" islahatları üç böyük mərhələyə bölünmüşdür. Bu mərhələlər: 1) 1985-1986; 2) 1987-1988; 3) 1989-1991-ci illəri əhatə edirdi. Şübhəsiz ki, hər üç mərhələ uğursuzluğa məhkum oldu və ölkənin tənəzzülünü sürətləndirdi.

"Yenidənqurma siyasəti" adı altında həyata keçirilən islahatların iflasa uğramasını şərtləndirən amillərdən biri də yeridilən xarici siyasət olmuşdur. Yeni xarici siyasət konsepsiyasının fəaliyyəti üç əsas istiqamətdə müəyyən edilmişdi: 1. Şərq və Qərb arasında konfrontasiyaya nail olaraq beynəlxalq gərginliyi zəyiflətmək. 2. Regional konfliktlərin sülh yolu ilə həllinə nail olmaq. 3. İdeoloji baxımdan mövcud olan ayrı-seçkiliyə son qoyaraq bütün dünya ölkələri ilə sıx əməkdaşlığa nail olmaq.

"Yenidənqurma" siyasətinin müəyyən etdiyi xarici siyasət 2 mərhələyə bölünmüşdür. Bu mərhələlər 1985-1988 və 1989-1991-ci illəri əhatə etmişdir: 1. Nümayişkaranə şəkildə SSRİ ilə Qərb arasında danışıqların aparılması və beynəlxalq gərginliyin zəiflədilməsi, 2. Sovet idarəetmə sisteminin tənəzzülü və beynəlxalq gərginliyin neytrallaşdığı mərhələlər kimi qiymətləndirilmişdir.

Həmin dövr SSRİ-nin xarici siyasətində baş vermiş əsas hadisələr M.S.Qorbaçovun ABŞ prezidenti R.Reyqanla 1985-ci ilin noyabrında Cenevrədə, 1986-cı ilin oktyabrında Reykyavikdə, həmin ilin dekabrında Vaşinqtonda, 1988-ci ilin iyulunda Moskvada və daha sonra prezident C.Buşla keçirdiyi görüşlər hesab olunur. Bu görüşlərdə SSRİ və ABŞ-ın Avropada yerləşdirdiyi uzaq və yaxın mənzilli raketlərin ləğvinə nail olundu. Şübhəsiz ki, SSRİ və ABŞ arasında olan razılaşmalarda birinci tərəf daha çox güzəştlərə getmək məcburiyyətində qalmışdır. Belə ki, əgər ABŞ 869 raket ləğv etmişdisə, SSRİ-də bu rəqəm 1752-ə yüksəlmişdir. Şübhəsiz ki, həmin dövr SSRİ dövlətinin xarici siyasətində atılmış liberal addımlar bu dövləti idarə edən siyasi sistemdə baş verən müsbət dəyişikliklərlə əlaqəli deyil, əksinə, böhran və tənəzzüldən irəli gəlmişdir. Məhz bu faktı nəzərə aldıqda aydın olur ki, "yenidənqurma" siyasəti çərçivəsində bütün sahələrdə başlanmış islahatlar kimi xarici siyasət sahəsindəki islahatlar da iflasa uğramışdır.

1988-ci ildən ölkə daxilində ideoloji mübarizə daha da kəskinləşməyə başladı. Siyasi dairələrdə baş verən parçalanmadan istifadə edən M.S.Qorbaçov qısa müddət ərzində partiya rəhbərliyində yüksək vəzifələr tutmuş şəxsləri istefaya göndərdi. Lakin M.S.Qorbaçovun həyata keçirmək istədiyi "islahatlar" inzibati-amirlik sistemində yeni demokratik təfəkkürlü idarəetməyə keçid əvəzinə, mərkəzdənqaçma meyillərini gücləndirdi. Kommunist partiyasının sıralarını tərk edənlərin sayı durmadan artdı. 1989-cu ildə partiyanın sıralarını tərk edənlərin sayı 140 min, 1990-cı ildə isə 2,7 mln. nəfər təşkil etdi.

SSRİ-nin inzibati ərazisinə 15 müttəfiq respublika, 20 muxtar respublika, 8 muxtar vilayət, 10 milli dairə, 129 vilayət və diyar daxil idi. Şübhəsiz ki, SSRİ dövləti imperiya olmuş və öz tərkibində cəmləşdirdiyi bütün millət və xalqları işğal altında saxlayaraq suverenlik hüquqlarını buxovlamışdı. 1980-ci illərin ortalarından sovet idarəetmə sistemindəki böhranın dərinləşməsi xalqların və millətlərin suverenlik meyillərinin yenidən dirçəlməsinə şərait yaratdı. Kütləvi şüur və siyasi elita səviyyəsində xalqların və millətlərin suverenliyə meyillənməsi prosesi çətin və konfliktlərlə müşahidə olundu. Buradakı çətinliyi və siyasi konfliktləri meydana gətirən ən böyük amil isə sovet idarəetmə sisteminin suverenlik meyillərini susdurmaq üçün inzibati amirliyi gücləndirməsi idi.

1980-ci illərin ortalarından SSRİ-nin iqtisadi, siyasi və mənəvi həyatının böhran və tənəzzül vəziyyətinə düşməsi bütün sovet xalqları kimi Qafqaz xalqlarının da mövcud rejimin mənəvi dayağı olan ehkamçı kommunist ideologiyasına inamını zəiflətmişdi. Artıq imperiya rəhbərlərinin cəlbedici çağırışlarına Qafqaz xalqlarının böyük bir hissəsi şübhə ilə yanaşırdı. Bütün bunlar isə Qafqaz xalqları arasında suverenlik meyillərini daha da gücləndirirdi.

SSRİ-nin süqutu ərəfəsində Qafqaz xalqları arasında suverenlik meyillərinin güclənməsini sovet idarəetmə sistemi narahat qəbul etməyə başlayır. Məhz buna görə dünyanın geopolitik xəritəsində özünəməxsus əhəmiyyətə malik olan Qafqazı itirməmək üçün Moskva burada onsuz da ağır olan ictimai-siyasi vəziyyəti daha da mürəkkəbləşdirir və nəyin bahasına olursa-olsun Qafqaz xalqlarının suverenlik meyillərinin qarşısını almağa cəhdlər göstərir. Öz növbəsində Qafqaz xalqları yüzilliklərlə arzu etdikləri suveren və azad yaşamaları xüsusunda olan hislərini qabarıq şəkildə bildirməyə başladılar. Sovet idarəetmə sistemi bu çıxışların istiqamətini dəyişdirmək və ümumilikdə Qafqazda xalqların suverenlik meyillərini susdurmaq üçün ilk növbədə erməni faktorundan istifadə etdi. Ermənilərin sovet idarəetmə sistemi üçün oyuncaq rolunu ifa etməyinin tarixi əsasları vardır. Belə ki, erməni xalqının tarixçilərindən biri olan Movses Xorenasi özünün "Ermənistanın tarixi" əsərində bu xalqın Assuriyadan Qafqaza gəlmə olma-

sını qeyd etmişdir. Digər tərəfdən, ermənilər Qafqazda yerləşdikdən sonra bu ərazidə mütəmadi ağalıq edən imperiyalara qulluq göstərərək burada yaşayan bütün xalqlara kifayət qədər xəyanət etmişlər. E.ə. VII əsrin əvvəllərindən eramızın II əsrinə qədər Əhəməni, Səlövki, Roma və Parfiyaya, eramızın III-IV əsrlərində Sasani, Bizans, VII-XV-əsrlərdən isə Ərəb xilafəti, səlcuq və monqollara xidmət edərək, öz maraqlarını təmin etmək üçün həmişə Qafqazda sabitliyin pozulmasına çalışmışlar. Rusiya imperiyasına göstərdikləri xidmətlərə görə də mükafatlandırılaraq, 1920-ci ildə azərbaycanlıların torpaqları hesabına dövlət qurumuna malik oldular. 29.11.1920-ci il tarixindən isə Ermənistan Sovet Sosialist Respublikası kimi fəaliyyət göstərməyə başladı. Tarix boyu xəyanətkar kimi tanınan və Qafqazın ümumi marağını öz boş və ağılsız maraqlarına satan ermənilər bu dəfə də sovet idarəetmə sisteminin ən aktiv siyasi oyuncağına çevrildilər. Qafqazda ən böyük respublika olan Azərbaycanda suverenlik meyillərinin artmasından təşvişə düşən imperiya sahibləri 1988-ci ildə erməni millətçilərini fəallaşdıraraq Azərbaycana qarşı torpaq iddiaları ilə çıxışlara təhrik etdilər. Şübhəsiz ki, Dağlıq Qarabağ və onun ətrafında baş verən xoşagəlməz hadisələr Qafqazın ümumi ictimai-siyasi ab-havasına öz mənfi təsirini göstərdi.

Digər tərəfdən, Qafqaz xalqlarının suverenlik meyillərinin güclənməsini şərtləndirən faktorlardan biri də bu xalqların iki yüz ilə yaxın bir müddət ərzində çar və bolşevik Rusiyası tərəfindən maddi və mənəvi hüquqlarının tapdalanmasına qarşı baş verən çıxışlar idi. Qafqazlılar tarix boyu onların üzərinə hərbi yürüş edən, işğal altında saxlayan, mədəni və mənəvi dəyərlərini heçə endirmək istəyən qüvvələrin əleyhinə qəhrəmancasına mübarizə aparmışlar. Burada yaşayan xalqlar XVIII-XIX əsrlərdən başlayaraq Qafqazı mərhələ-mərhələ ələ keçirən Rusiya imperiyasının da əleyhinə ciddi müqavimət göstərmişlər. Məhz bu səbəbə görə də Qafqazın avtoxton etnosları imperiya üsul-idarəsinin zorakı və eybəcər yollarla həyata keçirdiyi maddi və mənəvi təzyiqlərə məruz qalmışlar. 1817-1864-cü illərdə baş vermiş Qafqaz müharibəsi dövründə Rusiyanın işğalçılıq siyasətinə qarşı mübarizə aparan bir sıra Qafqaz xalqları onlara qarşı həyata keçirilən fiziki və mənəvi təqib siyasətinin nəticəsində öz ata-baba yurdlarını tərk etmişlər. Çar Rusiyasının Qafqaz xalqları əleyhinə apardığı repressiv tədbirləri görkəmli qafqazşünas alim E.Veydenbaum belə qiymətləndirmişdir: “Təbiət qafqazlılara yüksək səviyyədə istedad, qabiliyyət, igidlik və mərdlik bəxş etmişdir. Lakin Rusiya imperiyasının yeritdiyi etnik təmizləmə siyasətinin nəticəsində qafqazlılar xalqlar qəbiristanlığında uyumaqdadırlar”.

Şübhəsiz ki, sovet dönəmində də Qafqaz xalqları əleyhinə aparılan repressiyalar və deportasiyalar bu imperiyanın süqutu dövründə suverenlik meyillərinin artmasına ciddi təsir göstərdi. Milli mənliklərinə təcavüz edilmiş Qafqaz xalqları artıq öz tapdalanmış hüquqlarının bərpa edilməsi üçün şəraitin yarandığını dərk

edərək, fəallaşmağa başladılar. Sovet idarəetmə sistemi isə Qafqaz xalqlarına qarşı eyni siyasət yeritməmişdir. Burada yaşayan xalqlara münasibət onların imperiyaya göstərdikləri xidmətlərlə ölçülmüşdür. Misal olaraq istər çar Rusiyası, istərsə də bolşevik Rusiyası dönəmində ermənilərin bütün Qafqaz xalqlarından daha çox imtiyazlara və siyasi dəstəyə malik olduğunu göstərə bilərik. Mərkəzin ermənilərə olan isti münasibəti onların tarix boyu ümumi şəkildə Qafqaz xalqlarına qarşı etdikləri xəyanətlərin müqabilində baş vermişdir. Sovet imperiyasının dağılma ərəfəsində də Qafqaz xalqlarının azadlıq istəyinin susdurulması məqsədi ilə ermənilər siyasi oyuncağa çevrildilər. Geniş mənada desək, bu xalq yenə də tarix boyu böyük imperiyalar qarşısında göstərdiyi xəyanətkarlıq missiyasını təkrar etməyə başladı. Deməli, həmin dövr Qafqaz xalqlarının suverenlik meyllərinin qarşısının alınması üçün Kremlə daha çox xidmət göstərmiş etnoslardan istifadə edildi. Nəticə etibarı ilə sovet imperiyası qarşısında öz hüquqlarını tələb edən Qafqaz xalqları onunla qonşuluqda yaşayan digər xalq tərəfindən etnik münaqişələrə sövq edildi. Bütün bunlar isə ilk növbədə Kreml tərəfindən burada baş qaldıran suverenlik meyillərinin susdurulması məqsədini daşıyırdı.

1980-cı illərin axırlarından etibarən SSRİ-nin başqa bölgələrində olduğu kimi Qafqazda da ictimai-siyasi vəziyyət mövcud rejimin əleyhinə dəyişmişdi. Artıq Qafqazda SSRİ-nin onilliklərlə yeritdiyi təcrübə xarakterli ateizmləşmə, manqurtlaşma, beynəlmiləlləşmə siyasəti əleyhinə kütləvi çıxışlar başladı. Sovet idarəetmə sistemi ilk növbədə Qafqaz xalqlarının qədim və zəngin maddi, mənəvi dəyərlərini buxovladığı üçün xalqların mərkəzdənqaçma meyilləri gücləndi. Uzun müddət dini ayinlərini sərbəst şəkildə icra edə bilməyən Qafqaz xalqları SSRİ-nin süqutu ərəfəsində bu imkanı yenidən əldə etdi. Lakin dini maariflənmənin zəif olmasından istifadə edən Kreml sələfilik, vəhabilik və bu kimi digər islam adı altında pərdələnmiş təriqətlərin buraya nüfuz etməsinə şərait yaratdı. Polikonfessional region hesab olunan Qafqazda belə təriqətlərin yayılması nəticəsində dini ekstremizmin əsasları qoyuldu. Şübhəsiz ki, Qafqaz xalqları arasında dini ekstremizmin güclənməsi çökməkdə olan sovet imperiyası üsul idarəsinin mənafeyinə uyğun gəlirdi. Çünki bununla Moskva Qafqaz xalqlarının suverenlik meyillərinin istiqamətini dəyişir, repressiv tədbirlərə bəraət qazandırır və ən əsası, regionu əldə saxlamaq üçün islam faktorundan istifadə edərək Qərbə qarşı yönəldirdi. Bundan istifadə edən Moskva Qafqazda suverenlik meyillərini susdurmaq üçün vəziyyəti daha da ağırlaşdırırdı.

Bu regionda yaşayan xalqların uzun müddət dini dəyərlərdən kənar düşərək dinin həqiqi əsasları haqqında məlumatlarının olmaması isə ekstremist dini təriqətlərin Qafqazda yayılması prosesini genişləndirdi. 1980-ci illərin ortalarına qədər Çeçen-İnquş MSSR-də bir dənə də olsun məscid fəaliyyət göstərməmişdir. Bu isə burada yaşayan insanların dinin əsasları və ənənəvi islam haqqında səthi

məlumatlara malik olmasına gətirib çıxarmışdı. Sadəcə gündəlik ibadəti yerinə yetirmək isə dinin əsasları haqqında məlumata sahib olmanın göstəricisi kimi qiymətləndirilə bilməz. Məhz bu amil Çeçenistanda vəhabilik təriqətinin daha sürətlə yayılmasına səbəb oldu, hətta SSRİ dövləti süquta uğradıqdan sonra bu təriqət Qafqazda genişlənərək, regionda sülhü və təhlükəsizliyi pozan amillərdən birinə çevrildi.

Qafqazın ictimai-siyasi həyatında din amili həmişə əhəmiyyətli rollardan birini oynamışdır. Vəhabilik təriqətinin bu regionda geniş şəkildə yayılması isə ənənəvi islamı aradan çıxarırdı. Hələ SSRİ-nin dağılması ərəfəsində qısa müddət ərzində Qafqazda vəhabi təriqəti elə güclü surətdə yayılmışdı ki, hətta 1989-cu il mayın 13-də bir qrup vəhabi Maxaçqalada yerləşən Şimali Qafqaz ruhani idarəsinin binasını tutaraq, ruhani idarəsinin sədri müfti M.Qekkiyevi oradan qovmuş və bu idarənin fəaliyyətini dayandırmışdı. Bununla yanaşı, Qafqazda ənənəvi islama sədaqətli qalan qüvvələr də mövcud idi. Qafqaz müsəlmanlarının burada baş verən ictimai-siyasi proseslərə fəal şəkildə cəlb olunması məqsədi ilə 1990-cı ildə Həştərxanda ölkə müsəlmanlarının qurultayı keçirildi. Ancaq sonralar məlum oldu ki, SSRİ DTK-sı Qafqazda suverenlik meyillərinin susdurulması üçün gizli şəkildə qurultayın gedişatına müdaxilə edərək, ixtilaf yaradan məsələləri ortaya atmışdır.

Ümumiyyətlə, M.S.Qorbaçovun həyata keçirdiyi uğursuz islahatlar bütün ölkədə olduğu kimi Qafqazda da sovet quruluşunun siyasi təşkilatçılığının məhdudluğunu, demokratik dəyərlərin yoxluğunu əyani şəkildə nümayiş etdirdi. Xalqların demokratiya və suverenlik meyillərini reallaşdırmaq istiqamətində apardığı mübarizələr isə süni şəkildə radikallaşdırıldı.

Qafqaz xalqlarının suverenlik meyillərinin artması, heç şübhəsiz ki, onların təbii hüquqlarının bərpası məqsədini də güdürdü. "Yenidənqurma" siyasəti başlığı altında həyata keçirilən siyasi və iqtisadi islahatların uğursuzluğu bu regionun iqtisadi gücünü dayanmadan aşağı salırdı. Təkcə Şimali Qafqazda sənaye istehsalı 4,5 %-dən 3,1%-ə enmişdi. Yeddi il müddətində buğda istehsalı 22%-dən 10,8%-ə, tərəvəz istehsalı 15,6%-dən 10,3%-ə, kapital yatırımı isə 7,6%-dən 5,5%-ə qədər azalmışdı. SSRİ-nin başqa regionlarında olduğu kimi Qafqazda da vahid nəqliyyat, iqtisadiyyat və mədəniyyət sistemi dağılmışdı. İqtisadi vəziyyətin durmadan tənəzzülə istiqamətlənməsi ictimai-siyasi vəziyyətə də öz təsirini göstərirdi. Belə ki, iqtisadi baxımdan mərkəzlə başqa müttəfiq respublikalar arasında zəifləyən əlaqələr mərkəzdənqaçma və suverenlik meyillərini durmadan artırırdı.

Cənubi Qafqazda yerləşən üç respublika ilə yanaşı, Şimali Qafqaz respublikalarında da mövcud olan suverenlik meyilləri Moskvanın narahatçılığını daha da artırırdı. Çünki Şimali Qafqazda yerləşən muxtar respublikalar Rusiya Fede-

rasiyasının ərazisi hesab olunurdu. Burada azadlıqsevər səslərin baş qaldırması isə Rusiya dövlətçiliyini təhlükə altına salırdı. Məhz buna görə də 1980-ci illərin axırlarında Adıgey Respublikasında suverenlik meyillərinin artması faktını Moskva "etnokratiya", "separatizm" kimi qiymətləndirdi. Şübhəsiz ki, Moskva Qafqazda baş verən suverenlik meyillərinə qarşı düzgün və sağlam siyasət yeritmirdi. Burada mövcud olan etnoslara və milli muxtariyyətlərə qarşı inzibati amirliyi azaltmaq, milli siyasətdə daha liberal mövqe seçmək əvəzinə, Moskva hökuməti suverenlik meyillərinə cavab olaraq, daha sərt addımlar atmağı və inzibati amirlik sistemini gücləndirərək, hər bir etiraz cəhdini dəf etməyi, hər bir vətənpərvərlik və milli hüquqlarının tələb ifadəsini "qızışdırıcı" amil kimi qiymətləndirməyi üstün tutdu.

## MİLLİ MÜNASİBƏTLƏRDƏ GƏRGİNLİYİN ARTMASI

Sovet imperiyasının tərkibində 15 respublika – Azərbaycan, Ermənistan, Gürcüstan, Belarusiya, Qazaxıstan, Özbəkistan, Tacikistan, Qırğızıstan, Türkmənistan, Latviya, Litva, Estoniya, Moldaviya, Ukrayna və Rusiya Federativ Respublikası mövcud idi. SSRİ-nin əhalisi 270 mln. nəfər təşkil edirdi. Burada 140 millətin nümayəndəsi yaşayırdı. Yenidənqurma siyasətinin başlanması ilə respublikalar arasında olan münasibətlərdə ciddi dəyişikliklər baş verdi. Sovet imperiyası bu respublikaları işğal etməmişdən əvvəl bunların arasında mövcud olan ziddiyyətlər yenidən baş qaldırdı. Qeyd etmək lazımdır ki, bir imperiyanın tərkibində yaşamalarına baxmayaraq, respublikaların hamısı eyni səviyyədə inkişaf etməmişdi. Sovet idarəetmə sistemində olan böhran və tənəzzülün genişlənməsi, kommunist partiyasının nüfuzunun aşağı düşməsi və SSRİ tərkibində yaşayan millətlərin suverenlik meyillərinin güclənməsi ilə milli münasibətlərdə gərginliyin artması prosesi başladı. M.S.Qorbaçovun yeritdiyi uğursuz "aşkarlıq" siyasəti nəticəsində milli münasibətlər sahəsində onilliklərlə üst-üstə yığılmış problemlər qabarıq şəkildə özünü göstərmiş oldu.

Hər şeydən öncə Stalin rejimi tərəfindən zorla deportasiya edilmiş xalqların hüquqlarının tapdalanması faktı üzə çıxarıldı. Belə olan halda almanlar, Krım tatarları, Axıska türkləri və digər deportasiyaya məruz qalmış xalqlar özlərinin reabilitasiya olunmaları haqqında tələblər irəli sürdülər. Sovet idarəetmə sistemi isə bu tələbləri yerinə yetirmək əvəzinə bunların hamısını millətçilik zəminində separatizmin başlanması kimi qiymətləndirərək, zorakı üsullarla millətlərin azadlıq səslərini boğmağa cəhd göstərdi.

SSRİ ərazisində milli münaqişələrin baş verdiyi ən gərgin ocaq Qarabağ münaqişəsi oldu. Sovet idarəetmə sisteminin qeyri-obyektiv tədbirlərinə və xüsusilə də M.S.Qorbaçovun ermənipərəst təfəkkürünə arxayın olan Qarabağda azlıq təşkil edən ermənilər 1987-ci ilin oktyabr ayında Qarabağın Ermənistan Respublikasına birləşdirilməsi tələbi ilə çıxış etdilər. 1988-ci il fevralın 20-də isə Qarabağ erməniləri Azərbaycan SSR Ali Sovetinə Dağlıq Qarabağ muxtar vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi tələbi ilə müraciət etdilər. Təbii olaraq, Azərbaycan SSR Ali Soveti ermənilərin əsassız tələblərini rədd etdikdə ermənilərin Azərbaycan torpaqlarına təcavüzləri genişlənərək milli münaqişə zəminində müharibəyə çevrildi. Mərkəz isə bütün bunların qarşısını almaq əvəzinə erməniləri dəstəkləyərək, münaqişənin miqyasını daha da genişləndirmiş oldu.

Milli zəmində münaqişələr SSRİ-nin başqa ərazilərində də baş qaldırırdı. 1989-cu il iyunun 3-də mərkəzin hazırladığı gizli planlar əsasında Fərqanədə özbəklərlə Axıska türkləri arasında münaqişə baş verdi. Münaqişə nəticəsində 100 nəfərə yaxın Axıska türkü vəhşicəsinə qətlə yetirildi. Vaxtilə min bir əzabla deportasiya edilmiş Axıska türkləri bu dəfə milli münaqişənin qurbanına çevril-

dilər. Bu hadisələrdən bir gün sonra özbəklərlə qırğızlar arasında milli zəmində münaqişə baş verdi. Bu münaqişə nəticəsində isə 180 insan qətlə yetirildi. 1989-cu il iyulun 15-də isə 20 nəfərin ölümü ilə nəticələnən gürcü-abxaz qarşıdurması baş verdi. Ümumilikdə 1989-90-cı illərdə mərkəzin təhriki ilə Sumqayıt, Bakı, Suxumi və Düşənbədə baş vermiş xoşagəlməz hadisələr artıq SSRİ-nin milli münaqişələr ocağına çevrildiyini əyani şəkildə nümayiş etdirməkdə idi. Əslində baş verən hadisələrin əsas səbəbi xalqların və millətlərin suverenlik meyillərinin artması ilə bağlı idi. Belə ki, bu meyillərin yatırılması üçün sovet idarəetmə sistemi milli münaqişələri qızışdırırdı. Nəticədə isə suverenliyini tələb edən hər hansı bir sovet xalqı onun qonşuluğunda yaşayan xalq tərəfindən torpaq iddiaları ilə üzləşirdi. Bu işdə isə sovet idarəetmə sistemi kiçik etnosları alətə çevirərək, ondan istifadə edirdi. Məqsəd, qeyd etdiyimiz kimi, suverenlik və müstəqillik tələbi ilə çıxış edən xalqlar üçün yeni-yeni problemlər yaratmaq və bu meyillərin istiqamətini dəyişməkdən ibarət idi.

Sovet imperiyasının işğalı altında yaşayan millətlərin suverenlik meyillərini milli münaqişələrlə zəyiflətməsi prosesində xarici qüvvələr də kifayət qədər rol oynayırdılar. Əgər sovet idarəetmə sisteminin bu işdə məqsədi millətləri parçalayaraq öz hökmünü gücləndirmək idisə, əksinə, xarici qüvvələrin məqsədi SSRİ ərazisini milli münaqişələr və konfliktlər ocağına çevirərək, imperiyanın süqutunu tezləşdirmək idi.

Çeçen-İnquş Muxtar Respublikasının tərkibindən çıxdığını elan edən Çeçenistanda isə vəziyyət daha mürəkkəb şəkil aldı. Çeçenistanda və Şimali Qafqazın başqa bölgələrində baş qaldıran münaqişələr nəticəsində Şimali Qafqaz milli münaqişə ocağına çevrildi. Ümumilikdə SSRİ-də baş verən əsas siyasi və etnosiyasi konfliktlər aşağıda göstərilən cədvəldəki kimi səciyyələndirilmişdir.

| **Konfliktin başvermə yeri və tarixi** | **Münaqişənin növü** | **İnsan tələfatının sayı** |
|---|---|---|
| Alma-Ata (Qazaxıstan), 1986 | Qazax gənclərinin öz milli hüquqlarını tələb etmələri | 10 nəfər |
| Dağlıq Qarabağ münaqişəsi, 1988 | Ermənilərin azərbaycanlılara qarşı apardığı etnik təmizləmə siyasəti, ərazi iddiası və etnik qarşıdurma | Münaqişənin başladığı ilk aylarda 100 nəfər. (Münaqişə hələ də davam edir) |
| Sumqayıt, 1988 | Moskvanın dəstəyi ilə ermənilərin pərdələnmiş şəkildə törətdiyi etnik qarşıdurma | 32 nəfər |
| Kuvasay, Komsomolski, Taşla, Fərqanə (Özbəkistan), 1989 | Etnik qarşıdurma (Axıska türklərinin özbəklər tərəfindən fiziki təzyiqə məruz qalması) | 112 nəfər |

| | | |
|---|---|---|
| Yeni Uzən (Qazaxıstan), 1989 | Etnik qarşıdurma (qazaxlarla qafqazlılar arasında) | 4 nəfər |
| Abxaziya (Gürcüstan), 1989 | Etnik qarşıdurmaya çevrilən siyasi qarşıdurma | Münaqişənin başladığı ilk aylarda 12 nəfər |
| Oş (Qırğızıstan), 1990 | Etnik qarşıdurma (qırğız və özbək xalqı arasında) | 320 nəfər |
| Dubossar (Moldova), 1990 | Siyasi qarşıdurma | 3 nəfər |
| Cənubi Osetiya (Gürcüstan), 1990 | Etnik qarşıdurmaya çevrilən siyasi qarşıdurma | Münaqişənin başladığı ilk aylarda 50 nəfər |
| Düşənbə (Tacikistan), 1990 | Siyasi qarşıdurma | Münaqişənin başladığı ilk aylarda 30 nəfər |

Əsası SSRİ-nin süqutu dövründə qoyulan, lakin süquta uğradıqdan sonra baş vermiş siyasi və etnosiyasi münaqişələr isə bu cədvəldəki kimi səciyyələndirilməkdədir.

| **Konfliktin başvermə yeri və tarixi** | **Münaqişənin növü** | **İnsan tələfatının sayı** |
|---|---|---|
| Osetin-İnquş (Şimali Qafqaz), 1992 | Ərazi iddiası və etnik qarşıdurma | 583 nəfər |
| Dnestyanı (Moldova), 1992 | Ərazi iddiası, siyasi və etnik qarşıdurma | Münaqişənin başladığı ilk aylarda 200 nəfər (Münaqişə hələ də davam edir) |
| Tacikistan Respublikası, 1992 | Ölkənin daxilində vətəndaş qarşıdurması | 300 nəfər |
| Çeçenistan Respublikası, 1994-1996 | Siyasi və etnik qarşıdurma | 60 min nəfər |

Milli münasibətlərdəki gərginliyin eskalasiyası son nəticədə qanlı münaqişələrə çevrilir. Buna misal olaraq Dağlıq Qarabağ və onun ətrafında, Sumqayıt, Fərqanə və Oşda baş vermiş qanlı hadisələri göstərmək olar. Qafqaz və Orta Asiyadan dərhal sonra Dnestryanı, Şimali Qafqaz və Krım da etnik münaqişələr ocağına çevrilir. 1988-ci ildən 1991-ci ilə qədər keçmiş sovet respublikalarında etnik zəmində 150 münaqişə baş vermişdir ki, bundan 20-si minlərlə insan tələfatı ilə nəticələnmişdir.

## SSRİ RƏHBƏRLİYNİN QAFQAZ SİYASƏTİ

Qafqazda bir neçə onilliklər ərzində üst-üstə toplanmış ictimai-siyasi sahələrdəki çətinliklər daha da mürəkkəb şəkil aldı. Dövlətlərarası münasibətlərdəki inamsızlıq, fikir ayrılığı siyasi və hərbi ixtilaflara gətirib çıxardı. Qafqazda etnik zəmində baş verən ixtilaflar, qarşılıqlı inamsızlıq çoxdan bəri müşahidə olunan millətlərarası gərginliyi daha da kəskinləşdirdi və təhlükəli şəkildə fəlakətli həddə sürükləndi.

Beynəlxalq hüququn qəbul etdiyi normalara müvafiq olaraq, dövlətlərin sərhədləri toxunulmaz hesab olunmaqdadır. SSRİ-nin dağılması ərəfəsində Qafqazda ictimai-siyasi vəziyyət bu müqavilənin, yəni beynəlxalq hüququn əleyhinə işləməyə başladı. XX əsrin 80-ci illərindən başlayaraq Qafqaz regionunda ictimai-siyasi vəziyyət əməkdaşlıq siyasəti üzərində deyil, ixtilaflar üzərində qurulmağa başladı. Belə ki, ictimai-siyasi vəziyyət həlli mürəkkəbləşən etnik və ərazi münaqişələri, konfessional və geosiyasi ziddiyətlərlə səciyyələnməyə başladı.

Qafqaz dünyanın polietnik və polikonfessional regionlarından olduğu üçün Moskva burada ictimai-siyasi vəziyyəti asanlıqla pozmağa nail ola bilirdi. Məhz bu səbəbə görə də 1980-ci illərin axırlarında Moskva tərəfindən Qafqazda etnik zəmində separatizm melləri süni şəkildə qızışdırılmağa başlanır.

SSRİ imperiyasının süqutu ərəfəsində Dağlıq Qarabağ və gürcü-abxaz münaqişələri beynəlxalq aləmdə böyük əks-səda yaradaraq, Qafqazda ictimai-siyasi vəziyyəti gərginləşdirmiş oldu. Moskva ermənilərin milli-azadlıq hərəkatı adlandırdıqları Azərbaycana qarşı olan separatçı mövqelərini gücləndirməyə başladı. Erməni separatizminin və Dağlıq Qarabağda milli münaqişənin qızışdırılması məqsədi ilə Moskva hər şeydən öncə, uzun müddət Azərbaycan KP MK-nin birinci katibi və o dövrdə SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini işləmiş Heydər Əliyevin siyasi səhnədən uzaqlaşdırılması üçün geniş şəkildə siyasi şantaj kampaniyasına rəvac verdi. Bu məqsədlə mərkəz Heydər Əliyevə qarşı təkcə Moskvada deyil, eyni zamanda Azərbaycanda da müxalif qüvvələr yaratdı. İlkin mərhələdə Heydər Əliyevin güclü siyasi xadim nüfuzuna malik olmasından ehtiyat edən Mixail Qorbaçov və onun komandası ermənilərin böyük dəstəyi ilə onu siyasi səhnədən uzaqlaşdırmağa nail ola bildilər. Təəssüfləndirici məsələ bundan ibarətdir ki, Heydər Əliyevin tutduğu bütün vəzifələrdən uzaqlaşdırılması prosesində ömrünün böyük bir hissəsini rifahı və əmin-amanlığı üçün çalışdığı Azərbaycan Respublikasından iştirak edən qüvvələr də olmuşdur. Şübhəsiz ki, bunların hamısı siyasi səriştəyə malik olmayan Kamran Bağırovun respublikaya rəhbərlik etdiyi dövrdə əmələ gəlmiş mafioz qrupların əməlləri idi. Məhz onların və respublikada yaşayan ermənilərin Heydər Əliyev barəsində Moskvaya yazdıqları böhtan xarakterli məktublar bu böyük siyasi xadimin tutduğu vəzifələrdən azad edilməsi prosesində mühüm rol oynamışdı. Ancaq bütün bunlara baxmayaraq, Heydər Əliyev o

qədər böyük siyasi nüfuza malik bir şəxsiyyət idi ki, M.Qorbaçov SSRİ-yə rəhbərlik etməsinə baxmayaraq, onu heç bir sərəncamla tutduğu vəzifələrdən azad etməyə cəsarət etməmişdir. Yalnız ona və yaxınlarına qarşı aparılan amansız və təhlükəli təqiblərdən sonra Heydər Əliyev 1987-ci ilin yayında öz ərizəsi ilə istefa vermək məcburiyyətində qalmışdı.

Hələ 1985-ci ilin dekabrında Afinada keçirilən Daşnak partiyasının XXIII qurultayında daşnak liderləri Heydər Əliyevi öz planlarının həyata keçirilməsi yolunda ən böyük maneə kimi qiymətləndirmişdilər. Məhz bu səbəbə görə də Heydər Əliyevin siyasi səhnədən uzaqlaşdırılmasından 21 gün sonra ermənilər Moskvanın qarşısında tələb irəli sürərək, Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etməyə başladılar. Heydər Əliyevin istefaya getdiyi 1987-ci ilin noyabrında isə Parisdə rəsmi səfərdə olan A.Aqanbekyan bütün dünya ictimaiyyətı qarşısında ermənilərin Qarabağ hərəkatında haqlı olduqlarını bəyan etdi. Şübhəsiz ki, A.Aqanbekyanın vasitəsi ilə Moskva eyni zamanda dünya ictimaiyyəti qarşısında bu məsələdə öz mövqeyini açıq şəkildə bildirirdi. Azərbaycana qarşı böyük kampaniya başlanması üçün isə Moskva ermənipərəst qüvvələrin separatçı mövqelərinin möhkəmləndirilməsi və genişlənməsi məqsədilə onlara Rusiya mətbuatında geniş yer ayırmış oldu. Azərbaycana qarşı tətbiq olunan informasiya blokadası isə Azərbaycan xalqının ədalətli mövqeyini zəiflətdi.

Dağlıq Qarabağda ermənilərin etnik separatizminin qızışdırılması məqsədi ilə Moskvada ermənilərin "Milli müqəddəratın müstəqil təyini üzrə erməni Komitəsi" yaradılır. İlkin mərhələdə erməni separatizminin, daha sonra isə Dağlıq Qarabağda baş verən milli münaqişənin qızışdırılması üçün Moskva bu mənfur Komitənin fəaliyyətinin genişləndirilməsi üçün hər bir şərait yaradır. 1988-ci il martın 23-də isə guya Sovet rejiminin əleyhdarı olan və bu rejim tərəfindən dissident adlandırılan A.D.Saxarov M.S.Qorbaçova məktub göndərərək, Dağlıq Qarabağın ermənilərin tarixi torpaqları olduğunu bildirir. Qeyd etmək lazımdır ki, hələ 1975-ci ildə A.D.Saxarovun arvadı Yelena Bonner-Əlixanyanın Nyu-Yorkda nəşr etdirdiyi "Ölkə və sülh haqqında" kitabında "ermənilərin Azərbaycanda və Gürcüstanda vəhşi irqi ayrı-seçkilik obyektinə çevrilmələrini bildirmişdir". Öz növbəsində Moskva hökuməti Dağlıq Qarabağın ermənilərin tarixi torpaqları olması haqqında söylənən əsassız fikirləri açıq şəkildə müdafiə etməyə başladı. Bu məqsədlə həyata keçirilən tədbirlərdən biri də Dağlıq Qarabağ ermənilərinin bu ərazilərə gəlmə olması faktını aşkar şəkildə nümayiş etdirən və ermənilər tərəfindən 1978-ci ildə Mardakert (indiki Ağdərə) rayonunda İranın Marağa əyalətindən Qarabağa köçüb gəlmələrinin 150 illiyi şərəfinə ucaltdıqları böyük abidə komleksinin 1988-ci ildə özləri tərəfindən uçurdularaq yox edilməsinə Moskva şərait yaratdı.

Moskva Dağlıq Qarabağda baş verən xoşagəlməz proseslərdə erməni separatizmini gücləndirməklə yanaşı, özünü bu məsələdə ədalətli mövqedə dayanan bir qüvvə kimi göstərirdi. Buna misal olaraq, M.S.Qorbaçovun 1988-ci il fevralın

23-də erməni və Azərbaycan xalqına etdiyi müraciəti, 1988-ci il martın 24-də Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin "1988-1995-ci illərdə Azərbaycan SSR-də DQMV-nin sosial-iqtisadi inkişafını sürətləndirmək tədbirləri haqqında" və 1988-ci il iyun ayının 18-də SSRİ Ali Soveti Rəyasət Heyətinin mövcud ixtilafların hər iki xalqın mənafeyinə uyğun şəkildə həll edilməsi haqqında qəbul edilmiş qərarları göstərmək olar. Bu qərarların qəbul olunmasının əsas səbəbi Moskvanın öz riyakar siyasətini pərdələməsindən ibarət idi. Məhz buna görə də qərarların heç bir əhəmiyyəti olmadı.

Erməni separatizmini daha da qızışdırmaqla öz zəifləməkdə olan dayaqlarını Qafqazda möhkəmləndirmək məqsədi ilə Moskva Ermənistan və Azərbaycan respublikalarında hakimiyyət dəyişikliyi apardı. Azərbaycanda K.Bağırovu milli keyfiyyətlərdən uzaq olan Ə.Vəzirov əvəz etdi. Moskvanın təhriki ilə iyun ayının 21-də DQMV Xalq Deputatları Sovetinin sessiyası vilayətin Ermənistan SSR-ə verilməsi məsələsini müzakirə etdi. Azərbaycan SSR Ali Sovetinin sessiyası bunun qeyri-qanuni, respublikanın hüquqlarına zidd olduğunu bildirdi. Ermənistan SSR Ali Soveti isə yenə kobudcasına Azərbaycanın daxili işlərinə qarışaraq, vilayəti öz tərkibinə qəbul etməyə razılıq verdi. Beləliklə, Moskva tərəfindən hər iki respublikada partiya rəhbərlərinin dəyişdirilməsi erməni separatizmini daha da genişləndirdi.

SSRİ Ali Soveti Rəyasət Heyəti SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə əsasən Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində Muxtar Vilayət statusunu saxlamaqla DQMV-də xüsusi idarə formasının tədbiq edilməsi haqqında qərar qəbul etdi. Həmin qərarla DQMV-də bilavasitə SSRİ-nin dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Moskva özünün sadiq əlaltısı olan Ə.Vəzirovla yanaşı, guya iki xalq arasında kompromisin yaradılması üçün fəaliyyət göstərən bu XİK-ə özünün səlahiyyətli nümayəndəsi kimi A.İ.Volskini təyin etdi. A.İ.Volski isə öz növbəsində, Moskvanın tapşırığı ilə erməni separatizminin qızışdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirərək, vəziyyəti gərginləşdirmək siyasəti yürütdü. A.İ.Volskinin yürütdüyü vəziyyəti gərginləşdirmək siyasətinin nəticəsində erməni separatçıları tərəfindən Stepanakertdə (Xankəndində) erməni bayrağı qaldırıldı, vilayətin bütün idarə və müəssisələri Azərbaycanın tabeliyindən çıxarıldı. Az sonra isə Dağlıq Qarabağdan azərbaycanlı əhalinin ermənilər tərəfindən kütləvi şəkildə qovulması prosesi başlandı.

Azərbaycanda başlanmış milli-azadlıq hərəkatına rəhbərlik edən qüvvələrin təkidli tələbi ilə 1989-cu il noyabrın 28-də SSRİ Ali Soveti Dağlıq Qarabağda vəziyyəti normal hala salmaq üçün XİK-in ləğv edilməsi və vilayətin idarə olunmasını SSRİ Ali Sovetinin xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR-in təşkilat komitəsinə tapşırılması haqqında qərar qəbul etsə də, Moskvanın erməni separatçılığına verdiyi dəstəyin nəticəsində dekabrın 1-də Ermənistan

SSR Ali Soveti “Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi haqqında” qərar qəbul etdi.

Moskva Azərbaycanın qanuni ərazisini ondan qoparıb Ermənistana birləşdirmək istəyən ermənilərin separatçılığına bəraət qazandırmaq üçün fevralın 28-də Sumqayıt fitnəkarlığının törədilməsində bilavasitə yardımçı rolunu oynadı. SSRİ DTK-nın təşəbbüsü ilə həyata keçirilən Sumqayıt faciəsi nəticəsində 32 nəfər həlak oldu, 200 mənzil qarət edildi. Onlarca ictimai bina, avtobus, şəxsi maşın yandırıldı. Bundan istifadə edən ermənilər isə baş vermiş faciənin nəticələrini ağlasığmaz uydurmalarla bəzəyərək beynəlxalq ictimaiyyətdə azərbaycanlılara qarşı mənfi rəy yarada bildilər.

Moskva erməni separatizmini qızışdıraraq milli münaqişə ocağı yaratmaq məqsədi ilə erməni vandallarını silahlandırmağa başladı. Silahlandırma prosesi guya ermənilərin silah ələ keçirmək məqsədi ilə sovet ordusunun hərbi hissələrinə hücum və basqınları adı altında həyata keçirildi. Əslində isə ermənilərin mütəmadi olaraq hərbi hissələrə hücumları nəticəsində silah əldə etməsi prosesinə Moskva tərəfindən etinasızlıq göstərilirdi.

Erməni quldur dəstələrinin mərkəz tərəfindən silahlandırılması bölgədə terror aktlarının törədilməsinə imkan yaratdı. 1990-1991-ci illərdə Moskva-Bakı sərnişin qatarlarında, Tbilisi-Bakı, Bakı-Ağdam, Ağdam-Şuşa, Ağdam-Xocalı marşrutları üzrə hərəkət edən avtobuslarda yüzlərlə azərbaycanlının həyatına son qoymuş terror aktları həyata keçirildi.

Hadisələrin gedişatı regionda vəziyyətin sabitləşdirilməsi istiqamətində Moskvanın müsbət yönümlü tədbirlər həyata keçirmək niyyətində olmadığını aşkar şəkildə göstərirdi. Sovet İttifaqının hakim dairələrinin himayədarlığı nəticəsində qızışdırılan erməni separatçılığı Azərbaycana qarşı açıq-aşkar təcavüzkarlıq siyasətinin yeridilməsinə gətirib çıxartdı. Bunun nəticəsində isə erməni quldurları tərəfindən minlərlə dinc Azərbaycan əhalisi qətlə yetirildi, yaşayış məntəqələri talan və qarət edilərək yandırıldı. Hadisələrin mürəkkəbləşməsi nəticəsində isə Dağlıq Qarabağ milli münaqişə ocağına çevrildi və hər iki respublika müharibə vəziyyətində qarşı-qarşıya dayandı. Moskvanın erməni separatizmini dəstəkləməsi və o zamankı respublika rəhbərliyinin seyrçi mövqedə dayanması Ermənistanın Azərbaycana təcavüzünü genişləndirdi.

Bununla kifayətlənməyən Moskva Qafqazın ictimai-siyasi vəziyyətini daha da mürəkkəbləşdirmək üçün gürcü xalqının suverenlik meyillərinə cavab olaraq osetinləri və abxazları Gürcüstan Respublikasına qarşı torpaq iddiaları ilə çıxış etməyə təhrik etdi. SSRİ-nin dağılması ərəfəsində Moskvanın dəstəyi ilə Gürcüstanda iki milli münaqişə – gürcü-abxaz və gürcü-osetin münaqişələri baş verdi.

Abxaziya 1860-cı ildə Rusiya imperiyası tərəfindən işğal edilmiş, 1917-ci il inqilabından sonra suveren respublika kimi Zaqafqaziya Federasiyasına daxil olmuş, sovet imperiyasının tərkibində 1925-ci ildə qəbul olunmuş Abxaziya

Konstitusiyası ilə onun respublika statusu təsdiq edilmişdir. 1931-ci ildə isə Abxaziyanın respublika statusu muxtar respublika statusuna endirilmişdir.

Moskvanın təhriki ilə 1989-cu ildə Abxaziya MSSR-də yaranmış "Aydıqılara" adlanan Abxaz Xalqının Forumu təşkilatı separatist çıxışlara başladı. Bu təşkilat ilk öncə SSRİ-nin tərkibində müttəfiq respublika statusunun verilməsi tələbini irəli sürdü. Qeyd etmək lazımdır ki, bu təşkilatın əsasları 1970-ci illərin axırlarında qoyulmuşdur. 1978-ci ildən isə "Aydıqılara" adlanan Abxaz Xalqının Forumu təşkilatı Abxaziyanın Gürcüstan Respublikasının tərkibindən çıxaraq Rusiya Federasiyasına birləşdirilməsi məqsədi ilə kütləvi yığıncaqlar təşkil etmişdir. Bu fakt özü-özlüyündə hələ Moskvanın 1970-ci illərdən Abxaziya MSSR-də separatçılığın qızışdırılmasına şərait yaratdığını göstərir. 1989-cu ildən başlayan abxazların Gürcüstandan ayrılmaq istəyini də Moskva separatizmə çevirdi. Abxaziyada qızışdırdığı separatçılığı isə abxaz xalqının gürcü millətçiliyinin əleyhinə mübarizəsi kimi qələmə verdi.

1991-ci ilin mart ayında SSRİ-nin qalıb-qalmaması ilə bağlı keçirilmiş ümumittifaq referendumunda abxazlar SSRİ-nin vahid bir dövlət kimi mövcudluğuna səs verdilər. Bu hadisədən sonra Moskva gürcü-abxaz qarşıdurmasının qızışdırılması üçün abxazların gürcü millətçiliyinin obyektinə çevrilməsi haqqında təbliğat aparmağa başladı. Bu proseslərin başladığı ilkin mərhələdə gürcülər abxazların tələblərinə qarşı sərt mövqe göstərmədilər. Hətta Gürcüstanda milli-azadlıq hərəkatının genişlənməsi nəticəsində respublika rəhbərliyinə gələn Z.Qamsaxurdiya abxazların yerli əhali olduqları üçün tələblərinə hörmətlə yanaşılmanın vacibliyini qeyd etdi. Bununla yanaşı, Gürcüstan Respublikasının Ali Sovetinə burada yaşayan abxazların sayı nisbəti ilə müqayisədə xeyli deputat yeri ayrılmış oldu. Lakin Moskva Dağlıq Qarabağla yanaşı, Qafqazda yeni milli münaqişə ocağının yaranması üçün abxazların öz hüquqlarının müdafiə olunması istiqamətindəki tələblərini separatçı çıxışlara çevirdi. Abxazların Gürcüstan Respublikasından ayrılaraq müstəqil bir dövlət kimi fəaliyyət göstərmələri istiqamətində separatçı çıxışlarını isə Moskva daha da qızışdıraraq vəziyyəti mürəkkəbləşdirdi. Təbii olaraq Gürcüstan hökumətinin baş qaldırmış bu separatçılığın qarşısının alınması üçün həyata keçirdiyi bir sıra inzibati tədbirlər abxazlarla gürcülər arasında milli münaqişəyə gətirib çıxardı. 1990-cı ilin əvvəllərində Gürcüstan və Cənubi Osetiya arasında genişlənmiş milli münaqişənin qızışdırılması prosesində də Moskvanın rolu vardır. Belə ki, SSRİ-nin süqutu ərəfəsində hakim dairələr tərəfindən guya Cənubi Osetiyada yaşayan osetinlərin rəsmi Tbilisi tərəfindən assimilyasiya siyasətinə məruz qalmaları haqqında məqalələr çap edilməyə başlandı. Bununla yanaşı, Cənubi Osetiyanın Şimali Osetiya ilə birləşdirilməsi məsələsi ortaya atılaraq, osetinlərin separatçılıq mövqeləri SSRİ-nin rəsmi dairələri tərəfindən dəstəkləndi. Moskvanın vəziyyəti gərginləşdirməsinin nəticəsində isə 1980-ci illərin axırlarında Cənubi Osetiyada yaşayan osetinlərin etirazlarına və tələblərinə rəsmi Gürcüsta-

nın biganə və laqeyd yanaşmasını bəhanə gətirərək Cənubi Osetiya ərazisinin statusunun dəyişdirilməsi məsələsini gündəmə çıxardılar. Artıq Cənubi Osetiyada baş verən separatizmin qızışdırılması mərhələsinə start verildi. Separatizmin qızışdırılması istiqamətində Moskva tərəfindən dəstəklənən “Adamon nıxas” (Birlik) təşkilatı böyük rol oynamış oldu. Bu təşkilata başçılıq edən şəxslərin böyük əksəriyyəti mühafizəkar kommunistlərdən ibarət idi. 1990-cı ildə Cənubi Osetiya SSRİ-nin tərkibində özünün suverenliyini elan edərək Şimali Osetiya ilə birlikdə Rusiya Federasiyasının tərkibinə daxil olması istiqamətində hərəkətə başlayır. Moskva isə rəsmi olaraq özünü Gürcüstan Respublikasının ərazi bütövlüyünün təmin olunmasının tərəfdarı kimi aparsa da, Cənubi Osetiyada separatizmin qızışdırılmasında və məsələnin milli münaqişəyə çevrilməsində kifayət qədər rol oynayır.

Moskva tərəfindən SSRİ-nin süqutu ərəfəsində Qafqazda separatizmin və milli münaqişələrin qızışdırılması nəticəsində osetin-inquş və çeçen-rus qarşıdurması da meydana gəlmişdir. Qeyd etmək lazımdır ki, Moskva Qafqazda zəifləməkdə olan dayaqlarını möhkəmləndirmək üçün təkcə Qafqaz xalqlarını deyil, eyni zamanda rusların özünü də separatizmin və milli münaqişənin qurbanına çevirmişdir. Çeçen-rus müharibəsi nəticəsində istər çeçenlər, istərsə də rusdilli əhaliyə mənsub olan insanlar maddi və mənəvi təqiblərə məruz qalmış, minlərlə insan qətlə yetirilmişdir.

SSRİ-nin süqutu dövründə Dağıstanın etnik tərkibinin çoxluğundan istifadə edən rəsmi Moskva burada da separatizmin qızışdırılmasına nail oldu. 1990-cı ildə ləzgilərin Ləzgistan adlı müstəqil respublika yaratma tələblərinin radikallaşmasına imkan yaradan Moskva burada yaşayan 30-dan artıq milləti qarşı-qarşıya qoymağa cəhd göstərdi. Dağıstanda qızışdırılan separatizm təkcə Dağıstanda deyil, Azərbaycanda da mənfi proseslərin baş verməsinə gətirib çıxardı. Moskvanın təhriki ilə qızışdırılan ləzgi separatizminin liderləri tərəfindən yaradılmış “Sadval” təşkilatının Azərbaycana qarşı torpaq iddiası ilə çıxış etməsi əsasən Azərbaycan və ləzgi xalqları arasında qarşıdurma yaratmaq niyyətini daşıyırdı. Yalnız 1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı baş verəcək bu qarşıdurmanı neytrallaşdırdı.

Beləliklə, SSRİ-nin süqutu ərəfəsində Moskvanın havadarlığı ilə Qafqazda separatizmin qızışdırılması və milli münaqişə ocaqlarının yaradılması bu regionun bütün sahələrinə mənfi təsir göstərməklə yanaşı, imperiyanın dağılmasından sonra da beynəlxalq probleme çevrilmiş oldu.








"İSLAM SİVİLİZASİYASI QAFQAZDA" BEYNƏLXALQ SİMPOZİUMU
1998






Baku
Azerbaijan
Caspian
Iran



## SOVET İMPERİYASININ RƏHBƏRLİYİ TƏRƏFİNDƏN BAKIYA QOŞUN YERİDİLMƏSİ

Azərbaycanda baş qaldıran milli-azadlıq hərəkatı 1990-cı ildə daha geniş vüsət alaraq sovet idarəetmə rejimi üçün real təhlükəyə çevrilmişdi. Milli azadlıq hərəkatının güclənməsi sayəsində AXC böyük nüfuza malik olan siyasi qüvvə kimi bir çox bölgələrdə öz hakimiyyətini qurmağa nail olmuşdu. Bu isə respublikada ikihakimiyyətliliyin mövcudluğuna gətirib çıxarırdı. Moskvada öz növbəsində xalqa divan tutmaq üçün hərəkatın radikallaşmasına şərait yaratmağa başlayır. Bu istiqamətdə ilk addımı Moskvanın sadiq əlaltısı Azərbaycan SSR KP MK-nin birinci katibi Ə.Vəzirov atır. O, hərəkatı AXC-nin vasitəsi ilə radikallaşdırmaq üçün AXC liderləri ilə görüşlərinin birində “Gücünüzü göstərin, sizinlə hesablaşaq” deyir. AXC liderlərinin böyük bir hissəsi Ə.Vəzirovun bu sözlərindən ilham alaraq, milli-azadlıq hərəkatını vəzifə tutmaq üçün vasitəyə çevirməyə cəhd göstərir. Elə bu səbəbə görə də AXC-nin daxilində parçalanma başlayır. Hərəkatın radikallaşmasının əleyhinə olan AXC üzvlərinin bir hissəsi digərləri tərəfindən xalqa xəyanətdə, qətiyyətsizlikdə təqsirləndirildi. Sovet imperiyasının Bakıya qoşun yeritməsinə şərait yaratmaq üçün AXC liderlərinin böyük bir hissəsi 1989-cu il dekabrın 9-da idarə heyətinin buraxılmasına razılıq verdi. Buraxılmış AXC-nin idarə heyətinin səlahiyyətlərini yerinə yetirmək üçün isə beş nəfərdən ibarət müvəqqəti təşkilat qrupu seçildi.

Dağlıq Qarabağ və onun ətrafında baş verən xoşagəlməz proseslərə respublika və Moskva hakimiyyətinin biganə və laqeyd yanaşması xalq hərəkatını daha da radikallaşdırdı. 1989-cu il dekabrın 8-də Azərbaycanın cənub regionunda vəziyyət mürəkkəbləşməyə başladı. Xalq hərəkatını susdurmaq məqsədi ilə hərəkətə gətirilən inzibati orqan işçilərinin böyük bir hissəsi xalqa güc tətbiq etməyərək onun tərəfinə keçdi. Bu məqsədlə dekabrın 27-də cənub regionuna, xüsusilə də Cəlilabada Bakıdan gətirilmiş milis dəstələri tərəfindən kütləvi həbslər keçirildi. Mərkəz bu tədbirləri həyata keçirməklə hərəkatı daha da radikallaşdırdı. Məhz bu səbəbə görə də müxtəlif rayonlarda qəzəblənmiş kütlə tərəfindən rayon partiya komitəsinin, daxili işlər şöbəsinin binalarına hücumlar edildi. Təkcə cənub regionunda bu istiqamətdə baş verən hadisələr nəticəsində 150-dən çox adam yaralandı və bir neçə inzibati bina dağıdıldı.

Cənubi Azərbaycanda yaşayan qan qardaşları, qohumları ilə mədəni və iqtisadi əlaqələrin, gediş-gəlişin bərpa olunması məqsədi ilə 1989-cu il dekabrın 31-də saat 13-də Araz çayı boyu 137 km-lik Sovet-İran sərhədində, 1990-cı il yanvarın 7-də isə SSRİ-Türkiyə sərhədində sərhəd qurğuları xalq tərəfindən dağıdıldı.

Moskva bütün bunları bəhanə edərək azadlıq əldə etmək istəyən xalqa divan tutmağa hazırlaşdığı üçün bir çox hadisələrin baş verməsinə özü imkan və şərait yaradırdı. Bununla da Moskva öz istəyinə nail olaraq, xalqı daha da radikallaşdırmağa nail oldu.

Moskvanın Azərbaycana qoşun yeritməsinə bəhanə olan səbəblərdən biri də AXC Milli Müdafiə Şurasının yaradılması idi. Əslində bu şuranın yaradılmasında məqsəd silahlı özünümüdafiə dəstələrini birləşdirərək erməni hərbi birləşmələrinin hücumlarının qarşısını almaq idi. Moskva isə bunu hökumət əleyhinə silahlı dəstə yaradılması kimi qiymətləndirdi. Şübhəsiz ki, bütün bunlar Moskva üçün Azərbaycana qoşun yeritməyə bəhanə kimi kifayət etmirdi. Məhz bu səbəbə görə SSRİ DTK-sı tərəfindən hazırlanmış ssenari üzrə, Bakıda bir erməni tərəfindən iki azərbaycanlı qətlə yetirildi. Bunun nəticəsində yanvarın 13-də azərbaycanlılar iki azərbaycanlının öldürülməsinə cavab olaraq şəhərin müxtəlif yerlərində erməniləri təqib etməyə başladılar. Yanvarın 15-də baş vermiş bu özbaşınalığın qarşısının alınmasına baxmayaraq, məsələni daha da şişirtmək üçün Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müraciəti əsasında SSRİ Ali Soveti Rəyasət Heyəti "DQMV-də fövqəladə vəziyyətin elan olunması haqqında" fərman verdi, Bakı və Gəncə şəhərlərində qadağan saatlarının tətbiq edilməsi üçün Azərbaycan SSR Ali Sovetinə təkliflə müraciət etdi. Moskvanın xalqa divan tutması üçün hazırladığı bəhanələri yaratmaqda isə respublika rəhbərliyi öz "xidmətini" əsirgəmədi. Geniş mənada desək, respublika rəhbərliyi bu istiqamətdə Moskvanın bütün göstərişlərini yerinə yetirməklə məşğul idi. Beləliklə, respublikada hakimiyyət böhranının yaranacağı və kommunist rejiminin devriləcəyi bəhanəsi ilə imperiya Bakı ətrafına əlavə qoşun hissələri, ağır texnika gətirməyə başladı. 1988-ci ildən başlayaraq vəziyyəti sabitləşdirmək adı ilə Bakıya xeyli sayda qoşun hissələri gətirilmişdi. Belə ki, Bakıda 110 min nəfərdən ibarət sovet hərbi kontingenti olduğu halda, əlavə 66 min əsgər və zabit heyəti də bura göndərildi.

Sovet imperiyası tərəfindən Bakıya yeridilən 66 minlik qoşunun tərkibində Stavropoldan, Krasnodardan və Rostovdan səfərbər edilmiş kifayət qədər erməni zabitləri var idi. Bundan başqa, hərbi kontingent Bakıda həyata keçirəcəyi əməliyyatı tam şəkildə yerinə yetirmək üçün psixoloji hazırlıq keçmişdi. "Şit" adlı müstəqil hərbi ekspertlər təşkilatının hesabatında qeyd olunurdu ki, Bakıya yeridilən əsgərlərə azərbaycanlıların rusları vəhşicəsinə qətlə yetirməsi və onların rusları müdafiəsi üçün buraya gətirilməsi təbliğatı aparılmışdı. Bu istiqamətdə aparılan təbliğatın daha da inandırıcı olması üçün həmin günlərdə hərbi komendantlıq hərbi qulluqçuların ailələrini onların təhlükəsizliyini təmin etmək məqsədi ilə köçürməyə başladı. Əslində isə buna heç bir ehtiyac yox idi. Çünki azərbaycanlılar tərəfindən rusdilli əhaliyə qarşı heç bir təhlükə yaradacaq addım

atılmamışdı. Bundan başqa, əsgərlərə guya AXC-nin silahlı dəstələri tərəfindən 110 nöqtə yaradılması, mitinqçilərin böyük bir hissəsinin odlu silahlara malik olması və yerli əhalinin onlara qarşı silahla müqavimət göstərəcəyi haqqında yalan məlumatlar verilmişdi. Bu kimi yalan təbliğatların aparılması, bir tərəfdən, əsgərləri aqressivləşdirmək, digər tərəfdən isə Bakıya qoşun yeridilməsinin vacibliyi haqqında beynəlxalq ictimaiyyətdə rəy yaratmaq məqsədi güdürdü.

AXC MMŞ-nin göstərişi ilə şəhər əhalisi yük, minik maşınlarını, avtobus və trolleybusları yan-yana düzərək, barrikadalar qurmağa başladı. Barrikadalar əsasən Bakı qarnizonu hissələrinin ətrafında quruldu. Salyan kazarmasının yolu isə tamamilə kəsildi. AXC liderləri özlərinin bu hərəkətləri ilə Moskvanın xalqa divan tutmasına şərait yaratmış oldular. Moskva isə özünü daha liberal göstərmək üçün SSRİ Ali Sovetinin deputatı Y.Primakovu və A.Girenkonu guya vəziyyəti hərbi müdaxilə olmadan stabilləşdirmək üçün Bakıya danışıqlar aparmağa göndərdi. Bakıda AXC liderləri ilə danışıqlar aparan Moskvanın hər iki emissarı danışıqların müsbət nəticə verməməsi qənaəti ilə geriyə döndülər. Şübhəsiz ki, bu hadisələrin baş verməsi üçün AXC-nin rolu Moskva ilə razılaşmamaq və hərbi müdaxilənin vacibliyini rəsmiləşdirməyə köməklik göstərməkdən ibarət idi.

Sovet qoşunlarının cinayətkar aksiyanı həyata keçirməsi istiqamətində planın hazırlanması məqsədilə M.S.Qorbaçov tərəfindən SSRİ müdafiə və daxili işlər nazirləri – D.Yazovla V.Bakatin qısamüddətli səfər çərçivəsində Bakıya göndərildilər.

Yanvarın 17-dən başlayaraq Azərbaycan KP MK-nın binası qarşısında keçirilən izdihamlı mitinqlərdə xalq tərəfindən Ermənistanın Azərbaycana ərazi iddialarına son qoyulması, imperiyanın Bakı ətrafında yığdığı qoşunların Dağlıq Qarabağda fiziki və mənəvi təqiblərə məruz qalan azərbaycanlıların müdafiəsinə göndərilməsi və xalqa xəyanət edən Ə.Vəzirovun istefa verməsi tələbləri irəli sürüldü. Naxçıvan MSSR Ali Soveti isə yanvarın 19-da xalqın tələbi ilə Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

Beləliklə, Moskva Azərbaycan xalqının milli-azadlıq hərəkatını süni yollarla radikallaşdıraraq, xalqa divan tutmaq üçün Bakıya qoşun yeridilməsinə münasib şərait yarada bildi.

## 20 YANVAR 1990-CI İL, QANLI BAKI QIRĞINI

1990-cı il yanvarın 19-da M.S.Qorbaçov SSRİ Konstitusiyasının 119-cu, Azərbaycan SSR Konstitusiyasının isə 71-ci maddələrini kobudcasına pozaraq, saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyətin tətbiq edilməsi haqqında" fərman imzaladı. Xalqa qəfildən divan tutmaq məqsədilə fövqəladə vəziyyətin elan olunduğu vaxt gizli saxlanıldı. Bir tərəfdən Moskvanın və respublikanın səlahiyyətli nümayəndələri, digər tərəfdən isə AXC liderləri ordunun şəhərə girməyəcəyi haqqında piketçilərə yalan vədlər verməyə başladılar. Sovet ordusunun şəhərə girəcəyi haqqında xalqa məlumat verilməməsi məqsədi ilə yanvarın 19-da saat 19:27 radələrində SSRİ DTK-nın "Alfa" adlı xüsusi dəstəsi tərəfindən Azərbaycan televiziyasının enerji bloku partladılıb sıradan çıxarıldı.

Azərbaycan xalqına divan tutmaq məqsədi ilə buraya gətirilmiş sovet hərbi kontingenti yanvarın 19-da saat 21-dən Türkan-Qala tərəfdən şəhərə yeridildi. Bundan əlavə, şəhərə hərbi gəmilərdən desant qüvvələri hücuma keçdi. Şəhərə yeridilən ağır hərbi texnika qısa müddət ərzində qurulmuş barrikadaları dağıdaraq, əsgərlərin sərbəst hərəkət etməsinə şərait yaratdı. Əsgərlər isə gözyaşardıcı qazdan və avtomat silahdan istifadə edərək, dinc əhalini güclü atəşə tutdu. Qaçaraq qaranlıq yerlərdə sığınacaq tapan insanları isə döyüş texnikasında yerləşdirilmiş projektorların köməkliyi ilə tapıb atəşə tuturdular. Şəhərin küçələrində onlarla insanın və onların müxtəlif təhqirlərə məruz qalmış cəsədləri və yüzlərlə yaralanmış qocanın, qadının, uşağın tükürpədici görüntüləri vəhşətli bir səhnə yaradırdı. Hərbçilər tərəfindən təcili yardım maşınları atəşə tutulur, habelə tibb müəssisələri dövrəyə alınaraq, yaralı mülki şəxslərin buraya gətirilməsinə zorakı üsullarla maneələr yaradılırdı. Sovet qoşunları tərəfindən Bakıda həyata keçirilən bu vəhşi əməliyyata SSRİ müdafiə naziri D.Yazov şəxsən özü rəhbərlik edirdi.

Artıq yanvarın 20-də səhər saat 7-də radio vasitəsi ilə Bakı şəhərində fövqəladə vəziyyətin tədbiq edilməsi haqqında dövlət rəsmiləri tərəfindən xalqa məlumat verildikdə artıq 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs olunmuş, 4 nəfər isə itkin düşmüş, 200-ə yaxın ev, 80 ictimai və şəxsi nəqliyyat vasitəsi yandırılmışdır. Ümumi hesablamalara görə, şəhər təsərrüfatına və vətəndaşlara 5637286 rubl məbləğində ziyan dəymişdi. Geniş mənada desək, Moskva tərəfindən xalqa divan tutmaq üçün həyata keçirilən hərbi əməliyyat yerinə yetirilmişdi.

Yanvar ayının 19-da Azərbaycan SSR KP MK-nın birinci katibi Ə.Vəzirov öz iş otağında olmaq əvəzinə, Respublika Dövlət Təhlükəsizlik Komitəsinin naziri V.Hüseynovla birlikdə Azərbaycan SSR DTK-sının binasında gizlənmişdi. Qanlı hadisələr baş verdiyi vaxt o, gizli şəkildə SSRİ Müdafiə Nazirliyinin Bakıda yaradılmış xüsusi qərargahına gələrək, D.Yazov və V.Bakatinlə birlikdə hərbi əməliyyata rəhbərlik edirdi. Yanvar ayının 21-də isə xalqa kifayət qədər xəyanət etmiş Ə.Vəzirov onun üçün hazırlanmış hərbi təyyarə ilə Moskvaya qaçdı. Res-

publikadan qaçmış Ə.Vəzirovun yerinə isə respublikanın Nazirlər Sovetinin sədri A.Mütəllibov Azərbaycan KP MK-nın birinci katibi seçildi.

1990-cı il yanvar ayının 24-dən 25-nə keçən gecə Azərbaycan KP MK-nın təşkilati məsələlərlə bağlı plenumu keçirildi. Plenumun bir sıra iştirakçılarının təzyiqlərindən sonra respublikada yaranmış siyasi vəziyyətlə bağlı məsələ qoyuldu. Nəticədə isə Əfrand Daşdəmirovun rəhbərliyi altında sovet qoşunlarının törətdiyi cinayətlərin deyil, "Bakı şəhərində fövqəladə vəziyyətin tədbiq edilməsinin" zəruri olub-olmamasını araşdırmaq üçün komissiya yaradıldı. Beləliklə, 20 Yanvar hadisələrinin araşdırılması əvəzinə, yaradılmış komissiya boş işlərlə məşğul oldu.

1990-cı il mart ayının 31-də Azərbaycan KP MK-nın keçirdiyi növbəti plenumda Əfrand Daşdəmirovun rəhbərlik etdiyi komissiyanın işinin gedişatı haqqında komissiya üzvləri tərəfindən verilmiş məlumatlar dinlənildi. Sonra isə komissiyanın işinin davam etdirilməsi qərara alındı. Lakin bu plenum komissiyanın işi ilə maraqlanan axırıncı plenum oldu. Belə ki, növbəti plenumlarda ümumiyyətlə komissiyanın fəaliyyəti haqqında gündəliyə heç bir məsələ qoyulmadı və bu yolla onsuz da əhəmiyyətsiz işlərlə məşğul olan komissiyanın fəaliyyəti tamamilə dayandırıldı. Dolayı yollarla Moskvaya qulluq göstərən və xalqa xəyanət edən Azərbaycan KP MK-nın rəhbərləri 20 Yanvar hadisələrinə siyasi qiymət verməkdən boyun qaçırırdılar. Beləliklə, Azərbaycan KP MK-nın 1990-cı il yanvar, mart və iyun plenumlarında 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verilmədi, günahkar aşkar edilmədi və məsələnin üstü ört-basdır edildi. Yalnız 20 Yanvar faciəsinin 4-cü ildönümünün qeyd edilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu müddətdə 20 Yanvar hadisəsi ilə bağlı qəbul edilən qərarlarla, görülən işlərlə, sənədlərlə ciddi tanış olduqdan sonra məsələyə siyasi qiymət verildi və əslində əvvəlki iqtidarlar tərəfindən hadisənin mahiyyətinin ört-basdır edilməsi rəsmi şəkildə üzə çıxarıldı. Bundan başqa, 20 Yanvar faciəsinin 4-cü ildönümü ilə əlaqədar keçirilən tədbirdə Heydər Əliyev 1992-ci il 19 yanvar tarixli qərara toxundu və bu qərarı "Azərbaycan xalqına 20 Yanvar 1990-cı ildə olan faciəni böyük bir xəyanət kimi qiymətləndirdi". Hadisədən 4 il keçməsinə baxmayaraq, ona düzgün hüquqi qiymət verilməmiş, 1992-ci il 19 yanvar qərarı isə nə icra edilmiş, nə də hadisəyə əsl aydınlıq gətirilmişdi.

Yalnız Heydər Əliyevin Azərbaycan Respublikası prezidenti seçilməsindən sonra 1990-cı il Qanlı 20 Yanvar hadisələrinin səbəblərinin açıqlanması və günahkarların aşkar edilməsi üçün dövlət səviyyəsində tədbirlər həyata keçirildi. Prezidentin 5 yanvar 1994-cü il tarixli " 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" fərmanı ilə iki istiqamətdə fəaliyyət proqramının həyata keçirilməsi – faciənin 4- cü ildönümü münasibəti ilə tədbirlər keçirilməsi və hadisəyə siyasi-hüquqi qiymətin verilməsi üçün Dövlət komissiyası yaradıldı.

Bu fərmanla Azərbaycan Respublikasının Milli Məclisinə 20 Yanvar hadisələrinə tam siyasi qiymət verilməsi məqsədi ilə xüsusi sessiya keçirilməsi tövsiyə olundu.

1994-cü il yanvarın 12-də prezident Heydər Əliyevin sədrliyi ilə Dövlət komissiyasının geniş iclası keçirildi. İclasda tədbirlər planı müzakirə edildi. Nəticədə isə 20 Yanvar hadisələrinə ədalətli siyasi qiymət verildi.

Tbilisi hadisələrində olduğu kimi, Bakıda törədilmiş Qanlı Yanvar hadisəsində də Moskva rəhbərliyi məsuliyyəti öz üzərindən atmağa çalışdı. 1990-cı ilin mart ayında SSRİ Ali Sovetinin keçirilmiş sessiyasında sovet qoşunlarının Bakıda həyata keçirdikləri kütləvi qırğın Azərbaycanda mürəkkəb olan ictimai-siyasi vəziyyətin sabitləşdirilməsi kimi qiymətləndirildi və 20 Yanvar hadisəsinin araşdırılması məqsədi ilə Azərbaycan SSR Ali Sovetində yaradılmış Deputat İstintaq Komissiyasının hesabatında göstərilən cinayət tərkibli məsələlərin yenidən araşdırılması SSRİ Prokurorluğuna, Dövlət Təhlükəsizlik Komitəsinə və Daxili İşlər Nazirliyinə tapşırıldı. 1990-cı il dekabrın 20-də SSRİ Hərbi Prokurorluğu 1990-cı il yanvar ayının 20-də Bakıda sovet qoşunları tərəfindən həyata keçirilən hərbi əməliyyatlar vaxtı hərbçilərin işlərində heç bir cinayət tərkibinin olmadığını bildirərək, açılmış cinayət işinin bağlanmasını elan etdi. Beləliklə, SSRİ Ali Soveti 20 Yanvar hadisələrinə siyasi qiymət verməkdən boyun qaçırdı. Azərbaycan Respublikasının siyasi rəhbərliyi isə xalqa qarşı edilmiş bu ədalətsizliyə qarşı etirazını bildirmədi. Bunun ən böyük səbəbi isə Azərbaycanın siyasi rəhbərliyində əyləşən adamların səriştəsiz, qabiliyyətsiz olmaları və eyni zamanda Moskvaya sədaqətlə xidmət göstərmələri idi.

Sovet ordusunun zorakı tədbirləri ilə xalq hərəkatının sovet hökumətini devirdiyi bölgələrdə yenidən kommunistlər hakimiyyətə qaytarıldılar. Qanlı Yanvar qırğını sovet rəhbərliyinin Azərbaycan xalqına qarşı yeritdiyi riyakar siyasətin parlaq təzahürü idi.

Moskvanın 20 Yanvar 1990-cı il qanlı Bakı qırğınını törətməkdə əsas məqsədi Azbaycanda milli-azadlıq hərəkatını boğmaq idi. Şübhəsiz ki, əgər bu hadisədən dərhal sonra Heydər Əliyev xüsusi bəyanatla çıxış etməsə idi, Moskva haradasa öz istəyinə nail ola bilərdi. Lakin Heydər Əliyevin 20 Yanvar hadisələrinə münasibət göstərməsi xalqın sönməkdə olan mənəvi gücünü yenidən özünə qaytarmış oldu.

## HEYDƏR ƏLİYEVİN 20 YANVAR BAKI QIRĞININI PİSLƏYƏN BƏYANATI

1990-cı il yanvarın 20-nə keçən gecə Azərbaycanda milli-azadlıq mübarizəsini boğmaq məqsədilə Bakıya böyük qoşun hissələri yeridilərək əhaliyə qarşı kütləvi qırğın törətdikdən sonra respublikaya rəhbərlik edən Ə.Vəzirov və bir çox digər yüksək vəzifə sahibləri xalqın bu ağır vəziyyətində qaçıb gizləndilər. Yalnız yanvar ayının 20-də milli- mənəvi dəyərlərin daşıyıcıları olan bir sıra qabağcıl elm adamları Akademiyada SSRİ hökumətinə qarşı etiraz mitinqi keçirdilər. Ziyalıları qorxutmaq və səslərini boğmaq məqsədilə mitinqdə iştirak edən iki tanınmış elm xadimi işə gedərkən vəhşicəsinə tankın altına salınıb məhv edildi.

Milli-mənəvi azadlığından gələn ədalət, əxlaq, saflıq, mənlik, sağlam ruh, firavan həyat, vahid vətən məfhumu kimi ən ulu dəyərlərini, habelə, yeraltı və yerüstü sərvətlərinin özünə qaytarılmasını tələb edən xalq isə meydanda tək qaldı. Burada hakimiyyət, mikrofon uğrunda mübarizə aparan AXC liderləri xalqı yalqız qoyub qaçaraq gizləndilər. Moskva bu çirkin əməli ilə AXC-nin rəhbərlərinin timsalında bütöv bir kütləyə hökm etmək həvəsi, haqsızlıq, imansızlıq, riyakarlıq, bədxahlıq, biganəlik, qatillik, mərhəmətsizlik, amansızlıq, tamahkarlıq kimi mənəviyyatsızlığa xas olan xüsusiyyətləri nümayiş etdirməklə, milli-azadlıq hərəkatını boğmaq ərəfsində idi.

1987-ci ildən Azərbaycan xalqının başına gətirilən faciələrə qarşı öz alovlu vətəndaşlıq yanğısını daxilində gəzdirən Heydər Əliyev 20 Yanvar faciəsindən dərhal sonra, yəni yanvarın 21-də ona qarşı gözlənilən bütün təzyiqlərə və təqiblərə məhəl qoymayaraq, böyük bir mənəvi cəsarət və hünərlə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada keçirilən yığıncaqda çıxış etdi və bu ağır günlərdə öz xalqı ilə olduğunu bildirdi. O öz çıxışında bütün dünya ictimaiyyəti qarşısında 20 Yanvar faciəsinə siyasi qiymət verdi, Moskvanın demokratik prinsipləri kobudcasına pozduğunu, respublika rəhbərliyinin faciədə bilavasitə günahkar olduğunu bəyan etdi.

O, buradakı çıxışında qeyd edirdi: “Mən baş vermiş hadisələr haqqında dünən xəbər tutmuşam və təbiidir ki, bu hadisəyə laqeyd qala bilməzdim. Buraya ən əvvəl ona görə gəlmişəm ki, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində böyük itkilərə səbəb olmuş faciə ilə bağlı bütün Azərbaycan xalqına başsağlığı verim. İkinci tərəfdən, bu məsələyə öz münasibətimi bildirmək istəyirəm”. Heydər Əliyev ilk dəfə olaraq 20 yanvar hadisələrinə yeganə düzgün siyasi qiymət verdi: “Mən onları hüquqa, demokratiyaya yabançı, humanizmə və ölkəmizdə elan olunmuş hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm”. Eyni zamanda müqəssirləri göstərdi. İlk növbədə Azərbaycan Kommunist Partiyası MK-nın I katibi Ə.Vəzirovu ittiham etdi. Heydər Əliyev bildirdi ki, Ə.Vəzirov Azərbaycan KP MK-nın I katibi kimi yüksək vəzifədə olduğu müddətdə

vəziyyəti sabitləşdirmək üçün heç bir şey etməmişdir. Əksinə, onun yaramaz iş üslubu, fırıldaq siyasi manevrləri vəziyyəti daha da gərginləşdirmişdir.

Heydər Əliyev sovet rəhbərliyini ittiham edərək qeyd etmişdi ki, sovet ordusunun, SSRİ DİN-in böyük kontingentinin Bakı şəhərinə yeridilməsi haqqında qərar qəbul etmiş adamların hərəkətini siyasi qəbahət sayır və qırğın törədənlər layiqincə cəzalandırılmalıdırlar. Belə bir çətin məqamda sovet qoşunlarının Bakıda törətdikləri cinayət tərkibli hadisəyə əsl siyasi qiymət vermək və sovet rəhbərliyini ittiham etmək böyük cəsarət tələb edirdi. Heç şübhəsiz ki, bu cəsarət və qətiyyəti Heydər Əliyev verdiyi bəyanatı ilə bütün dünyaya nümayiş etdirmiş oldu. Belə ki, Heydər Əliyev 20 Yanvar faciəsindən dərhal sonra, yəni yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində 20 Yanvar faciəsinə siyasi qiymət verməsi ilə Azərbaycan xalqının haqq səsini bütün dünyaya çatdırmış oldu. Dünyanın bir sıra teleradio şirkətləri tərəfindən Heydər Əliyevin burada söylədiyi nitq dünyaya yayıldı. Heydər Əliyevin dünya ictimaiyyəti qarşısında verdiyi bəyanat 20 Yanvar hadisələrinə ilk düzgün siyasi qiymət idi.

**20 Yanvar** hadisələri ilə bağlı olaraq Heydər Əliyev Azərbaycan xalqına başsağlığı göndərdi. Çox çətinliklə Bakıya bəzi şəxslərə zəng vuraraq rica etdi ki, başsağlığı Azərbaycan qəzetlərində dərc edilsin və ya matəm mitinqində oxunsun. Lakin buna əməl edilmədi. Heydər Əliyevin 20 Yanvar faciəsindən dərhal sonra, yəni yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə 20 Yanvar faciəsinə siyasi qiymət vermək məqsədi ilə verdiyi bəyanatın tarixi əhəmiyyətindən biri mənəvi cəhətdən sarsılmaqda olan xalq hərəkatına yeni, daha güclü bir mənəvi ruh bəxş etməsi idi. Belə ki, Heydər Əliyevin bu çıxışından sonra xalq deputatı şair B.Vahabzadə, yazıçılar Anar və Elçin Respublika Ali Soveti sədrindən fövqəladə sessiya çağırmasını və orada hadisəyə qiymət verilməsini tələb etdilər. Məhz adları çəkilən ziyalıların tələbi ilə 1990–cı il yanvarın 21-22-də Azərbaycan Respublikası Ali Sovetinin çağırılmış növbədənkənar fövqəladə sessiyasında “Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında” fərmanın fəaliyyətini dayandırmaq, ordu hissələrini şəhərdən çıxarmaq barədə qərar qəbul olundu. Sonra 20 Yanvar faciəsinə tam olmasa da, siyasi qiymət verilməsinə müəyyən təşəbbüs göstərildi. Yanvar faciəsinə hüquqi-siyasi qiymət vermək məsələsi Azərbaycan KP MK-nın ilk partiya təşkilatında da irəli sürülmüşdü. Partiya təşkilatının bəzi üzvlərinin tələbi ilə ilk partiya təşkilatının yığıncağı keçirilmiş, yığıncaqda MK-nın birinci katibi Ə.Vəzirovun Sov.İKP sıralarından azad edilməsi və cinayət məsuliyyətinə cəlb edilməsi məsələsi qoyulmuş və 20 Yanvar hadisəsinə geniş siyasi qiymət verilməsi tələbi irəli sürülmüşdü.

Respublikanın aparıcı ziyalıları SSRİ və respublika rəhbərliyinin Bakıda törədilmiş qanlı faciədə günahkar olduqlarını bildirdilər. Xüsusilə Heydər Əliye-

vin böyük cəsarətlə bu faciənin törədilməsində mərkəzi partiya orqanlarının bilavasitə günahkar olduğunu bəyan etməsindən mənəvi ruh alan respublika ziyalıları, mədəniyyət xadimləri partiya biletlərini nümayişkaranə şəkildə cıraraq yerə və ya oda atırdılar.

1970-1980-ci illərdə Heydər Əliyev tərəfindən öz layiqli qiymətlərini almış milli mənəvi dəyərlərin daşıyıcıları olan ziyalılar xalqın bu ağır günlərində ona ən böyük yardımçı oldular. Rəşid Behbudov, Arif Məlikov, Tahir Salahov, Tofiq İsmayılov, Ziya Bünyadov və digər bu kimi görkəmli ziyalılar 20 Yanvar faciəsini törədən imperiya ağalarını, başda M.Qorbaçov olmaqla, yüksək mənəvi cəsarət və hünərlə bütün dünya içtimaiyyəti qarşısında ittiham etdilər.

Vaxtilə Heydər Əliyevin şəxsi diqqəti ilə yenidən formalaşan Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin (ZMRİ) sədri Şeyxülislam A.Paşazadə və respublikanın aparıcı ruhaniləri 20 Yanvar faciəsindən sonra xalqı fəal şəkildə dəstəkləmiş və mənəvi cəhətdən ruhlandırmışdılar. Sovet qoşunlarının Bakıda törətdiyi vəhşiliklər haqqında bütün dünyaya ilkin olaraq informasiya ZMRİ-nin telefaksı ilə ötürülmüşdü. İş o yerə gəlib çatmışdı ki, xalqı yüksək fəallıqla dəstəkləyən ruhaniləri susdurmaq üçün ZMRİ-nin yerləşdiyi Təzəpir məscidinə sovet tankları yeridilmişdi.

Heydər Əliyevin 1990-cı il yanvar ayının 21-də Moskvada etdiyi tarixi çıxışından yeni, daha da güclü mənəvi ruh alan Azərbaycan xalqı yanvarın 22-də fövqəladə vəziyyət elan olunmasına baxmayaraq, 40 günlük ümummilli matəm elan etdi, Azadlıq meydanında böyük matəm mitinqi keçirərək şəhidlərlə vida mərasimi qurdu.

Məhz Heydər Əliyevin bu çıxışının əsas məğzi real suverenliyə nail olmaq və yaradılmış çətinliklərdən üzüağ çıxmaq üçün xalqı milli birliyə çağırmaqdan ibarət idi. Bu çıxışdan ruh alan Azərbaycan xalqı 20 Yanvar faciəsindən sonra mənəvi cəhətdən daha da sıx birləşdi, sovet rəhbərliyinə öz dərin nifrətini bildirdi. Heydər Əliyevin bəyanatından sonra bu faciə öz mahiyyətini dəyişərək xalqa ləyaqətini, mənəviyyatını qorumaq üçün hər cür qurban verməyə hazır olmağı öyrətdi, milli-azadlıq hərəkatını mənəvi cəhətdən daha da gücləndirdi. Deməк, 20 Yanvar faciəsini törətməklə xalqın mənəviyyatını sarsıtmağı planlaşdıran Moskvanın planını Heydər Əliyevin bu tarixi çıxışı alt-üst etdi.

Heydər Əliyev 20 Yanvar faciəsinə düzgün siyasi qiymət verilməsi istiqamətində Naxcıvan Ali Məclisinin sədri işlədiyi dövrdə də nəhəng siyasi fəaliyyət göstərmiş, 1990-cı il yanvar ayının 21-də Moskvada verdiyi bəyanatın tarixi əhəmiyyətini məntiqi cəhətdən tamamlamışdır. Belə ki, Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxcıvan Ali Məclisi noyabr ayının 21-də qəbul etdiyi qərarda 20 Yanvar faciəsini işğalçı siyasət və düşünülmüş hərbi təcavüz kimi qiymətləndirir və BMT-nın İnsan Hüquqları Bəyannaməsinin kobud şəkildə pozulması faktı

hesab edirdi. Qəbul edilən qərarda bu bəndlər yer aldı: 1. Bakıda törədilmiş qanlı hadisələr Azərbaycan SSR-nin suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd kimi qiymətləndirilir. 2. Dinc əhaliyə, silahsız, müqavimət göstərməyən adamlara qarşı müasir silahlarla, hərbi texnika ilə hücum edilməsi, qoca, qadın və uşaqların qətlə yetirilməsi Azərbaycan xalqına qarşı açıq təcavüz kimi ittiham edilir. 3. Bir ilə yaxın vaxt keçməsinə baxmayaraq, Bakı hadisələrinə Azərbaycan SSR ali hakimiyyət orqanları tərəfindən siyasi qiymət verilməməsi, bununla əlaqədar yaradılmış xüsusi deputat istintaq komissiyasının işinin qeyri-müəyyən səbəblərdən başa çatdırılmaması, günahkarların hələ də cəzalandırılmamasına ciddi etiraz olunur. Azərbaycan SSR Ali Sovetindən tələb edilir ki, bu məsələni ən qısa müddətdə parlamentin müzakirəsinə çıxarsın. 4. Bu qərar qəbul edilən gündən hər il Naxcıvanda 20 Yanvarın Milli Matəm günü kimi qeyd edilməsi qərara alınır. 5. Azərbaycan SSR Ali Sovetindən xahiş olunur ki, Azərbaycan SSR-də 20 Yanvar Milli Matəm günü kimi qeyd edilsin.

O zamankı respublika rəhbərliyi üçün Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan Ali Məclisi noyabr ayının 21- də qəbul edilmiş bu qərarla xalqın müstəqillik uğrunda apardığı mübarizəyə əzm və mətinlik bəxş etmiş oldu. Məhz bu səbəbə görə də Azərbaycan xalqı öz qurtuluş yolunu yalnız Heydər Əliyevdə gördü.

## HEYDƏR ƏLİYEVİN SOV. İKP SIRALARINDAN İSTEFA VERMƏSİ

20 Yanvar hadisələrinə ölkə rəhbərliyi səviyyəsində tam hüquqi-siyasi qiymət verilməməsinə Heydər Əliyevin etirazının başqa bir göstəricisi də onun məhz 20 yanvar faciəsi səbəbiylə Sov. İKP sıralarını tərk etməsidir. 1991-ci il iyulun 19-da fərdi təqaüdçü Sov.İKP-nın üzvü Heydər Əliyev partiya sıralarından çıxmaq barədə SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına bəyanat vermişdi. Bəyanatda bu qərarın səbəbləri açıq şəkildə göstərilirdi:

"1. Hələ 1990-cı ilin yanvarında Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi altında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP-nin sıralarından çıxmaq fikri oyandı.

2. Üç ildən çoxdur ki, Mərkəzin ikiüzlü siyasəti nəticəsində Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyi ilə DQMV-də yaranmış kəskin münasibət saxlanmaqdadır. Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud surətdə pozulub.

3. Bütün cəmiyyətin demokratikləşməsi, siyasi azadlıqların plüralizmin bəyan edildiyi bir dövrdə Azərbaycanda ərazi bütövlüyünün müdafiəsinə qalxmış geniş demokratik hərəkat və cəmiyyətin demokratikləşməsi Sov.İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyi ilə boğulmuşdur".

Beləliklə, Heydər Əliyev partiya sıralarını tərk etməsini yuxarıdakı fikirləri ilə əsaslandırdı.

Bütün bunlarla yanaşı, Heydər Əliyev Azərbaycan SSR xalq deputatı seçildikdən sonra Azərbaycan SSR Ali Sovetinin 1991-ci il fevralın 3-də keçirilən birinci sessiyasında çıxış edərək sovet rəhbərliynin yeritdiyi etnik separatizm siyasətinə etirazını bildirdi. Heydər Əliyevin bu istiqamətdə çıxış etməsi heç də iqtidarı məmnun etmədi. Məhz bu səbəbə görə onun çıxışı hay-küylə qarşılandı. Lakin o, böyük cəsarət və qətiyyətlə öz çıxışını başa çatdırmağa müyəssər oldu. Heydər Əliyev öz çıxışında gündəliyin əsas məsələsi olan DQMV-də yaranmış gərginliyin köklərini açıb göstərərək qeyd etdi: "Uzun sürən erməni təcavüzünün qarşısını almaq üçün ittifaq dövləti, birinci növbədə şəxsən Qorbaçov və respublika rəhbərliyi tərəfindən qəti tədbirlər görülməmişdir.

Üç ildir ki, Azərbaycan SSR Ali Sovetinin sessiyasında DQMV-də vəziyyət haqqında ətraflı, dərin, lazımi səviyyədə məsələ müzakirə olunmayıb, səmərəli tədbirlər görülməyibdir".

Heydər Əliyev öz çıxışında Dağlıq Qarabağ probleminin yaradılması, Azərbaycan xalqının tarixi torpaqlarının ermənilər tərəfindən ələ keçirilməsi səbəblərinin təhlilinə mühüm yer verdi. O, bütün bu xoşagəlməz proseslərin baş verməsində sovet rəhbərliynin yeritdiyi etnik separatizm siyasətini günahlandırdı.

Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin I sessiyasında Dağlıq Qarabağ məsələsini işıqlandırmaqla Azərbaycan tarixi üçün daha bir həqiqəti aşkar etdi. Azərbaycan torpaqlarının fasilələrlə ermənilər tərəfindən işğal edilməsi faktlarını meydana çıxararaq hələ 1918-ci ildə Ermənistan Respublikasının Azərbaycan Respublikasının torpaqlarını fasilələrlə ələ keçirməsi nəticəsində Azərbaycan ərazisinin 1918-ci ildəki 114 min kv. km. sahədən 1990- cı ilədək 86 min kv. km-ə qədər azaldığını qeyd etdi. Heydər Əliyev təkcə Dağlıq Qarabağ məsələsini yox, ümumillikdə torpaq məsələsinin qoyulmasını təklif etdi. Çıxışın sonunda isə qeyd etdi: "Bizim sessiyamız Ermənistanı bir təcavüzkar dövlət kimi adlandırmalıdır". Qeyd etmək lazımdır ki, həmin dövr Azərbaycana rəhbərlik edən adamlar Heydər Əliyevin bu təklifinə biganə və laqeyd yanaşdılar. Ermənistanın təcavüzkar bir dövlət olması isə sonralar Heydər Əliyev tərəfindən çox çətinliklə dünyaya tanıdıldı.

Heydər Əliyevin çıxışı iqtidar və bəzi deputatlar tərəfindən böyük əks-səda ilə qarşılandı. Onu ittiham etməyə, böhtanlar atmağa başladılar. DQMV-də vəziyyətdən danışmaq əvəzinə, onunla haqq-hesab çəkməklə məşğul oldular. Bu antimilli kampaniya iqtidar tərəfindən təşkil edilmişdi.

Heydər Əliyevin mövqeyini müdafiə etməkdə yalnız xalq şairi B.Vahabzadənin və Ali Sovetin sədrinin müavini A.Cəlilovun çıxışları müstəsnalıq təşkil edirdi.

Beləliklə, sovet rəhbərlərinin Azərbaycanda yeritdikləri etnik separatizm siyasətinə qarşı inadlı mübarizə nümayiş etdirən Heydər Əliyev Qafqazda sülh prosesi istiqamətində ilk addım atmış oldu.

## ERMƏNİSTANDA MİLLƏTÇİLİYİN VƏ SEPARATİZMİN GÜCLƏNMƏSİ

Artıq XX əsrin 80-ci illərində sovet imperiyasında vəziyyət kifayət qədər gərgin idi. İqtisadi, siyasi və eyni zamanda mənəvi həyatda böhran vəziyyəti yaranmışdı. Bunu da özünün obyektiv və subyektiv daxili və xarici səbəbləri vardı. SSRİ-nin dağılması ərəfəsində erməni separatçıları öz mənfur əməllərini genişləndirməyə başladılar, "Türksüz Ermənistan" yaratmaq iddialarını genişləndirdilər. Onların əsas hədəfi Dağlıq Qarabağı ilhaq etmək idi. Bu məqsədlə erməni millətçiləri 1980-ci ilin sonlarından başlayaraq planlar cızmış, 1988-ci ilin əvvəllərində isə Dağlıq Qarabağın ilhaqına dair müxtəlif variantlardan ibarət cızılmış planı həyata keçirməyə başladılar.

1988-ci ilin yanvar ayından etibarən "Türksüz Ermənistan" və Dağlıq Qarabağ uğrunda planlı şəkildə hazırlanmış millətçi hərəkatın həyata keçirilməsi daha da sürətləndi. Ermənistanda yaşayan azərbaycanlıların ilk qrupu 25 yanvar 1988-ci ildən etibarən öz ata-baba yurdlarından zorakı üsullarla didərgin salındı. Fevral ayına qədər öz evlərindən didərgin salınmış azərbaycanlıların sayı dörd min nəfərə çatdı.

Azərbaycanlıların kütləvi şəkildə qovulması bir tərəfdən regional milli münaqişəyə, digər tərəfdən Azərbaycanın daxili vəziyyətinin qarışdırılmasına zəmin yaratmaqda idi. Erməni millətçiləri azərbaycanlıları qovduqları halda DQMV-də ermənilərin hüquqlarının guya pozulması bəhanəsi ilə mitinqlər təşkil etməyə başladılar.

1988-ci il fevralın 19-da Muxtar Vilayətin Ali Sovetinin sessiyasının keçirilməsi, DQMV-nin statusu məsələsinə baxılması, SSRİ Ali Sovetinə müraciət qəbul edilməsi çağırışları ilə kütləvi antiazərbaycan mitinqi keçirildi.

Həmin il fevralın 22-də isə ağdamlı azərbaycanlılarla əsgəranlı ermənilər arasında süni toqquşma təşkil edildi. Bu toqquşmanı yaratmaqda əsas məqsəd gələcək milli münaqişənin yaradılmasına süni zəmin yaratmaqdan ibarət idi.

Erməni millətçiləri tərəfindən hazırlanmış mənfur plana əsasən Qafan rayonunda daha bir azərbaycanlı qətlə yetirildi. Vəziyyətin gərginləşdiyini görən Sov. İKP MK-nın Baş katibi M.S.Qorbaçov fevralın 23-də gözdən pərdə asmaq məqsədilə hər iki xalqa müraciətlə çıxış etdi. Əslində isə mərkəz tərəfindən münaqişənin qarşısını almaq üçün heç bir əməli tədbir görülmədi. Əksinə, münaqişənin daha da qızışdırılması məqsədi ilə SSRİ DTK-sı tərəfindən Sumqayıt faciəsi törədildi. Qəsdən törədilmiş bu hadisə isə dünya ictimaiyyətinə ermənilərin azərbaycanlılar tərəfindən vəhşicəsinə ayaqlanması kimi təqdim edildi. Bu kimi yollarla erməni millətçiləri Ermənistandan deportasiya olunan azərbaycanlıların vəziyyəti, "Böyük Ermənistan", "Dağlıq Qarabağ"ın ilhaqı kimi məkrli planlarını kölgələyə bildilər.

Erməni millətçiləri Sumqayıt hadisələrini bəhanə gətirərək Quqark, Masis, Yerevan, Dilican, Qafan, Mehri, Sevan və Azərbaycanın digər tarixi ərazilərindən azərbaycanlıları qovub çıxardı. Martın 10-da Yerevandan cənubda yerləşən Mehmandar kəndinin dörd azərbaycanlı sakini qətlə yetirildi, martın 25-də Ararat rayonunda azərbaycanlıların Vedi, Şirazlı, Xalisa və Şidli kəndlərinin əhalisi hücuma məruz qaldı. 100-dən artıq ev yandırılıb viran edildi, onlarla adam yaralandı, bir nəfər öldürüldü. Ümumilikdə 1988-ci ildə Ermənistandan 191 min 173 nəfər və ya 4687 ailə qaçqın vəziyyətində Azərbaycana pənah gətirmiş oldu, 217 adam vəhşicəsinə qətlə yetirildi, 1134 nəfər isə yaralandı.

Təbii ki, Ermənistanda millətçiliyin və separatizmin güclənməsində bir qrup daşnak ideologiyasının daşıyıcıları olan "ziyalılar", kommunist daşnaklar müstəsna rol oynamışdılar. Sovet imperiyasının tənəzzülü ərəfəsində fəallaşmış ermənilərə yalnız Moskva deyil, dünyanın bir sıra böyük dövlətlərində fəaliyyət göstərən erməni lobbisi də havadarlıq edirdi.

"Böyük Ermənistan" yaratmaq uğrunda mübarizəni genişləndirməyə, yaranmış əlverişli şəraitdən istifadə etməyə çalışan erməni millətçiləri 1987-ci ildə M.S.Qorbaçovun vasitəsilə Heydər Əliyevin Sov. İKP MK Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılmasına nail oldular. Heydər Əliyevin siyasi meydanda yoxluğundan istifadə edən erməni millətçiləri Qərbdə və Moskvada ermənipərəst mətbuatda Azərbaycana qarşı böyük kampaniya təşkil edərək bütün informasiya vasitələri ilə ermənilərin "milli müqəddəratını təyinetmə" müstəvisində azərbaycanlılarla mübarizə aparmaları haqqında yalan məlumatlar yaydılar. Artıq əslində daşnak olan, lakin kommunist simasıyla gəzən C.Xanzadyan, C. Kaputikyan, B. Hambartsumyan və b. həqiqi simalarını ortaya qoymağa başladılar. Bütün bu tədbirlərdə məqsəd "Dağlıq Qarabağ problemi" üçün süni zəmin yaratmaqdan ibarət idi.

## DAŞNAKSÜTYUN PARTİYASININ YENİDƏN CANLANMASI

Tarix boyu erməni millətçiliyi Azərbaycana kifayət qədər ziyan vurmuş, onun ən böyük tarixi probleminə çevrilmişdir. Ermənilər Qafqaza gəlmə xalq olsalar da, məhdud millətçilikləri onları bu ərazilərin sahibi kimi mənfur bir xüsusiyyətə malik etmişdir. Bolşeviklər Cənubi Qafqazı işğal etdikdən sonra zahirən erməni millətçiliyi özünü zəifləmiş kimi göstərmişdir. Lakin ümumi Qafqazın ictimai-siyasi vəziyyətinə xələl gətirən bu millətçilik sovet dövründə də başqa-başqa formalarda öz mövcudluğunu saxlamışdır. Heydər Əliyev bu xüsusda etdiyi çıxışların birində qeyd etmişdir ki, 1969-cu ildə onun Azərbaycan rəhbərliyinə gəlişi dövründə xüsusi ilə Dağlıq Qarabağda erməni millətçiliyi və separatizmi özünü qabarıq şəkildə göstərməyə başlamışdır. Şübhəsiz ki, qeyd olunan dövrlərdə Heydər Əliyevin bu istiqamətdə yürütdüyü məqsədyönlü siyasətin nəticəsində mənfur erməni millətçiliyi öz qol-qanadını aça bilməmişdir. Lakin 1987-ci ildə onun siyasi hakimiyyətdən uzaqlaşdırılması erməni millətçiliyinin və separatizminin yenidən start götürməsinə gətirib çıxartdı.

SSRİ-nin süqutu ərəfəsində erməni millətçiliyi və separatizminin güclənməsi Azərbaycanın tarixi torpaqlarına yeni iddiaların meydana gəlməsinə səbəb oldu. Ermənilər təkcə Azərbaycan torpaqlarını deyil, eyni zamanda onun bütün maddi və mənəvi tarixi nailiyyətlərini də mənimsəməyə çalışırlar. Heç şübhəsiz ki, əsasən Azərbaycana tuşlanmış erməni millətçiliynin idarə olunmasında “Daşnaksütyun” partiyası tarix boyu müstəsna mənfi rol oynamışdır. “Daşnaksütyun” partiyasının fəaliyyəti erməni millətçiliynin əslində etnik terrorizm mənbəyi olmasını nümayiş etdirmişdir.

Erməni millətçiliynin kökləri ilə bağlı olan “Daşnaksütyun” partiyası 1890-cı ildə inqilabi partiya adı altında yaradılmışdır. Bu partiyanın tarixinə nəzər saldıqda aydın olur ki, erməni millətçiliyi dinc əhaliyə qarşı terror, işğal, soyqırım, qarət və soyqunculuqla məşqul olmaqdan ibarətdir. Sonralar erməni millətçiləri törətdikləri bütün cinayətlərə bəraət qazandırmaq üçün “Daşnaksütyun” partiyası vasitəsi ilə erməni terroruna tarixi saxtalaşdırma hesab olunan “ermənilərə qarşı türk soyqırımının qisası” və “Böyük Ermənistanın yaradılması” şüarları ilə çıxış etməyə başladılar. Beləliklə də bu mənfur partiya öz fəaliyyətini genişləndirməyə nail oldu. Şübhəsiz ki, “Daşnaksütyun” partiyasının fəaliyyətinin genişləndirilməsində türk irqinə nifrətlə yanaşan Rusiyanın və Avropanın bəzi dairələrinin böyük köməkliyi mühüm rol oynamışdır.

Artıq 1970-ci illlərdə “Daşnaksütyun” partiyasının bilavasitə himayəsi ilə erməni millətçilərinin bir sıra yeni terror təşkilatları yaradıldı. Bunların içində ən fəalı “ASALA” təşkilatıdır. Erməni millətçilərinin “ASALA” terror təşkilatı Avropanın biri sıra

ölkələrində türklərə qarşı silsiləvi terror aktları həyata keçirirlər. Avropa dövlətlərində terror vasitəsi ilə dünya ictimaiyyətını olmayan "erməni soyqrımı" məsələsinə cəlb etmək istəyən ermənilər SSRİ daxilində başqa vasitədən-torpaq iddiası ilə çıxış etməyə başladılar. Beləliklə, SSRİ-nin süqutu ərəfəsində erməni millətçiləri "Dağlıq Qarabağ ermənilərinin azadlığı və özünü müəyyən etməsi" bəhanəsi ilə Azərbaycan Respublikasına qarşı torpaq iddiasını irəli sürməyə başladılar. Bunun özü də erməni terrorunun miqyasını artırmağa şərait yaratdı.

Erməni millətçiliyini və separatizmini gücləndirən əsas amillərdən biri də məhz onların təzyiqi ilə 1987-ci ilin payızında güclənən və M.Qorbaçovun Heydər Əliyevi Sov. İKP MK Siyasi Büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən azad etməsi idi. İstər daxildə, istərsə də xaricdə yaşayan erməni millətçiləri yaxşı dərk edirdilər ki, Heydər Əliyevin siyasi hakimiyyətdəki mövcudluğu onların separatçı planlarının həyata keçirilməsi üçün ən böyük maneədir. Məhz bu səbəbə görə də Heydər Əliyevin siyasi hakimiyyətdən uzaqlaşdırılmasını erməni millətçiləri ən böyük qələbə hesab edirdilər.

1988-ci il fevralın 19-da erməni millətçiləri tərəfindən Yerevanda Azərbaycan xalqına və onun ərazi bütövlüyünə qarşı ilk mitinq keçirildi. Erməni separatçıları "Ermənistanı türklərdən təmizləməli"!, "Ermənistan təkcə ermənilərin olmalıdır"! və s. millətçi şüarlar irəli sürdülər.

Hələ 1985-ci ilin dekabrında "Daşnaksütyun" partiyasının Afinada XXIII qurultayı keçirildi. Bu qurultayda xaricdə yaşayan erməni millətçiləri Ermənistanda yaşayan erməniləri sərsəm "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək üçün yaranmış əlverişli şəraitdən səmərəli istifadə etməyə, qüvvələri birləşdirməyə çağırmışdı. Beləliklə, 1980-ci illərin ortalarından başlayaraq Dağlıq Qarabağı ələ keçirmək üçün erməni millətçiliynin gücləndirilmə prosesi başlandı. Bu məqsədlə Ermənistanda "Daşnaksütyun" partiyası öz fəaliyyətini yenidən canlandırdı. "Daşnaksütyun" partiyasının Ermənistanda fəaliyyətinin canlandırılması məqsədilə xarici ölkələrdə fəaliyyət göstərən erməni lobbiləri külli miqdarda vəsait ayırdılar. Bundan başqa, Ermənistan rəhbərliyinin Moskva ilə yaxın əlaqələri, eyni zamanda da Moskvanın erməni millətçiliyni və separatizmini dəstəkləməsi xaricdə yaşayan erməni lobbilərinin vasitəsi ilə "Daşnaksütyun" partiyasının yenidən canlandırılmasına geniş şərait yaratdı. Ermənistan rəhbərliyi tərəfindən "Daşnaksütyun" partiyasının yenidən canlandırılması məqsədi ilə xaricdə fəaliyyət göstərən məşhur erməni terrorçularının Yerevana gəlməsi və onların vasitəsi ilə burada "ASALA", "MAQ", "Erməni ittifaqı", "Erməni azadlıq cəbhəsi" və sair terrorçu təşkilatların fəaliyyətə başlaması erməni millətçiliyini və separatizmini geniş şəkildə gücləndirdi. Millətçiliyi və separatizmi dəstəkləyən Ermənistan isə bütün bunları dünya ictimaiyyəti qarşısında "milli müqəddərat" müstəvisində görülən iş kimi təqdim edirdi.

Qafqazda yaranmış qeyri ictimai-siyasi vəziyyətdən və dövlət orqanlarının nəzarət vakuumundan istifadə edən erməni lobbisi İran, Livan, Fransa, ABŞ, Rusiya, Yunanıstan və sair ölkələrdən Ermənistana külli miqdarda silah və maliyyə vəsaiti göndərdilər. Ermənistanda dövlət səviyyəsində müxtəlif illərdə Türkiyə rəsmilərinə qarşı terror aktları həyata keçirən erməni terrorçularının müdafiə komitələri yaradıldı. Misal olaraq, 1983-cü ildə Fransanın Orli şəhərinin hava limanında insan tələfatı ilə nəticələnmiş terror aktını həyata keçirən erməni əsilli suriyalı Varujan Karapetyanın azadlığa buraxılması tələbi ilə Eçmiədzin tərəfindən bir milyona yaxın imza toplanmasını göstərmək olar.

Artıq SSRİ-nin süqutu ərəfəsində xaricdən göndərilmiş erməni terrorçularının fəal iştirakı ilə Ermənistanda yaşayan azərbaycanlılar maddi və mənəvi təqiblərə məruz qoyuldular. Bu təqiblərin nəticəsində 100 nəfərdən artıq azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, 250 min insan isə öz ata-baba yurdlarından didərgin salındı. SSRİ-nin süqutu dövründə Ermənistanda millətçiliyin və separatizmin güclənməsində "Daşnaksütyun" partiyasının nəzdində yaradılmış erməni terror təşkilatlarının fəaliyyətini dünya ictimaiyyətindən gizlətmək məqsədi ilə Ermənistanın prezidenti L.Ter-Petrosyan deyirdi: "Daşnaksütyun partiyasının yenidən canlanması Ermənistan ərazisində mənfur millətçilik baxımından beynəlxalq səviyyədə fəaliyyətləri qadağan edilmiş gənclər təşkilatlarının və millətçi dərnəklərin yaradılmasına səbəb oldu".

1990-cı ildə Fransa həbsxanasından azad edilmiş məşhur terrorist Karlosun tələbəsi, beynəlxalq səviyyəli terrorçu ABŞ vətəndaşı olan Monte Melkonyan Ermənistan Respublikasına gələrək oradan Dağlıq Qarabağa "ASALA" təşkilatının özəyini yaratmaq üçün göndərilir. O, Dağlıq Qarabağdan 1 milyon azərbaycanlının qovulmasında, hərbi əməliyyatlarda, terror aktlarının həyata keçirilməsində fəal iştirak etmiş, 1993-cü ildə Azərbaycana qarşı aparılan hərbi əməliyyatların birində öldürülmüşdür. Qeyd etmək lazımdır ki, beynəlxalq səviyyəli terrorçu Monte Melkonyanın dəfn mərasimində dünya ictimaiyyətinin gözü qarşısında Ermənistanın prezidenti başda olmaqla bütün rəsmi şəxslər iştirak etmişdirlər. Daha sonra isə Ermənistan dövləti tərəfindən bu terrorçu "Milli Qəhrəman" elan olunmuşdur.

Erməni millətçiliyi və separatizminin azərbaycanlılara qarşı qızışdırılması üçün 1981-ci ildə insan tələfatı ilə nəticələnmiş Parisdə yerləşən Türkiyə səfirliyində partlayış təşkil edən Vazqen Sislyan və Yaxın Şərqdə terrorçu fəaliyyəti ilə məşğul olan məşhur terrorçu Abu Ali və Qilbert Minasyan Ermənistana, sonra isə Dağlıq Qarabağa göndərildilər. Ermənistana xaricdən göndərilmiş erməni əsilli terrorçular tərəfindən 1984-cü ildən 1994-cü ilə qədər 29 terror aktı həyata keçirilmişdir. 1989-cu il sentyabrın 16-da erməni terrorçuları tərəfindən Tbilisi-Bakı avtobusu partladılmışdır. Bu terror aktında 5 nəfər insan ölmüş, 25 nəfər

yaralanmışdır. Həmin il oktyabr ayının 7-də Abromyan adlı erməni terrorçusu tərəfindən Xankəndi yaxınlığında körpü, 1990-cı il fevralın 16-də Ovanesyanın dəstəsi tərəfindən 2 nəfər insanın ölümü, 13 nəfərin yaralanması ilə nəticələnmiş Şuşa-Bakı avtobusunda partlayış törədilmişdir. 1990-cı il noyabr ayının 10-da Arkadi Asriyanın quldur dəstəsi tərəfindən Kəlbəcər rayonunda avtobus karvanına hücum edilmişdir. Həmin gün başqa bir erməni terrorçu təşkilatı tərəfindən 20 nəfər insanın ölümü, 30 nəfərin yaralanması ilə nəticələnmiş Tbilisi-Ağdam marşrutu üzrə hərəkət edən avtobus partladılmışdır. 1991-cı il yanvarın 9-da Laçın-Şuşa yolunda bir dəstə erməni terrorçusu tərəfindən "molodyoj Azerbaydcana" qəzetinin müxbiri S.Əsgərova və üç sovet zabiti vəhşicəsinə güllələnmişdir. Bu terror aktını həyata keçirən erməni terrorçuları A.M.Petrosyan T.A.Manqasaryan və T.M.Arutunyan həbs edilərək ölüm hökmü ilə cəzalandırılmalarına baxmayaraq Ermənistan rəhbərliyi tərəfindən azadlığa buraxılaraq yeni terror aktları həyata keçirtmək üçün Dağlıq Qarabağa göndərilmişlər.

Rəsmi Ermənistan azərbaycanlılara qarşı erməni millətçilərini müasir tipli silahlarla təchiz edərək separatizmi terror aktları ilə ifadə etməkdə idi. Erməni millətçilərinin Azərbaycana qarşı törətdikləri ən böyük terror aktlarından biri 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında istilik raketi ilə Azərbaycan rəsmilərinin olduğu Mİ-8 vertalyotunun vurulması idi.

SSRİ-nin süqutu ərəfəsində erməni millətçiliyinin və separatizminin güclənməsi təkcə Azərbaycan ərazisində deyil, ümumi Qafqaz regionunda sülhün və sabitliyn pozulmasına səbəb oldu. Belə ki, erməni millətçiləri tərəfindən 1991-ci ildə Zaqafqaziya daxili qoşunları idarəsinin müavini polkovnik Vladimir Blaxotin Ermənistanda yenidən canlanmış "Daşnaksütyun" partiyasının fəal üzvləri A.Baqmanyan, A.Antonyan və İ.Akopyan tərəfindən qətlə yetirilmişdir. Hər üç terrorçu həbs olunduqda onların üzərində "Daşnaksütyun" partiyasının nəzdində yaradılmış və dünyanın bir sıra ölkələrində özəkləri təşkil edilmiş "Amaras" adlı dini cəmiyyətin üzvlük sənədləri aşkar edilmişdir.

1991-ci il mayın 30-da Xasavyurd (Dağıstan) stansiyası yaxınlığında erməni millətçi terrorçuları tərəfindən 11 nəfər insanın ölümü, 22 nəfərin isə yaralanması ilə nəticələnmiş Moskva-Bakı qatarında partlayış törədilmişdir. Bu hadisədən bir gün sonra isə erməni millətçiləri tərəfindən Temirtau stansiyasında (Dağıstan) Dağıstandan Bakıya hərəkət edən qatar partladılmışdır. Bu terror aktı nəticəsində 16 nəfər insan həlak olmuş, 20 nəfər isə yaralanmışdır.

SSRİ-nin süqutu ərəfəsində erməni millətçiliynin və separatizminin güclənməsi, xüsusilə də "Daşnaksütyun" partiyasının yenidən canlanması sonralar da Qafqazın sabitliynə xeyli təsir göstərmişdir. Belə ki, 1992-ci il yanvar ayının 8-də Krasnovodsk-Bakı gəmisi, 1993-cü il fevral ayının 28-də Qudermes (Çeçenistan) stansiyasının yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarı, 1994-cü il

fevral ayının 1-də Bakı dəmiryolu vağzalında Kislovodsk-Bakı sərnişin qatarı, həmin il aprel ayının 13-də "Dağıstan odları" stansiyasında Moskva-Bakı sərnişin qatarı "Daşnaksütyun" partiyasının fəal üzvləri tərəfindən partladılmışdır. Bu terror aktlarında 36 nəfər insan həlak olmuş, 128 nəfər isə yaralanmışdır.

Beləliklə, SSRİ-nin dağılması ərəfəsində Ermənistanda millətçiliyin və separatizmin güclənməsi, "Daşnaksütyun" partiyasının yenidən canlanması, ərazi iddiaları və "milli müqəddərat" müstəvisində separatizmin dəstəklənməsi təkcə Azərbaycanda deyil, ümumi Qafqazda ictimai-syasi vəziyyəti mürəkkəbləşdirdi.

## BƏDNAM "OCAQ" ƏSƏRİNİN ERMƏNİ MİLLƏTÇİLİYİNİN QIZIŞDIRILMASINDA ROLU

Erməni millətçiliyinin qızışdırılmasında mühüm rol oynayan şəxslərdən biri də keçmiş SSRİ Ali Sovetinin deputatı Z.Balayan olmuşdur. Belə ki, o, erməni millətçiliyni qızışdırmaq məqsədilə silsilə şəkilində bir neçə kitab nəşr etdirdi. Belə kitablardan "Yol", "Avariya", "Qanad" adlı kitabların adlarını çəkmək olar. Lakin onun türk millətinə nifrət oyadan ən böyük kitabı "Ocaq" adlanırdı. Bu kitabda Qarabağın tarixi ermənilərin xeyrinə saxtalaşdırılmış, türklər bu ərazilərə gəlmə və vəhşi kimi təqdim edilmişdir.

"Ocaq" kitabında ermənilərin uydurduğu 1915-ci il soyqırımının türklərdən qisasının alınması vacib və müqəddəs bir vəzifə olduğu göstərilmişdir. Z.Balayanın erməni millətçiliyni qızışdıran "Ocaq" kitabının nəşr edilməsinə qarşı Azərbaycanın bir dəstə ziyalısının SSRİ MK-ya şikayət etməsinə baxmayaraq, Moskva buna qarşı heç bir tədbir görmədi. Əksinə, "Ocaq" kitabı Moskva tərəfindən həqiqi və ədalətli tənqiddən qorundu. Bu kitabın müəllifi Z.Balayan isə SSRİ Ali Sovetində "Artsaxa azadlıq" adı altında Azərbaycanın ərazi bütövlüyünə qarşı kampaniya yaradaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin adının Ermənistan Muxtar Vilayəti adı ilə dəyişdirilməsi tələbi ilə çıxış etməyə başladı.

Dağlıq Qarabağda vəziyyətin nizama salınması məqsədilə 1990-cı ildə SSRİ rəhbərliyi tərəfindən daxili işlər naziri V.Bakatinə Ermənistan və Azərbaycan Ali Sovetlərinin deputatları ilə mütəmadi görüşlər təşkil edilməsi tapşırılmışdır. Keçirilən belə görüşlərdə Ermənistan deputatları "Ocaq" kitabından Dağlıq Qarabağın tarixi, erməni-rus dostluq əlaqələri haqqında saxtalaşdırılmış sitatlarla çıxış edirdilər. Bununla onlar erməni millətçiliynin gücləndirilməsi prosesinə rusların maneə törətməməsinə cəhd göstərirdilər. Ümumiyyətlə, "Ocaq" kitabında Z.Balayan erməni-rus dostluğu məsələsini qabarıq şəkildə göstərərək öz mənfi əməllərinə rusları da qatmağa çalışmışdır. "Sobesednik" qəzetinin 30-cu nömrəsinə müsahibə verən Z.Balayan son zamanlar Dağlıq Qarabağda baş verən hadisələrdə ermənilər tərəfindən bir nəfər olsun belə rus əsgərinin öldürülmədiyini bildirmişdir. Əslində isə yaranmış vəziyyətin sabitləşdirilməsi məqsədi ilə Dağlıq Qarabağa göndərilmiş sıravi V.Kirilov, S.Mezensev, baş leytenant A.Lapatov və 8 nəfər sovet ordusunun rus mənşəli əsgərləri erməni yaraqlıları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Z.Balayanın erməni-rus dostluq əlaqələri haqqında yazdıqları da Dağlıq Qarabağın ermənilərə məxsusluğu haqqında sübuta yetirmək istədiyi cəfəngiyyatlardan seçilmir. Məhz özünün irəli sürdüyü fikirlərin cəfəngiyyat olmasını gizlətmək məqsədi ilə Z.Balayan "Ocaq" kitabının təkcə girişində 8 dəfə həqiqət sözü işlətmişdir.

Erməni millətçiliyni qızışdıran bu mənfur kitab ermənilərin müdriklik əta edən ən müqəddəs kitabı hesab olunur. Hətta erməni qızları ərə getdikdə valideynləri tərəfindən "Ocaq" kitabı ən qiymətli cehiz kimi hədiyyə edilir.

Qeyd olunmalıdır ki, "Ocaq" kitabı erməni millətçilyinin formalaşmasında tarix boyu söylənən boş və cəfəngiyyatla dolu iddiaları cəmləşdirmişdir. Belə olan halda isə bu kitab dünyada millətçilk, irqçilik kimi mənfi xüsusiyyətləri qızışdıran kitabların siyahısına aid edilməlidir. Çünki bu kitabın müəllifi Z.Balayan yazdıqlarının gələcək nəslə daha çox təsir edəcəyini qeyd etmişdir. Demək, belə çıxır ki, müasir zamanda erməni millətçiliynin qızışdırılmasında müstəsna rol oynamış "Ocaq" kitabı gələcəkdə erməni millətçilərinin törətdiyi faciələrin miqyasını daha da artıracaqdır.

"Ocaq" kitabı ermənilərdə türklərə, əsasən də azərbaycanlılara qarşı qisas hissini qızışdırır və onları müharibəyə çağırır. Misal olaraq, bu kitabda azərbaycanlılara qarşı 8 dəfə "baş kəsən türklər", 11 dəfə "peşəkar cəlladlar", 16 dəfə "vandal", 105 dəfə "varvar", 41 dəfə "gəlmə", 161 dəfə "uşaq başı kəsən" ifadələrinin işləndiyini göstərmək olar. Geniş mənada desək Z.Balayanın yazdığı "Ocaq" kitabı erməni millətçilərinin qanlı bayrağına çevrildi.

## “QARABAĞ” KOMİTƏSİNİN VƏ “KRUNK” TƏŞKİLATININ YARADILMASI. DAĞLIQ QARABAĞDA “MİATSUM” (“BİRLƏŞMƏ”) MİLLƏTÇİ HƏRƏKATININ BAŞLANMASI

1980-ci ilin sonlarında ermənilərin təxribatçı fəaliyyəti daha da fəallaşdı. Xüsusilə 1987-ci ildə İrəvan şəhərində təxribatçı “Qarabağ” komitəsinin yaradılmasından sonra erməni millətçiləri açıq planlar ortaya qoymağa başladılar. 1988-ci ildə “Qarabağ” komitəsinin Dağlıq Qarabağın ilhaqı ilə bağlı müxtəlif variantlı planı qəti şəkildə hazırlamışdı.

“Qarabağ” komitəsi tərəfindən DQMV-də guya ermənilərin hüquqlarının pozulması bəhanəsi ilə mitinqlər təşkil olundu. Həmin vaxt Silva Kaputikyanın rəhbərliyi ilə “Qarabağ” komitəsinın nümayəndə heyətini M.S. Qorbaçov qəbul etdi və onların tələblərini yerinə yetirəcəyinə söz verdi.

“Qarabağ” komitəsinın planlarına görə ərazi iddiaları Dağlıq Qarabağın Ermənistana ilhaqından sonra da davam etdirilməli idi. Məhz bu səbəbə görə Silva Kaputikyan demişdir: “Biz məqsədimizə nail olandan sonra da bu hərəkat xalqımızın iradəsinin ifadəsi kimi davam etdirilməlidir”.

1987-ci ildə Dağlıq Qarabağda “Qarabağ” komitəsinın şöbəsi hesab olunan terrorçu-separatçı “Krunk” təşkilatı yaradıldı. “Krunk” erməni dilində “durna” mənasını daşıyır, rəmzi mənada isə “ayrılıq”, “qəm-qüssə”, “kədər” kimi başa düşülür. Belə bir rəmzi mənanın qəbul edilməsi ilə ermənilər dünya ictimaiyyəti qarşısında özlərini “əzabkeş” bir xalq kimi təqdim etməyə cəhd göstərirdilər. Bununla yanaşı, “Krunk” sözünün baş hərfləri rus dilində “Komitet Revolyusionnoqo Upravleniye Naqornoqo Karabaxa” (“Dağlıq Qarabağın İnqilabi İdarə Komitəsi”) kimi də şifrələnirdi. Məhz elə bu səbəbə görə də “Krunk” təşkilatının 1988-ci ildə Xankəndində təşkil etdiyi mitinqdə erməni millətçiləri “ Lenin, Partiya, Qorbaçov” şüarlarını səsləndirmişdilər.

Hazırda Ermənistanın prezidenti olan R.Köçəryan 1988-ci ildə Dağlıq Qarabağda fəaliyyət göstərən “Krunk” təşkilatının ideoloji rəhbəri seçilmişdi. Həmin il iyun ayında “Krunk” təşkilatının fəal üzvləri SSRİ rəhbərliyindən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini tələb etməyə başladılar.

Azərbaycanda milli–azadlıq hərəkatının alovlanmasından, eyni zamanda SSRİ-nin iflasa doğru getməsindən Moskva çox narahat idi. Məhz buna görə də Moskva həm Azərbaycanda, həm də digər regionlarda vəziyyəti nəzarət altında saxlamaq niyyətində idi. Bu səbəblə də gözdən pərdə asmaq üçün 24 mart 1988-ci ildə SSRİ Ali Sovetinin qərarı ilə “Krunk” təşkilatı xalqlar arasında ədavətçi bir təşkilat kimi buraxıldı, təşkilata başçılıq edən Stepanakert tikiti malları kombinatının müdiri Arkadi Manuçarovun həbs olunması haqqında qərar

verildi. Lakin bu qərarın heç bir əhəmiyyəti olmadı. Əksinə, qərardan sonra erməni millətçiləri daha da fəallaşdılar. Belə ki, "Krunk" təşkilatının buraxılmasından sonra R.Köçəryan 1988-ci il fevralın 8-də "Miatsum" (birləşmə) adlı analoji hərəkat təsis etməyə müvəffəq oldu.

Ermənistanla birləşmək uğrunda yaradılmış "Miatsum" (birləşmə) hərəkatı Dağlıq Qarabağ erməniləri arasında qısa müddət ərzində genişlənərək sırf millətçilik xarakteri daşımağa başladı. Bu təşkilatın meydana gətirdiyi ədavətin ilk qurbanları Ermənistanda yaşayan azərbaycanlılar oldular. "Miatsum" direktorlar şurası və digər qeyri-formal təşkilatlar Dağlıq Qarabağın Ermənistana verilməsi tələbi ilə çıxışlarını genişləndirdilər.

1988-ci ilin iyun ayının 15-də Ermənistan SSR Ali Soveti DQMV-nin Xalq Deputatları Sovetinin xahişi ilə Dağlıq Qarabağın Ermənistanın tərkibinə qatılması haqqında antikonstitusion qərar qəbul etdi. 1989-cu ilin dekabr ayının 1-dən etibarən Ermənistan SSR Ali Soveti DQMV-ni Ermənistana birləşdirilməsi haqqındakı qərarına əsasən azərbaycanlıların muxtar vilayət ərazisindən nə yolla olursa-olsun çıxarılması prosesi sürətləndirildi.

18 iyun 1988-ci ildə Mərkəz ilk dəfə olaraq SSRİ Ali Soveti Rəyasət Heyəti səviyyəsində məsələni müzakirəyə qoydu. Lakin bu, hadisənin gedişində dönüş yaratmadı. Çünki Rəyasət Heyətində aparılan müzakirələr hadisənin real səbəblərini araşdırmaq, aradan qaldırmaq məqsədi güdmürdü. Əksinə, bu məqsəddən yayınmağa çalışırdı.

Törətdikləri cinayətlərə görə məsuliyyətə cəlb edilməyən erməni ekstremistləri azərbaycanlılar yaşayan rayon və kəndləri talan edirdilər. İyunun 20-də Ararat rayonunun daha 5 kəndinin 10 min nəfərə yaxın sakini əzəli Azərbaycan torpaqlarından qaçaraq güclə canını qurtardı.

## DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN ERMƏNİSTAN VƏ AZƏRBAYCAN ARASINDA ELAN OLUNMAMIŞ MÜHARİBƏYƏ ÇEVRİLMƏSİ

1988-ci ildən başlayaraq daha da fəallaşan erməni separatizmi açıq fəaliyyətə başladı. Süni şəkildə yaradılmış bu milli ədavətin ilk qurbanları qərbi azərbaycanlılar oldular. 1988- ci ildən "Türksüz Ermənistan" və Dağlıq Qarabaq uğrunda millətçi hərəkatın həyata keçirilməsi sürətləndi. 1988- ci ilin 25 yanvarında Ermənistanda yaşayan azərbaycanlıların ilk qrupu öz ata-baba yurdlarından didərgin salındı.

"Qarabağ" komitəsi, Daşnaksütyun partiyası "Krunk" və "Miatsum" hərəkatlarının fəaliyyətləri nəticəsində ermənilər tərəfindən azərbaycanlılara qarşı mütəmadi olaraq silahlı hücumlar təşkil edilir və maddi, mənəvi abidələr vandalizmə məruz qalırdı. Bütün bu çirkin işləri həyata keçirməkdə ermənilərin əsas məqsədi Qarabağ münaqişəsinin miqyasını genişləndirərək müharibəyə çevirmək idi. Çünki onlar müharibə vasitəsi ilə Dağlıq Qarabağı qısa müddət ərzində ələ keçirtməyə çalışırdılar. 1988-ci ildən erməni millətçilərinin Dağlıq Qarabağda həyata keçirdikləri separatizmə isə sovet rəhbərliynin laqeyd münasibəti nəticədə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qəsd kimi qiymətləndirilən elan olunmamış müharibəyə gətirib çıxartdı.

1989-cu il dekabın 1-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qəbul olunmuş heç bir hüquqi əsası olmayan qərara əsaslanaraq DQMV-nin müəssisələri 42 gün ərzində Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Sovet rəhbərliyinin ermənilərə göstərdiyi himayədarlığın nəticəsində, demək olar ki, DQMV-nin bütün əhəmiyyətli sahələri Azərbaycanın tabeliyindən çıxarılaraq Ermənistana birləşdirildi. Bununla kifayətlənməyən erməni millətçiləri Yerevandan Azərbaycana hərbi qüvvə göndərərək açıq təcavüzə başladılar.

Artıq başlanmış silahlı toqquşmanın qarşısını almaq üçün 1990-cı il yanvarın 15-də SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən "DQMV-də və bəzi başqa rayonlarda fövqəladə vəziyyətin tədbiq edilməsi haqqında" qərar qəbul olundu. Lakin bütün bunların vəziyyətin nizamlanması istiqamətində heç bir əhəmiyyəti olmadı. Çünki sovet rəhbərliyi tərəfindən Dağlıq Qarabağla bağlı qəbul edilən bütün qərar və müraciətlərdə təcavüzkarla təcavüzə məruz qalan tərəf bərabət tutulurdu. Bütün bunlar isə erməni təcavüzünə şərait yaratmaqda idi.

1990-cı ilin sonu, 1991-ci ilin əvvəllərində DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzünün genişlənməsi bu münaqişənin müharibəyə çevrilməsinə gətirib çıxartdı. Beləliklə də, xüsusilə SSRİ

rəhbərliynin dəstəyi nəticəsində Azərbaycana qarşı açıq-aşkar ərazi iddiaları irəli sürən erməni millətçiləri Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycan arasında elan olunmamış müharibəyə çevirdilər. O zamankı respublika rəhbərliynin bu hadisələrə seyrçi mövqe nümayiş etdirməsi Ermənistanın Azərbaycana qarşı təcavüzünü daha da şiddətləndirdi.

## AZƏRBAYCANLILARIN DAĞLIQ QARABAĞDAN ÇIXARILMASI

Dağlıq Qarabağda tüğyan edən erməni separatizminə Moskvanın dayaq durması nəticəsində bir qrup erməni millətçilərinin ideoloji təbliğatı və millətçi təşkilatları müstəsnalıq qazandı və Dağlıq Qarabağ münaqişəsi daha da alovlandı. Azərbaycanlıların öz ata yurdlarında genosidinin son – dördüncü mərhələsi başlandı. Bütün bunların həyata keçirilməsi üçün erməni millətçiləri tərəfindən əvvəlçədən hazırlıq görülmüşdü.

1988-ci il fevralın 19-da Yerevanda keçirilən ilk antitürk mitinqində “Ermənistanı türklərdən təmizləməli”, “Ermənistan təkcə ermənilərin olmalıdır” və s. millətçi şüarlar səsləndi. Fevralın 21-də Yerevanda qalmış son məscid erməni vandalları tərəfindən darmadağın edildi. Ermənistanın Qafan və Mehri rayonlarından azərbaycanlılar zorla öz evlərindən didərgin salındılar. Bu hadisələrlə əlaqədar ilkin mərhələdə dörd min nəfərədək adam ev-eşiyini atıb Azərbaycana pənah aparmaq məcburiyyətində qaldı.

Fevralın 24-də Əsgəran rayonunda ermənilər tərəfindən iki nəfər azərbaycanlının öldürülməsi vəziyyəti daha da kəskinləşdirdi. Bunun ardınca baş verən Sumqayıt hadisələri beynəlxalq ictimaiyyətin diqqətini fərqli istiqamətlərə çəkdi. Martın 10-da Yerevan şəhərinin cənubunda yerləşən Mehmandar kəndinin dörd azərbaycanlı sakini ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Martın 25-də isə Ararat rayonunun azərbaycanlılar yaşayan kəndlərində yüzdən çox ev talan edilib yandırıldı.

May ayında Yerevan yaxınlığındakı kəndlərə basqınlar təşkil edildi. Şirazlı kəndinin sakinləri SSRİ-Türkiyə sərhədində sığınacaq tapdı. 20 iyunda Ararat rayonunun 5 kəndinin 10 minə qədər sakini onlara qoşuldu. 1988-ci il ilin noyabr-dekabr aylarında Quqark rayonunda 70 nəfər azərbaycanlı soyqırıma məruz qaldı və nəhayət Ermənistanda bir nəfər də azərbaycanlı qalmadı. Onların son nümayəndələri olan Nüvədi kəndinin əhalisi də 1991-ci ilin avqustun 8-də bir gün ərzində rus əsgərlərinin köməyi ilə Ermənistandan qovuldu. 1988-ci ildən Ermənistanın 125 kəndindən 230 min nəfərə qədər azərbaycanlı qovuldu. Onlara məxsus 31 min ev, 165 kolxoz və sovxoz əmlakı talandı, 225 nəfər öldürüldü. Yüzlərlə adama işgəncə verildi, 1154 nəfər yaralandı.

Ermənistanla yanaşı, DQMV-dəki erməni separatçıları da azərbaycanlıları qovmaq məqsədi ilə fəal siyasi aksiyalara başladılar. Belə ki, ilk öncə DQMV-nin ərazisində yaşayan azərbaycanlıların kütləvi şəkildə işdən qovulması prosesinə rəvac verildi. Daha sonra isə erməni separatçıları tərəfindən DQMV-dən, xüsusilə Xankəndindən azərbaycanlıların kütləvi qovulması başlandı. Nəticədə təkcə

Xankəndindən 18 min azərbaycanlı qovuldu. Bununla kifayətlənməyən erməni silahlı quldur dəstələri DQMV-də erməni kəndlərinin əhatəsində olan azrbaycanlı kəndlərinə basqınlar təşkil etdilər. Mütəmadi şəkildə həyata keçirilən silahlı basqınların nəticəsində isə azərbaycanlı əhali öz doğma yurdlarını tərk etmək məcburiyyətində qaldı.

Beləliklə, 1988-ci ildən başlayaraq erməni separatizminin güclənməsi və Azərbaycanın ərazi bütövlüyünə qəsd siyasətinin həyata keçirtməsi nəticəsində DQMV-də yerli əhali olan azərbaycanlılar öz ərazisində qaçqın oldular.

## DAĞLIQ QARABAĞIN ERMƏNİSTAN HƏRBİ BİRLƏŞMƏLƏRİ TƏRƏFİNDƏN İŞĞALI

1992-ci illərin əvvəllərindən Ermənistan silahlı birləşmələri rus hərbi maşınının fəal yardımı ilə Qarabağın dağlıq hissəsində yerləşən azərbaycanlıların sonuncu yaşayış mənqələrinin işğalını başa çatdırdı. 1992-ci il mayın 8-də Azərbaycan xalqının qədim mədəniyyətə malik olduğunu canlı şəkildə nümayiş etdirən qədim şəhərlərindən biri olan Şuşa şəhəri erməni silahlı birləşmələri tərəfindən ələ keçirildi.

Şuşa şəhəri işğal edildikdən sonra Qarabağın dağlıq hissəsini Ermənistana birləşdirmək və erməni silahlı birləşmələrini Azərbaycan ərazilərində daha da möhkəmləndirmək məqsədi ilə ətraf rayonlara qarşı geniş miqyaslı hərbi əməliyyatlar keçirilməyə başlandı. 1992-ci il mayın 17-də erməni silahlı birləşmələri tərəfindən Laçın şəhəri işğal edildi və bununla da ermənilərin "humanitar dəhliz" adlandırdıqları Dağlıq Qarabağı Ermənistanla birləşdirən dəhliz təcavüzkarın ixtiyarına keçdi. Laçın işğal edildikdən sonra dəhliz vasitəsi ilə Ermənistan Respublikasından Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sürsatı, hərbi qüvvə gətirildi.

Beləliklə, rus hərbi maşınının fəal yardımı ilə Ermənistan hərbi birləşmələri tərəfindən işğal edilmiş Dağlıq Qarabağ bölgəsinin ətrafında yerləşən Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan Ermənistanın iddia etdiyi Dağlıq Qarabağ bölgəsindən 4 dəfə böyükdür. Daha dəqiq desək, Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş Dağlıq Qarabağın ərazisi 4.400 kv.km, Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən ərazilər isə 17.000 kv.km təşkil edir.

Ermənistanın başladığı təcavüzkar müharibədə Azərbaycan ərazisinin 20%-dən çox hissəsi işğal edilmiş, 20.000 nəfərdən çox Azərbaycan vətəndaşı həlak olmuş, 100.000 nəfər yaralanmış, 50.000 nəfər isə əlil olmuşdur. 1 milyondan çox azərbaycanlı öz ata-baba yurdlarından qovularaq qaçqın vəziyyətinə düşmüşdür.

Dağlıq Qarabağ ətrafındakı rayonların rus hərbi maşınının fəal yardımı ilə Ermənistan hərbi birləşmələri tərəfindən işğalı ilə əlaqədar, BMT Təhlükəsizlik Şurası 7 bəyanat və 4 qətnamə qəbul etmişdir. Belə ki, 1993-cü il aprelin 30-da Kəlbəcər rayonunun işğalı ilə əlaqədar 822, 1993-cü il iyulun 29-da Ağdam rayonunun işğalı ilə əlaqədar 853, 1993-cü il oktyabrın 14-də Füzuli, Cəbrayıl, və Qubadlı rayonlarının işğalı ilə əlaqədar 874 saylı qətnamələr qəbul edilmişdir. Lakin təəssüflə qeyd edilməlidir ki, BMT Təhlükəsizlik Şurası tərəfindən hər dörd qətnamə qəbul edilərkən Ermənistan təcavüzkar dövlət kimi tanınmamışdır. Əksinə, Şura tərəfindən qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı həyata keçirtdiyi təcavüz "Dağlıq Qarabağ və onun ətrafında baş

verən münaqişə", Ermənistanla Azərbaycan arasında baş verən müharibə isə Azərbaycanla Dağlıq Qarabağ arasında olan konflikt kimi qiymətləndirilmişdir.

BMT TŞ-nin daimi üzvü olan böyük dövlətlər münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində həll olunmasını tövsiyə etmişlər. BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistanın təcavüzkar bir dövlət kimi qəbul edilməməsi, bu günümüzə qədər Azərbaycanın işğal edilmiş ərazilərinin Ermənistan silahlı birləşmələrinin nəzarəti altında qalmasına şərait yaradan amillərdən biri kimi qiymətləndirilməlidir. Bununla yanaşı BMT TŞ-nin münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də ermənilərin məhəl qoymaması məhz Ermənistanın işğalçı dövlət kimi tanınmaması ilə bağlıdır.

## XOCALI FACİƏSİ (26 FEVRAL, 1992)

1988-ci ildə başlanmış Dağlıq Qarabağ münaqişəsi dövründə ermənilərin həyata keçirdikləri ən iri miqyaslı işğal və soyqırım əməliyyatı məhz Xocalıda baş vermişdir. Bunun səbəbi isə Xocalının geostrateji əhəmiyyəti ilə bağlı olmuşdur. Xocalı 2500-yə yaxın əhalisi olan və Xankəndindən 10 km cənubi-şərqdə, Ağdam-Şuşa, Əsgəran-Xankəndi yolunda yerləşən və Qarabağda hava limanı olan yeganə şəhər idi. Bundan başqa Xocalıda Azərbaycan xalqının bu ərazilərdə qədim dövrlərdən məskunlaşdığını və zəngin mədəniyyətə sahib olduğunu nümayiş etdirən kifayət qədər tarixi abidələr mövcuddur. Bunlardan Xocalı yaxınlığında yerləşən və e.ə. XIV-VII əsrlərə aid Xocalı-Gədəbəy mədəniyyətinə məxsus abidələrin adını çəkmək olar. Azərbaycan arxeoloqlarının bu ərazidə apardıqları qazıntılar nəticəsində buradan qədim dövrlərə aid daş sərdabələr, kurqanlar, nekropollar aşkar edilmişdir. Xocalıda aşkar olunan muncuqların birində Assur hökmdarı Adadnerarinin (e.ə.807-788) adı qeyd olunmuşdur.

1992-ci il fevralın 26-da erməni silahlı quldur birləşmələri tərəfindən soyqırım həyata keçirilən və yer üzündən silinən Xocalı şəhərinin əhalisi əsasən üzümçülük, heyvandarlıq və arıçılıqla məşğul idi. Şəhərdə tikiş fabriki, 2 orta və 2 natamam orta məktəb fəaliyyət göstərirdi. Xocalının əsas inkişafı və şəhərə çevrilməsi prosesi 1980-ci ilin axırlarından başlamışdır. Həmin illərdə baş vermiş məlum səbəblərlə bağlı Xocalıya ermənilər tərəfindən Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar və Fərqanədən qaçqın düşmüş 100-ə yaxın məhsəti türkü məskunlaşmışdır. Əhalinin artımı ilə bağlı Xocalıda yeni yaşayış binaları tikilmiş, sənaye obyektlərinin filialları və başqa müəssisələr açılmışdır.

Ermənilər Xocalını plotsdarm adlandırırdılar. Onların əsas məqsədi bu şəhəri işğal edərək əhalisinə qarşı soyqırım həyata keçirtmək və bununla da Əsgəranla Xankəndini birləşdirən dəhlizi açmaqdan ibarət olmuşdur.

Xocalı şəhəri demək olar ki, 1991-ci il oktyabrın əvvəllərindən artıq blokada şəratində yaşayırdı. Oktyabr ayının 30-dan isə Xocalı ilə avtomobil nəqliyyatı və teleqraf əlaqələri tamamilə kəsilmişdir. Xocalı ilə nəqliyyat əlaqəsi yalnız vertalyot vasitəsi ilə həyata keçirilirdi. 1992-ci il yanvarın 28-də Xocalı hava limanından 40 nəfər sərnişinlə dolu olan vertalyotun Şuşa üzərində erməni quldurları tərəfindən vurulmasından sonra bu nəqliyyat vasitəsi ilə də əlaqə kəsilmiş oldu. Yanvar ayının 2-dən şəhərə elektrik enerjisinin verilməsi dayandırıldı. Xocalılar şəhəri rəsmi Bakının heç bir köməkliyi olmadan özünümüdafiə dəstələri hesabına qoruyurdu. Rəsmi Bakı isə Xocalı faciəsinin törədilməsi üçün şəraitin yaradılmasında bilavasitə biganəlik və laqeyidliyi ilə müstəsna rol oynamışdır. Bunun səbəbi isə Azərbaycanın siyasi hakimiyyətində səriştəsiz və xəyanətkar adamların əyləşməsi idi.

Bu xoşagəlməz hadisələr baş verdiyi zaman münaqişənin tənzimlənməsi üçün fevralın 12-də regiona ATƏT-in nümayəndələri səfər etmişdilər. ATƏT nümayəndələri Dağlıq Qarabağa və Yerevana səfər etməyi planlaşdırmışdılar. Lakin həmin gün erməni silahlı quldur birləşmələri tərəfindən Şuşanın Malıbəyli və Quşçu kəndləri işğal olundu. Ermənilərin beynəlxalq hüquq normalarını pozmaları səbəbindən heç bir nailiyyət əldə edə bilməyən ATƏT-in nümayəndələrindən sonra regiona vasitəçi missiyası ilə İran İslam Respublikasının xarici işlər naziri A.Ə.Vilayəti səfər etmişdir. O, fevral ayının 25-də Azərbaycan hakimiyyətinin rəsmi şəxsləri ilə görüş keçirərək fevralın 27-də Qarabağa, sonra isə Ermənistana səfər etməli idi. Bununla əlaqədar olaraq fevralın 27-dən martın 1-ə qədər hər iki tərəf arasında atəşkəs rejiminə riayət olunması üçün razılıq əldə olunmuşdu. Nəticədə erməni tərəfi bu atəşkəsi pozaraq vəziyyəti daha da ağırlaşdırdı. Deməк, münaqişənin sülh yolu ilə tənzimlənməsi istiqamətində göstərilən hər iki cəhdin qarşısı ermənilər tərəfindən alınmış oldu.

1992-ci il fevralın 25-dən 26-a keçən gecə Rusiyaya məxsus 366-cı motoatıcı alayının zirehli texnikasının köməkliyi ilə erməni silahlı birləşmələri Xocalı şəhərinə hücuma keçdilər. Fevralın 26-da səhər saat beş radələrində erməni silahlı birləşmələri Xocalı şəhərini tamamilə işğal etdilər. Şəhərdə qalan əhali azərbaycanlıların üstünlüyü əldə saxladıqları ən yaxın yer hesab olunan Ağdam istiqamətində qaçmağa cəhd göstərdilər. Lakin əksəriyyəti qadın, uşaq və qocalardan ibarət olan Xocalı əhalisinin Ağdam istiqamətində hərəkət edərək erməni quldurlarından xilas olmaq cəhdləri baş tutmadı. Belə ki, Rusiyaya məxsus 366-cı motoatıcı alayın əsgərlərinin köməkliyi ilə erməni silahlı birləşmələri əliyalın Xocalı əhalisini qabaqlayaraq onlara qarşı soyqırım həyata keçirdi.

Erməni silahlı birləşmələrinin Xocalı şəhərində həyata keçirdiyi soyqırım əməliyyatı nəticəsində 450 nəfər insan vəhşicəsinə qətlə yetirildi, 400 nəfər yaralandı 80 nəfər itkin düşdü, 20 nəfər girov götürüldü, 800 nəfər müxtəlif səviyyələrdə zərər çəkdi. Qeyd etmək lazımdır ki, soyqırım nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynlərini, 130 uşaq bir valideynini itirmiş, 76 nəfər uşaq ağır yaralanmışdır. Dövlətə və insanlara kifayət qədər böyük maddi ziyan dəymişdir. Erməni silahlı quldur birləşmələri tərəfindən 5 mlrd. rubl məbləğində insanların şəxşi əmlakı talan və qarət olunmuşdur.


bon Summit 96

















## DAĞLIQ QARABAĞ KONFLİKTİ ÜZRƏ ATƏT-in MİNSK QRUPUNUN YARADILMASI (İYUN, 1992), ONUN FƏALİYYƏTİ

Azərbaycan Respublikası 1992-ci il yanvarın 30-da Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinin (ATƏM) üzvü oldu. ATƏM-in üzvü olan Azərbaycan Respublikasının ən böyük problemi Dağlıq Qarabağ münaqişəsi bu təşkilata üzv olan dövlətlərin diqqətini cəlb etmiş oldu. Çünki bu təşkilatın prinsiplərindən biri üzv dövlətin hər hansı bir probleminin digər üzv dövlətlərin diqqət obyektinə çevrilməsindən ibarət idi. Elə bu səbəbə görə də Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq əhəmiyyətli problemə çevrilməsi məhz Azərbaycan Respublikasının Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə üzv qəbul olunması ilə başlayır.

1992-ci il martın 24-də ATƏM-in Xarici İşlər Nazirləri Şurasının görüşü keçirilir. Görüşdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün bu münaqişə ilə bağlı sülh konfransı çağırılması qərara alınır. Qəbul olunan qərara müvafiq konfrans ABŞ, Rusiya, Türkiyə, Fransa, Almaniya, İtaliya, Çexiya, Slovakiya, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə Minskdə keçirilməli idi. Lakin həmin ilin may ayından başlayaraq Dağlıq Qarabağ və onun ətrafında baş verən münaqişənin miqyasının artması, xüsusilə Şuşa və Laçının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi və Azərbaycanda ictimai-siyasi vəziyyətin mürəkkəbləşməsi Minsk konfransının keçirilməsini təxirə saldı. Ümumiyyətlə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması üçün keçirilməsi nəzərdə tutulan Minsk konfransının təxirə salınmasının başlıca səbəblərindən biri də Azərbaycanda hakimiyyət uğrunda gedən mübarizələr idi. Səriştəsiz adamların hakimiyyət başına keçməsi və Heydər Əliyev kimi uzaqgörən və peşəkar siyasətçinin idarəçilik səlahiyyətlərinin məhdudlaşdırılması nəticəsində Azərbaycan xalqı böyük itkilərlə üzləşdi. Şübhəsiz ki, əgər Minsk konfransı ilkin mərhələdə təxirə salınmasa idi, Azərbaycanın itkiləri bir o qədər çoxluq təşkil etməzdi. Digər tərəfdən, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Minsk konfransı çərçivəsində aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqe tutması, Azərbaycanın o zamankı hakimiyyəti tərəfindən gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılmaması nəticəsində bir sıra böyük dövlətlərin Ermənistanı dəstəkləməsi sülh prosesinin ləngidilməsinə və münaqişənin miqyasının artmasına gətirib çıxartdı. Dağlıq Qarabağ münaqişəsi böyük dövlətlərin geosiyasi maraqlarının bir-birləri ilə ziddiyyət təşkil etdiyi bir problemə çevrilmişdir. Əsasən burada Rusiya ilə ABŞ və Qərbin böyük dövlətləri arasında yeni ziddiyyətlərin meydana gəlməsi müşahidə olunurdu. Rusiya bu münaqişənin sülh yolu ilə tənzimlənməsində Qərb dövlətlərinin daha üstün mövqedə durmasını narazılıqla qəbul edirdi. Düzdür, Minsk qrupunun yaradılması təşəbbüsünü Rusiya dövləti rəsmi şəkildə müdafiə etmişdir,

lakin Rusiya dünyanın əhəmiyyətli geosiyasi ərazisi olan Qafqazda zəifləyən ictimai-siyasi nüfuzunu yenidən bərpa etmək istəyirdi. Dağlıq Qarabağ münaqişəsi baş verən gündən keçmiş SSRİ və sonralar da Rusiya Federasiyası Ermənistanı dəstəkləməklə nəinki Dağlıq Qarabağ münaqişəsinin, hətta milli münaqişələr ocağına çevrilmiş Qafqazın problemlərinin həllində yeganə nüfuz sahibi olduğu imicini yaratmağa cəhd göstərirdi. Belə bir imicin formalaşdırılması istiqamətində fəaliyyət göstərən Rusiya Qərb dövlətlərinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi prosesində iştirakını səmimiyyətlə qəbul edə bilməzdi. Rusiya hər şeydən öncə ümumi şəkildə Qafqazda baş verən siyasi və etnosiyasi münaqişələrdən istifadə edərək öz zəifləmiş mövqelərini bərpa etmək niyyətində idi.

Bu məqsədlə Rusiya hər şeydən öncə, Azərbaycanda hakimiyyət zəifliyindən istifadə edərək öz təzyiqlərini artırmağa başladı. Belə ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi üçün Rusiya münaqişə bölgəsinə yalnız onun sülhməramlı qoşunlarının yeridilməsinə cəhd göstərdi. Lakin az sonra bu işin baş tuta bilməyəcəyini dərk edən Rusiya Ermənistana hərbi yardım göstərməyə başladı. Rusiya Ermənistanı silahlandırmaqla münaqişə bölgəsində vəziyyəti daha da ağırlaşdırırdı. Ermənilər isə onların arxasında dayanan qüdrətli bir dövlətə arxayın olaraq hərbi əməliyyatları gücləndirdilər. Belə olan halda isə bu münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində aparılan danışıqların səmərəliliyi təmin edilmədi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizama salınması prosesinin yalnız 1993-cü ildən başlayaraq Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə səmərəliliyi təmin edildi. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması məsələsini xarici siyasətinin başlıca prioritetinə çevirdi. Heydər Əliyev dünyanın bir sıra böyük dövlətlərinin başçıları ilə keçirdiyi görüşlərdə Azərbaycan həqiqətlərini və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması məsələlərini müzakirə obyektinə çevirdi. Demək olar ki, Heydər Əliyev hakimiyyətə yenidən qayıtdıqdan sonra dövlət başçıları və nümayəndə heyətləri ilə keçirdiyi görüşlərlə böyük dövlətlərin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınmasında maneə olan siyasi maraqlarının neytrallaşdırılmasına nail oldu.

Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üçün böyük dövlətlərin başçıları ilə apardığı müzakirələr bu problemin yenidən ATƏT-in gündəliyinə salınmasına gətirib çıxartdı. Belə ki, bütün əhəmiyyətli beynəlxalq təşkilatlarda olduğu kimi ATƏT-in fəaliyyətində də əsas rolu dünyanın böyük dövlətləri icra etməkdədir. Qısa müddət ərzində Heydər Əliyev öz siyasi bacarığı ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində ATƏT-i səmərəli fəaliyyət göstərməyə sövq etdirdi. O, münaqişənin sülh yolu ilə tənzim-

lənməsi üçün ATƏT-in zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə ciddi müzakirələr aparır, bu problemin sülh yolu ilə nizamlanmayacağı təqdirdə nəinki Azərbaycanda, hətta bütün Qafqazda baş verəcək geosiyasi fəlakətlərin miqyasını və xoşagəlməz nəticələrini beynəlxalq forumlarda dünyanın aparıcı dövlətlərinin başçılarına və ictimaiyyətinə çatdırırdı.

Dağlıq Qarabağ münaqişəsini ATƏT-in prinsiplərinə uyğun olaraq üzv dövlətlərin diqqət obyektinə çevrilməsinə maneə törədən səbəblərdən biri də münaqişə aparan tərəflərin danışıqlara gələ bilməməsi idi. Bu məsələdə də Heydər Əliyev ardıcıl səylər göstərərək Ermənistan prezidenti ilə danışıqlar aparmağa nail oldu. Bundan başqa münaqişənin sülh yolu ilə nizamlanması üçün Azərbaycanda dövlətçilik prinsiplərinin möhkəmləndirilməsi prosesi həyata keçirilməyə başladı. Məhz Heydər Əliyev tərəfindən respublikada ictimai-siyasi sabitliyin yaradılması, iqtisadiyyatda baş verən tənəzzülün dayandırılması, ölkədə hərc-mərclik yaradan silahlı qüvvələrin zərərsizləşdirilməsi istiqamətində atdığı qəti addımlar münaqişənin sülh yolu ilə nizamlanması prosesinə əhəmiyyətli təsir göstərdi.

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ATƏT-ə üzv olan dövlətlərin başçıları ilə danışıqlar aparan Heydər Əliyev bu münaqişənin təkcə Azərbaycanın deyil, bütün Qafqazın təhlükəsizlik problemi olduğunu çatdıra bildi.

1994-cü il mayın 12-də atəşkəs haqqında razılığın əldə olunması və ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm şəkildə danışıqların başlanması məhz Heydər Əliyevin bu istiqamətdə apardığı ciddi və qətiyyətli fəaliyyətin əyani göstəricisi idi. Həmin il dekabrın 5-6-da isə Budapeştdə ATƏM-in zirvə toplantısı keçirildi. Zirvə toplantısında Dağlıq Qarabağ münaqişəsi gündəliyə çıxarılaraq Minsk konfransına iki həmsədrin təyin edilməsi, Budapeştdə həmsədrlik institutunun təsis edilməsi, beynəlxalq sülhməramlı qüvvələrin yaradılması və münaqişə bölgəsinə göndərilməsi qərara alındı. Zirvə toplantısında qərara alınan ən mühüm qərar Minsk konfransına iki həmsədrin- Rusiya və Finlandiyanın təyin edilməsi oldu. Çünki Heydər Əliyevin göstərdiyi səylərin nəticəsində bu qərarın qəbul olunması ilə Rusiyanın fərdi şəkildə "sülhyaratma" cəhdinin qarşısı alındı.

## DAĞLIQ QARABAĞ KONFLİKTİNİN BEYNƏLXALQ PROBLEMƏ ÇEVRİLMƏSİ

Azərbaycan Respublikanın milli təhlükəsizlik və xarici siyasət baxımından ən ağır problemi Dağlıq Qarabağ konfliktidir. 1993-cü ilə qədər Azərbaycan hakimiyyətində səriştəsiz adamların yürütdüyü uğursuz daxili və xarici siyasət Dağlıq Qarabağ konfliktininin beynəlxalq əhəmiyyətli problemə çevrilməsinə maneələr törətmişdir. Azərbaycan Respublikasının 1992-ci il yanvarın 30-da Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) üzvü qəbul olunması Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq əhəmiyyətli problemə çevrilməsinə şərait yaratsa da, Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışına qədər bu istiqamətdə heç bir irəliləyiş müşahidə olunmamışdır.

Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra xüsusi ilə xarici siyasət sahəsində həyata keçirdiyi məqsədyönlü tədbirlər Dağlıq Qarabağ konfliktini beynəlxalq bir problemə çevirmiş oldu. Hər şeydən öncə, Heydər Əliyevin bu sahədə göstərdiyi fəaliyyət Dağlıq Qarabağ konfliktinin təkcə Azərbaycana deyil, Qafqazda dövlətlərarası ictimai-siyasi, iqtisadi, mədəni əlaqələrə vurduğu ciddi zərbəni dünya dövlətlərinə və ictimaiyyətinə obyektiv şəkildə çatdırılmasına yönəlmişdir. Bu konflikt yalnız Heydər Əliyevin səyi nəticəsində beynəlxalq təşkilatlarda, forumlarda müzakirə obyektinə çevrildi. Artıq Heydər Əliyev Dağlıq Qarabağ konfliktini Qafqazda, Avrasiyada və Avropada həlli vacib olan mürəkkəb problemlərdən biri kimi dünyaya təqdim edə bildi.

Dağlıq Qarabağ konfliktinin beynəlxalq əhəmiyyətli problemə çevrilməsində Heydər Əliyevin xarici siyasətində əhəmiyyət kəsb edən karbohidrogen ehtiyatlarının dünyanın bir sıra böyük dövlətləri ilə birlikdə əldə etmək məsələsi böyük rol oynamışdır. 1994-cü ildə neft konsorsiumuna imza atmış dünyanın böyük dövlətləri Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə nizamlanması prosesində beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini müdafiə etməyə başlamışdılar. Bu isə konfliktin beynəlxalq əhəmiyyətini durmadan artırırdı.

1993-cü ildən etibarən Heydər Əliyev Dağlıq Qarabağ konfliktinin beynəlxalq problemə çevrilməsi üçün əməli tədbirlər həyata keçirməyə başladı. BMT və ATƏT ilə yanaşı Dağlıq Qarabağ konfliktinin nizama salınması məsələsi 1994-cü ildə Kasablankada, 1996-cı ildə Cakartada, 1997-ci ildə Tehranda, 2000-ci ildə isə Dohada keçirilən İslam Konfransı Təşkilatının zirvə toplantılarında və bu təşkilata üzv olan dövlətlərin xarici işlər nazirlərinin konfransında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilmişdir. Ümumiyyətlə, İslam Konfransı Təşkilatı Ermənistanı birmənalı şəkildə təcavüzkar dövlət kimi tanıyan və bununla da Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq problemə çevrilməsində əhəmiyyətli rol oynayan ilk beynəxalq təşkilatdır.

Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq problemə çevrilməsində Heydər Əliyevin səyi nəticəsində Azərbaycanın 2001-ci il yanvarın 25-də Avropa Şurasına bərabərhüquqlu üzv qəbul olunması müstəsna rol oynamışdır. Hər şeydən öncə Azərbaycan bu mötəbər quruma bərabərhüquqlu üzv qəbul olunmaqla Dağlıq Qarabağ konfliktinin beynəlxalq əhəmiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün yeni bir tribuna qazandı. Digər tərəfdən, AŞPA Azərbaycan nümayəndə heyətinə o zaman millət vəkili olan prezident İlham Əliyevin rəhbərlik etməsi bu konfliktin beynəlxalq əhəmiyyətli problem kimi dünya ictimaiyyətinə çatdırılması məsələsini intensivləşdirdi.

İlham Əliyevin siyasi qətiyyəti sayəsində 2001-ci il aprelin 24-27-də Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyəti tərəfindən Ermənistanın Azərbaycana təcavüz etməsini tutarlı faktlarla özündə əks etdirən sənədlər yığılmışdır. Ən təqdirəlayiq hadisə isə İlham Əliyevin səyi nəticəsində 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən "ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması" adlı yazılı bəyanat imzalanmışdır.

2001-ci il iyunun 25-29-da, sentyabrın 24-28-də, 2004-cü il aprelin 29-da keçirilmiş AŞPA-nın plenar sessiyalarında Dağlıq Qarabağ konfliktinin beynəlxalq problemə çevrilməsində mühüm işlər görülmüşdür. Heç şübhəsiz ki, bütün bunlar xalqımızın ümummilli lideri Heydər Əliyevin və onun layiqli davamçısı prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdikləri məqsədyönlü uzaqgörən siyasətin nəticəsidir.

## ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ ATƏŞKƏSƏ (12 MAY, 1994) NAİL OLUNMASI

1994-cü ilin fevral ayında MDB sədrinin tapşırığı ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı razılaşdırılmış sənədləri təşkilatın icraçı katibi bütün üzv dövlətlərin prezidentlərinə göndərdi. Bu sənədə əsasən münaqişənin siyasi həlli yollarının axtarılması istiqamətində hər iki respublika arasında MDB-nin vasitəçilik missiyasını yerinə yetirməyə hazır olduğu əks olunmuşdur. Bununla yanaşı, həmin sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində hər iki tərəf arasında təcili surətdə atəşkəsə nail olmaq prioritet məsələ kimi göstərilmişdi.

1994-cü il martın 9-da MDB-nin protokol qərarı ilə atəşkəsə nail olmaq üçün Rusiya Federasiyasının Azərbaycan və Ermənistan respublikaları arasında vasitəçilik missiyasını yerinə yetirməyə hazır olduğu bir daha bildirilmiş, həmçinin, ATƏT və BMT-yə bu məsələdə yardım göstərilməsi haqqında müraciət edilmişdir.

1994-cü il aprelin 15-də Azərbaycan və Ermənistan prezidentləri MDB-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məqsədi ilə hər iki tərəf arasında atəşkəsə nail olunmasını prioritet hesab etməsini və bu istiqamətdə RF-nin vasitəçilik missiyasını yerinə yetirməyə hazır olmasını təqdirəlayiq hal kimi qiymətləndirdilər.

MDB-nin Parlamentlərarası Assambleyasının 1994-cü il mayın 4-5-də Bişkekdə Ermənistan və Azərbaycan parlamentlərinin nümayəndələrinin görüşünü təşkil etməsi hər iki tərəf arasında atəşkəsə nail olunması istiqamətində atılmış ən mühüm addım oldu. Ermənistan parlamentinin nümayəndə heyətinə parlamentin spikeri B.Ararksyan, Azərbycan parlamentinin nümayəndə heyətinə Milli Məclisin sədr müavini A.Cəlilov, Dağlıq Qarabağ nümayəndə heyətinə isə tanınmamış “Dağlıq Qarabağ Respublikasının parlament spikeri” K.Baburyan başçılıq edirdi. Atəşkəsə nail olunması istiqamətində tərəflərin mövqelərinin yaxınlaşdırılması məqsədi ilə danışıqlarda MDB-nin Parlamentlərarası Assambleyasının sədri V.F.Şumeyko və katibi M.İ.Krotov, Qırğızıstan parlamentinin sədri M.Ş.Şerimkulov, Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi və Rusiya vasitəçilik missiyasının sədri V.N.Kazimirov iştirak etmişlər. Burada davam edən iki günlük ağır diskussiyalardan sonra Ermənistan və Dağlıq Qarabağ nümayəndələri atəşkəsin bağlanması ilə əlaqədar hazırlanmış Bişkek protokolunu imzaladılar. Azərbaycan nümayəndə heyətinin sədri A.Cəlilov isə protokolu imzalamağa tələsmədi. Bunun səbəbi isə həmin vaxt prezident Heydər Əliyevin

Brusseldə NATO-nun sessiyasında iştirak etməsi olmuşdu. A.Cəlilov atəşkəslə bağlı olan Bişkek protokolu ilə Heydər Əliyev tanış olduqdan sonra imzalanmasına israr etmişdir.

May ayının 8-də Rusiya vasitəçilik missiyasının sədri V.N.Kazimirov Bakıya səfər edərək atəşkəsə nail olunması üçün hazırlanmış Bişkek protokolu ilə Heydər Əliyevi tanış etmişdir. Bişkek protokolonun Azərbaycanın mənafeyinə xələl gətirmədiyindən əmin olduqdan sonra Heydər Əliyev bu protokolun imzalanmasına razılıq verir.

Atəşkəs rejiminin tətbiq edilməsi ilə bağlı mayın 9-da Bakıda, mayın 10-da Yerevanda, mayın 11-də isə Stepanakertdə müvafiq sənədlər imzalanmışdır. Beləliklə, 1994-cü il mayın 12-də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində nail olunmuş atəşkəs hazırkı vaxta qədər davam etməkdədir.

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN SÜLH YOLU İLƏ HƏLLİ İSTİQAMƏTİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN FƏALİYYƏTİ

1993-cü ildə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyev, ilk növbədə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətində fəaliyyətə başladı. Bunun üçün o, hər şeydən öncə, Azərbaycan ətrafında formalaşmış son dərəcə kəskin beynəlxalq siyasi vəziyyətin aradan qaldırılması üçün mühüm tədbirlər həyata keçirtdi. Bu tədbirlər çərçivəsində Heydər Əliyev əsasən dünyanın bir sıra böyük dövlətlərinə səfər edərək Azərbaycan həqiqətlərini onlara çatdırmağa müvəffəq oldu. Məhz bu səbəbə görə də 1993-cü ilin axırlarından başlayaraq Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Heydər Əliyevin həyata keçirtdiyi siyasi tədbirlər, eyni zamanda Azərbaycan diplomatiyasının qazandığı ən böyük uğur kimi qiymətləndirilməkdədir.

Müstəqillik və dövlətçilik mənafeylərini qorumaq, eyni zamanda Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Heydər Əliyevin ilk öncə beynəlxalq və məhəlli təşkilatlarla sıx əlaqələr yaratmağa nail oldu. Heydər Əliyevin sayəsində Azərbaycan diplomatiyası xüsusən BMT, Avropa Birliyi, Avropa Şurası, ATƏT, MDB, İKT, EKO, Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli təşkilatların vasitəsi ilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli yollarının müəyyənləşdirilməsi prosesini gücləndirdi.

Heydər Əliyev müstəqil dövlət quruculuğu istiqamətində Ermənistanın təcavüzünün dəf edilməsini, respublikanın pozulmuş ərazi bütövlüyünün bərpa olunmasını və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsini Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifəyə çevirdi. Çünki Azərbaycana rəhbərlik etmiş şəxslərdən fərqli olaraq Heydər Əliyev yaxşı bilirdi ki, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində güc tətbiq edilsə, Azərbaycan əvvəlcədən acı nəticəyə və uğursuzluğa məhkum olacaqdır. Məhz bu səbəbə görə də o, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı beynəlxalq aləmin dəstəyini qazanmaq üçün uğurlu siyasi tədbirlər həyata keçirtdi. Bu istiqamətdə həyata keçirilən siyasi tədbirlərin nəticəsində qısa müddətdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün Azərbaycan ayrı-ayrı nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin dəstəyini qazanmağa nail oldu.

1993-cü ilin axırlarından başlayaraq Heydər Əliyevin gərgin siyasi fəaliyyəti nəticəsinə Dağlıq Qarabağ probleminin sülh yolu ilə həlli istiqamətində hərtərəfli düşünülmüş konsepsiya hazırlanaraq ardıcıl surətdə həyata keçirilməyə başlanmışdır.

1994-cü ildə Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində Ermənistan və Azərbaycan arasında atəşkəs elan olunuqdan sonra atəşkəsin qorunub-saxlanması üçün hər iki respublikanın prezidentlərinin Moskvada görüşü keçirilmiş, Heydər

Əliyev bu görüşdə hər iki tərəfin atəşkəsin saxlanılmasının labüdlüyünü ilk dəfə bildirməsini mühüm hadisə adlandırmışdır. Ermənistan və Azərbaycan arasında atəşkəsə nail olunması isə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində atılmış ilk uğurlu addım hesab olunmaqdadır.

Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində həyata keçirtdiyi mühüm siyasi fəaliyyətlərdən biri ABŞ və Rusiya Federasiyası kimi dünyanın nüfuzlu dövlətləri ilə sıx əlaqələr yaratmağa nail olması idi. Məhz bunun nəticəsində 1994-cü ilin sentyabr ayının əvvəllərində ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbrayt Bakıya etdiyi səfər zamanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsinin bütün beynəlxalq birlik üçün sınaq olmasını bildirmişdir. Beləliklə, artıq rəsmi Vaşinqton Dağlıq Qarabağ məsələsində Azərbaycanın mövqeyini müdafiə etməyə başlamışdır.

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Heydər Əliyevin fəaliyyəti nəticəsində 1994-cü ildə İKT-nin Kasablankada keçirilmiş zirvə toplantısında, 1996-cı ildə Cakartada keçirilmiş xarici işlər nazirlərinin 24-cü konfransında, 1997-ci ildə Tehranda və Dohada keçirilmiş zirvə toplantılarında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilməklə yanaşı münaqişənin sülh yolu ilə tənzimlənməsi yolunda da bəyanatlar verilmişdir.

Heydər Əliyev münaqişənin sülh yolu ilə nizamlanması məqsədi ilə bir neçə dəfə Ermənistan prezidentləri ilə görüşlər keçirmiş və Azərbaycanın konstruktiv mövqeyini dünya birliyi qarşısında nümayiş etdirmişdir. Məhz Heydər Əliyevin bu istiqamətdə həyata keçirtdiyi hərtərəfli, düşünülmüş, ardıcıl və məqsədyönlü siyasətinin nəticəsində “Böyük Ermənistan” yaratmaq siyasəti yeridən erməni millətçilərinin təkcə Azərbaycanda deyil, bütün Qafqazda sülhün əleyhinə yönəlmiş əməlləri dünya ictimaiyyətinə çatdırılmışdır.

Heydər Əliyevin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində göstərdiyi misilsiz fəaliyyət Azərbaycan xalqının Qafqazda sülh və əmin-amanlığın hökm sürməsinin tərəfdarı olmasını ifadə edirdi.

## ATƏT-İN LİSSABON SAMMİTİNDƏ (1996, DEKABR) QARABAĞ PROBLEMİNİN SÜLH YOLU İLƏ HƏLLİ PRİNSİPLƏRİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

1996-cı ilin dekabr ayında Lissabonda Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın taleyi ilə bağlı dünya ictimaiyyətinin münasibətini müsbət yöndə dəyişən sammit keçirilmişdir. Lissabon sammitindən əvvəl Azərbaycanın torpaqları işğala məruz qaldıqca BMT-nin Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr XX əsrin sonunda azərbaycanlılara qarşı yönəlmiş erməni vandalizminin qarşısının alınmasında heç bir əhəmiyyətli təsir göstərə bilməmişdir. Belə ki, bu qətnamələr işğal faktını qəbul etməmiş, Ermənistanı işğalçı dövlət kimi tanımamış, erməni işğalçılığına son qoymaq və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək istiqamətində heç bir sanksiyanın tətbiq edilməsinə təşəbbüs göstərməmişdir. Məhz buna görə də Lissabon sammitində vəziyyət tamamilə ermənilərin xeyrinə idi. Dünya birliyi nəinki, Dağlıq Qarabağın, hətta Azərbaycanın ərazi bütövlüyünü belə öz sənədlərində qəbul etmək iqtidarında deyildilər. Belə olan halda isə Dağlıq Qarabağ münaqişəsinin ədalətli prinsiplər əsasında tənzimlənməsindən söhbət gedə bilməzdi. Azərbaycan tərəfinin isə öz ərazi bütövlüyünün pozulmaması şərti ilə münaqişənin ədalətli prinsiplər üzərində həll edilməsi ilə bağlı irəli sürdüyü təkliflər əhəmiyyətsiz hesab olunurdu.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sammitdə hökm sürən ağır vəziyyətdə pozitiv nəticələri təmin edən taktika və strategiya hazırlaya bildi. Belə ki, o, öz veto hüququndan istifadə edərək adi silahların məhdudlaşdırılması ilə bağlı ATƏT-in bütün yekun sənədlərinə, həmçinin Avropada təhlükəsizlik konsepsiyasına aid olan sənədlərə veto qoydu. Belə olan halda isə sammitin işinə və ATƏT-in nüfuzuna ciddi xələl gəlməsi təhlükəsi meydana çıxdı.

Azərbaycanın bu məsələdə öz mövqeyini dəyişməsi ilə bağlı dövlət başçılarının göstərdikləri səylərə baxmayaraq, Heydər Əliyev Azərbaycana qarşı qeyri-pozitiv mövqe nümayiş etdirdiyinə görə həm ATƏT-i, həm də ədalətsiz şəkildə qəbul edilmiş 907-ci düzəlişə görə ABŞ-ın mövqeyini ciddi tənqidə məruz qoydu. Azərbaycanın nümayiş etdirdiyi prinsipial mövqeyin nəticəsində ATƏT tərəfindən Qarabağ probleminin sülh yolu ilə həlli prinsiplərinin ədalətli şəkildə müəyyənləşdirilməsi baş tutdu. Ermənistan buna razılıq verməsə də, Minsk qrupunun Helsinkidə keçirilmiş görüşündə hazırlanmış prinsiplər sammit tərəfindən təsdiq edildi. Qəbul edilmiş prinsiplər aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– Azərbaycanın və Ermənistanın ərazi bütövlülüyünə riayət edilməsi;

– Azərbaycanın tərkibində Dağlıq Qarabağa yüksək idarəetmə statusunun verilməsi;

– Hər iki tərəfin münaqişənin nizamlanması ilə bağlı müəyyən edilmiş qaydalara əməl etmək şərti ilə Dağlıq Qarabağ və onun əhalisinin təhlükəsizliyinin təmin edilməsi.

Lissabon sammitinə qədər Ermənistan və Azərbaycan münaqişəsinin həlli üçün qəbul edilmiş beynəlxalq hüquq bazası mövcud olmamışdır. ATƏT-in ümumi prinsipləri və BMT-nin nizamnaməsi isə bu məsələyə öz müsbət təsirini göstərə bilmirdi. Belə ki, istər ATƏT-in prinsipləri, istərsə də BMT-nin nizamnaməsi "hər münaqişənin öz xüsusiyyətləri vardır" bəhanəsi ilə kənarlaşdırılırdı. Bundan başqa, Lissabon sammitinə qədər ermənilər Dağlıq Qarabağın hüquqi şəkildə ələ keçirilməsi istiqamətində Rusiya, ABŞ və digər dövlətlərdə fəaliyyət göstərən lobbilərindən geniş şəkildə istifadə edirdilər. Lissabon sammitindən sonra isə ermənilərin bütün ümidləri puça çıxdı.

Lissabon sammitində müəyən edilmiş hər üç prinsip Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması məsələsinin yalnız Azərbaycanın ərazi bütövlülüyü çərçivəsində mümkün olmasını əks etdirir. Bu faktın özü də erməni separatçıları üçün kifayət qədər ciddi bir zərbə hesab olunmaqdadır. Çünki erməni millətçilərinin əsas məqsədi "milli müqəddəratı təyinetmə" adı altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə nail olmaq idi.

Lissabon sammitində Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın əldə etdiyi uğurları yaxşı dərk edən Ermənistanın prezidenti L.Ter-Petrosyan regionda sülhün yaradılması istiqamətində addım atmış oldu. Lakin belə bir təşəbbüs onun separatçılar tərəfindən hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi.

Erməni millətçilərinin müharibədən qalib çıxaraq Dağlıq Qarabağı ələ keçirmək niyyətləri boşa çıxdı. Onların Dağlıq Qarabağı Ermənistana birləşdirilməsi ilə bağlı olan təşəbbüsləri ATƏT tərəfindən dəstəklənmədi.

Dağlıq Qarabağ münaqişəsinin ədalətli prinsiplər əsasında həll edilməsi üçün Azərbaycanın Lissabon sammitində qazandığı qələbə xalqımızın ümummilli lideri Heydər Əliyevin bütün Qafqaz xalqları qarşısında göstərdiyi misilsiz siyasi fəaliyyət kimi qiymətləndirilməkdədir.

## DAĞLIQ QARABAĞ MÜNAQİŞƏNİN HƏLLİ YOLUNDA ATƏT-in MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN FƏALİYYƏTİ

1992-ci ilin mart ayında yaradılmış Minsk qrupu ATƏT-in Azərbaycan üçün ən əhəmiyyətli və vacib strukturu hesab olunur. Bu strukturun əhəmiyyəti Ermənistan-Azərbaycan konfliktini nizama salmaq və Dağlıq Qarabağ problemini sülh yolu ilə nizama salmaq vəzifəsini daşıması ilə bağlıdır.

Minsk qrupu yarandığı ilk vaxtdan etibarən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətində heç bir əhəmiyyətli tədbir həyata keçirə bilmədi. Əksinə, beynəlxalq birliyin və ictimaiyyətin məsələyə biganə münasibəti nəticəsində Azərbaycanın 20% torpaqları ermənilər tərəfindən işğal edildi, 1 milyon azərbaycanlı isə öz evlərindən didərgin salındı.

Minsk qrupu tərəfindən Ermənistanın işğalçılıq siyasətinə qarşı öz mövqeyini nümayiş etdirməsi yalnız Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra baş verdi. Belə ki, 1993-cü ilin noyabr ayında ATƏT-in Minsk qrupunun üzvləri Azərbaycan torpaqlarının işğalının genişləndirilməsi ilə bağlı və Dağlıq Qarabağ probleminin həlli haqqında bəyanat verdilər.

ATƏT-in Lissobon zirvə görüşündə Azərbaycanın uğurlu qələbəsindən sonra, 1997-ci ildə Rusiya ilə yanaşı, ABŞ və Fransa nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu.

Lissabon prinsiplərinə əsaslanan Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağın ətrafında yerləşən və işğal altında olan 7 rayonun azad edilməsi ilə bağlı iki Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə bağlı isə 3 təkliflə çıxış etmişlər. Minsk qrupunun həmsədrləri 1997-ci ilin iyununda münaqişənin "paket", həmin ilin sentyabr ayında isə "mərhələli" həllindən ibarət ilk təkliflərini təqdim etdilər. Münaqişənin "paket" variantı ilə həlli Dağlıq Qarabağın statusu daxil olmaqla bütün məsələlərə eyni vaxta razılıq verilməsini, "mərhələli" variantı ilə həlli isə münaqişənin mərhələlərlə nizama salınması təkliflərini özündə əks etdirirdi.

Hər iki təklifdə Azərbaycan Respublikasının mənafeyinə zidd olan məsələlər vardır. Lakin Heydər Əliyev sülh prosesini canlandırmaq üçün bu təkliflərlə qismən razılaşsa da, Ermənistan tərəfi hər iki təklifi rədd edirdi. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin bu təkliflərlə qismən razılaşması qarşı tərəfin bu təklifləri rədd etməsi ilə nəticələnirdi. Belə bir siyasi addımı atmaqla Heydər Əliyev bütün dünya dövlətləri və ictimaiyyəti qarşısında Ermənistanın qeyri konstruktiv mövqedə dayanmasını nümayiş etdirirdi.

Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması prosesində qeyri-obyektiv təkliflər də irəli sürmüşdürlər. Lakin Heydər Əliyev öz siyasi qətiyyəti ilə bu kimi təkliflərin beynəlxalq hüquqa zidd olduğunu

isbat edərək dəyişdirilməsinə nail olmuşdur. Belə ki, 1998-ci ilin noyabrın 9-da həmsədrlər üçüncü təklif irəli sürdülər. Bu təkliflə "ümumi dövlət" ideyasına əsaslanaraq münaqişəni nizamlamaq nəzərdə tutulurdu. Heydər Əliyev belə bir təklifin dünya praktikasında mövcud olmadığını, ATƏT-in Budapeşt və Lissabon zirvə toplantılarında 53 dövlət tərəfindən qəbul edilən sənədlərinə və Azərbaycanın mənafeyinə zidd olmasını əsas tutaraq təklifi rədd etdi. 1999-cu il fevralın 8-də isə Minsk qrupunun həmsədrləri olan dövlətlərin başçılarına məktubla müraciət edərək onlar tərəfindən irəli sürülən üçüncü təklifin bütün beynəlxalq hüquqlara zidd olduğunu bildirərək hər üç dövləti münaqişənin sülh yolu ilə nizamlanması üçün ədalətli və tarazlı mövqe ilə səylərini artırmağa çağırdı.

Heydər Əliyevin ATƏT-in Minsk qrupu həmsədrlərinin qeyri-obyektiv təkliflərini rədd etməsi təkcə Azərbaycanda deyil, bütün Qafqazda sülhün yaranmasına xidmət edirdi. "Ümumi dövlət" prinsipi ilə münaqişənin həllini qəbul etmək heç şübhəsiz ki, Qafqazda mövcud olan digər münaqişələrin də bu yolla həll olunması təklifini aktuallaşdıraraq bütün regionda ictimai-siyasi gərginliyin daha da dərinləşməsinə gətirib çıxaracaq idi. Öz növbəsində "ümumi dövlət" prinsipi nizamlanma prosesini və ziddiyyətləri qismən də olsa dərinləşdirdi. Elə bu səbəbə görə də ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində göstərdiyi fəaliyyət səmərəsizliyə gətirib çıxartdı. Lakin Heydər Əliyevin münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində həyata keçirdiyi tədbirlər 1994-cü il dekabrın 5-6-da ATƏT-in Budapeştdə və 1996-cı ilin dekabrın 2-3-də Lissabonda keçirilmiş zirvə toplantılarında qəbul edilmiş və münaqişənin nizama salınmasının beynəlxalq hüquqi bazasını təşkil etmiş sənədlər çərçivəsindən kənara çıxmamışdır. O, münaqişənin sülh yolu ilə nizamlanması üçün ATƏT-in Minsk qrupu həmsədrlərinin sülhyaratma təkliflərinə hörmətlə yanaşmışdır.

## “AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİ HAQQINDA KONSTİTUSİYA AKTI”

1991-ci il oktyabrın 18-də Ali Sovet tərəfindən “Azərbaycan Respublikası Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı” qəbul edildi. Bununla Azərbaycanın dövlət müstəqilliyi bərqərar olundu.

Hakimiyyət başında olan mühafizəkarlar dövlət müstəqilliyi haqqında konstitusiya Aktının qəbul olunmasına baxmayaraq, M.Qorbaçovun yeni ittifaq üçün iqtisadi baza yaratmaq məqsədilə irəli sürdüyü iqtisadi birlik haqqında müqavilə bağlamağa cəhd göstərirdilər. Ali Sovetdə təmsil olunan müxalifət qüvvələri bu kimi müqavilənin bağlamaq təşəbbüsünə Azərbaycanın qoşulmasına öz etirazlarını bildirdilər. Əksinə, onlar Azərbaycan Respublikasının başqa respublikalarla birtərəfli iqtisadi müqavilələr bağlamasını tələb etdilər. Lakin siyasi hakimiyyətdə olan qüvvələr ikili oyun oynayırdılar. Bir tərəfdən xalqın etirazının yenidən yüksəlməsindən ehtiyat edərək dövlət müstəqilliynin möhkəmləndirilməsi istiqamətində özlərini fəal göstərir, digər tərəfdən isə Moskva ilə əlaqələrinin pozulmamasına cəhd edirdilər. Elə buna görə də noyabrın 14-də Novo-Oqoryovoda yeni dövlətlərarası birlik- “Suveren dövlərin İttifaqı”nı yaratmaq niyyətini bildirən 7 respublika arasında Azərbaycan da vardı. Yalnız respublikalarda etirazların güclənməsi bu müqavilənin imzalanmasına mane oldu. Belə olan halda isə M.S.Qorbaçov müqaviləni təkcə imzalamaq məcburiyyətində qaldı.

Moskva Azərbaycanın müstəqilləşmək siyasətinə mane olmaq üçün Dağlıq Qarabağda onsuz da ağır olan vəziyyəti daha da ağırlaşdırdı. Moskvanın köməkliyi ilə erməni separatçıları keçmiş Şaumyan kənd, rayon xalq deputatları Sovetlərinin birgə sessiyası adlandırılan yığıncaqda üzdəniraq “Dağlıq Qarabağ Respublikası”nın yarandığını elan etdikdən sonra Artsax xalq azadlıq ordusunu təşkilati cəhətdən formalaşdıraraq oktyabrın 29-da Artsax xalq cəbhəsi təşkil olunduğunu bildirdilər. Bütün bunların qarşısının alınması istiqamətində əməli tədbirlər görməkdə acizlik göstərən Azərbaycanın siyasi hakimiyyəti noyabrın 26-da Ali Sovetin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin statusunu ləğv etməklə məsələnin həlli üçün ciddi tədbir gördüyünü elan etdi. Şübhəsiz ki, həmin vaxt təkcə Dağlıq Qarabağ Muxtar Vilayətinin statusunu ləğv etməklə kifayətlənmək olmazdı. Qeyd etdiymiz kimi, Dağlıq Qarabağda güclənən erməni separatizminin qarşısını vaxtında almaq üçün heç bir real əməli tədbirlər görülməmişdir. Belə olan halda isə yaranmış vəziyyət Azərbaycanın müstəqilləşmək siyasətinin əleyhinə yönəlmişdir.

Bir müddət sonra yenidən müxalifət xalqı fəaliyyətsiz iqtidara qarşı qaldıraraq hakimiyyətə tabe olmamağa çağırdı. İqtidar düşdüyü ağır vəziyyətdən çıxmaq üçün oktyabrın 3-də AXC rəhbərliyi ilə görüş keçirir və bu görüşdə yeni,

çevik ali qanunverici orqan-respublikanın xalq deputatlarından Milli Şura yaradılması haqqında razılıq əldə olunur. A.Mütəllibov hakimiyyəti əldə saxlamaq üçün məcburiyyət qarşısında qalaraq Azərbaycanın müstəqilləşmək siyasəti istiqamətində müəyyən tədbirlər həyata keçirməyə başlayır. Belə ki, Prezident idarəsi yaradılır, rayonlarda, şəhərlərdə və şəhər rayonlarında icra hakimiyyəti başçısı, dövlət katibi və dövlət müşavirləri vəzifələri təsis olunur. Lakin real nəticəyə malik olmayan bu cüzi tədbirlər A.Mütəllibovun hakimiyyətinin mövqeyini möhkəmləndirə bilmədi.

SSRİ-nin dağılması ərəfəsində, dekabrın 29-da Azərbaycan Respublikasında dövlət müstəqilliyi haqqında referendum keçirildi. Referendumda iştirak edən əhalinin 95%-i yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı. Bununla da Azərbaycan Respublikası müstəqil dövlət kimi fəaliyyətə başladı. 1992-ci ilin mayında Milli Məclis Azərbaycan Respublikası Dövlət himnini, 1993-cü il yanvarın 19 -da Dövlət Gerbini təsdiq etdi.

Dövlət müstəqilliyini əldə etdikdən sonra müstəqilliyin qorunub saxlanması problemi meydana çıxdı. Şübhəsiz ki, Azərbaycanın müstəqilliyini istəməyən qüvvələr müstəqilliyin əleyhinə daha da fəallaşdılar. A.Mütəllibov iqtidarı isə Dağlıq Qarabağda genişlənən erməni təcavüzünün qarşısının alınmasında və müstəqilliyin qorunub-saxlanmasında maraqlı olmadığı üçün prezident kimi xalqın ona olan etimadını tamamilə itirdi. Lakin hakimiyyətdən rəsmən uzaqlaşdırılmasına baxmayaraq, Ali Sovetin 1992-ci il mayın 14-də keçirilən sessiyasında tərəfdarlarının təşəbbüsü ilə o, yenidən hakimiyyətə qaytarıldı. O, öz hakimiyyətini möhkəmləndirmək məqsədi ilə dərhal fövqəladə vəziyyət haqqında fərman imzaladı. Parlamentin 14 may tarixli qərarının Konstitusiyaya zidd olduğunu bəyan edən müxalifət isə iqtidara bu qərarı ləğv etmək barədə ultimatum verdi. Müxalifətin ultimatum müddəti qurtardıqdan sonra mitinqə toplaşaraq əsasən AXC liderlərinin başçılığı altında parlament binasına hücum etdilər. Müxalifətin hücumu nəticəsində Parlament binası, Prezident sarayı, Teleradio şirkəti ələ keçirildi. A.Mütəllibov isə Moskvaya qaçdı.

1991-ci il mayın 18-də parlamentin sessiyası keçirilərək İsa Qəmbərov Ali Sovetin sədri seçildi, həmin il iyun ayının 7-də isə keçirilən prezident seçkilərində AXC-nin sədri Əbülfəz Elçibəy prezident seçildi. Bununla da Azərbaycanda AXC-Müsavat çütlüyünün hakimiyyəti başlandı.

Qeyd etmək lazımdır ki, Azərbaycan xalqının dövlət müstəqilliyni əldə etməsində Heydər Əliyevin əhəmiyyətli rolu vardır. Əvvəla, 1969-cu ildən başlayaraq onun Azərbaycanın bütün sahələrinə gətirdiyi dinamik inkişaf SSRİ-nin süqutu ərəfəsində milli-azadlıq mübarizəsinin aparılması və respublikanın müstəqil bir dövlət kimi fəaliyyət göstərə bilməsinə geniş şərait yaratmışdır. 20 Yanvar faciəsindən sonra Heydər Əliyevin öz xalqı naminə yenidən siyasi fəa-

liyyətə başlaması Azərbaycanın müstəqilliyi uğrunda xalq hərəkatına misilsiz dəstək kimi qiymətləndirilməlidir. Heydər Əliyevin 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin iclasında etdiyi çıxışda Dağlıq Qarabağ və onun ətrafında baş verən xoşagəlməz hadisələrin dərin köklərini aşkara çıxartması, 20 Yanvar faciəsinin baş verməsində və erməni təcavüzünün qarşısının alınmamasında şəxsən M.S.Qorbaçovu və respublika rəhbərliyini dəqiq sübutlarla ittiham etməsi, əsrlər boyu Azərbaycan xalqı üçün Vətən, torpaq, azadlıq anlayışının mənəvi əhəmiyyət daşıdığını, torpağın ləyaqət, mənlik, namus və şərəfi əks etdirdiyini vurğulaması müstəqillik uğrunda gedən xalq hərəkatına mənəvi güc vermiş oldu.

Azərbaycan xalqının müstəqillik uğrunda apardığı mübarizənin maddi və mənəvi cəhətdən daha da kamilləşdirilməsində, yaranmış obyektiv şəraitdən ölkənin və onun insanlarının düzgün yararlanmasında 1990-cı ildən etibarən Heydər Əliyevin apardığı şəxsi siyasi mübarizələrin misilsiz əhəmiyyəti xalqı kortəbii mübarizəyə sürükləyən quvvələri də sarsıtdı. Elə bu səbəbə görə də AXC-dən ayrılan qüvvələr tərəfindən Xalq, Azadlıq, Dirçəliş, Azərbaycan Sosial-Demokrat, Azərbaycan Milli İstiqlal, Yeni Müsavat və s. partiya və təşkilatlar meydana gəlsə də, onlar xalq arasında kifayət qədər nüfuz əldə edə bilmədilər. Xalq hərəkatına xalqın mənəviyyatını öz siyasi nüfuz və səmimiyyəti ilə möhkəmləndirən, mətinləşdirən Heydər Əliyev dayaq durmaqda idi. Demblok isə yalnız parlamentdə formal şəkildə müxalifətə rəhbərlik etməklə məşğul idi.

Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilkin olaraq Türkiyə, sonra Rumıniya, Pakistan, İsveçrə, İran, ABŞ, Rusiya Federasiyası və başqa dövlətlər tanıdı. 1993-cü ilin əvvəllərində Azərbaycanın dövlət müstəqilliyini 116 dövlət tanımış, 70 xarici dövlət ilə diplomatik əlaqələr qurulmuşdu. Azərbaycan Respublikası 14 Beynəlxalq təşkilata üzv qəbul edildi. 1991-ci ildə İslam Konfransı Təşkilatına, 1992-ci ilin fevralında İqtisadi Əməkdaşlıq Təşkilatına, Helsinki müşavirəsinin yekun aktına və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müqaviləsinə, martın 2- də isə BMT-yə üzv qəbul edildi.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ HEYDƏR ƏLİYEVİN MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏSİ

Moskvada ciddi təqiblərə məruz qalan Heydər Əliyev 1990-cı ilin iyul ayında Naxçıvana qayıtdı. Naxçıvanda əhali artıq oyanmışdı. Mərkəz Naxçıvan MR-ə təzyiq göstərməyə cəhd etsə də, buna nail ola bilmədi. Xalqın tələbi ilə Naxçıvan Muxtar Respublikasının Ali Soveti 1990-cı il yanvarın 19-da SSRİ-i tərkibindən çıxmaq haqqında qərar qəbul etdi. Naxçıvanda Heydər Əliyev ruh yüksəkliyi və ümidlə qarşılandı. H.Əliyev Naxçıvanda siyasi fəaliyyətlə məşğul olmağa davam edir. Belə ki, iyulun 22-də Naxsıvan şəhər mərkəzi meydanında onun əhali ilə görüşü oldu. Məlumatlara görə, meydanda 30 minə qədər adam iştirak edirdi. Mitinqdə Heydər Əliyev çıxış edərək bildirdi ki, "Azərbaycan xalqı Respublikanın ərazi bütövlüyü, suverenliyi, dövlət müstəqilliyi və azad Azərbaycan uğrunda mübarizə aparacaqdır". 1991-ci il sentyabrın 4-də Naxçıvan MR Ali Məclisi sessiyası Azərbaycan Respublikası və Naxçıvan MR-in xalq deputatı Heydər Əliyevi Ali Məclisin sədri seçdi. Qeyd edək ki, sessiyada iştirak edən 75 deputatdan 70 nəfəri Heydər Əliyevin lehinə səs verdi, 5 nəfər isə bitərəf qaldı. Bu hadisə Naxçıvanın müqəddəratında müstəsna rol oynadı. Heydər Əliyev Naxçıvan MR-də mandat uğrunda səslərin 95%- ni toplayan yeganə şəxs oldu. Bu, Heydər Əliyevin siyasi nüfuz dairəsinin genişlənməsinə və partiyada ciddi siyasi mövqe dəyişiklərinə səbəb oldu.

Naxçıvan MR Ali Məclisi 1991-ci il sentyabrın 4–də cari ilin sentyabr ayının 8-nə təyin edilmiş Azərbaycan Respublikası prezident seçkilərinin Muxtar Respublika ərazisində dayandırılması haqqında qərar qəbul etdi. Bu qərarın qəbul edilməsi Azərbaycan Respublikası KP MK-nın I katibi A.Mütəllibovun alternativsiz prezidentliyə namizəd olması, təzyiq, qanunsuzluqlarla əsaslandırılmışdır. Qərar bəzi etirazlarla qarşılandı. Çünki bu qərar Naxçıvan MR-in Azərbaycandan ayrılmaq istəyi kimi qələmə verildi.

Qeyd edək ki, 1990-cı il yanvarın 19-da Bakıya qoşun yeridilməsi zamanı insan tələfatına səbəb olmuş Azərbaycan xalqına qarşı həyata keçirilmiş hərbi təcavüzdə A.Mütəllibovun iştirakına dair əsaslı təlimatlar vardı. A.Mütəllibov ölkədə dövlət çevrilişi etmiş SSRİ dövlət fövqəladə vəziyyət komitəsinin failiyyətini bəyənmişdir. Azərbaycan Respublikasının kommunist rəhbərliyi tərəfindən isə Naxçıvan MR Ali Məclisinə və respublika sakinlərinə hər cür təzyiqlər göstərilmişdir. Sessiyanın sonunda bir daha bəyan edildi ki, Naxçıvan MR Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Bəyanat Naxçıvan MR-in televiziyası və radiosu ilə oxunmuşdur.

Naxçıvan MR bu dövrdə həm də informasiya blokadasına alınmışdır. Naxçıvan MR Ali Məclisi son beş gündə davam edən növbədənkənar sessiyası haqqında müntəzəm olaraq məlumatlar verilməsinə baxmayaraq, bu məsələ Azərbaycanın informasiya orqanları tərəfindən qətiyyən işiqlandırılmırdı. Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyəti Azərbaycan kommunist rəhbərləri tərəfindən təşkil olunmuş antidemokratik hərəkətlərə qarşı öz etirazını bildirmiş və onları Naxçıvan MR-də gedən demokratik prosesləri boğmaq cəhdi kimi qiymətləndirmişdir.

1991-ci il martın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası öz işini davam etdirdi. Əsas müzakirə mövzusu SSRİ-nin saxlanılıb, saxlanılmaması məsələsi oldu. Heydər Əliyev referendumda iştirak etməyin əleyhinə çıxdı. Bu əsaslandırılmış etiraza rəğmən Azərbaycanın referendumda iştirak etməsi səs çoxluğu ilə qəbul edildi. Azərbaycan kommunist partiyasının diktatura rejiminin mürtəce siyasəti və buraxdığı səhvlərin Azərbaycanda vəziyyətin ağırlaşmasının səbəbi kimi izah edən Heydər Əliyevə qarşı yenidən parlamentdə təzyiqlər göstərildi. Bu sessiyadan sonra Heydər Əliyev 1993-cü il iyunun 9-dək Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında iştirak etmədi.

Naxçıvan MR Ali Məclisinin martın 14-də keçirdiyi I sessiyası referendumda iştirak etməməyi qərara aldı. Naxçıvan MR-in iştirakı olmadan martın 17-də Azərbaycanda saxta yolla SSRİ-nin saxlanılması barədə referendum keçirildi. Bu referendumda Naxçıvan MR-in seçicilərinin cəmi 20%-i iştirak edirdi.

İlk vaxtlar milli azadlıq hərəkatına rəhbərlik edən AXC isə sonralar öz mövqeyini zəiflətdi və iqtidarla sövdələşmələrə getdi. Onlar 1990-cı ilin may ayında Məşvərət Şurası yaratdılar. Məşvərət Şurasının razılığı ılə Azərbaycan SSR Ali Sovetinin sessiyasında mayın 19-da prezident vəzifəsi təsis edildi. İyulda Ali Sovetdə keçirilən seçkilərdə "demblok" 360 deputat mandatından cəmi 30-nu qazandı. Milli azadlıq hərəkatında yeni liderə ehtiyac vardı. Bu baxımdan Heydər Əliyevin qayıdışı müstəsna əhəmiyyət kəsb edirdi.

Heydər Əliyevin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan parlamentinin sessiyası Naxçıvan MSSR–in adından "Sovet Sosialist" sözlərini götürdü və "Ali Sovet" sözunu "Ali Məclis" ilə əvəz etdi. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edildi. Eyni zamanda Azərbaycan Demokratik Respublikası dövründə mövcud olmuş üçrəngli dövlət bayrağını bütövlükdə Azərbaycan SSR-in dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilməsi haqqında qərar qəbul edildi. Həmçinin, Naxçıvan MR-in digər rəmzi – dövlət gerbi haqqında məsələ öyrənilib Naxçıvan MR-in Ali Məclisinin müzakirəsinə verilməsi nəzərdə tutuldu.

Naxçıvan MR-in Ali Məclisi milli azadlıq hərəkatını boğmaq üçün SSRİ rəhbərliyinin 20 Yanvarda Bakıda törətdiyi cinayətə düzgün siyasi qiymət verdi. Naxçıvan MR-in Ali Məclisinin sədri kimi Heydər Əliyevin müstəqillik uğrunda apardığı mübarizənin məntiqi nəticəsi olaraq demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir neçə tarixi qərarlar qəbul etdi. Dövlətin adı – "Azərbaycan SSR" adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı. ADR-in bayrağı dövlət bayrağı kimi təsdiq edildi. Beləliklə, Heydər Əliyevin uzaqgörənliyini tarixin özü təsdiq etdi.

SSRİ süquta uğradı, 1991-ci il avqustun 30-da isə Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında" bəyannamə qəbul edildi. 1991-ci il oktyabrın 16-18-də Azərbaycan Respublikası Ali Sovetinin II sessiyasında dövlət müstəqilliyi haqqında Konstitusiya aktının layihəsinin müzakirəsi keçirildi. Oktyabrın 18-də Konstitusiya aktı qəbul edildi. Yalnız bir ay sonra, 1991-ci il noyabrın 15-də "Azərbaycan Respublikası dövlət müstəqilliyi üzrə respublika referendumunun keçirilməsi haqqında" Ali Sovet qərar qəbul etdi. Azərbaycan xalqı yekdilliklə respublikanın dövlət müstəqilliyinə tərəfdar çıxdı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin II sessiyasının "Azərbaycan Respublikası Dövlət Müstəqilliyi haqqında Konstitusiya aktı"nı qəbul etməsi Naxçıvanda yüksək əhval-ruhiyyə ilə qarşılandı. Lakin Heydər Əliyevin əleyhinə olan qüvvələr onun əleyhinə fəaliyyətlərini genişləndirməyə başladılar. 1992-ci il oktyabrın 24-də Azərbaycan Xalq Cəbhəsinin Naxçıvan şöbəsinin silahlı dəstələri və Ordubad rayon polisi tərəfindən dövlət çevrilişi cəhdi göstərildi. Öz növbəsində Ali Məclisin sədri Heydər Əliyev isə Xalq Cəbhəsinin rəhbərlərindən qanunsuz hərəkətlərinə son qoymağı tələb etdi. Dövlət çevrilişinə cəhd göstərən qüvvələr Heydər Əliyevin bu tələblərinə heç bir məhəl qoymadılar. Belə olan halda oktyabrın 25-də Heydər Əliyev Naxçıvan radiosu ilə əhaliyə müraciət etdi. Əhalinin təkidli tələblərindən sonra dövlət çevrilişinə cəhd göstərən qüvvələr geriyə çəkilmək məcburiyyətində qaldılar. Həmin gün Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası keçirilərək, 24 oktyabr dövlət çevrilişi pisləndi. Məclis Azərbaycan Xalq Cəbhəsi silahlı qüvvələrinin üç gün ərzində tərksilah olunması haqqında qərar qəbul etdi.

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Naxçıvanı erməni təcavüzündən qorumaq sahəsində böyük işlər görmüşdür. 1992-ci il mayın 18-də Naxçıvan MR-ə hərbi təcavüz başlanmışdır. Hadisə başlayan kimi Heydər Əliyev bu məsələ ilə bağlı təcili olaraq Ali Məclisin iclasında müzakirə keçirdi. Dərhal həm siyasi xarakterli tədbirlər, həm də müdafiə tədbirləri həyata keçirildi. Ermənilər Naxçıvana qarşı təcavüzə başladıqları ilk gündən Heydər Əliyev dünya ictimaiyyətinə, televiziya ilə respublika əhalisinə müraciət etdi. Bu məqsədlə

Heydər Əliyev Türkiyə ilə sıx əlaqə yaratdı. Türkiyənin Nazirlər Kabineti isə mayın 18-də Naxçıvana qarşı başlanmış erməni təcavüzünü pisləyən bəyanat verdi. Bəyanat dünyaya yayıldı. Heydər Əliyev 18 may bəyanatının mühüm cəhəti haqqında demişdir: "Türkiyə hökumətinin bu bəyanatda 1921-ci il Qars müqaviləsinə əsasən Naxçıvan MR haqqında xüsusi səs sahibi olması, qarant rolunu oynaması məsələsi qeyd olunub və bu dünyaya çatdırılıbdır".

Heydər Əliyevin həyata keçirtdiyi tədbirlərin nəticəsində artıq mayın 22-nə qədər 57 dövlət rəsmi surətdə Ermənistanın Naxçıvana hərbi təcavüzünü pisləmiş oldu.

1992-ci il mayın 28-də Sədərəkdə Araz çayı üzərində salınmış Naxçıvanla Türkiyə arasında körpünün açılışı oldu. Heydər Əliyev həmin körpünü arzu və ümidlərin körpüsü adlandırdı. Qeyd edək ki, Süleyman Dəmirəl də tədbirdə iştirak edirdi. Bu hadisə kommunist partiyası mərkəzi komitəsi tərəfindən mənfi qiymətləndirilmiş, onun qarşısını almaq üçün ciddi tədbirlər görülmüşdür. Mərkəzin Naxçıvana göstərdiyi bütün təzyiqlərə baxmayaraq, Heydər Əliyev Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsini davam etdirdi. Məhz bunu nümayiş etdirən hadisələrdən biri də Naxçıvan MR Ali Məclisinin "31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" qərar qəbul etməsi idi.

Heydər Əliyev Naxçıvan blokada şəraitində ola-ola istər daxildə, istərsə də xaricdə Türkiyə və İranın köməyi ilə ciddi tədbirlər gördü. 1992-ci il mayın 24-də Ankarada Türkiyə ilə Naxçıvan MR, 1992-ci il avqustun 24-də Tehranda İran İslam Respublikası ilə Naxçıvan MR arasında imzalanmış müqavilələrə əsasən Naxçıvana ərzaq və yanacaq məhsulları göndərildi. Eyni zamanda Heydər Əliyev Qərb ölkələri ilə də Naxçıvana yardım edilməsi haqqında danışıqlar aparırdı. O, ABŞ prezidenti Bill Klintonla əlaqə yaratdıqdan sonra ABŞ hökuməti Naxçıvana humanitar yardım göstərdi. Beləliklə, Naxçıvanın blokada şəraitində yaşaması Heydər Əliyevin sayəsində təmin edildi.

## GÜRCÜSTAN VƏ AZƏRBAYCANIN MDB-YƏ QƏBULA EHTİYATLA YANAŞMALARININ SƏBƏBLƏRİ

Sovetlər birliyi süquta uğradıqdan sonra beynəlxalq vəziyyət dəyişdi. Qarşı-qarşıya dayanmış iki blokun, əsasən də "sosialist lagerinin" maraqları və nüfuz dairəsi tamamı ilə zəiflədi. Bütün bunlar beynəlxalq siyasət üçün böyük bir qarşıdurmanın qarşısının alınması kimi qiymətləndirildi. Lakin SSRİ-nin süqutu onun ərazisində bir neçə milli münaqişənin başlanmasına gətirib çıxartdı. Beynəlxalq siyasətdə bu münaqişələr Avropanın sabitliyinin pozulmasına təhlükə törətmədiyi üçün qlobal təhlükə mənbəyi kimi qiymətləndirilməsə də possovet məkanında bu münaqişələr ictimai-siyasi əlaqələrə əhəmiyyətli şəkildə öz təsiri göstərdi.

SSRİ-nin süqutu ərəfəsində, xüsusi ilə Qafqaz milli və siyasi münaqişələr ocağına çevrildi. Əsasən Azərbaycan və Gürcüstanın üzləşdiyi Dağlıq Qarabağ, Osetiya və Abxaziya münaqişələri hər iki respublikanın ilkin mərhələdə MDB-yə qəbula ehtiyatla yanaşmalarına səbəb oldu. Çünki Azərbaycanın və Gürcüstanın ümumi inkişafına və müstəqilləşməsinə mane olan bu münaqişələrin qızışdırılmasında sovet idarəetmə sisteminin böyük rolu olmuşdur. SSRİ süquta uğradıqdan sonra isə Rusiya Federasiyası etnik separatizm meyllərindən istifadə edərək hər iki respublikanı təsir dairəsində saxlamağa cəhd göstərmişdir.

Sovetlər birliyi dağıldıqdan sonra başqa possovet regionlarında olduğu kimi Cənubi Qafqazda da 70 ilə yaxın bir dövr davam etmiş təsir mexanizmləri aradan qalxdı. Ermənistandan fərqli olaraq Azərbaycan və Gürcüstan respublikaları Qərbə inteqrasiya olunmağa üstünlük verdilər. Rusiya isə Cənubi Qafqazla bağlı öz xarici siyasətini ABŞ, Avropa İttifaqı və NATO-nun bu regiona doğru hərəkətinin qarşısını almaq, Azərbaycan və Gürcüstanın Qərbə meyllənməsinə mane olmaq və öz siyasi maraqlarını təmin etmək prinsipləri üzərində qurmuşdur. MDB-nin yaradılması isə Rusiya üçün daha çox bu prinsipləri həyata keçirmək məqsədi güdürdü. Rusiya MDB-nin vasitəsi ilə başqa regionlarda olduğu kimi Qafqazda da öz həyati mənafelərini təmin etməyə, Qərbin ictimai-siyasi, iqtisadi-mədəni təsirini zəiflətməyə, mənkəzdənqaçma meyllərini səngitməyə cəhd göstərirdi.

MDB çərçivəsində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, sərhədləri birgə mühafizə sistemi, vahid gömrük ittifaqının yaradılması planları Azərbaycan və Gürcüstanın bu təşkilata qəbuluna ehtiyatla yanaşmağa sövq edirdi. Çünki Rusiya bunların vasitəsi ilə hər iki respublikanın xarici siyasətini koordinasiya etmək imkanını malik olurdu. Bununla yanaşı, Rusiya ümumiyyətlə MDB-yə daxil olan respublikaların Qərb dövlətləri ilə əlaqələrinin müəyyənləşdirilməsinə səy göstərirdi.

Zəngin karbohidrogen yataqlarına malik olan Azərbaycan respublikası SSRİ-nin süqutundan sonra öz təbii sərvətlərinin dünya bazarına çıxarılması üçün müstəqil şəkildə nəqdiyyat xətləri seçmək imkanını əldə etmişdir. Rusiya isə əsas kommunikasiya xətlərinin, qaz və neft kəmərlərinin onun mənafeyinə uyğun olan ərazilərdən keçməsinə cəhd göstərirdi. Əks təqdirdə Rusiya bunu öz geostrateji və milli təhlükəsizliyinə xələl kimi qiymətləndirirdi. Bütün bunlar isə təbii olaraq Azərbaycanı MDB-yə qəbul məsələsində ehtiyatla yanaşmağa sövq edirdi.

Rusiya Gürcüstan və Azərbaycanın MDB-yə qəbul olması istiqamətində müəyyən ictimai-siyasi tədbirlər həyata keçirir, hətta təzyiqlər belə göstərirdi. Lakin üzdə hər iki respublikanın MDB-yə üzv olmaması məsələsinə təbii yanaşdığını nümayiş etdirirdi. Buna misal olaraq 1992-ci ildə RF-nin baş naziri E.Qaydarın Bakıya səfəri zamanı Azərbaycanın MDB-yə üzvlükdən imtina etməsini təbii bir proses kimi qiymətləndirməsini və bunun iki dövlət arasında mövcud olan münasibətlərə heç bir xələl gətirmədiyini bildirməsini göstərmək olar.

1992-ci ildən etibarən Sovet qoşunlarının Azərbaycandan çıxarılması prosesi başlandı. Şübhəsiz ki, həmin vaxt belə bir prosesin baş verməsi müstəqilliyə yeni qədəm qoymuş respublika üçün böyük bir hadisə kimi qiymətləndirildi. MDB çərçivəsində isə Rusiyanın respublikalarda olan hərbi bazalarının saxlanılması hətta müasir silahlarla təchiz edilməsi məsələsi Azərbaycanın MDB-yə qəbula ehtiyatla yanaşmasının səbəblərindən birinə çevrildi.

Rusiyanın MDB ölkələri üzərində iqtisadi və siyasi təsiri çox güclü idi. Bu özünü Gürcüstan və Azərbaycanda daha qabarıq şəkildə göstərməkdə idi. Hər iki respublika isə Rusiyanın, xüsusi ilə iqtisadi baxımdan təsirindən çıxmaq üçün öz iqtisadi problemlərinin həlli istiqamətində Qərbin aparıcı dövlətləri ilə münasibətlərin genişləndirilməsinə üstünlük verirdilər.

Şübhəsiz ki, Gürcüstan və Azərbaycanın MDB-yə qəbul məsələsində ehtiyatla yanaşmalarında həmin vaxt hər iki respublikanın siyasi hakimiyyətində səriştəsiz adamların olması da əhəmiyyətli rol oynamışdır. İstər Gürcüstan, istərsə də Azərbaycanın o zamankı rəhbərləri Qərblə Rusiya arasında manevrlər edərək ictimai-siyasi, iqtisadi, mədəni problemlərin həllinə və Rusiya Federasiyası ilə sivil münasibətlərin yaradılmasına nail ola bilməmişdirlər. Bu isə hər iki Cənubi Qafqaz respublikalarının Rusiya Federasiyası ilə münasibətlərinin daha da gərginləşdirilməsinə və MDB-yə qəbul məsələsində ehtiyyatla yanaşmalarına gətirib çıxartmışdır.

## GÜRCÜSTAN VƏ AZƏRBAYCANDA SİYASİ HAKİMİYYƏTDƏ BÖHRAN

1991-ci ilin sonları, 1992-ci ilin əvvəllərində Gürcüstan Respublikasında siyasi böhran dərinləşdi. Z.Qamsaxurdiyanın məhdud millətçiliyi və radikal mövqeyi Gürcüstanda vətəndaş müharibəsi vəziyyəti yaratdı. Siyasi böhranın vətəndaş müharibəsinə çevrilməsi ilə əlaqədar 1991-ci ilin axırlarında Gürcüstanda fövqəladə vəziyyət elan edildi.

1992-ci il yanvarın 1-də prezident qvardiyası ilə müxalifət arasında silahlı toqquşma baş verdi. Prezident qvardiyası hakimiyyətin zəifləmiş nüfuz dairəsini möhkəmləndirmək məqsədi ilə müxalifətin üzərinə geniş şəkildə silahlı hücum həyata keçirtdi. Lakin müxalifət qüvvələri qvardiyçılara möhkəm zərbə endirərək əks hücuma keçməyə müvəffəq oldular. Axşama qədər davam edən döyüşlərin nəticəsində müxalifət üstünlük əldə etdi.

Prezident qvardiyası və tərəfdarları əleyhinə silahlı mübarizə aparan müxalif qüvvələrin arasında Z.Qamsaxurdiya hökumətində baş nazir vəzifəsində işləmiş D.İoseliyaninin başçılıq etdiyi “Mxedrioni” (Atlılar) adlı hərbi quruma çevrilmiş təşkilat özünü daha fəal göstərdi. Bu təşkilat 1989-cu ildə xilaskarlar korpusu kimi meydana gəlmişdir. Bütün fəaliyyətinin əsas istiqamətini isə Qamsaxurdiyanın əleyhinə yönəltmişdir.

Üstünlüyü əldə etmiş müxalifətin Hərbi Şurası yaradılır. Bundan sonra isə demokratik qüvvələr qismən də olsa öz mövqelərini gücləndirməyə nail olurlar. Respublikada kütləvi toqquşmaların qarşısını almaq məqsədi ilə Hərbi Şura tərəfindən bir sıra qərarlar qəbul edilir. Belə ki, respublikada sabitliyin bərqərar edilməsi məqsədi ilə şəhər komendaturası və hüquq-mühafizə orqanları ilə birlikdə drujinaçı dəstələrin yaradılması elan olunur, Tbilisidə pasport rejimi tətbiq edilir, radio və televiziya nəzarətə götürülür. Z.Qamsaxurdiya isə öz yaxın tərəfdarları ilə birlikdə parlament binasının zirzəmisində gizlənmişdir.

1992-ci il yanvar ayının 14-də Gürcüstan Respublikası Ali Sovetinin sədri A.Asatiyani ilə deputatların görüşü keçirildi. Görüş zamanı vaxtı ilə müxalifətdə olan deputatlar tərəfindən baş verən hadisələrdə məsuliyyətin parlament çoxluğunun üzərinə qoyulması təklif olundu. Yanvarın 16-da isə Zuqdididə prezident tərəfdarlarının mitinqi keçirildi. Mitinqdə Z.Qamsaxurdiya çıxış edərək buraya toplaşanları Tbilisiyə yürüş etməyə çağırdı və vətəndaş müharibəsinin başlanmasını elan etdi. Yalnız Hərbi Şuranın və Müvəqqəti hökumətin həyata keçirtdikləri ciddi tədbirlərin nəticəsində geniş şəkildə baş verəcək vətəndaş müharibəsinin qarşısı alındı.

1992-ci il yanvarın 20-də Zuqdididə Hərbi Şuranın və Müvəqətti hökumət nümayəndələri artıq sabiq prezident hesab olunan Z.Qamsaxurdiyanın tərəfdarları ilə

danışıqlara başladılar. Sabiq prezidentin tərəfdarları Müvəqqəti hökumətə Qamsaxurdiyanın respublikanı tərk edərək Qərb dövlətlərindən birinə getməsinə köməklik göstərməsini xahiş etdilər. Hökumət nümayəndələri eks-prezidentin yazılı şəkildə müraciət etdiyi təqdirdə bu işə köməklik göstərəcəklərini bildirdilər.

Lakin Hərbi Şuranın məlumatına görə, dünyanın heç bir ölkəsi hakimiyyətdən uzaqlaşdırılmış Qamsaxurdiyanı qəbul etmək niyyətində olmadı. Belə olan təqdirdə Z.Qamsaxurdiya respublikanı tərk edərək yalnız Şimali Qafqazın ictimai-siyasi qeyri-sabit respublikası olan Çeçenistanın paytaxtı Qroznıda yerləşə bildi.

Yanvar ayının 21-22-də Z.Qamsaxurdiya tərəfdarları bir sıra terror aktları həyata keçirtdilər. Həyata keçirilmiş bu terror aktlarının nəticəsində Tbilisidə şəhərin mərkəzinə aparan körpü və Poti limanında yerləşən buğda anbarı partladılmışdır. Hərbi Şuranın məlumatına görə, həmin vaxt Zuqdididə 800 nəfər silahlı Qamsaxurdiya tərəfdarları mövcud idi. Silahlı dəstəyə isə Vaxtanq Kobaliya komandanlıq edirdi. Nəticədə Poti əhalisi Hərbi Şuraya və Müvəqqəti hökumətə Qamsaxurdiya tərəfdarlarından ibarət silahlı dəstənin buradan çıxarılması tələbi ilə müraciət etdilər.

Hakimiyyət uğrunda mübarizəsini davam etdirmək niyyətində olan Z.Qamsaxurdiya fevral ayının 20-də Çeçenistan respublikasının prezidenti C.Dudayevlə görüş keçirtdi. Görüş zamanı birgə fəaliyyət, inquşların torpaqlarının özlərinə qaytarılması və tarixi sərhədlərin toxunulmazlığı haqqında sənədlər imzalandı. Beləliklə, Z.Qamsaxurdiya rəsmi şəkildə hakimiyyətdən uzaqlaşdırılsa da, özünü Gürcüstanın qanuni prezidenti kimi aparmağa cəhd göstərirdi.

Z.Qamsaxurdiyanın güc yolu ilə yenidən hakimiyyətə qayıtmaq cəhdləri boşa çıxdı. Nəticədə o, Gürcüstanın qərb hissəsində yerləşən dağlarda gizlənmək məcburiyyətində qaldı. 1993-cü il dekabrın 31-də isə Gəlincik rayonunun Cixaşxari kəndində özünə sui-qəsd etmiş oldu.

Z.Qamsaxurdiya hakimiyyətinin yaratdığı siyasi böhran iqtisadi sahəyə də öz mənfi təsirini göstərdi. 1991-ci ildə Z.Qamsaxurdiyanın Rusiyaya qarşı elan etdiyi blokada Gürcüstan respublikasının iqtisadiyyatını iflic vəziyyətinə salan ən böyük amillərdən birinə çevrildi. Yaranmış yanacaq qıtlığı bu sahədə mövcud olan ən ciddi problemə çevrildi. Özbəkistan Respublikası Türkmənistan qazının öz ərazisindən keçməsinə qadağa qoyduqdan sonra isə bütün Gürcüstan ərazisinə qazın verilməsi dayandırıldı.

Müstəqilliyin ilk illərində büdcə təşkilatlarının məvacibləri 100% artırılsa da bu, əhalinin güzəranına heç bir müsbət təsir gösrmədi. Çünki respublikanın büdcə kəsiri 80% təşkil edirdi.

Minimal əmək haqqı 4600 kupon, orta əmək haqqı isə 15 000 kupon məbləğində olsa da, gündəlik tələbat üçün vacib olan malların qiymətləri yüksək idi.

Beləliklə, Gürcüstanda siyasi hakimiyyətdə baş verən böhran respublikanın mövcudluğunu təhlükə altına almışdır.

Gürcüstanda olduğu kimi Azərbaycanda da müstəqilliyin ilk illərində dövlət müstəqilliyinin mövcudluğunun təhlükə ilə üzləşməsinə gətirib çıxaran siyasi böhran baş verdi.

Dağlıq Qarabağda baş verən xoşagəlməz hadisələrdən aktiv şəkildə istifadə edən Xalq Cəbhəsi 1992-ci il may ayının 18-də, demək olar ki, inqilabi yolla hakimiyyəti ələ aldı və iyunun 7-də Ə.Əliyevin, Elçibəyin namizədliyini irəli sürərək prezident seçkiləri keçirtdi. Keçirilmiş seçkilərdə 76,3% səslə Ə.Elçibəy prezident kürsüsünü tutdu. Onun yaxın silahdaşlarından olan İsa Qəmbərov isə Milli Məclisin sədri vəzifəsinə seçildi.

Ə.Elçibəy öz komandası ilə hakimiyyətə yalnız xalqın üzləşdiyi bəlaları aradan qaldırmaq üçün gəldiklərini iddia etsələr də, nəticədə hakimiyyətdə siyasi böhran yaradaraq xalqı daha da ağır vəziyyətə saldılar. AXC-Müsavat cütlüyü hakimiyyətinin dövlət müstəqilliyini möhkəmləndirmək bəhanəsi ilə MDB-yə daxil olmaqdan imtina edərək yalnız Türkiyə Cümhuriyyəti ilə sıx əlaqələr yaratmaq niyyəti və bu istiqamətdə yürütdüyü uğursuz siyasət nəticəsində Azərbaycanın qonşuluğunda yerləşən Rusiya və İranla əlaqələrin pozulmasına gətirib çıxartdı.

Həmin dövr ABŞ Azərbaycan hökumətini respublikada demokratik azadlıqların olmaması və Ermənistana qarşı blokada tətbiq etməsi ilə bağlı ittihamlar irəli sürərək 907-ci düzəlişi tətbiq etdi. 1992-ci ildə ABŞ dövləti tərəfindən Azərbaycana qarşı tətbiq edilmiş 907-ci düzəlişin tətbiq edilməsi respublikanı siyasi dəstəkdən məhrum etdi.

Ermənistan-Azərbaycan cəbhəsində vəziyyət Azərbaycanın əleyhinə olaraq pisləşməyə başladı. Bunun səbəblərindən biri də orduya rəhbərlik edən hərbçilərin tez-tez dəyişdirilməsi, baş gərargahın işinin mənfi istiqamətdə qurulması, hərbi hissələrdə pozuculuqla məşqul olan adamların yüksək vəzifələr tutması, hərbi hissələrdən silah-sürsat, yanacağın mənimsənilməsi və hərb sənətini mükəmməl bilən sərkərdələrin ordudan uzaqlaşdırılması idi.

Hakimiyyət uğrunda gedən kəskin mübarizə nəticəsində ayrı-ayrı adamlar tərəfindən siyasi vəziyyət kəskinləşdirilir, torpaqlar demək olar ki, düşmənə döyüşsüz təhvil verilirdi.

Respublikada iqtisadi tənəzzül daha da dərinləşirdi. Müəssisələrdə istehsal gücünün 25-30%-indən istifadə olunurdu. 90-dan çox dövlətlə iqtisadi əlaqələr, kifayət qədər xarici firmalarla müştərək müəssisələrin yaradılmasına baxmayaraq respublikada hökm sürən dərin siyasi böhran iqtisadiyyatın inkişafını günbəgün aşağı salmaqda idi.

AXC-Müsavat çütlüyü hakimiyyətin yeni idarəçilik mexanizmini işə sala bilmədi. Bunun nəticəsində isə iqtisadiyyatın bütün sahələrində soyğunçuluq meydana gəlmişdi. Bir qrup adam tərəfindən respublikanın sərvətləri talanır, xaricə satılan malların müqabilində alınan valyuta isə xarici banklarda, şəxsi hesablarda saxlanılırdı. Cəmiyyətdə dərin təbəqələşmə hökm sürürdü. Əhalinin 60-70%-i yoxsulluq həddindən aşağı səviyyədə yaşayırdı.

Siyasi böhranı meydana gətirmiş səbəblərdən biri də idarəçilik aparatına səriştəsiz kadrların gətirilməsi idi. Elə buna görə də yuxarı dairələrdə rüşvətxorluq kütləvi hal almışdır.

Artıq xalq müharibədəki böyük itkilər və uğursuzluqlardan, siyasi çəkişmələrdən və iqtisadi böhrandan cana doymuşdu. Xalq arasında AXC-nin nüfuzu tamamilə aşağı düşmüş, sıraları isə 3 dəfəyə qədər azalmışdır. AXC-Müsavat çütlüyü hakimiyyətinin meydana gətirdiyi siyasi böhran nəticədə vətəndaş qarşıdurması təhlükəsi yarandı. Belə ki, 1993-cü il iyunun 4-də "polkovnik" Surət Hüseynovun başçılığı ilə Gəncədə hərbi qiyam başlandı. Qısa vaxt ərzində hökumət qüvvələri və hakimiyyətə qarşı təkcə Gəncədə deyil, Bakı yaxınlığında da toqquşmalar baş verdi. Yerlərdə olan hakimiyyət orqanları öz funksiyalarını itirdilər. Yaranmış xoşagəlməz vəziyyətdən çıxmaq üçün baş nazir və Ali Sovetin sədri istefa vermək məcburiyyətində qaldılar. Güc nazirliklərinin başçıları isə tutuduqları vəzifədən azad edildilər.

Beləliklə, Azərbaycanda hökm sürən siyasi böhran bütün respublikanın mövcudluğunu təhlükə altına almışdır. Xalq düşdüyü belə bir çətin vəziyyətdən çıxış yolunu yalnız Heydər Əliyevdə görürdü. Respublikanı siyasi böhrana sürükləyən səriştəsiz və ambisiyalı şəxslər isə nəyin bahasına olursa-olsun hakimiyyəti əldə saxlamaq niyyətində idilər.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA SİYASİ HAKİMİYYƏTƏ QAYIDIŞI

Azərbaycan Respublikasında siyasi böhran yaratmış AXC-Müsavat çütlüyü hakimiyyəti yaranmış mürəkkəb vəziyyətdə xalqı birləşdirmək və düşdüyü fəlakətdən xilas etmək iqtidarında olmadıqlarını yaxşı dərk etdikləri üçün əvvəllər siyasi meydandan uzaqlaşdırmağa çalışdıqları müdrik siyasətçi Heydər Əliyevi Bakıya dəvət etmək məcburiyyətində qaldılar. Xalqın təkidli tələbi ilə iyunun 9-da Bakıya dönən Heydər Əliyev ilk öncə Gəncəyə gedərək S.Hüseynovu neytrallaşdırdı. Bununla o, vətəndaş müharibəsinin qarşısının alınmasına nail oldu.

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildi. Bundan bir neçə gün sonra isə prezident Ə.Elçibəy xəbərdarlıq etmədən paytaxtı tərk edib Naxçıvana, doğma kəndi Kələkiyə qaçdı. Başda Heydər Əliyev olmaqla Ali Sovetin deputatlarının böyük bir hissəsi paytaxtı tərk etmiş prezidenti geri çağırmasına baxmayaraq o, Bakıya qayıtmaqdan imtina etdi. Belə olan halda Azərbaycan Respublikası Ali Sovetinin Milli Məclisi iyunun 24-də Ə.Elçibəyin bütün səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi haqqında qərar qəbul etdi.

Avqust ayının 29-da Ə.Elçibəyə etimadla bağlı ümumxalq referendumu keçirildi. Referendumda iştirak edənlərin böyük əksəriyyəti (97,5%) Ə.Elçibəyə etimad göstərmədiyini bildirdi. 1993-cü il oktyabrın 3-də isə Heydər Əliyev prezident seçildi. Məhz bundan sonra onun həyata keçirtdiyi məqsədyönlü siyasi tədbirlərin nəticəsində ölkədə siyasi sabitlik yaradıldı, orduda quruculuq işləri sürətləndirilərək genişlənməkdə olan erməni işğalının qarşısı alındı.

Azərbaycan xalqının təkidli tələbi ilə Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı ilə bağlı olaraq 15 iyun Milli Qurtuluş günü kimi tarixə düşdü. 1998-ci il oktyabrın 11-də isə Heydər Əliyev Azərbaycan xalqı tərəfindən ikinci dəfə beş li müddətinə prezident seçildi.

Heydər Əliyev Azərbaycanda hüquqi, demokratik dövlət quruculuğu istiqamətində misilsiz tədbirlər həyata keçirtmişdir. 1998-ci ildə respublikada Konstitusiya Məhkəməsi yaradıldı, həmin ilin fevral ayında isə Şərqdə birinci olaraq Azərbaycanda ölüm hökmünün ləğvi ilə bağlı qərar qəbul edildi. 1999-cu il dekabın 12-də respublikada birinci bələdiyyə seçkiləri keçirildi.

İnsan hüquqlarının müdafiəsi sahəsində də Heydər Əliyevin fəaliyyəti müstəsna əhəmiyyət kəsb etmişdir. Məhz onun bu sahəyə ayırdığı diqqət və qayğı nəticəsində artıq 1998-ci ildə Azərbaycan Respublikası 20-dən artıq beynəlxalq saziş və kovensiyalara daxil olmuşdur. Bununla yanaşı respublikada çoxpartiyalı sistem yaradılmış və siyasi plüralizm təmin edilmişdir. Hazırda Azərbaycanda

rəsmi qeydiyyatdan keçmiş 38 siyasi partiya, 1400-dən artıq ictimai birlik, müxtəlif dillərdə nəşr edilən 372 qəzet, 106 jurnal, 10 teleradio şirkəti, 25 informasiya agentliyi mövcuddur.

Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı iqtisadi tənəzzülün qarşısını alaraq inkişafa doğru istiqamətləndirilməsi ilə nəticələndi. Belə ki, dövlət əmlakının və torpağın özəlləşdirilməsi haqqında dövlət Proqramı və Qanunu qəbul edildi. Torpaq onun üzərində çalışan kəndlinin şəxsi mülkiyyətinə çevrildi. Fermer təsərrüfatları yaradıldı və 3,5 mln. insan şəxsi torpağa sahib oldu. Kənd təsərrüfatının inkişaf etdirilməsi üçün dövlət tərəfindən az fayızlı kreditlər verilməyə başlandı. Bu istiqamətdə həyata keçirilən tədbirlərin sayəsində 1998-ci ildə kənd təsərrüfatında istehsal 4%, 1999-cu ildə isə 7,1% yüksəlmiş oldu. Aqrar sahədə aparılan islahatlar Azərbaycanın yeyinti məhsulları ilə özünü təmin etmə iqtidarını artırdı.

1997-ci idə ölkənin ümumi daxili istehsalının artımı 5,8%, 1998-ci ildə isə 10% təşkil etmişdir. İnfilyasiyanın qarşısı alındı və sosial-iqtisadi sahədə quruculuq işləri dinamik həddə çatdırıldı.

İki yüz ildən artıq bir müddət dünyanın böyük dövlətlərinin maraqlarını özünə cəlb etmiş Azərbaycanın ən böyük sərvəti hesab olunan neft nəhayət ki, xalqın xeyrinə istifadə olunmağa başlandı. 1994-cü il sentyabrın 20-də neft sahəsində imzalanmış "Əsrin müqaviləsi" əsasında respublikanın neft strategiyasının daha dinamik şəkildə inkişaf etdirilməsi mümkün oldu. 15 dövlətin 33 şirkəti ilə imzalanmış 21 neft müqaviləsi nəticəsində bu sahəyə 60 mlrd. ABŞ dolları həcmində investisiya qoyulmuşdur.

Heydər Əliyevin düşünülmüş və müdrik siyasəti təkcə Azərbaycanda deyil, bütün Qafqazda iqtisadiyyatın inkişafına böyük tövfələr verməkdədir. Bu istiqamətdə neft boru kəmərinin çəkilməsi, regional TRASEKA proqramına müvafiq olaraq Avropa ilə Asiyanı birləşdirən nəqliyyat kommunikasiyasının tikintisi əhəmiyyətli rol oynamaqdadır.

1999-cu ilin noyabr ayında Xəzər neftinin Gürcüstan və Türkiyə vasitəsi ilə dünya bazarına çıxarılması üçün İstanbul deklarasiyası imzalanmışdır. 2003-cü il fevralın 27-dən isə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisinə başlanmışdır. Hazırda Azərbaycan dünyanın 128 ölkəsi ilə ticarət əlaqələri qurmağa müvəffəq olmuşdur. Bu ticarət əlaqələrinin 30%-i Rusiyanın payına düşmüşdür.

Heydər Əliyevin ikinci dəfə Azərbaycan Respublikası siyasi hakimiyyətinə qayıdışı bütün Qafqaz regionunda sabitliyin, sülhün və iqtisadi inkişafın təmin edilməsinə xidmət etdi. Xüsusi ilə bu sahədə Azərbaycanla Gürcüstan arasında yaradılmış dostluq əlaqələri regionda sülhün təminatı məsələsində böyük əhəmiyyət kəsb edir. Gürcüstanla yanaşı RF-nin subyektləri olan Şimali Qafqaz

respublikaları ilə də Azərbaycan dostluq və əməkdaşlıq şəraitində əlaqələrə malikdir.

2003-cü il dekabrın 12-də Müstəqil Azərbaycanın qurucusu, dünya miqyaslı görkəmli siyasətçi, eyni zamanda dünya birliyi tərəfindən tarixi şəxsiyyət kimi qəbul edilmiş böyük dövlət xadimi Heydər Əliyev dünyasını dəyişdi. 2003-cü ilin iyul ayında Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyev Azərbaycan Respublikasının baş naziri vəzifəsini tutmuş, oktyabr ayının 25-də isə 76,8% səslə prezident seçilmişdir.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTANIN MDB-YƏ DAXİL OLMASI

1993-cü il oktyabın 8-də Eduard Şevardnadze Gürcüstanın MDB-yə daxil olmasını elan etdi. Respublikada mövcud olan ağır ictimai-siyasi vəziyyətə baxmayaraq, Gürcüstan Respublikası həmin il dekabrın 9-da MDB-yə daxil oldu. Bu hadisədən sonra Rusiya-Gürcüstan əlaqələrində müsbət dəyişikliklər baş verdi. Rusiya Gürcüstanda baş verən xoşagəlməz hadisələrin nizamlanmasına köməklik göstərdi. Belə ki, əgər Rusiya bir tərəfdən abxazların qələbə çalmasına köməklik göstərdisə, digər tərəfdən Gürcüstanın qərb hissəsində Qamsaxurdiya və onun tərəfdarları tərəfindən başlanmış vətəndaş müharibəsi dövründə Şevarnadze hakimiyyətini Qara dənizdə yerləşən Rusiya hərbi donanmasının matroslarının köməkliyi ilə saxlamağa müyəssər oldu.

1992-ci ildə Rusiya prezidenti B.Yeltsin və Gürcüstan prezidenti E.Şevardnadze sülhməramlı qoşunların gürcü-osetin münaqişə zonasına yerləşdirilməsi ilə bağlı razılaşma sənədi imzaladılar. Rus, gürcü və osetinlərdən ibarət olan bu sülhməramlı qoşunlar münaqişə zonasında sülhün təmin olunmasında əhəmiyyətli rol oynadı.

Şübəsiz ki, E.Şevardnadze siyasi hakimiyyətə qayıtdıqdan sonra Gürcüstan respublikasının MDB-yə daxil olması, xüsusilə Rusiya ilə əlaqələrin genişləndirməsi onun dağılmış iqtisadiyyatının bərpası işində müsbət təsirini göstərdi.

Heydər Əliyev xalqın təkidi ilə ikinci dəfə hakimiyyət sükanı arxasına keçdikdən sonra Azərbaycanda hökm sürən siyasi böhranın və dövlət müstəqilliynin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü siyasi tədbirlər həyata keçirtməyə başladı. Belə tədbirlərdən biri də 1993-cü il sentyabrın 23-də Azərbaycanın MDB-yə üzv qəbul olunması idi. Heydər Əliyev AXC-Müsavat çütlüyü hakimiyyətindən fərqli olaraq Azərbaycanın MDB-yə daxil olmasını təmin etməklə Rusiya ilə mövcud olan gərgin münasibətləri tənzimləyə bildi.

SSRİ-nin süqutundan sonra dünya siyasətində Rusiyanın nüfuzu və rolu xeyli azalsa da, Avrasiya regionunda aparıcı dövlət hesab olunur. Bununla yanaşı Rusiya geosiyasi və geostrateji xüsusiyyətinə görə dünyanın ən nəhəng dövlətlərindən hesab olunur, possovet respublikalarında istehsal olunan kənd təsərrüfatı məhsulları üçün böyük bazar rolunu oynayır. Ümumiyyətlə, Rusiya Avrasiyada ən mühüm əmək inteqrasiyası məkanıdır.

1991-ci ildə SSRİ dağıldıqdan sonra Azərbaycan hakimiyyətində olan siyasi cəhətdən qabiliyyətsiz və səriştəsiz adamlar Qərb ölkələri və Türkiyə ilə inteqrasiyaya daxil olarkən Rusiya ilə əlaqələri tamamilə pozmağa cəhd göstərmişdilər. Bunun nəticəsində isə 1991-1993-cü illərdə Rusiya və Azərbaycan arasında münasibətlər qeyri-normal həddə gətirilmişdir. Heç şübhəsiz ki, btün bunlar Azərbaycanın siyasi və iqtisadi həyatına mənfi təsir göstərmişdir.

Heydər Əliyev MDB çərçivəsində Rusiya ilə münasibətləri normal həddə gətirib çıxartdıqdan sonra bu böyük dövlət Azərbaycanın müstəqilliyini, Qafqazda aparıcı dövlət olması faktı ilə barışmış və onunla dostluq əlaqələri yaratmağa meyil göstərmişdir. Məhz Heydər Əliyevin 1997-2000-ci illərdə bu sahədə həyata keçirtdiyi siyasi tədbirlərin nəticəsində iki ölkə arasındakı etimadsızlıq mühiti proqmatik əlaqələrlə əvəz edilmişdir.

Heydər Əliyevin və Eduard Şevardnadzenin rəhbərliyi altında hər iki respublikanın MDB-yə daxil olması Qərb dövlətləri və Türkiyə ilə yanaşı MDB-yə üzv olan digər dövlətlərlə də ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə şərait yaratmışdır. Belə ki, Azərbaycan və Gürcüstan respublikaları MDB-yə üzv olan Rusiya, Belarus, Ukrayna, Moldova, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tacikistan respublikaları ilə çoxtərəfli əməkdaşlıq səviyyəsini yüksəltməyə nail olmuşdular.

Azərbaycan Respublikasının MDB-yə daxil olması Dağlıq Qarabağ probleminin sülh yolu ilə nizama salınması istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsində də rol oynamışdır.

1993-cü il dekabrın 24-də Aşqabadda keçirilən MDB-yə üzv dövlətlərin başçılarının görüşündə Dağlıq Qarabağda davam edən müharibəyə dərhal son qoyulması, hər iki respublika rəhbərliyi tərəfindən hərbi əməliyyatların dayandırılması barədə razılıq sənədini imzalanması haqqında müraciət qəbul etdilər və müraciətdə əks olunmuş tədbirlərin həyata keçirilməsində MDB-nin kollektiv təhlükəsizlik şurasının mexanizmləri çərçivəsində özlərinin qarant olmalarını bildirdilər. Qeyd etməliyik ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətində BMT və ATƏT MDB-yə siyasi dəstək göstərməsi haqqında müraciət etmişdir.

Demək olar ki, MDB-nin əksər forumlarında Dağlıq Qarabağ məsələsi ətrafında müzakirələr aparılmışdır.1994-cü il iyul ayının 19-da MDB-yə üzv olan dövlətlər Minsk qrupunda təmsil olunmuş dövlətlərin xarici işlər nazirlərinə və dünyanın bir sıra aparıcı dövlətlərinə Dağlıq Qarabağ münaqişəsinin tezliklə həll edilməsi istiqamətində fəal mövqe göstərmələri haqqında məktubla müraciət etmişdirlər.

Rusiya prezidentinin tapşırığı ilə MDB-nin o zamankı icraçı katibi İ.M.Korotçeni respublikalara etdiyi bütün səfərlərdə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması məsələsi üzərində müzakirələr aparmışdır. 1992-ci ildə yaradılmış MDB dövlətlərinin Parlamentlərarası Assambleyası da Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində bir çox tədbirlər həyata keçirtmişdir. Belə ki, Assambleya Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması məqsədi ilə Qırğızıstan parlamentinin sədr muavini M.Ş.Şerimkulovun başçılıqı ilə barışdırıcı missiya təşkil etdi. Münaqişənin sülh yolu ilə həll edilməsi məqsədi ilə missiya Azərbaycan, Ermənistan deputatları və Dağlıq Qarabağ erməniləri

rinin nümayəndələri ilə görüşlər keçirtmək üçün bir neçə dəfə Bakıya, Ermənistana və Dağlıq Qarabağa səfər etdi.

Ümumiyyətlə, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın MDB-yə daxil olması istər siyasi, iqtisadi böhranın aradan qaldırılmasında, istərsə də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində böyük əhəmiyyəti vardır. MDB çərçivəsində Azərbaycan və Gürcüstan respublikalarının, eyni zamanda Qərbə inteqrasiya etməsi heç şübhəsiz ki, Heyər Əliyevin və Eduard Şevardnadzenin siyasi uzaqgörənliyi və Rusiya ilə Qərb arasında manevr edə bilmələri sayəsində reallaşmışdır.

Gürcüstan və Azərbaycan respublikaları MDB-yə üzv olmaqla yanaşı Qərbə inteqrasiya və dövlət müstəqilliyinin möhkəmləndirilməsi məsələlərinə daha çox üstünlük verərək Birliklə əsasən iqtisadi əlaqələrin genişlənməsinə daha çox diqqət yetirirdilər. Məhz elə bu məqsədlə 1999-cu ildə hər iki respublika MDB-nin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından çıxdıqlarını elan etdilər. Bununla yanaşı, Gürcüstan öz ərazilərində yerləşmiş RF-nin hərbi bazalarının çıxarılması istiqamətində beynəlxalq hüquq müstəvisində tədbirlər həyata keçirtməyə başladı.

## RUSİYA FEDERASİYASININ BİRTƏRƏFLİ QAYDADA MDB ÜZVÜ OLAN ERMƏNİSTANI SÜRƏTLƏ SİLAHLANDIRMASI

SSRİ-nin süqutundan sonra Ermənistan da parlamentə müdafiə və təhlükəsizlik komissiyasının keçmiş sədri Vazgen Sarkisyanın rəhbərliyi altında müdafiə nazirliyi yaradıldı.

Beləliklə də, MDB çərçivəsində Rusiya Federasiyası Ermənistan ərazisində yerləşən hərbi bazalarını silahlandırmaqla yanaşı birtərəfli qaydada Ermənistan respublikasının özünü də silahlandırılması prosesi başlandı. 1992-ci ilin yayında Moskva tərəfindən Ermənistan ərazisindən dislakassiya edilmiş 15-ci və 164-cü motoatıcı diviziyalarının texnikası və hərbi sürsatları bu respublikaya verilmişdir.

1992-ci ilin payızında Ermənistanın müdfiə naziri V.Sarkisyan istefa verir və onun yerinə bu vəzifəni Ermənistanın sabiq baş naziri V.Manukyan tutur. Bundan sonra təkcə 1993-1996-cı illərdə Rusiya Federasiyası birtərəfli qaydada MDB üzvü olan Ermənistanı 1 mlrd. ABŞ dolları həcmində silahlandırmış oldu.

1992-1993-cü illərdə Ermənistan prezidentinin xüsusi qərarı ilə dörd alaydan ibarət və tərkibində 2,5 min nəfər əsgər olan yeni motoatıçı briqada yaradılır. Yeni yaradılmış motoatıcı briqadaya əsasən yaşlı nəslin nümayəndələri cəlb edilir. Bunların əksəriyyəti isə Əfqanıstan müharibəsində iştirak etmiş və bir neçə dəfə ölüm hadisəsi törədərək həbs edilmiş insanlardan ibarət idi. Məqsəd Rusiyanın verdiyi silahlarla yeni hərbi qurumlar yaradaraq Dağlıq Qarabağda işğalın miqyasını genişləndirmək idi.

Ermənistan müdafiə nazirinin müavini və gərargahın rəisi Ter-Qriqoryans Ermənistan ordusunun SSRİ dövründə olduğu kimi formalaşdırılması ilə bağlı olan təklifləri rədd edərək demişdir: “Rusiya tərəfindən bizə verilmiş hərbi texnika, döyüş sursatı və ərazimizdə yerləşən rus hərbi bazalarının zabitləri tərəfindən əsgərlərimizin hazırlığında yaxından iştirak etməsi bizə təkcə müdafiə deyil, hücüm xarakterli ordu formalaşdırmağa imkan verir. Məhz bu səbəbə görə də bizim üzərimizə yüksək hərbi hazırlıqlı və səviyyəli erməni ordusu yaratmaq vəzifəsi düşür.”

Rusiya Ermənistanın havadan müdafiə sisteminin gücləndirilməsi üçün bu respublikaya kifayət qədər hərbi texnika – yüksək səviyyəli raketlər və zenit qurğuları vermişdir. 1994-cü ilin aprel ayında Ermənistan rəsmiləri Rusiyanın sayəsində respublikanın yüksək səviyyəli havadan müdafiə sisteminin yaradılmasının başa çatmasını bildirmişdilər.

MDB-yə üzv olan respublikalardan fərqli olaraq, Ermənistanda hərbi kadrların yetişdirilməsi üçün təhsil müəssisəsi olmamışdır. Lakin buna baxmayaraq, sovet ordusunda başqa xalqlardan fərqli olaraq kifayət qədər erməni zabitləri olmuşdur. Bəzi statistik məlumatlara görə, sovet ordusunda xidmət edən zabitlərin sayına görə ruslardan, ukraynlardan və belaruslardan sonra ermənilər üstün-

lük təşkil edirdi. Lakin SSRİ süquta uğradıqdan sonra Ermənistan hökuməti vaxtı ilə sovet ordusunda, sonra isə Rusiya ordusunda xidmət göstərən erməni zabitlərini ordu quruculuğunda iştirak etmək məqsədi ilə Ermənistana dəvət etsə də, onlardan yalnız 5-7%-i respublikaya qayıtdı. Bunun əsas səbəbi isə Ermənistan respublikasında hökm sürən iqtisadi böhran, apardığı işğalçı müharibə olmuşdur. Belə olan halda isə Rusiyanın Ermənistana verdiyi hərbi texnikanın istifadəsi üçün kadr çatışmamazlığı problemi meydana gəlmişdir.

1993-1994-cü illərdə Rusiyanın bilavasitəköməkliyi ilə Ermənistanda yeni hərbi məktəb-litsey, aviasiya texnikumu, bir illik zabitlər kusları, V.Sarkisyan adına hərbi institut yaradıldı. Bununla yanaşı, yüksək səviyyəli hərbi kadrların yetişdirilməsi məqsədi ilə Ermənistandan Rusiya və Yunanıstanın hərbi məktəblərinə tələbələr göndərilməsinə başlandı. Ermənistan respublikasının hərbi kadrların yetişdirilməsində əsas məqsədi bütün sivil dövlətlər kimi normal orduya sahib olmaq deyil, əksinə, Rusiya Federasiysı tərəfindən verilmiş hərbi texnikanın istifadəsinə yiyələnmək və bununla da Qafqazda sülhü pozmaqdan ibarət idi.

1993-1996-cı illərdə Rusiya Federasiyası tərəfindən MDB üzvü olan Ermənistana birtərəfli qaydada 8 ədəd operativ taktik P 17 kompleksi, 27ədəd ZRK "Kruq", 84 ədəd T-72 tank, 50 ədəd BMP 2, 36 ədəd D-30, 18 ədəd D-20 qaubissa, 18 ədəd RSZO "Qrad", 40 ədəd hərəkət edən "İqla" 200 ədəd isə adi zenit raket kompleksi, 26 ədəd minamyot, 7910 ədəd avtomat, 306 ədət pulemyot, 1847 ədəd tapanca, 20 ədəd qranatamyot, 227 253 000 ədəd kiçik və iri kalibrli güllə, 345 800 ədəd əl qumbarası və 1 mlrd. ABŞ dolları dəyərində olan başqa hərbi texnika, sursat verilmişdir. Verilmiş bu silahlarla yanaşı, sovet ordusunun Ermənistandan aparılmamış hərbi silah və texnikanı da nəzərə alsaq, bu respublikanın Qafqazda militar bir dövlətə çevrildiyi aydın olacaqdır. Qeyd edilməlidir ki, Moskva Ermənistandan cəmi 500 vaqon sovet ordusuna məxsus olan hərbi texnika, silah və sursat çıxartmışdı. Bu isə Azərbaycanla müqyisədə Ermənistanın sovet ordusundan miras qalmış hərbi texnika, silah və sursatın 20 dəfə artıq əldə etməsini göstərir.

Rusiya Federasiyasının MDB üzvü olan Ermənistanı bir tərəfli silahlandırması artıq 1996-cı ildə bu respublikada Azərbaycanın və Gürcüstanın milli təhlükəsizliyinə potensial təhlükə kəsb edən 4 motoatıcı briqadanın, 10 piyada qoşun polkunun, 1 artilleriya briqadasının, 2 zenit raket briqadasının yaradılması ilə nəticələndi. Bütün bunlarla yanaşı, Ermənistan rəsmilərinin bildirdiyinə görə, Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Dağlıq Qarabağ ərazisində Rusiya tərəfindən verilmiş 316 ədəd tank, 324 ədəd müxtəlif növlərdə ağır zirehli texnika, 278 ədəd 122 mm kalibrli artilleriya topları və 44 ədəd RSZO "Qrad" yerləşdirilmişdir. Bununla yanaşı, Ermənistan öz hərbi potensialının 80%-ni Azərbaycan respublikasının əleyhinə yönəlmişdir. Bütün bunlar isə

ilk növbədə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması istiqamətində həyata keçirilən tədbirlərə maneə törədən başlıca amillərdən biridir.

Rusiya tərəfindən silahlandırılmış Ermənistan respublikası Azərbaycan, Gürcüstan respublikalarının milli təhlükəsizliyinə qarşı hər an böyük təhlükə kəsb etməkdədir. Rusiya rəsmiləri Ermənistanda mövcud olan hərbi texnikanın Azərbaycan və Gürcüstan əleyhinə deyil, Türkiyə əleyhinə yönəldiyi haqqında bəyanatlarla çıxış etmişdirlər. Əgər Azərbaycan və Gürcüstanın hərbi potensialının Türkiyə ilə müqayisədə həddindən artıq azlıq təşkil etdiyini nəzərə alsaq, demək, Rusiya tərəfindən Ermənistana verilmiş hərbi texnikanın hər iki respublika üçün böyük bir təhlükə kəsb etməsi faktı aydın şəkildə görünəcəkdir.

Ermənistan rəsmiləri dəfələrlə Rusiya tərəfindən silahlanmasının Gürcüstan əleyhinə heç bir təhlükə kəsb etmədiyini bildirmişdirlər. Onlar Gürcüstan ərazisində yaşayan azərbaycanlıların Ermənistan əleyhinə diversiyalar törədə biləcəkləri haqqında boş və əsassız fikirlər söyləyərək əslində Rusiya tərəfindən silahlanmalarının Azərbaycan kimi Gürcüstanın da milli təhlükəsizliyinə yönəlmiş təhlükəsini gizlətməyə çalışırdılar. Bundan başqa, məshəti türklərinin öz ata-baba torpaqlar olan Cavaxetiyaya qayıtmaları istiqamətində Gürcüstanın yürütdüyü siyasət və Türkiyə ilə əməkdaşlığın genişləndirilməsi Qafqazda sülhün pozulmasına xidmət edən erməniləri təftişə salmaqdadır.

Şübhəsiz ki, Gürcüstan da Azərbaycan kimi Rusiya Federasiyasının birtərəfli qaydada MDB üzvü olan Ermənistanı sürətlə silahlandırmasının milli təhlükəsizliyə potensial təhlükə kəsb etdiyini yaxşı başa düşür. Məhz bu səbəbə görə də, Rusiya hərbi bazalarının Gürcüstan ərazisindən mərhələli şəkildə çıxarılması ilə bağlı Gürcüstanla Rusiya arasında gedən danışıqlarda Gürcüstan tərəfi hərbi bazaların Ermənistan ərazisindən deyil, Azərbaycan vasitəsi ilə çıxarılmasını təkid etdi. Gürcüstan tərəfinin onun ərazisində yerləşən Rusiya hərbi bazalarının Ermənistanın vasitəsi ilə çıxarılmamasını təkid etməsinin əsas səbəbi isə Rusiyanın bu vasitə ilə Ermənistana silah ötürülməsinin qarşısını almaq idi. Heç şübhəsiz ki, əgər Rusiya Gürcüstanda olan hərbi bazalarını Ermənistan vasitəsi ilə çıxartmağa müvəffəq olsa idi, buradan çıxarılmış hərbi texnikanın müəyyən bir hissəsi ilə Ermənistan tərəfini yenidən silahlandıracaq idi. Bunu sübut edən fakt Gürcüstanla apardığı danışıqlarda Rusiya tərəfinin hərbi bazaların Ermənistan vasitəsi ilə çıxarılmasına Gürcüstanın razılıq verdiyi təqdirdə bazaları birdəfəlik çıxaracağını bildirməsi idi. Demək, Rusiyanın öz hərbi bazalarını Ermənistan vasitəsi ilə çıxarmağa ciddi cəhd göstərməsinin səbəbi aydındır. Lakin Heydər Əliyevin və E.Şevardnadzenin hər iki respublika arasında sülh, dostluq və əməkdaşlıq münasibətlərinin qurulması istiqamətində apardıqları məqsədyönlü siyasətin nəticəsində Gürcüstan və Azərbaycan Ermənistanın onların milli təhlükəsizliyinə qarşı yönəlmiş təhlükəsinin qarşısını bir yerdə almağa çalışırlar.

## MDB-NİN SİYASİ BİRLİK FUNKSİYASININ ÖZÜNÜ DOĞRULTMAMASI VƏ İQTİSADİ TƏŞKİLAT STATUSUNA KEÇİD CƏHDLƏRİ

SSRİ süquta uğradıqdan sonra onun yerinə 1991-1993-cü illərdə MDB təşkilatı yaranmışdır. Bu təşkilat üç Baltikyanı respublikalar istisna olmaqla, 12 respublikanı öz tərkibində birləşdirməyə nail olmuşdur. MDB-nin fəaliyyəti ilk öncə, keçmiş SSRİ respublikalarının əsas siyasi məqsədlərini hansısa formada qoruyub-saxlamağa yönəlmişdir. Lakin hadisələrin sonrakı gedişatı MDB-nin sovetlər birliyi kimi dünyada beynəlxalq hüquq subyektinə çevrilə bilməyəcəyini göstərdi. Bunun əsas səbəbi isə bu təşkilatın tərkibinə daxil olmuş dövlətlərin öz dövlət quruculuğu məsələlərinə daha çox üstünlük vermələri idi.

MDB yarandığı gündən onun daxilində ziddiyyətlər özünü büruzə verdi. Belə ki, buraya daxil olan Belarusiya, Ermənistan və Orta Asiya dövlətləri Rusiyanın başçılığı ilə konfederadiv əsasla keçmiş sovetlər birliyni yeniləşmiş şəkildə bərpa etməyə çalışırdılar. Ukrayna, Moldova respublikaları isə MDB-yə daxil olmaqla yanaşı, özlərinin müstəqil daxili və xarici siyasətlərini yetirmələrinə, dövlət quruculuğu məsələlərinə hansı şəkildə olursa-olsun müdaxilə edilməsinin əleyhinə idilər. Beləliklə, MDB-yə üzv olan respublikaların bu təşkilatın statusu məsələsinə yanaşmaları eynilik təşkil etmirdi.

1992-ci ilin may ayına qədər Azərbaycanda MDB-nin keçmiş müttəfiq respublikaları yeni bir konfederativ dövlət tərkibində birləşdirməyə çalışan siyasi birlik funksiyası daşımasının tərəfdarı kimi çıxış edirdi. Bunun səbəbi isə A.Mütəllibovun Azərbaycan Respublikasının müstəqilliyinə formal yanaşması və Rusiyanın başçılığı ilə MDB-nin siyasi birlik statusunun yüksəldilməsi uğrunda fəal mövqe nümayiş etdirməsi idi. A.Mütəllibovdan sonra isə Azərbaycana rəhbərlik edən Ə.Elçibəy ümumiyyətlə MDB-nin siyasi və iqtisadi statusunu qəbul etməyərək buraya daxil olan respublikalara qarşı çox kəskin münasibət göstərmişdir. Belə olan halda yenə də Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi prosesi yeni problemlərlə üzləşdi və demək olar ki, Avrasiya regionunda təcrid olundu. Həmin dövr Gürcüstanın da MDB-yə olan münasibəti Azərbaycanla eynilik təşkil edirdi.

1992-ci ilin iyun ayında MDB-dən çıxan Azərbaycan və Gürcüstan respublikaları 1993-cü ilin sentyabr-dekabr aylarında Heydər Əliyevin və Eduard Şevardnadzenin rəhbərliyi altında yenidən bu təşkilata qayıtdılar. Azərbaycan və Gürcüstanın MDB-yə üzv seçilməsi bu təşkilatın siyasi birlik statusunu zəiflətmiş oldu. Belə ki, hər iki respublika MDB daxilində Ukrayna, Moldova və Özbəkistanla birləşərək MDB-nin hökumətlərarası təşkilat olması, dövlət, yaxud

dövlətüstü qurum mahiyyəti daşımaması, üzv ölkələrin daxili və xarici siyasətinə müdaxilə və beynəlxalq münasibətlərin subyekti kimi çıxışetmə səlahiyyətlərinə malik olmaması haqqında təşkilatın nizamnaməsinə yeni müddəaların salınmasına nail oldular.

MDB-nin yarandığı ilk vaxtlar Rusiya bu qurumdan istifadə edərək üzv dövlətlərin daxili və xarici siyasətlərinə müdaxilə imkanlarını və sovetlər birliyi dövründə olan hökmranlıq mövqelərini qorumağa cəhd göstərmişdir. Bu isə MDB-nin siyasi birlik kimi funksiya göstərməsinə mane törətmiş oldu. Digər tərəfdən MDB-nin nizamnaməsində siyasi funksiya ilə yanaşı iqtisadi, mədəni, ekoloji, hərbi sahələrdə əməkdaşlığın təmin edilməsi, azad iqtisadi zonanın yaradılması, üzv ölkələr arasında mövcud olan münaqişələrin həlli və s. məsələlərdə öz əksini tapmışdır. Lakin indiyə qədər bu funksiyaları icra etmək üçün qurumun tərkibində yaradılmış geniş təşkilati strukturların bir hissəsi real fəaliyyətə başlaya bilməmiş, digərləri isə öz funksiyalarını yerinə yetirməmişlər.

MDB məkanında yaranmış problemlərin, xüsusi ilə milli münaqişələrin həlli istiqamətində keçirilən iclaslar formal xarakter daşıyır, bu səbəbə görə də qəbul olunmuş qərarlar icra olunmur. Bununla yanaşı, üzv dövlətlər də bu təşkilatın qəbul etdiyi qərarların yerinə yetirilməsinə biganə yanaşırlar. Digər tərəfdən, MDB çərçivəsində dövlətlər öz maraqlarına uyğun şəkildə fərqli yanaşma nümayiş etdirirlər. Belə ki, Azərbaycan və Gürcüstan Rusiyanın hər iki respublikanın ərazisində baş qaldırmış separatizmə dəstək verdiyi üçün Kollektiv Təhlükəsizlik Müqaviləsində iştirak etmir, Türkmənistan bitərəf dövlət mövqeyi nümayiş etdirir, Özbəkistan 1999-cu ildə bu müqavilədən çıxdığını bildirir, Ukrayna isə bu əməkdaşlıqda müşahidəçi qismində iştirak edir.

MDB-yə üzv olan dövlətlərin hər biri öz siyasi maraqlarını birliyin siyasi maraqlarından üstün tutur. Bunun səbəbi isə MDB-də əsas aparıcı rolun Rusiyaya məxsus olmasıdır. Üzv dövlətlərin hüquqlarının qeyri-bərabər olması onların öz maraqlarını birliyn maraqlarından üstün tutması ilə nəticələnir. Digər tərəfdən, MDB çərçivəsində formalaşdırılan ümumi xarici və daxili siyasət daha çox Rusiyanın maraqlarına uyğun şəkildə formalaşır. Məhz bu səbəbə görə də NATO-nun, ATƏT-in, Avropa Birliyinin və Qərbin başqa nüfuzlu təşkilat və dövlətlərinin bölgədə yürütdüyü siyasətə qarşı MDB-nin formalaşdırdığı mövqe üzv dövlətlərin mövqeyi ilə ziddiyyət təşkil edir.

Demək olar ki, təkcə siyasi sahədə deyil, bütün sahələrdə MDB-nin formalaşdırdığı mövqeylə üzv dövlətlərin mövqeyinin ziddiyyət təşkil etməsi bu qurumun siyasi birlik funksiyasının özünü doğultmamasına gətirib çıxartdı. Elə bu səbəbə görə də mövqeləri üst-üstə düşən üzv dövlətlər tərəfindən Dördlər İttifaqı, Beşlər İttifaqı, Rusiya-Belarus ittifaqı, Avrasiya İqtisadi Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Mərkəzi Asiya İqtisadi Birliyi, Şanxay Əməkdaş-

lıq Təşkilatı, GUAM təşkilatları yaradıldı. Üzv dövlətlər bu təşkilatları yaratmaqla, eyni zamanda MDB-nin iqtisadi təşkilat statusuna keçməsinə də cəhd göstərmişdirlər. Çünki quruma üzv olan respublikaların əksəriyyəti bir-biri ilə əsasən iqtisadi əməkdaşlıq etməyə üstünlük verirdilər.

Beləliklə, üzv dövlətlərin üzləşdiyi siyasi problemlərin, əsasən də milli münaqişələrin MDB çərçivəsində öz həllini tapmaması, respublikaların hüquqlarının faktiki olaraq qeyri-bərabər olması, siyasi mövqelərin üst-üstə düşməməsi MDB-nin siyasi birlik funksiyasını icra edə bilməməsinə gətirib çıxartdı.



















## ERMƏNİSTANIN AZƏRBAYCANA VƏ GÜRCÜSTANA QARŞI ƏRAZİ İDDİALARI

Dağlıq Qarabağ probleminə tarixi cəhətdən yanaşdıqda aydın olur ki, bu problemin 170 idən artıq bir tarixi vardır. Belə ki, bu münaqişənin tarixi ermənilərin Qafqaza köçürülməsi dövründən başlamışdır. Bu 170 il müddətində Dağlıq Qarabağ münaqişəsi erməni keşişləri, zadəganları, hərbçiləri tərəfindən proqram əsasında tədricən həyata keçirilmişdir. Münaqişə ilə hazırlanmış proqramın praktiki cəhətdən həyata keçirilməsi istiqamətində isə ermənipərəst xarici havadarların, xüsusi ilə istər çar, istərsə də sovet Rusiysının hakimiyyət dairələrində olan ermənipərəst qüvvələrin və ermənilər tərəfindən yaradımış lobbilərin havadarlığı müstəsna rol oynamışdır.

Ermənilərin Azərbycana qarşı irəli sürdükləri ərazi iddiaları heç bir obyektiv əsasa malik deyildir. Əksinə, bu iddia qondarma, saxta, subyektiv faktlar üzərində qurulmuşdur. Təkcə Azərbaycanda deyil, hətta Ermənistanın özündə belə aşkar edilən arxeoloji, maddi və mənəvi abidələr bu ərazilərdə XIX əsrdən əvvəlki dövrə aid sırf ermənilərə məxsus tarixi abidələrin mövcud olmamasını isbat etməkdədir. Bununla yanaşı, filoloji tədqiqatlar da erməni dilinin Qafqaz dilləri ailəsinə aid olmadığını göstərməkdədir. Lakin bütün bunlara baxmayaraq, ermənilərin Dağlıq Qarabağla bağlı olan ərazi iddiası zaman-zaman artaraq müasir dünyanın ən böyük və təhlükəli münaqişələrindən birini meydana gətirmişdir. Bunun əsas səbəblərindən biri isə dünyanın bir sıra ermənipərəst tədqiqatçılarının Qafqazın yerli xalqlarına dair tarixi fakt və hadisələri bilərəkdən falsifikasiyaya məruz qoymaları olmuşdur.

Ermənilərin Azərbaycan torpaqlarına qarşı ərazi iddiaları əsasən beş mərhələyə bölünmüşdür. 1. 1918-1920-ci illər, 2. 1921-1929-cu illər, 3. 1945-1969-cu illər, 4. 1983-1987-ci illər. 5. 1988-ci ildən günümüzə qədər.

1920-ci ildə Zəngəzur qəzası, Göyçə və Dilican nahiyyələri ADR-in ərazisi olduğu halda, qısa müddət ərzində Ermənistana birləşdirilmişdir. Belə ki, 1920-ci ilin dekabr ayında Zəngəzur, 1922-ci ildə isə Göycə və Dilican Sovet Rusiyasının hərbi yardımı ilə Ermənistana bağışlanmışdır. Beləliklə, əgər ADR ərazisi 1918-1920-ci illərdə 114 min kv. km təşkil etmişdirsə, Azərbaycan SSRİ-nin tərkibinə daxil olarkən onun ərazisi 97 min kv. km göstərilmişdir.

Bununla kifayətlənməyən SSRİ-nin imperiyapərəst siyasi xadimləri tərəfindən ermənilərin Azərbaycana qarşı olan ərazi iddialarını təmin etmək üçün 1923-cü il fevralın 18-də Naxçıvanın doqquz kəndi, 1929-cu ildə Qazax rayonunun 5 min hektara yaxın torpağı, Zəngilan rayonunun Nüvədi, Toğud, Ernəzir kəndləri, 1946-cı ildə 4 min hektar meşə sahəsi, 1969-cu ilin əvvəllərində Tovuz royonu-

nun 760 hektar torpağı, 1984-cü ildə Qazax royonunun müəyyən torpaqları Ermənistana birləşdirilmişdir.

Ermənilərin Azərbaycan torpaqlarına qarşı olan iddialarının SSRİ rəhbərliyi tərəfindən təmin edilməsi nəticəsində hazırda Azərbaycan Respublikasının ərazisi 86,6 min kv.km. təşkil edir. Əksinə, əgər 1918-ci ildə Ermənistan Respublikasının ərazisi təqribən 9 min kv.km. idisə, hazırda onun ərazisi 30 min. kv. km-ə yaxındır.

1987-ci ildən başlayaraq Rusiyanın, ABŞ-ın və Fransanın ermənipərəst mətbuat orqanlarında Dağlıq Qarabağın qədim Ermənistan ərazisi olması barədə təhrif edilmiş və subyektiv fikirlərlə zəngin olan tarixi məqalələr nəşr edilməyə başlandı. Dünyanın böyük dövlətlərində sığınacaq tapmış erməni lobbisi ermənilərin Dağlıq Qarabağla bağlı ərazi iddialarını və separatizmini rövnəqləndirdilər. Beləliklə, 1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanması ilə ermənilər Azərbaycan torpaqlarına qarşı ərazi iddialarının yeni mərhələsinə qədəm qoydular.

1988-ci ildən başlayaraq "Böyük Ermənistan" yaratmaq xülyası ilə erməni millətçiləri əsasən öz mənfur fəaliyyətlərini Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq və Aran Qarabağ ərazilərini Ermənistana birləşdirilməsinə yönəlmişdirlər.

SSRİ rəhbərliynin yuxarı dairələrində özlərinə arxa, hami və müdafiəçi tapan ermənilər qısa müddət ərzində Dağlıq Qarabağdan yerli əhali olan azərbaycanlıları təmizlədilər və ən böyük arzularına-azərbaycanlısız Dağlıq Qarabağ arzusuna nail oldular. Bununla yanaşı, erməni tərəfinin başladığı qəsbkar müharibənin nəticəsində Dağlıq Qarabağla yanaşı, Azərbaycanın 7 rayonunun torpaqları da işğal edildi.

Ermənistanın Azərbaycana olan ərazi iddialarına qarşı dünya ictimaiyyətinin biganə münasibəti erməni millətçilərinin "Böyük Ermənistan" proqramını həyata keçirtmək üçün daha da fəallaşmasına gətirib çıxartmışdır. Belə ki, ermənilər öz mənfi əməllərinə görə cəzasız qaldıqları üçün Azərbaycanla yanaşı, Gürcüstana qarşı da ərazi iddiaları ilə çıxış etməkdədirlər.

Erməni "tarixçisi" Suren Ayvazyan qədim dövrlərdə Gürcüstan və Azərbaycan adlı ərazilərin olmadığını, Gürcüstanın Şimali Ermənistana, Azərbaycanın isə Şərqi Ermənistana məxsusluğu haqqında boş və əsassız fikirlər irəli sürmüşdür. Bununla yanaşı, S.Ayvazyan Bakının adını təhrif edərək Bakurakerd adlandırmış və bu şəhərin qədim dövrlərdə Şərqi Ermənistanın paytaxtı olmasını qeyd etmişdir.

S.Ayvazyanın Azərbaycan və Gürcüstan ərazilərinin ermənilərə məxsusluğu haqqında söylədikləri əsassız fikirləri Gürcüstan Elmlər Akademiyasının professoru, iqtisad elmləri doktoru Anzor Totadze belə cavablandırmışdır: "Dünya tarixində erməni qədər qonşuluğunda yerləşən dövlətlərə qarşı hörmətsiz münasi-

bət göstərən, onların tarixini təhrif edərək mədəni nailiyyətlərini mənimsəyən ikinci bir xalq mövcud olmamışdır. Reallıq bundan ibarətdir ki, ermənilərin Azərbaycana və Gürcüstana qarşı irəli sürdükləri ərazi iddiaları tarixi cəhətdən əsassızlığına görə bir-birinə bənzəyir. Belə ki, ermənilərin hər iki tərəfə qarşı olan ərazi iddiaları tarixi və çoğrafi cəhətdən boş və subyektiv fikirlərdən ibarət olan bir saxtakarlıqdır. Erməni alimlərinin xəstə fikirlərinə görə bütün Cənubi Qafqaz qədim dövrlərdə Ermənistan dövlətinin ərazisi olmuşdur. Şübhəsiz ki, dünya tarixi qədim dövrlərdə Cənubi Qafqazda "Böyük Ermənistan" adlı dövləti tanımır. Çünki belə bir dövlətin mövcudluğu tarixi saxtalaşdırmaqdan başqa bir şey deyil".

SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda olduğu kimi Gürcüstanda da erməni separatizmi güclənməyə başladı. Qeyd etdiyimiz kimi, erməni daşnakları tarixi faktları falsifikasiya edərək Gürcüstan Respublikasına məxsus olan Samsxe-Cavaxeti, Kvemo Kartli, Tao-Klardjeti ərazilərinin Ermənistana aid olduğu xüsusunda iddialar irəli sürdülər. Bununla yanaşı Lore-Taşiri ərazisinin də 1918-1920-ci illərdə Ermənistan ərazisi olduğunu, lakin sonralar gürcülər tərəfindən işğal edildiyini də iddia etdilər.

Bu məqsədlə erməni separatçıları Gürcüstanda "Arşalyus", "Pərvanə", "Cavaxk" təşkilatlarını təsis etdilər. Hər üç təşkilat Gürcüstana qarşı ərazi iddiaları ilə çıxış edərək burada yaşayan erməniləri qıcıqlandırır və onları psixoloji cəhətdən "Böyük Ermənistan" proqramını həyata keçirmək üçün səfərbər edir. Erməni separatçıları tərəfindən yaradılmış bu təşkilatlar Gürcüstan və gürcü xalqının ünvanına təhqiramiz fikirlər yağdırmaqdadır. Ermənilərin antigürcü fəaliyyətlərinə kömək məqsədi ilə Dağlıq Qarabağ, Suriya və İrandan Gürcüstana xeyli sayda daşnak funksionerləri də göndərilmişdir.

Samsxe-Cavaxeti ərazisində yerləşən Qorelovka kəndində yaşayan rusdilli əhalinin böyük bir hissəsi burada tüğyan edən erməni şovinizminə davam gətirməyərək Rusiyaya köçmək məcburiyyətində qalmışdırlar. Qandza kəndində isə Gürcüstanın ərazi bütövlüyü üçün təhlükə kəsb edən erməni separatçılarının silahlı dəstələri mövcuddur. Burada fəaliyyət göstərən erməni separtçılarının əsas məqsədi Samsxe-Cavaxetiyanı Gürcüstan ərazisindən qopararaq Ermənistana birləşdirməkdən ibarətdir. Buna nail olmaq üçün isə Moskvada, Yerevanda və Parisdə olan erməni lobbiləri tərəfindən plan tərtib edilmişdir.

Xaricdə fəaliyyət göstərən erməni lobbisinin maliyyə dəstəyi ilə Abxaziyada ermənilərdən ibarət Baqramyan batalyonu təşkil edilmişdir. Bu batalyon gürcü-abxaz münaqişəsində gürcülərin əleyhinə bir neçə hərbi əməliyyat həyata keçirmişdir. Ümumiyyətlə, istər Abxaziyada, istərsə də Cənubi Osetiyada gürcülərin əleyhinə fəaliyyət göstərən erməni silahlı quldur dəstələri günümüzə qədər öz mövcudluğunu saxlamaqdadır.

Gürcü ziyalıları ermənilərin Gürcüstana qarşı ərazi iddialarını təhlükəli hesab edərək çıxış yolunu separatizm və şovinizm əleyhinə Azərbaycan xalqı ilə birlikdə mübarizə aparılmasında görürlər.

Samsxe-Cavaxetiyada yaşayan erməniləri fəallaşdırmaq üçün mütəmadi olaraq erməni separatçıları de-fakto Gürcüstanın yurisdiksiyasında olmayan Cənubi Osetiya ərazisindən qanunsuz şəkildə Gürcüstana keçirlər. Onlar burada yaşayan erməniləri Gürcüstan vətəndaşlığından imtina etməyə, vergilərdən yayınmağa, dövlət gömrük orqanlarına tabe olmamağa təhrik edirlər. Demək olar ki, burada mövcud olan bütün orta məktəblərin müdirləri ermənilərdən ibarətdir. Əkstəqdirdə gürcü mənşəli bir şəxs dövlət tərəfindən orta məktəbə müdir göndərildikdə ermənilər kütləvi şəkildə etiraz bildirərək bunun qarşısını alırlar.

Gürcüstan hökuməti tərəfindən Samsxe-Cavaxetiyada Gürcüstan Dövlət Universitetinin filialı fəaliyyət göstərirdi. Burada Tbilisidən və Gürcüstanın başqa şəhərlərindən xeyli sayda tələbələr təhsil alırdılar. Qısa müddətdən sonra erməni millətçiləri burada təhsil alan bir nəfər erməni mənşəli tələbənin qətlindən istifadə edərək universitetin filialının binasına hücum təşkil edirlər. Nəticədə erməni millətçiləri tərəfindən Samsxe-Cavaxetiyada fəaliyyət göstərən Gürcüstan Dövlət Universitetinin filialında təhsil alan bütün gürcü mənşəli tələbələr buradan qovuldular.

Samsxe-Cavaxetiyada adi xuliqanlıq üstündə həbs edilən erməni mənşəli cinafətkar qısa müddət ərzində separatçılar tərəfindən dünya ictimaiyyətinə siyasi düstaq kimi təqdim olunmağa başlayır.

Erməni millətçiləri Gürcüstandan Rusiya Federasiyasının hərbi bazalarının çıxarılması prosesinə də əngəl törədən amillərdən hesab olunmaqdadır. Belə ki, Rusiya hərbi bazalarının bu ərazilərdən çıxarılması ilə bağlı olaraq Samsxe-Cavaxetiyada ermənilər tərəfindən Gürcüstan hakimiyyətinə qarşı bir neçə dəfə kütləvi etiraz bildirilmişdir. Ermənilər bu məsələdə öz separatçı mövqelərini ört-bastır etmək üçün bu ərazilərdən Rusiya bazaları çıxarıldığı halda ermənilər arasında işsizlik probleminin meydana gələcəyini bəhanə etmişdirlər. Bununla yanaşı, Gürcüstan parlamentinin məshəti türklərinin 2010-2012-ci illərdə tamamilə öz doğma əraziləri hesab olunan Samsxe-Cavaxetiyaya yerləşdirilməsi ilə bağlı qərar qəbul etməsi də erməni millətçilərinin Gürcüstana qarşı vandallığını daha da artırmışdır.

Gürcüstan ərazisində bu dövlətə qarşı ərazi iddiası irəli sürən erməni separatçı təşkilatlarının bir neçə lideri gürcü xüsusi xidmət orqanları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində yaxalanmışdır. Bunlardan Gürcüstanda yaşayan ermənilərin demokratik alyansı kimi təqdim olunan “Vahid Cavaxk” təşkilatının liderlərindən Vaaq Çaxalyanın, Qurqen Şirinyanın adlarını çəkmək olar. Lakin təəssüflə qeyd etməliyik ki, Gürcüstan ərazisində fəaliyyət göstərən

ən böyük erməni separatçılarından biri olan Vaaq Çaxalyan həbs olunduqdan qısa müddət sonra azadlığa buraxılmışdır.

Tarixi mənbələrdə göstərilmişdir ki, 1829-cu ilə qədər Samsxe-Cavaxetiyada bir nəfər də erməni yaşamamışdır. Yalnız 1829-1830-cu illərdə Türkiyədən xəyanət üstündə qaçmış ermənilər bu ərazilərdə yerləşməyə başlamışlar. 1831-ci ilə qədər Samsxe-Cavaxetiyaya 25 min erməni məskunlaşmışdır. Hazırda burada 70 min erməni, 250 min gürcü yaşamaqdadır. Şübhəsiz ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz və tarixi ərazisi olduğu kimi, Samsxe-Cavaxetiya da Gürcüstanın ayrılmaz ərazisidir.

## “QAFQAZ DÖRDLÜYÜ”

Heydər Əliyevin təşəbüssü ilə 1996-cı il martın 8-də Azərbaycan və Gürcüstan prezidentləri tərəfindən “Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında” tarixi bəyannamənin imzalanması ilə Qafqazda sülh prosesinə region ölkələrin, Qafqazla əlaqələri olan dövlətlərin maraqları artmağa başladı. Çox keçmədi ki, “Qafqaz dördlüyü” adlandırılan Rusiya Federasiyası, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin prezidentləri Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədilə 1996-cı il iyunun 3-də Şimali Qafqazda görüş keçirdilər. “Qafqaz dördlüyü”nün Kislovodsk görüşündə “Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda bəyannamə” qəbul edilmişdir. Həmin bəyannamədə Qafqazın sülh, əmin-amanlıq, təhlükəsizlik regionuna çevrilməsi, Qafqazda millətlərarası həmrəyliyin yaradılması, Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olmasına hərtərəfli kömək göstərilməsi, bölgədə münaqişələrin beynəlxalq hüquqi normalar əsasında yalnız sülh yolu ilə həll edilməsinin vacibliyi, Qafqazda tarazlaşdırılmış iqtisadi siyasətin həyata keçirilməsi, Qafqazın nadir təbiətinin qorunması və s. Bu kimi qlobal məsələlərin birgə reallaşdırılması öz əksini tapmışdır. Bəyannamə qoca Qafqazın, eləcə də bəşər sivilizasiyasının zəngin mədəniyyətləri ilə seçilən Qafqaz xalqlarının, XX əsrin sonunda müstəqilliyə qovuşmuş Cənubi Qafqaz dövlətlərinin taleyi üçün belə bir ümidverici notlarla bitir: “Biz Azərbaycanın, Ermənistanın, Gürcüstanın, Rusiyanın dövlət başçıları, xalqımızın gələcəyi üçün tarixi məsuliyyət daşıdığımızı dərk edərək, milyonlarla insanın iradəsini ifadə edərək millətlərarası həmrəyliyi, sülhü, iqtisadi tərəqqini təmin etmək, Qafqaz xalqlarının mədəni-tarixi irsini birlikdə artırmaq üçün özümüzdən asılı olan hər şeyi etməyə hazır olduğumuzu bəyan edirik: Qafqaz bizim ümumi evimizdir. Onu öz tarixləri ilə fəxr edən və gələcəyə inamla baxan insanların yaşadıqları dinc, tərəqqi edən regiona çevirmək bizim borcumuzdur”.

Tarixşünaslıq ədəbiyyatında Kislovodsk Bəyannaməsi kimi tanınan sənəd mahiyyət və məzmunu etibarı ilə Heydər Əliyev və Eduard Şevardnadze təfəkkürünün, zəngin dövlətçilik təcrübəsinin məhsulu olan Tbilisi Bəyannaməsinin məntiqi və siyasi davamıdır, əslində həmin ideyaların daha geniş tərkibdə və kontekstdə bir daha təsdiqidir, müdafiə olunmasıdır, dəstəklənməsidir.

Həmin Bəyannamənin imzalanmasından sonra Heydər Əliyev demişdir: “Ümumiyyətlə, mən bugünkü görüşdən çox məmnun qaldığımı bir daha bildirmək istəyirəm. Mən istəyirəm ki, Qafqazda sülh olsun, Qafqazda sabitlik olsun, axı Qafqazda müxtəlif millətlərin nümayəndələri, müxtəlif dinlərə etiqad bəsləyən adamlar yaşayırlar, onların çoxu müsəlman dininə mənsubdur… Odur ki,

bizim borcumuz, bizim hər birimizin borcu – mən öz borcumdan danışıram – bu məsələlərə maksimum diqqətlə yanaşmaqdan, bütün dinlərə, bütün əqidələrə, milliyyətindən asılı olmayaraq, bütün adamlara hörmət etməkdən ibarətdir. Təkrar edirəm, bununla əlaqədar Qafqaz xalqlarını sıx birləşdirməyə və Qafqazı dinc bir regiona çevirməyə imkan var…”.

Kislovodsk görüşündə razılaşdırıldığı kimi, ötən müddətdə mütəmadi olaraq “Qafqaz dördlüyü” müxtəlif formatlarda Qafqazda sülhün yaradılması məsələri ilə bağlı görüşlər keçirmişdirlər. Belə görüşlərdən biri 2002-ci il iyunun 20-də MDB-yə üzv olan ölkələrin dövlət başçılarının növbəti görüşündə keçirilmişdir. Əvvəlcə Heydər Əliyevlə Robert Köçəryanın təkbətək görüşü olmuş, sonra isə bu görüşə Vladimir Putin və Eduard Şevardnadze də qoşulmuşdur. Görüş zamanı Vladimir Putin sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasının vacibliyindən söz açaraq bölgənin problemlərinin tezliklə aradan qaldırılması zəruriliyini, bölgədə mövcud olan münaqişələrin həllində qarşılıqlı səylərin artırılmasının, əlaqələrin və əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini vurğulayaraq öz ölkəsinin Cənubi Qafqazda sülhün, əmin-amanlığın bərqərar edilməsində böyük marağı olduğunu qeyd etmişdir. Vladimir Putin münaqişələrin tezliklə həlli üçün Rusiyanın bütün imkanlardan istifadə edəcəyini söyləmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev regional problemlərin həllində “Qafqaz dördlüyü” çərçivəsində belə görüşlərin keçirilməsinin əhəmiyyətini və vacibliyini qeyd etmişdir. Heydər Əliyev Azərbaycanın ən ağrılı problemi olan Ermənistan -Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 20 faiz torpağının işğal olunduğunu, bir milyondan çox azərbaycanlının doğma yurd-yuvasından didərgin düşərək hələ də çadır şəhərciklərində dözülməz şəraitdə yaşadığını bir daha görüş iştirakçılarının nəzərinə çatdıraraq ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiyanın bu münaqişənin sülh yolu ilə həllində səylərinin daha da artırılmasının vacibliyini qeyd etmişdir. Gürcüstan prezidenti Eduard Şevardnadze Cənubi Qafqazdakı münaqişələrin xüsusiyyətlərinə və onların həlli yollarına toxunaraq Gürcüstan-abxaz münaqişəsini bir dövlət daxilindəki münaqişə kimi səciyyələndirmişdir. Ermənistan prezidenti Robert Köçəryan isə regionda əmin-amanlığın bərqərar edilməsində marağı olan Rusiyanın bu münaqişələrin həlli sahəsində imkanlarının yüksək olduğunu nəzərə çatdırmışdır.

Görüşün yekunlarına dair “Qafqaz Dördlüyü”-Azərbaycan Respublikası, Ermənistan Respublikası, Gürcüstan və Rusiya Federasiyası prezidentlərinin birgə bəyanatı qəbul olunmuşdur.

Bu sənəddə dövlət başçıları Cənubi Qafqazda münaqişələrin sülh yolu ilə aradan qaldırılması məsələlərinə, regional təhlükəsizliyin möhkəmləndirilməsi probleminə, o cümlədən beynəlxalq terrorizmə qarşı mübarizədə, habelə humanitar sahədə və digər sahələrdə əməkdaşlığa dair apardıqları fikir mübadiləsini

faydalı hesab etmişlər. Bununla yanaşı, dörd dövlətin prezidentləri belə görüşlərin davam etdirilməsinə tərəfdar olduqlarını bildirmiş, Dünya Birliyinin və beynəlxalq təşkilatların Cənubi Qafqazdakı münaqişələrin aradan qaldırılmasının sürətləndirilməsinə kömək edən təşəbbüslərini alqışlamışlar.

2002-ci ildə "Qafqaz Dördlüyünün" Təhlükəsizlik Şurasının katiblərinin Soçidə keçirilən görüşünün sənədləri ilə tanış olan Rusiya Federasiyasının prezidenti V.Putin Qafqazda mövcud olan münaqişələrin sülh yolu ilə həlli məsələsində "Qafqaz dördlüyünün" səylərini yüksək qiymətləndirərək demişdir: "Dördlük Qafqazda mövcud olan münaqişələrin sülh yolu ilə nizamlanmasında real mexanizmə çevrilə bilər. Bunun üçün isə möhkəm siyasi iradə nümayiş etdirmək lazımdır. Məhdud dairəyə sığınmaqla, toyuğunmu, yoxsa yumurtanınmı birinci meydana gəlməsi haqqında suallar verməklə deyil, qətiyyətli addımlar atmaqla "Qafqaz Dördlüyü" regionda olan münaqişələrin həllinə nail ola bilər".

Rusiya prezidenti Ermənistan-Azərbaycan və abxaz-gürcü münaqişəsini Qafqazda mövcud olan ən ağır münaqişə kimi qiymətləndirərək hər iki münaqişənin sülh yolu ilə həll edilməsində prezidentlərin səylərini gücləndirməyə və bununla yanaşı digər Qafqaz dövlətlərinin liderlərinin bu işdə yardımçı olmasına böyük ehtiyac duyulduğunu bildirmişdir. V.Putin Ermənistan-Azərbaycan və abxaz-gürcü münaqişəsinin sülh yolu ilə həll edilməsini "Qafqaz Dördlüyünün" qarşısında duran ən vacib məsələ olduğunu qeyd etmişdir.

"Qafqaz dördlüyünün" Təhlükəsizlik Şurasının yaradılması regionda sülhə nail olunması istiqamətində böyük əhəmiyyət kəsb etməkdədir. Belə ki, "Qafqaz Dördlüyünün" Təhlükəsizlik Şurasının yaradılmasından əvvəl Rusiya MDB çərçivəsində Qafqaz dövlətləri arasında Kollektiv Təhlükəsizliklə bağlı yalnız Ermənistanla əlaqələrə malik idi. Lakin "Qafqaz Dördlüyü" çərçivəsində Rusiya ilə Azərbaycan və Gürcüstan respublikaları arasında da birgə təhlükəsizliklə bağlı əlaqələr yaratmaq mümkün olmuşdur.

"Qafqaz Dördlüyü" çərçivəsində Ermənistan-Azərbaycan və abxaz-gürcü münaqişələrinin sülh yolu ilə həlli istiqamətində bir neçə dəfə dördtərəfli müzakirələr aparılmışdır. Müzakirələrdən sonra isə V.Ruşaylo münaqişə tərəflərinin hər biri ilə görüşlər keçirmişdir.

"Qafqaz Dördlüyü" Təhlükəsizlik Şurasının katibləri Vladimir Ruşaylo, Ramiz Mehdiyev, Serj Sarkisyan və Tedo Caparidze arasında Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və "Çeçen problemi"nin sülh yolu ilə həlli istiqamətində aparılan müzakirələr Qafqazda sülhə və sabitliyə nail olunması ilə bağlı dördtərəfli fəaliyyətin genişlənməsinə xidmət etmişdir.

"Qafqaz Dördlüyü" Təhlükəsizlik Şurasının katiblərinin münaqişələrin həlli ilə bağlı keçirilən görüşlərini V.Ruşaylo belə qiymətləndirmişdir: "Müzakirələrdə heç də həmişə fikirlərimiz üst-üstə düşmür. Lakin Qafqazda mövcud olan

münaqişələrin sülh yolu ilə həllinə nail olmaq, Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin hökm sürməsi hamımızın əsas məqsədidir".

2001-ci il mayın 31-də keçirilmiş "Qafqaz Dördlüyü" ölkələrinin başçılarının sammitində ildə iki dəfədən az olmayaraq "Qafqaz Dördlüyü"nün istənilən formada görüşlərinin keçirilməsi və Dağlıq Qarabağ, Abxaziya, Cənubi Osetiya və "Çeçen problemi"nin həlli məsələsində hər dörd ölkənin prezidentlərinin səylərinin gücləndirilməsi qərara alınmışdır.

# QAFQAZDA, O CÜMLƏDƏN CƏNUBİ QAFQAZDA SÜLHÜN, SABİTLİYİN TƏMİN OLUNMASINDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ROLU

Qafqazda, o cümlədən Cənubi Qafqazda sülhün, sabitliyin təmin olunmasında və etnik münaqişələrin aradan qaldırılmasında ilk dəfə məhz 1993-cü ilin ikinci yarısından başlayaraq Heydər Əliyevin dərin nəzəri təhlili əsasında mövcud reallıqlar nəzərə alınaraq əməli tədbirlər həyata keçirilməyə başlandı. 1993-cü il senyabrın 6-da Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında mühüm təsir göstərmək imkanına malik olan Rusiya Federasiyasına səfər edərək prezident Boris Yeltsin və Rusiyanın başqa rəhbər şəxsləri ilə görüşərək iki ölkə arasında mürəkkəb xarakter almış münasibətlərin yaxşılaşdırılması istiqamətində müzakirələr apardı. Aparılan müzakirələrin nəticəsində sentyabrın 24-də Azərbaycanın MDB-yə daxil olması haqqında sənədlər imzalandı. Dağlıq Qarabağla yanaşı, Qafqazda mövcud olan bütün milli münaqişələrin sülh yolu ilə nizamlanmasında böyük rola malik olan Rusiya Federasiyası ilə Azərbaycan münasibətlərini normallaşdırmaq üçün Heydər Əliyev çevik manevrlər və xüsusi taktiki gedişlər etməyə nail oldu.

Heydər Əliyevin gərgin fəaliyyətinin nəticəsində 1994-cü ildə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəş əldə olundu. 1996-cı il martın 8-10-da Gürcüstana rəsmi səfər edən Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən martın 8-də "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan birgə Bəyannaməsinin imzalanması isə Heydər Əliyevin Qafqazda sülhün və sabitliyin təmin edilməsi istiqamətində həyata keçirdiyi mühüm uğurlu siyasət kimi qiymətləndirilməkdədir.

1993-1996-cı illərdə Heydər Əliyevin mövcud beynəlxalq münasibətlər sistemində həyata keçirdiyi xarici siyasətinin sayəsində dünyanın ayrı-ayrı nüfuzlu, inkişaf etmiş və dünyada mövcud olan böyük münaqişələrin həllində xüsusi təsir gücünə malik dövlətlərin diqqətini Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına cəlb etmək mümkün oldu.

Ümumiyyətlə, Heydər Əliyev tərəfindən Dağlıq Qarabağ və ümumi Qafqazda mövcud olan ərazi bütövlüyü problemlərinin həllinə yönəlmiş xüsusi bir konsepsiya hazırlanmış və ardıcıl siyasi kurs kimi yeridilmişdir. Qeyd edilməlidir ki, Heydər Əliyevə qədər, xüsusilə 1991-1993-cü illərdə Qafqazda, o cümlədən Cənubi Qafqazda sülhün, sabitliyin təmin olunması və etnik münaqişələrin aradan qaldırılması siyasəti nəzərdən qaçırılmış, onun aktuallığına və praktiki əhəmiyyətinə ciddi fikir verilməmişdir. Yalnız Heydər Əliyev Azərbaycanın siyasi hakimiyyətinə qayıtdıqdan sonra Qafqazda sülhün, sabitliyin təmin olunması və et-

nik münaqişələrin aradan qaldırılması istiqamətində düşünülmüş siyasi tədbirlər həyata keçirilmişdir.

1993-1994-cü illərdə Heydər Əliyevin səyi nəticəsində Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı Azərbaycanın ətrafında yaradılmış blokada yarılaraq münaqişənin əsl səbəbləri və siması dünya ictimaiyyətinə çatdırılmışdır. 1994-cü ilin dekabr ayında ATƏM-in Budapeşt sammiti Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində mühüm bir dövün başlanğıcını qoydu. Məhz Heydər Əliyevin siyasi cəsarət və qətiyyəti sayəsində bu sammitdə yaradılmış Avropanın ümumtəhlükəsizlik tədbirlərində iştirak edə biləcək ATƏM-in sülhməramlı qüvvələrinin Minsk qrupu yanında üç min nəfərlik çoxmillətli hərbi hissəsinin təşkil edilməsi və Qarabağa göndərilməsi razılaşdırıldı.

Heydər Əliyevin çevik manevrli siyasətinin nəticəsində Budapeşt sammitində ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salınmışdır. Sammitdə baş verən təqdirəlayiq hal bundan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi və ümumi Qafqazda sülhün yaradılması problemi ətrafında BMT-nin baş katibi B.Butros-Qali, ABŞ-ın prezidenti B.Klinton və bunun kimi dünyanın bir sıra aparıcı dövlət başçıları və siyasi xadimləri çıxış etmişdirlər. Bununla yanaşı, Budapeşt sammitində Heydər Əliyev Qafqaz regionunda təhlükəsizlik və əməkdaşlıq məsələri ilə bağlı ayrı-ayrı dövlət başçıları ilə görüşlər keçirmişdir. Bu görüşlərdə Qafqazda təhlükəsizlik və əməkdaşlığın bərpa edilməsi istiqamətində Heydər Əliyev konkret təkliflərlə çıxış etmişdir. Bu məqsədlə Heydər Əliyev Çexiya prezidenti V.Qavel, Finlandiya prezidenti M.Ahtisaari, Norvecin baş naziri Q.Brutland, Bolqarıstanın prezidenti J.Jelev, Portuqaliyanın baş naziri A.Kovaki Silvo, İsveçrə prezidenti O.Ştix, Ruminiya prezidenti İ.İliesku kimi tanınmış dövlət xadimləri ilə görüşlər keçirmişdir.

Budapeşt sammitində Heydər Əliyevin xüsusi diplomatik gedişlərindən qorxuya düşən Ermənistan prezidenti L.Ter-Petrosyan Dağlıq Qarabağ erməni icmasının münaqişədə iştirak etməsini xalqların öz müqəddəratını təyin etməsi prinsipi ilə eyniləşdirməyə cəhd göstərdi. Heydər Əliyev isə bütün dünya ictimaiyyəti qarşısında "Biz Dağlıq Qarabağ ermənilərinin iddialarına güzəştə gedərək, onlara dövlət müstəqilliyi verə bilmərik" prinsipini irəli sürdü.

Nəhayət, Budapeşt sammitində dünya birliyi qarşısında Ermənistanın siyasi məğlubiyyətini dərk edən L.Ter-Petrosyan münaqişə ətrafında müzakirələr aparılması məqsədi ilə Heydər Əliyevdən onunla görüşməyi xahiş etdi. Heydər Əliyev Ermənistan prezidenti ilə keçirdiyi görüşdə Dağlıq Qarabağda sülhə nail olmaqla bütün Qafqaz regionunda sülhün bərpa edilməsi prosesinin mümkünlüyünü qeyd etdi.

Budapeşt sammiti ilə yanaşı, 1996-cı ilin dekabr ayında ATƏT-in Lissabon sammitində də Qafqazda, o cümlədən Cənubi Qafqazda sülhün, sabitliyin təmin olunması və etnik münaqişələrin aradan qaldırılması istiqamətində həyata keçirilmiş tədbirlərdə Heydər Əliyevin rolu müstəsna əhəmiyyət kəsb etmişdir. Heydər Əliyev Lissabon sammitində dünya birliyinə Dağlıq Qarabağ münaqişəsinin və ümumilikdə Qafqazda mövcud olan münaqişələrin yalnız ədalətli prinsiplər əsasında həll edilməsinin mümükünlüyünü qəbul etdirməyə nail olmuşdur. Bu isə Heydər Əliyevin Lissabon zirvə toplantısına xüsusi hazırlanmış siyasi taktika ilə hərəkət etməsi nəticəsində əmələ gəlmişdir.

Beləliklə, Heydər Əliyev təkcə ATƏT çərçivəsində deyil, BMT, Avropa Birliyi, Avropa Şurası, MDB, İslam dünyası ölkələrini birləşdirən İKT, Yaxın və Orta Şərq ölkələrinin təmsil olunduğu EKO, Qara Dəniz ətrafı ölkələri birləşdirən Qara Dəniz Hövzəsi İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq, məhəlli-təşkilatlar çərçivəsində də Qafqazda, o cümlədən Cənubi Qafqazda sülhün, sabitliyin təmin olunması və etnik münaqişələrin aradan qaldırılması istiqamətində mühüm rola malik olan tədbirlər həyata keçirmişdir.

Heydər Əliyevin Qafqazla bağlı olan fəaliyyəti regionda yerləşən hər bir dövlətin suveren hüquqlarına, xalqların və millətlərin öz müqəddəratını beynəlxalq hüquq normaları çərçivəsində təyin etməsinə hörmətlə yanaşılmasına, insan hüquqlarının və haqlarının qorunmasına, separatizmə, terrorçuluğa, dövlətlərin və xalqların təhlükəsizliyinə, maddi və mənəvi dəyərlərin qorunmasına, milli və siyasi münaqişələrin həllində birgə əməkdaşlığa yönəlmişdir. Heydər Əliyevin Qafqazı beynəlxalq münasibətlər sisteminin hökm sürdüyü və sivilizasiyalı birgə yaşayış regionuna çevrilməsi istiqamətindəki rolu bu gün də dünyanın bir sıra böyük siyasi və dövlət xadimləri tərəfindən təsdiq edilməkdədir.

Qafqazda sülh, təhlükəsizlik və inteqrasiya proseslərində əsas aparıcı rola malik olan Heydər Əliyev regionda sülhün bərpa edilməsinin vacibliyi haqqında demişdir: "Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq".

## TBİLİSİ BƏYANNAMƏSİNİN İMZALANMASI

1996-cı il martın 8-10-da Gürcüstana rəsmi səfər edən Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən martın 8-də “Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında” Azərbaycan-Gürcüstan birgə Bəyannaməsi imzalandı. Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən imzalanmış bu Bəyannamə elmi-siyasi ədəbiyyatda-tarixşünaslıqda Tbilisi Bəyannaməsi adlandırıldı.

Tbilisi Bəyannaməsinə görə, irəli sürülən və reallaşdırılması nəzərdə tutulan “Ümumqafqaz Evi” insan hüquq və azadlıqlarına, dini və etnik mənsubiyyətindən asılı olmayaraq, milli azlıqlara hörmət əsasında yaradılmalı, etnik və dini dözümlülük hər zaman gözlənilməli, dünyanın zəngin mədəniyyət beşiyi olan Qafqaz xalqlarının və dövlətlərinin mədəni irsi və dövlətçilik ənənələri qorunmalı, ərazi toxunulmazlığı təmin edilməli, xalqların və dövlətlərin iqtisadi-mədəni əlaqələrinin formalaşmasına şərait yaradılmalıdır.

Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən 1996-cı il martın 8-də imzalanmış Tbilisi Bəyannaməsi hər şeydən öncə Azərbaycan və Gürcüstan arasında diplomatik münasibətlər qurulduqdan sonra regional, qlobal məsələlərdə hər iki dövlətin eyni mövqedən çıxış etməsinin əyani göstəricisi idi.

SSRİ süquta uğradıqdan sonra Azərbaycan və Gürcüstan respublikalarında baş vermiş milli münaqişələr ərazi bütövlülüyünün təmin olunması, separatizmin neytrallaşdırılması, müstəqil dövlətçiliyin qurulması prosesinə əngəl törətməkdədir. Məhz bu səbəbə görə də hər iki dövlət Qafqazda sülhun və sabitliyin bərpası istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsinə daha çox maraqlıdırlar. Bu xüsusda isə 1996-cı il martın 8-də hər iki ölkənin rəhbərləri tərəfindən imzalanmış Tbilisi Bəyannaməsi müstəsna əhəmiyyət kəsb etməkdədir. Bu Bəyannamənin əsas əhəmiyyəti isə qeyd etdiyimiz kimi, burada reallaşdırılması nəzərdə tutulan “Ümumqafqaz evi” çərçivəsində Qafqazda yaşayan dini və etnik mənsubiyyətindən asılı olmayaraq bütün millətlərin ərazi bütövlüyünə, maddi və mənəvi dəyərlərinə, dövlətçilik ənənələrinə qarşılıqlı hörmətlə yanaşmalarının əks olunmasıdır.

Ümumilikdə götürsək, Tbilisi Bəyannaməsində əks olunan bütün məsələlər XX əsrin sonu, XXI əsrin əvvəllərində regionda meydana çıxmış problemlərin həlli istiqamətinə yönəlmişdir. Bu isə Heydər Əliyevin və Eduard Şevardnadzenin hər iki respublika arasında dostluq və qardaşlıq şəraitində əməkdaşlığın qurulmasına nail olmalarının sayəsində baş tutumuşdur. Bununla bağlı Heydər Əliyev demişdir: “Bizim imzaladığımız sənədlərdən ən əhəmiyyətlisi Azərbaycan və Gürcüstan prezidentləri tərəfindən 1996-cı ilin mart ayında imzalanmış Tbilisi Bəyannaməsidir. O, Qafqazda sülhün və əmin-amanlığın təmin olunmasına həsr edilmiş bəyannamədir. Biz bunları çox yüksək qiymətləndiririk. Bunlar

Gürcüstan və Azərbaycan arasındakı əlaqələrin nə qədər sıx, münasibətlərimizin də eyni olduğunu bir daha sübut edir".

Azərbaycanla Gürcüstan arasında mövcud olan səmimi dostluq münasibətlərinin Qafqazda sülhün yaradılması prosesində müstəsna rolunu Heydər Əliyev bu cür ümumiləşdirmişdir: "Əminəm ki, Gürcüstan-Azərbaycan dostluğu və ölkələrimiz, dövlətlərimiz arasında yaranmış səmimi dostluq münasibətləri nəinki Zaqafqaziya regionunda, həm də bütün Qafqazda sülhün, əmin-amanlığın bərqərar olmasına kömək edəcəkdir. Biz bu əməkdaşlığımızdan məmnunuq və gələcəkdə də əməkdaşlıq etmək arzusundayıq".

Beləliklə, eyni zamanda Tbilisi Bəyannaməsi həm də Azərbaycan və Gürcüstan respublikaları arasında sülh və əmin-amanlıq şəraitində mövcud olan əməkdaşlığın bütün Qafqaz regionuna inteqrasiya edilməsi üçün böyük bir nümunə hesab olunmaqdadır. Şübhəsiz ki, Qafqazda sülhə və sabitliyə nail olmağın ən əsas yolu burada yaşayan bütün xalqların və millətlərin bir-birləri ilə dostluq və qardaşlıq şəraitində əməkdaşlıq qura bilməsindən asılıdır.

Heydər Əliyev kimi bütün dünyada tanınmış böyük bir sülh keşikçisinin Tbilisi Bəyannaməsinin imzalanmasına ilk təşəbbüs göstərməsi ona Qafqazda sülh və inteqrasiyaya nail olunması prosesində liderlik mövqeyini qazandırdı.

## "QAFQAZ REGİONUNDA SÜLH, SABİTLİK VƏ TƏHLÜKƏSİZLİK HAQQINDA" AZƏRBAYCAN-GÜRCÜSTAN BƏYANNAMƏSİ

Tbilisi Bəyannaməsi kimi tarixə imzasını qoymuş "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" bəyannamənin tarixi rolundan, regionda sülhün təmin olunması yolundakı əhəmiyyətindən danışarkən Heydər Əliyev Tbilisidə keçirilən mətbuat konfransında demişdir: "Qafqaz regionunda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında" imzaladığımız bəyannamə çox mühümdür. Mən deyərdim ki, bu, həmin qəbildən olan ilk belə ciddi mühüm siyasi sənəddir. Onun mühümlüyü və böyük əhəmiyyəti bundadır ki, Qafqaz qeyri-sabitlikdən, münaqişələrdən əziyyət çəkir, bir çox millətlərarası toqquşmalardan və proseslərdən əziyyət çəkir. Ona görə də hər birimiz, xüsusən də Gürcüstan və Azərbaycan dövlət başçılarının vəzifəsi Qafqazda sülhə, təhlükəsizliyə, əməkdaşlığa yol açmaqdır. İmzaladığımız sənəd məzmununa və xarakterinə görə belə bir əməkdaşlığa yol açır. O, başqalarının qoşulması üçün açıqdır. Ona görə də ümidvar olduğumu bildirmək istəyirəm ki, regionumuzun digər dövlətləri, eləcə də başqa dövlətlər bu sənədə qoşulacaqlar".

Həmin bəyannamənin Qafqazın gələcək taleyində mühüm amil olan sülh proseslərinin təmin edilməsi və regional əməkdaşlıqdakı rolundan bəhs edən Heydər Əliyev bu sənəddə irəli sürülən ideyaların həyata keçirilməsinin prespektivlərini bu cür ümumiləşdirir: "Bu bəyannamə göstərir ki, həm cənab Eduard Şevardnadze, həm də mən Qafqazda sülhü həqiqətən möhkəmləndirməyə, sülhü bərqərar etməyə çalışırıq. Nəinki öz ölkələrimiz, öz xalqlarımız haqqında düşünürük, bütün Qafqaz haqqında, Qafqazın bugünü, gələcəyi haqqında düşünürük. Bu bəyannamə açıq bir sənəddir və mən ümidvar olduğumu bildirmək istəyirəm ki, Qafqazın bütün respublikaları, dövlətləri də və başqa dövlətlər də bu bəyannaməyə qoşulacaqlar. Çünki Qafqazda sülhü, əmin-amanlığı bərqərar etmək təkcə Gürcüstan, Azərbaycan üçün deyil, Qafqazda yaşayan bütün xalqlar üçündür. Bu, təkcə Qafqaz üçün yox, Qafqazla əlaqəsi olan bütün ölkələr, xalqlar üçündür, bütün dünya üçündür. Qafqaz indi bütün dünyanın diqqət mərkəzindədir. Ona görə də Qafqazda gedən prosesləri düzgün istiqamətdə, sülh istiqamətinə yönəldib Qafqazda sülhə, əmin-amanlığa nail olmaq çox böyük, müqəddəs məqsəddir, ali məqsəddir və biz bu məqsəd uğrunda bundan sonra da əzmlə çalışacağıq".

Şübhəsiz ki, "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsinin dinc və sabit Qafqaz uğrunda hərəkatda ilk uğurlu addım hesab olunması hər şeydən öncə, Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasının beynəlxalq siyasətinin və əhəmiyyətinin gücləndirilməsi ilə bağlıdır. Azərbaycanın beynəlxalq aləmdə əhəmiyyətinin və mövqeyinin güclənməsi Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik bərqə-

rar olması istiqamətində çəkisini artırmışdır. Bunun əsas səbəbi isə Heydər Əliyevin Azərbaycanın xarici siyasətini beynəlxalq hüquq normaları və ölkənin maraqlarını nəzərdə tutan prinsiplər əsasında qura bilməsi idi.

Tbilisi Bəyannaməsinin əhəmiyyətini və bu bəyannamənin imzalanmasında Heydər Əliyevin rolunu Eduard Şevardnadze belə qiymətləndirmişdir: "Regional problemləri müzakirə edərkən biz Heydər Əliyevlə razılığa gələrək çox mühüm saydığımız regionda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında sənəd – "Sabit Qafqaz uğrunda" Bəyannamə imzalamağı qərara aldıq. Bəyannamə Qafqazda sülh və sabitliyin təmin olunmasının məqsəd və vəzifələrini müəyyənləşdirir və regionun bütün ölkələri və xalqları üçün açıqdır, onları habelə əlaqədar beynəlxalq təşkilatları və dünyanın qabaqcıl ölkələrini əməkdaşlığa çağırır. Biz bu qərarın qəbul olunmasının bütün mürəkkəbliyini dərk edir və dostumuz cənab prezidentin şəxsi cəsarəti və müdrikliyi qarşısında baş əyirik".

Heydər Əliyev "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsinin dinc və sabit Qafqaz uğrunda hərəkatda ilk uğurlu addım olmasını bu cür ümumiləşdirmişdir: "İlk dəfə olaraq Azərbaycan Respublikasının prezidenti və Gürcüstan Respublikasının prezidenti Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq haqqında çox dəyərli bir bəyannamə imzaladılar. Bu iki tarixi sənəd bir-birini tamamlayan sənəddir, ikisi birlikdə böyük bir kompleks təşkil edir".

Bu nöqteyi nəzərdən Qafqazda sivil birgəyaşayış qaydalarının tənzimlənməsinə, regional münaqişələrin sülh yolu ilə həllində Qafqaz dövlətlərinin fəal iştirakına, regionda yerləşən dövlətlərin dünyanın siyasi xəritəsində layiqli yer tutmalarına, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin, mehriban qonşuluq münasibətlərinin yaradılmasına xidmət göstərən Heydər Əliyevin və Eduard Şevardnadzenin təşəbbüsü ilə 1996-cı il martın 8-də imzalanmış Tbilisi Bəyannaməsi dinc və sabit Qafqaz uğrunda hərəkatda ilk uğurlu addım kimi qiymətləndirilir.

1996-cı il martın 8-10-da Gürcüstana rəsmi səfər edən Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən martın 8-də "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan arasında imzalanmış "Tbilisi Bəyannaməsi" Ümumi Qafqaz Evinin təməlinin qoyulmasında, əməkdaşlığın və daxili dialoqun başlanmasında mühüm əhəmiyyətə malikdir.

Bəyannamədə insan hüquq və azadlıqlarına, dini və etnik məqsubiyyətindən asılı olmayaraq, milli azlıqların hüquqlarına, etnik və dini dözümlülüyə, dünyanın zəngin mədəniyyət beşiyi olan Qafqaz xalqlarının və dövlətlərinin mədəni irsi və dövlətçilik ənənələrinə, xalqların və dövlətlərin iqtisadi, mədəni əlaqələrinin formalaşmasına və Qafqaz dövlətlərinin beynəlxalq birlik tərəfindən tanınmış sənədlərinin hamı tərəfindən tanınmasına hörmətlə yanaşılması və riayət edilməsi nəzərdə tutulan "Ümumqafqaz Evinin" reallaşdırılması nəzərdə tutulmuşdur.

1996-cı il martın 8-də Azərbaycan və Gürcüstan prezidentləri tərəfindən imzalanmış "Tbilisi Bəyannaməsi" Qafqazda sülh və sabitliyin təmin olunmasının məqsəd və vəzifələrini müəyyənləşdirərək regionun bütün ölkələri və xalqları üçün açıq elan olunmuş və əməkdaşlığa çağırılmışdır.

Heydər Əliyev Qafqazın gələcək taleyində mühüm amil olan sülh proseslərinin təmin edilməsi üçün daxili dialoqun və əməkdaşlığın yaradılmasında "Tbilisi Bəyannaməsi"nin əhəmiyyətini yüksək qiymətləndirərək Azərbaycan və Gürcüstan arasında imzalanmış bu sənədin regionun başqa dövlətlərinin də qoşulması üçün açıq olduğunu bildirmişdi.

Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən bu tarixi bəyannamə imzalandıqdan sonra Qafqazda yerləşən digər dövlət başçılarının regionda sülhün, təhlükəsizliyin və sabitliyin bərpa edilməsi üçün əməkdaşlığa və daxili dialoqa maraqları artmağa başladı. Çox keçmədi ki, Qafqazda sülh, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıq məsələlərini müzakirə etmək məqsədi ilə 1996-cı il iyunun 3-də Rusiya Federasiyası, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin prezidentlərinin Şimali Qafqazda görüşləri keçirildi. "Tbilisi Bəyannaməsi"nin ilk və ən böyük səmərəsi hesab olunan bu görüş Qafqazda sülh, əmin-amanlıq və təhlükəsizliyin təmin edilməsi məqsədi ilə əməkdaşlıq və daxili dialoqun başlanqıcı kimi qiymətləndirildi. Daxili dialoqun başlanğıcına təkan verən dövlətlər isə "Qafqaz dördlüyü" adlandırıldı.

"Qafqaz Dördlüyü" Kislovodsk görüşündə Qafqazın sülh, əmin-amanlıq, təhlükəsizlik regionuna çevrilməsi, Qafqazda millətlərarası həmrəyliyin yaradılması, Qafqazda möhkəm sülh və sabitliyin bərqərar olması, bölgədəki münaqişələrin beynəlxalq hüquq normaları əsasında yalnız sülh yolu ilə həll edilməsi, Qafqazda tarazlaşdırılmış iqtisadi siyasətin həyata keçirilməsi, Qafqazda eko-

logiyanın qorunması istiqamətində dialoq aparılmışdır. Dialoqun nəticəsində isə "Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq uğrunda Bəyannamə" qəbul edilmişdir.

Ümumi Qafqaz Evinin təməlinin qoyulmasını, əməkdaşlıq və daxili dialoqun başlanmasını səciyyələndirən "Qafqaz dördlüyü"nün "Kislovodsk Bəyannaməsi"ni "Tbilisi bəyannaməsi"nin məntiqi və siyasi davamı, böyük əks-sədası kimi dəyərləndirən Heydər Əliyev demişdir: "Məmnuniyyət hissi ilə demək olar ki, "Tbilisi Bəyannaməsi" böyük əks-səda doğurmuş, dünyada böyük hörmətlə qəbul edilmiş, inkişaf etmişdir.

Həmin bəyannamənin davamı olaraq keçən ilin iyun ayında (3 iyun 1996-cı il nəzərdə tutulur – *İ.H.*) Kislovodskda dörd dövlətin-Rusiya, Gürcüstan, Ermənistan və Azərbaycanın başçıları Qafqazda sülhün, əmin-amanlığın təmin edilməsinə aid yeni bir bəyannamə imzalamışlar".

Bu görüşlərlə yanaşı, Heydər Əliyevin 1999-cu il ATƏT-in İstanbul sammitində "Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nın yaradılması təklifi ilə çıxış etməsi və bu ideyanın geniş, ətraflı müzakirəsinin beynəlxalq birlik tərəfindən dəstəklənməsi prosesində də "Tbilisi Bəyannaməsi"nin böyük əhəmiyyəti olmuşdur. Belə ki, "Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nin yaradılması təklifi Heydər Əliyev tərəfindən "Tbilisi Bəyannaməsi"ndə irəli sürülən "Ümumqafqaz Evi" ideyasının reallaşmasına kömək məqsədilə irəli sürülmüşdür.

"Tbilisi Bəyannaməsi" dünyada mövcud olan separatçı hərəkatların, etnik münaqişələrin ən qaynar nöqtələrindən və strateji baxımdan ən əhəmiyyətli geosiyasi məkanlarından sayılan Qafqazda "sülh mədəniyyəti"nin qorunması, sülh prosesinin hər vasitə ilə inkişaf etdirilməsi, regionda yerləşən xalqların və dövlətlərin birgəyaşayışı, əmin-amanlığı, qarşılıqlı əməkdaşlığı, iqtisadi və mədəni inteqrasiyası istiqamətində əməkdaşlığın və daxili dialoqun başlanmasında mühüm əhəmiyyət kəsb edir.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV QAFQAZDA SÜLH TƏŞƏBBÜSÜNÜ DƏSTƏKLƏYƏN İLK DÖVLƏT BAŞÇISIDIR

SSRİ-nin süqutundan sonra Qafqaz xalqlarının ictimai-siyasi, iqtisadi və mədəni həyatlarının yeni mərhələsi başlandı. Qafqazda yerləşən dövlətlərin müstəqillik əldə etməsi regional əməkdaşlıq məsələsini gündəmə çıxartdı. Aydın məsələdir ki, heç bir xalq və dövlət özünə qapanmaqla uğur əldə edə bilməz. Məhz buna görə də müstəqil Azərbaycan Respublikasının inkişaf strategiyasında Qafqaz ölkələri ilə siyasi, iqtisadi və mədəni əlaqələrin yaradılması vacib prioritetlərdən biri hesab olunur. Qafqaz xalqları arasında mövcud olan tarixi sosial-iqtisadi əlaqələr regional iqtisadiyyat və ümumqafqaz mədəni dəyərləri sahəsndə əməkdaşlığın formalaşmasına səbəb olmuşdur.

Qeyri-siyasi sabitlik, millətlərarası münaqişələr və iqtisadi tənəzzül şəraitinin hökm sürməsi Qafqaz respublikalarının əksəriyyətinin regional inteqrasiya məsələsinə önəmli yanaşmasına gətirib çıxartmışdır. Bu isə Qafqaz xalqlarının liderlərinin regionda vahid "Qafqaz Evi"nin yaradılmasının zəruriliyi haqqında irəli sürdükləri fikirlərdə öz əksini tapmışdır.

Müstəqil Azərbaycan Respublikasının müasir dövrdə yaradılması XX əsrin sonlarının vacib tarixi hadisəsi oldu. Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasi tədbirlərin nəticəsində Azərbaycan Respublikasında tam siyasi sabitlik şəraitində bütün sahələrdə islahatlar aparılmış, hazırda həmin siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Heydər Əliyevin müəyyən etdiyi siyasi inkişaf strategiyasına müvafiq olaraq müstəqil Azərbaycan Respublikası demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu istiqamətində hərəkət edir. Respublikada yeni iqtisadi əlaqələr, islahatlar və bazar iqtisadiyyatına keçid sahələrində həyata keçirilən tədbirlər özünü doğrultmaqdadır.

Azərbaycan Respublikasının müstəqilliynin qorunması və möhkəmləndirilməsi təkcə Azərbaycan xalıqının deyil, bütün Qafqaz xalqlarının gələcəyi üçün möhkəm qarant kimi qiymətləndirilir. Müstəqil Azərbaycan Respublikasının banisi olan Heydər Əliyevin yeritdiyi xarici siyasət konsepsiyasında dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əməkdaşlıq əlaqələri yaratmaq; bu əlaqələrdən Respublikanın iqtisadiyyatının, elminin və mədəniyyətinin inkişafında səmərəli amil kimi isdifadə etmək; regionda gərginliyin aradan qaldırılmasına və mehriban qonşuluq münasibətlərinin yaradılmasına səy göstərmək öz əksini tapmışdır.

SSRİ-nin süqutundan sonra əski və çağdaş dünyanın etnodil, etnik baxımdan özünəməxsus bölgələrindən sayılan Qafqaz regionu özünün mürəkkəb və məsu-

liyyətli dövrünü yaşayır. Totalitar rejimdən miras qalmış etnik konfliktlər, sovet repressiyalarına və deportasiyalarına məruz qalmış xalqların yaşama hüquqlarının tapdalanması və ümumiyyətlə, 200 ilə yaxın müddətdə əvvəl çar Rusiyası zamanında, sonralar Sovetlər Birliyi formasında zühur etmiş dünyanın sonuncu qırmızı "Şər imperiyası" dövründə ruslar tərəfindən Qafqazda həmişə etnik parçalama, "ayır-buyur", "parçala-hökm sür" siyasi prinsipinin yeridilməsi nəticədə SSRİ-nin süqutundan sonra regionun aqressiv separatizm, ciddi qarşıdurma və milli münaqişələr ocağına çevrilməsinə gətirib çıxartdı. Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi hərbi təcavüzü nəticəsində Azərbaycanın 20% torpağı işğal edilmiş, bununla yanaşı regionda osetin-gürcü, abxaz-gürcü, inquş-osetin münaqişələri və rus-çeçen müharibəsi baş vermişdir.

Demək olar ki, 1993-cü ilə qədər Qafqazın sülh regionuna çevrilməsi ilə bağlı heç bir ciddi məsələ və ya təşəbbüs irəli sürülməmişdir. Yalnız 1993-cü ildə Azərbaycanın siyasi hakimiyyətinə yenidən qayıtmış Heydər Əliyev bu istiqamətdə Qafqaz xalqlarının liderləri arasında ilk təşəbbüskar lider oldu.

1996-cı ilin iyun ayında Antonios Trakatellisin başçılığı ilə Avropa parlamentinin Zaqafqaziya üzrə nümayəndələrini qəbul edən Heydər Əliyev, Qafqaz regionunun gözəl olmasını və Azərbaycanın bu ərazidə sabitliyinin hökm sürməsini istəməsini söyləmişdir.

Heydər Əliyev Qafqazda vahid iqtisadi, mədəni və nəticədə siyasi məkanın yaradılması istiqamətində münbit və effektli şərait yaradan ilk lider olmuşdur. Bu böyük şəxsiyyətin Ermənistan və Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli istiqamətində həyata keçirdiyi siyasi tədbirlər bütün Qafqazda sülhün yaradılmasına xidmət etmişdir. 1994-cü ildə ATƏT-in Budapeştdə, 1996-cı ildə isə Lissabonda keçirilmiş zirvə toplantılarında Heydər Əliyevin sayəsində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Azərbaycanın əldə etdiyi uğurlar Qafqazda mövcud olan problemlərin həllində Azərbaycan Respublikasının əhəmiyyətini artırdı. Bu nöqteyi-nəzərdən Azərbaycanla Gürcüstan və Şimali Qafqaz respublikaları arasında sıx əməkdaşlıq əlaqələrinin qurulmasında Heydər Əliyevin fəaliyyəti müstəsna əhəmiyyətə malikdir.

Azərbaycanla Gürcüstan arasında qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərinin qurulması Heydər Əliyevin Qafqazda sülhün möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərin parlaq nümunələrindən hesab olunur. Bu nöqteyi-nəzərdən 1996-cı il martın 8-10-da Gürcüstana rəsmi səfər edən Heydər Əliyev və Eduard Şevardnadze tərəfindən martın 8-də "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan birgə Bəyannaməsinin imzalanması xüsusi əhəmiyyət kəsb etmişdir. Dinc və sabit Qafqaz uğrunda hərəkatda ilk uğurlu addım kimi qiymətləndirilən "Qafqaz regi-

onunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsi məhz Heydər Əliyevin təklifi ilə "Tbilisi Bəyannaməsi" adlandırılmışdır.

1996-cı ilin mart ayında Heydər Əliyevin Gürcüstana, 1997-ci ildə Eduard Şevardnadzenin Azərbaycana səfəri zamanı imzalanmış bəyannamələr və sazişlər Qafqazda sülh ideyasının reallaşdırılması işində müstəsna əhəmiyyət kəsb etmişdir. Qafqazda sülhün və təhlükəsizlyin yaradılması üçün həyata keçirilən bütün məqsədyönlü tədbirlərin əsas təşəbbüskarı isə, heç şübhəsiz ki, Heydər Əliyev olmuşdur. Məhz bu aspektlərlə bağlı olaraq 1997-ci ilin fevral ayında Azərbaycana rəsmi səfəri zamanı E. Şevardnadze Bakı Dövlət Universitetinin professor-müəllim heyətinin qarşısında çıxış etdiyi zaman Qafqazda sülhün və sabitliyin yaradılması istiqamətində Heydər Əliyevin xüsusi rolunu qeyd edərək demişdir: "Prezident Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır".

Bütün bunlar Heydər Əliyevin Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısı kimi xidmətlərinin qonşu ölkələr tərəfindən etiraf olunması və müstəqil Azərbaycanın sülh siyasətinin real və parlaq nəticəsi kimi qiymətləndirilir.

## QAFQAZDA ETNİK KONFLİKTLƏRİN HƏLLİ İSTİQAMƏTİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN TƏŞƏBBÜSLƏRİ

200 ilə yaxın müddətdə əvvəl çar Rusiyası zamanında, sonralar Sovetlər Birliyi formasında zühur etmiş qırmızı "Şər imperiyası" dövründə rusların Qafqaz siyasətinin əsasında həmişə etnik parçalama, "ayır-buyur", "parçala-hökm sür" prinsipi durmuşdur. XX əsrin sonunda müstəqilliyə qovuşmuş üç Cənubi Qafqaz ölkəsi-Gürcüstan (aprel, 1991), Ermənistan (sentyabr, 1991), Azərbaycan (oktyabr, 1991), eləcə də hazırda Rusiya Federasiyası tərkibində qalmış Şimali Qafqaz xalqları keçmiş çar və sovet Rusiyasından miras qalmış etnik separatizmdən (Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, Şimali Qafqazda Çeçenistan) xilas ola bilmir.

1993-cü ildə Azərbaycanın siyasi hakimiyyətinə yenidən qayıtmış Heydər Əliyev Qafqazda etnik konfliktlərin, o cümlədən Azərbaycan və Ermənistan arasında Dağlıq Qarabağ uğrunda Ermənistan tərəfindən süni surətdə qızışdırılan elan olunmamış müharibənin, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həlli istiqamətində əhəmiyyətli təşəbbüslər göstərmişdir.

Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin bərpa edilməsi istiqamətində SSRİ-nin süqutundan sonra Heydər Əliyev qədər təşəbbüs göstərən ikinci bir lider olmamışdır. Bunun əsas səbəbi isə Heydər Əliyevin planetar səviyyədə güclü bir siyasi xadim olması ilə bağlı idi. Məhz buna görə də Heydər Əliyevə qədər Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin bərpa edilməsi, xüsusilə Qafqazda etnik konfliktlərin, o cümlədən Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həlli istiqamətində ayrı-ayrı Qafqaz liderləri tərəfindən irəli sürülən bütün təşəbbüslər zamanın sınağından çıxa bilmədilər. Çünki bu təşəbbüslər beynəlxalq aləmin yüzillərlə yaranmış və formalaşmış sivilizasiyalı münasibətlər sistemi üzərində deyil, əksinə, tərəflərin mənafelərinin tarazlığı, qarşılıqlı təminatı üzərində qurulması ilə bağlı idi.

Heydər Əliyevin Qafqazda sülhün bərpa edilməsi istiqamətində burada mövcud olan bütün xalqların və dövlətlərin mənafelərinə uyğun şəkildə irəli sürdüyü tarazlaşdırılmış təşəbbüslərinin ən parlaq nümunəsi Azərbaycanla Gürcüstan arasında dostluq və əməkdaşlıq münasibətlərini qurmağa müvəffəq olmasıdır. Bu nöqteyi-nəzərdən Heydər Əliyevin 1996-cı il martın 8-10-da Gürcüstan Respublikasına etdiyi səfər xüsusi əhəmiyyət kəsb etmişdir. Heydər Əliyevin Tbilisidə Eduard Şevardnadze ilə keçirdiyi görüşlər qonşu ölkələr arasında mövcud olan ənənəvi əlaqələrin yeni məzmunda modernizasiya edilməsi ilə yanaşı, Qafqazda etnik konfliktlərin, o cümlədən Azərbaycanla Ermənistan arasında

Dağlıq Qarabağ münaqişəsinin, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həlli istiqamətində də yeni təşəbbüskarlığın irəli sürülməsi ilə nəticələnmişdir.

Heydər Əliyevin 1996-cı il martın 8-10-da Gürcüstan Respublikasına etdiyi səfər zamanı onunla Eduard Şevardnadze arasında müzakirə olunan ən mühüm məsələlərdən biri Qafqazda sülh probleminə istiqamətlənmişdir. Aparılan müzakirələrin nəticəsində prezidentlər "Ümumqafqaz Evi"nin yaradılması, baş verən xoşagəlməz proseslərin sistemləşdirilərək dialoq vasitəsi ilə çıxış yolunun axtarılması ilə bağlı olan fikir və nəzərləri vahid bir konsepsiya təşkil etmiş oldu.

1996-cı il martın 8-də Heydər Əliyevlə Eduard Şevardnadze arasında "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbycan-Gürcüstan arasında birgə Bəyannamə imzalandı. Heydər Əliyevin təklifi ilə bu bəyannamə "Tbilisi Bəyannaməsi" adlandırıldı.

Xüsusilə, Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış bu bəyannamədə Qafqazda sülhün və əmin-amanlığın bərpa edilməsi üçün "Ümumi Qafqaz Evi" nin yaradılması nəzərdə tutulmuşur. "Ümumqafqaz Evi"nin özülünü, təməlini qoyan mühüm tarixi bir sənəd kimi "Tbilisi Bəyannaməsi"ndə din və etnik mənsubiyyətindən asılı olmayaraq milli azlıqlara hörmət göstərilməsi, insan hüquq və azadlıqlarına riayət edilməsi, etnik və dini tollerantlığın gözlənilməsi, Qafqaz xalqlarının və dövlətlərinin mədəni irsi və dövlətçilik ənənələrinin qorunması, Qafqaz dövlətlərinin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin hamı tərəfindən tanınması, xalqların və dövlətlərin iqtisadi-mədəni əlaqələrinin formalaşmasına şərait yaradılması öz əksini tapmışdır.

1996-cı il martın 8-də Azərbaycan-Gürcüstan prezidentləri tərəfindən dinc və sabit Qafqaz uğrunda hərəkatda ilk uğurlu addım kimi qiymətləndirilən "Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında" imzalanmış "Tbilisi Bəyannaməsi"nin əsas təşəbbüskarı Heydər Əliyev olmuşdur. Bunu 1997-ci ildə Azərbaycana rəsmi səfəri zamanı Eduard Şevardnadzenin Bakı Dövlət Universitetinin müəllim-professor heyəti qarşısında qeyd etdiyi "Heydər Əliyev Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısıdır" fikri bir daha təsdiq edir.

Qafqazda sülh, sabitlik və təhlükəsizliyin bərpası isçtiqamətində müstəsna əhəmiyyət kəsb edən, Heydər Əliyevin təşəbbüsü ilə ərsəyə gələn "Tbilisi Bəyannaməsi" regionda və bütün dünyada böyük əks-səda yaratdı. Region ölkələri Heydər Əliyevin təşəbbüsü ilə formalaşmış dinc Qafqaz uğrunda hərəkata qoşulmağa başladılar. Bunun bariz nümunəsi 1996-cı il iyun ayının 3-də Qafqazda mövcud olan digər problemlərlə yanaşı Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ uğrunda Ermənistan tərərfindən süni surətdə qızışdırılan elan olunmamış müharibənin, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həll edilməsi üçün yaradılmış "Qafqaz dördlüyü" oldu.

“Qafqaz Dördlüyü”nün yaranması Heydər Əliyevin təşəbbüskarlığı ilə “Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında imzalanmış Azərbaycan-Gürcüstan Bəyannaməsi”nin ilk uğurlu bəhrəsi kimi qiymətləndirilir.

1996-cı il iyunun 3-də “Qafqaz dördlüyü” adlandırılan Rusiya Federasiyası, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin Kislovodskdə keçirdikləri görüş zamanı qəbul etdikləri “Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlıq Bəyannaməsi” Ermənistan-Azərbaycan, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həll edilməsi istiqamətində daxili dialoqun yaranmasına gətirib çıxartdı.

“Qafqaz Dördlüyü”nün Kislovodsk görüşündə qəbul etdiyi bəyannamədə Qafqazın sülh, əmin-amanlıq, təhlükəsizlik regionuna çevrilməsi, bölgədəki münaqişələrin beynəlxalq hüquq normaları əsasında yalnız sülh yolu ilə həll edilməsinin vacibliyi, Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olmasına hərtərəfli kömək göstərilməsi, Qafqazda millətlərarası həmrəyliyin yaradılması öz əksini tapmışdır.

1996-cı il martın 5-də Heydər Əliyev Dağıstan Dövlət Şurasının başçısı M.Maqomedovu nümayəndə heyəti ilə qəbul edərkən Qafqazda sülh prosesində Azərbaycanın maraqlı olduğunu qeyd etmişdir. Heydər Əliyevin sayəsində Rusiya Federasiyasının subyektləri hesab olunan Şimali Qafqaz respublikaları ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq əlaqələrinin əsası qoyulmuşdur. Bütün bunlar isə bilavasitə Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin təmin olunmasına xidmət etmişdir.

Heydər Əliyev Qafqaz xalqlarının tarixinə, zəngin mədəniyyətinə, psixologiyasına, dünyagörüşünə və ümumqafqaz mentalitetinə yüksək səviyyədə bələd olan bir siyasi xadim kimi bütün bunlardan Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin bərpa edilməsi istiqamətində səmərəli şəkildə istifadə etmişdir. Bunun nəticəsində isə Qafqazda sülh prosesinə region xalqlarının qədim və zəngin tarixi, mədəniyyəti sahəsində elmi tədqiqat işlərinin aparılması cəlb edilmişdir.

Heydər Əlyevin Qafqaz xalqlarının azadlıq və müstəqillik mübarizəsinin rəmzinə çevrlimiş Şeyx Şamilin Azərbaycan Respublikasında dövlət səviyyəsində 200 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərancam Qafqaz xalqları arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində mühüm əhəmiyyət kəsb edir.

Şeyx Şamil hərəkatının mühüm tərəflərindən biri Qafqaz xalqlarının birləşdirilməsinə və həmrəyliyinə nail ola bilməsində idi. Məhz buna görə Heydər Əliyev haqlı olaraq Azərbaycan xalqının Şeyx Şamili, öz milli qəhrəmanı hesab etdiyini vurğulamışdır. Təsadüfi deyil ki, Bakıda və Azərbaycanın müxtəlif şəhərlərində Şeyx Şamilin şərəfinə küçələr adlandırılmış və abidə ucaldılmışdır.

Heydər Əliyev Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin bərpası istiqamətində regionda böyük nüfuz sahibinə çevrilmiş tarixi şəxsiyyətlərin məziyyətlərindən, əhəmiyyətindən və xalqlar arasında həmrəylik yarada biləcək hörmətlərindən səmərəli şəkildə istifadə olunmasına təşəbbüskarlıq göstərən ilk siyasi və dövlət xadimi kimi qiymətləndirilmişdir.

1997-ci ilin oktyabr ayında Heydər Əliyev Çeçenistan Respublikasının vitse-prezidenti Vaxu Arsanovla keçirdiyi görüş zamanı Qafqazda təhlükəsizlik məsələsinə böyük diqqət yetirərək Azərbaycanın çeçen-rus münaqişəsinin sülh yolu ilə həll edilməsində maraqlı olduğunu və bundan sonra da Çeçenistan Respublikasında sülhün bərpa olunması istiqamətində lazımi sayılan bütün tədbirləri həyata keçirəcəyini bildirmişdir.

Çeçen konfliktinin sülh yolu ilə həll edilməsi məsələsi ilə və ümumilikdə Şimali Qafqazda mövcud olan problemlərlə bağlı 1998-ci ili martın 9-da Heydər Əliyevlə Çeçenistan Respublikası-İçkeriyanın prezidenti Aslan Masxadov arasında keçirilən görüşdə müzakirələr və fikir mübadiləsi aparılmışdır. Görüş zamanı Heydər Əliyev Azərbaycanda aparılan iqtisadi islahatlara böyük önəm verərək bu təcrübənin Çeçen Respublikasının iqtisadiyyatının dirçəlişində istifadə edilməsinin əhəmiyyətindən danışaraq demişdir: “Azərbaycan çeçen xalqına öz yardım əlini uzatmağa həmişə hazırdı”.

Azərbaycanla Çeçenistan arasında iqtisadi əlaqələrin inkişafında və rus-çeçen münaqişəsinin sabitləşdirilməsində Çeçenistanın paytaxtı Qroznı şəhərindən keçən Bakı-Novorossiysk neft kəməri əhəmiyyətli rol oynamışdır. 1997-ci il yanvarın 30-da “Mond” adlı Fransız qəzetində Xəzər neftinin nəqli problemi ilə bağlı nəşr edilmiş məqalədə deyilirdi: “Çeçen müharibəsinin əsasında duran neft bu gün sülhün ən vacib amilinə çevrilmişdir”.

Bütün bunlarla yanaşı, Heydər Əliyev “Tbilisi Bəyannaməsi”ndə irəli sürülən “Ümumqafqaz Evi” ideyasının reallaşmasına kömək məqsədi ilə 1999-cu ilin dekabr ayında keçirilmiş ATƏT-in İstanbul sammitində “Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı”nın yaradılması təklifi ilə çıxış etmişdir. Qafqazda sülhün təminatının çağdaş dünyanın iqtisadi və mədəni inteqrasiyasında, regionda sülhün, təhlükəsizliyin təminatında mühüm amil olduğu xüsusi vurğulanmışdır. Əlbəttə, Heydər Əliyevin “Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı”nın yaradılması təklifi regionda sülhün möhkəmləndirilməsi istiqamətində ən böyük təşəbbüslərindən biri hesab olunur.

Geniş mənada desək, 1996-cı il martın 8-də “Qafqaz regionunda sülh, sabitlik və təhlükəsizlik haqqında” imzalanmış “Tbilisi Bəyannaməsi”, bu bəyannamənin məntiqi davamı kimi 1996-cı il iyunun 3-də “Qafqaz dördlüyü”nün Kislovodsk görüşündə imzaladıqları “Qafqazda əmin-amanlıq, sülh, iqtisadi və mədəni əməkdaşlığ uğrunda” Bəyannamə, 1998-ci il sentyabrın 7-8-də “Avropa-Qafqaz-

Asiya nəqliyyat dəhlizinin yaradılmasına dair Saziş"in və Bakı Bəyannaməsinin imzalanması, TRASEKA proqramının reallaşdırılmasına istiqamətləndirilmiş tədbirlər, 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi", 2002-ci il sentyabrın 18-də Bakı-Tbilisi-Ceyhan əsas neft kəmərinin tikintisinin təməlinin qoyulması və s. beynəlxalq əhəmiyyətli müqavilələrin, sazişlərin və bəyannamələrin imzalanması Qafqazda etnik konfliktlərin, o cümlədən Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin, həmçinin gürcü-abxaz, gürcü-osetin, çeçen-rus münaqişələrinin sülh yolu ilə həlli istiqamətində Heydər Əliyevin misilsiz təşəbbüsləri kimi qiymətləndirilir.

Heydər Əliyev kimi yüksək təfəkkürə, müdrik və zəngin təcrübəyə malik siyasi və dövlət xadiminin Qafqazda sülhün, əmin-amanlığın və təhlükəsizliyin bərpası istiqamətində irəli sürdüyü təşəbbüslər mərhələ-mərhələ reallaşaraq Qafqaz xalqlarının dialoq yolu ilə öz problemlərini həll edə bilmələri və dostluq şəraitində əməkdaşlığa müvəffəq olmaları üçün geniş və münbit şərait yaratmışdır.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN "ÜMUMQAFQAZ EVİ" İDEYASININ MƏZMUNU VƏ MAHİYYƏTİ

Qafqazın istər Qərb, istər Şərq, istər Cənub, istərsə də Şimal arasında strateji mövqeyi, sivilizasiyalar qovşağında yerləşməsi, əlverişli nəqliyyat qovşağında olması dünya siyasətində bu qədim, zəngin diyara marağı artırır. Lap qədim dövrlərdən Qafqaz polietnik regionlardan biri kimi Şərqlə Qərb, Cənubla Şimal arasında "qızıl körpü" hesab olunub. Məhz buna görə də Qafqaz, xüsusən də Cənubi Qafqaz ərazisi tarixən böyük imperiyaların (Midiya, Əhəmənilər, Sasanilər, Ərəb xilafəti, Səlcuqlar, Monqollar, İran, Osmanlı, Rusiya, Sovetlər Birliyi) mənafe və mövqe mübarizəsi meydanına çevrilmişdir.

SSRİ-nin süqutundan sonra Qafqaz özünün ən gərgin, mürəkkəb və məsuliyyətli dövrünü yaşamağa başlamışdır. Qafqazda baş verən etnik münaqişələr, ilk növbədə regionda sülh və inteqrasiya proseslərinin normal inkişafının, xalqlar, dövlətlər arasında sosial-siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığın sabitləşməsinin qarşısını almışdır.

Qafqazda sülh prosesinin dönməzliyinin, iqtisadi inteqrasiyanın təmin olunması, bütün beynəlxalq aləmi narahat edən əsas problem Ermənistan Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin, abxaz-gürcü, osetin-gürcü, inquş-Şimali Osetiya münaqişələrinin, rus-çeçen müharibəsinin aradan qaldırılması istiqamətində Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısı kimi Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyası böyük əhəmiyyət kəsb etməkdədir.

1994-cü ildə Ermənistanla Azərbaycan arasında atəşkəsin əldə olunması, 1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsinin imzalanması Heydər Əliyevin Qafqazda sülh və təhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirdiyi siyasi tədbirlərin mühüm uğuru idi.

Tbilisidə iki dövlət başçısının imzaladığı birgə Bəyannamə "Ümumqafqaz Evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcı kimi qiymətləndirilmişdir.

Qafqazda sülh və təhlükəsizliyin təmin edilməsi istiqamətində Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyası geniş və əhəmiyyətli məzmun və mahiyyətə malikdir. Belə ki, "Ümumqafqaz Evi" ideyasının əsas məzmunu regionun bütün dövlətləri arasında bərabərhüquqlu, qarşlıqlı-faydalı əməkdaşlıq əlaqələrinin, tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin yaradılmasından, insan hüquq və azadlıqlarına, din və etnik mənsubiyyətindən asılı olmayaraq, milli azlıqlarla hörmət əsasında münasibətlərin qurulmasından, etnik və dini dözümlülüyün hər zaman gözlənilməsindən, bütün Qafqaz xalqlarının əsas hüquq və azadlıqlarının

qorunmasına yönəlmiş beynəlxalq normaların həyata keçirilməsindən, regionda gərginliyin aradan qaldırılması istiqamətində mehriban qonşuluq münasibətlərinin bərpa edilməsindən, regionda münaqişələrin həllinə mane olan xarici təzyiqlərin qarşısının alınması üçün beynəlxalq mexanizmin formalaşdırılmasından, Qafqaz dövlətlərinin beynəlxalq, regional, iqtisadi, elmi-texniki, mədəni, humanitar təşkilatlarda fəal iştirakından, regionda yerləşən dövlətlərin bütün Qafqaz xalqlarının mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasətin yeridilməsinə və dünya iqtisadi sisteminə inteqrasiyaları üçün bütün xarici və daxili amillərdən bəhrələnməsindən, dünyanın zəngin mədəniyyət beşiyi olan Qafqaz xalqlarının və dövlətlərinin mədəni irsi və dövlətçilik ənənələrinin qorunması və inkişaf etdirilməsindən, Qafqaz dövlətlərinin beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərinin hamı tərəfindən tanınmasından, ərazi toxunulmazlığına hörmətlə yanaşmasından ibarətdir.

"Ümumqafqaz Evi" ideyasının əsas mahiyyəti Qafqazda beynəlxalq hüquq normaları və prinsipləri ilə tənzimlənən sivil dövlətlərarası münasibətlərə hörmət bəsləməkdən, regional münaqişələri sülh və danışıqlar yolu ilə həll etməkdən, regionda yerləşən dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, iqtisadi sahədə qarşılıqlı-faydalı əməkdaşlığın yaranmasından, regional dövlətlər arasında iqtisadi maraqların uzlaşdırılmasından, uyğunlaşdırılmasından, qarşılıqlı təminat mexanizminin formalaşdırılmasından, dövlətlərin mənafelərini nəzərə almaqla hüquq normalarına və sivil birgə yaşayış qaydalarına riayət olunmasından, Qafqaz xalqlarının və millətlərinin öz müqəddəratlarının təyinetmə hüququna hörmətlə yanaşmaqdan, separatizmə, terrorizmə, Qafqaz dövlətlərinin və xalqlarının təhlükəsizliyinə, maddi və mənəvi həyatına ziyan verə biləcək digər neqativ hallara qarşı birgə mübarizə aparılmasından, region dövlətləri və xalqlarını narahat edən problemlərin həlli istiqamətində birgə çalışmaq və bu istiqamətdə səylərini birləşdirməkdən ibarətdir.

Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyasının məzmun və mahiyyəti Qafqaz bölgəsinin dövlətləri və xalqları ilə mehriban qonşuluq münasibətlərinin və Qafqazda ümumi təhlükəsizlik sisteminin yaradılması istiqamətində böyük əhəmiyyət kəsb etməkdədir. "Ümumqafqaz Evi" ideyası Qafqazda təhlükəsizlik problemlərinin və strateji dövlətçilik mənafelərinin eyniliyinə, bölgədə dövlətlər arasında mövcud olan qarşıdurma hallarının aradan qaldırılmasına, region dövlətləri arasındakı hərtərəfli əlaqələrin yaradılmasına və tənzimlənməsinə şərait yaratmaqdadır.

Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısı, Qafqaz evinin ağsaqqalı Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyası regionda vətəndaş cəmiyyəti və insan hüquqlarının qorunmasına xidmət edən davamlı strategiya üzərində qurulmuşdur. Bu ideya region ölkələri arasında münasibətlərin milli sərhəd və ma-

raqlarla yanaşı, ümumbəşəri dəyərlərə-vətəndaş cəmiyyəti, insan və vətəndaş hüquqlarının təmin edilməsi əsasları üzərində qurulmasına şərait yaradır. Bununla yanaşı "Ümumqafqaz Evi" ideyası Qafqaz ölkələrinin siyasi, iqtisadi, sosial, mədəni və beynəlxalq siyasətinin koordinasiyasına və "Ümumqafqaz Evi" prinsiplərinə uyğun gələn inteqrasiyanın təmin edilməsinə xidmət göstərməkdədir.

Qafqaz ölkələri arasında müxtəlif səviyyəli inteqrasiya əlaqələrinin genişləndirilməsi, qarşılıqlı münasibətlərin tənzimlənməsi, demokratik normaların, siyasi plüralizmin təmin edilməsi kimi fundamental prinsiplər "Ümumqafqaz Evi" ideyasının məzmun və mahiyyətlərindən hesab olunur. Bundan başqa, Qafqaz ölkələri üçün qlobal əhəmiyyət daşıyan ümumi problemlərin – milli münaqişələr, milli və dini azlıqlara hörmətlə yanaşma, ekoloji məsələlər, beynəlxalq terrorizm və s. həlli naminə səylərin birləşdirilməsi "Ümumqafqaz evi" ideyasının əsas mahiyyətlərindən biridir.

Heydər Əliyevin "Ümumqafqaz evi" ideyasının məzmun və mahiyyəti Qafqazda hərbi-siyasi və ideoloji sabitliyə nail olunması, regionda birliyin və vəhdətin yaranması, Qafqazın bölünməzliyi, xalqların dostluq və həmrəyliyi, xarici hərbi qüvvələrin və bazaların Qafqazdan uzaqlaşdırılması, Qafqazdakı problemlərin ilk növbədə qafqazlıların özləri tərəfindən həll edilməsi, Qafqazın xüsusi, əlahiddə, özünəməxsus xüsusiyyətləri olan sivil bir regiona və eyni zamanda regionun yığcam "Qafqaz evi" çərçivəsində vahid iqtisadi zonaya çevrilməsi, qüvvələr nisbətinin tarazlaşdırılması, yeni paritetin əldə olunması, yüksək dərəcədə silahlanmaya yol verilməməsi istiqamətində mühüm əhəmiyyət kəsb etməkdədir.

Heç şübhəsiz ki, "Ümumqafqaz Evi" ideyası Heydər Əliyevin Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsi istiqamətinə yönəlmiş əvəzsiz xidmətlərindən biri kimi qiymətləndirilmişdir. Demək olar ki, Heydər Əliyev "Ümumqafqaz Evi" ideyasına qədər Qafqazda ümumi təhlükəsizlik sisteminin yaradılması sahəsində olan səylərin hamısının qarşısı alınmışdır. Yalnız Heydər Əliyevin siyasi qətiyyəti və cəsarəti sayəsində 1996-cı il martın 8-də "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsinin imzalanmasından sonra "Ümumqafqaz Evi" ideyasının reallaşmasına əlverişli şərait yarandı.

"Ümumqafqaz Evi" ideyasının məzmun və mahiyyətinin Qafqaz dövlətləri arasında sıx əməkdaşlığa birliyə və həmrəyliyə xidmət etməsinin əhəmiyyətini 1998-ci il oktyabrın 18-də keçirilmiş andicmə mərasimi zamanı Heydər Əliyev söylədiyi nitqdə bu cür ümumiləşdirmişdir: "Qafqaz respublikalarının prezidentlərinin, dövlət başçılarının, nümayəndə heyətlərinin Azərbaycana gəlməsi və Azərbaycan prezidentinin andiçmə mərasimində bilavasitə iştirak etməsi böyük əhəmiyyət kəsb edir. Bu, Qafqaz xalqlarının birliyinin və həmrəyliyinin par-

laq təzahürüdür. “Ümumqafqaz Evi” ideyasının reallığını göstərir, Qafqaz xalqlarının, respublikalarının sıx əməkdaşlıq etmək əzmində olduğunu nümayiş etdirir, Qafqaz xalqlarının, respublikalarının bir-biri ilə daha da yaxın əlaqədə olmaq istəyini nümayiş etdirir, Qafqazda sülh, əmin-amanlığı təmin etmək arzularını ifadə edir.

Qafqazda sülhün yaranması, Qafqazın sülh bölgəsinə çevrilməsi, mövcud olan münaqişələrin aradan qaldırılması bütün Qafqaz xalqlarının, respublikalarının ümdə istəyi və arzusudur.

Qafqaz xalqlarının bu gün bir yerdə olması, Qafqaz respublikaları prezidentlərinin Azərbaycana toplaşması bir daha onu göstərir ki, biz-Qafqaz xalqları, respublikaları sülh, əmin-amanlıq istəyirik və Qafqazı dünyanın ən möhkəm sülh və əmin-amanlıq olan bölgəsinə çevirmək istəyirik. Mən əminəm ki, hamımızın ümumi səylərimizlə biz buna nail olacağıq”.

BMT-nin qərarı ilə "Təhsil əsri" elan olunmuş yeni, XXI əsri sözün həqiqi mənasında "İntellekt əsri"nə çevirməyi qarşısına məqsəd qoyan cağdaş dünya, 11 sentyabr 2001-ci ildə ABŞ-da baş verən və bəşəriyyət üçün ciddi təhlükə törədən dəhşətli terror aktından sonra sülhə, əmin-amanlığa, təhlükəsizliyə qarşı yönələn hər cür tədbirlərə qarşı beynəlxalq mübarizəyə qalxmışdır.

XX əsrin sonu, XXI əsrin əvvəllərindən etibarən dünya xalqlarının xoşbəxt gələcəyi naminə sülh, əmin-amanlıq, qarşılıqlı əməkdaşlıq məsələləri bəşəriyyəti düşündürən ən böyük problemlərdən birinə çevrildi. Təsadüfi deyildir ki, həm ötən əsrin son ilini "Sülh mədəniyyət ili", həm də üçüncü minilliyin ilk on ilini "Sülh mədəniyyət on illiyi" elan etməklə tərəqqipərvər dünyanın sülhə, əmin-amanlığa bu gün həmişəkindən daha çox ehtiyacı olduğunu etiraf etmiş oldu. "Sülh mədəniyyəti" mahiyyətcə sülh prosesinin mürəkkəb daxili quruluşunu, inkişaf dinamikasını, dramatizmini dərk etməklə yanaşı, incə yollarla, diplomatik vasitələrlə, düşünülmüş daxili və xarici siyasət yeritməklə ölkədə, regionda və bütün dünyada sülh proseslərinə və sosial-iqtisadi və mədəni inteqrasiyaya yardım etməkdən ibarətdir. Bu baxımdan tarixşünaslıq da, geopolitika da, geosiyasi-iqtisadi siyasət də, coğrafi transsiyasət də, azad ticarət və iqtisadi inteqrasiyası da sözün geniş mənasında haqlı olaraq "sülh mədəniyyəti"nin və inteqrasiyanın tərkib hissələri, onun komponentləri hesab olunur.

Hazırda qloballaşan və qloballaşqdıqca terrordan, separatçı hərəkatlərdən, etnik münaqişələrdən əziyyət çəkən narahat dünyamızın ən qaynar nöqtələrindən və strateji baxımdan ən əhəmiyyətli geosiyasi məkanlarından sayılan Qafqazda "sülh mədəniyyətin"nin qorunması, sülh proseslərinin hər vasitə ilə inkişaf etdirilməsi nəticə etibarı ilə "Ümumdünya Evi"nin təhlükəsizliyi, ölkələrin və dövlətlərin birgəyaşayışı, əmin-amanlığı qarşılıqlı əməkdaşlığın iqtisadi və mədəni inteqrasiyası üçün böyük imkanlar açır.

Tarixşünaslıq və politologiya üzrə elmi ədəbiyyatda regional inteqrasiya XX əsrin sonu, XXI əsrin başlanğıcının əsas simvollarından hesab edilir. Regional inteqrasiya, sivilizasiyalararası dialoq və qloballaşma müasir dünya düzəninin, çağdaş beynəlxalq münasibətlərin qurulduğu yeni sistemin təməl prinsipləridir. Yeni əsr dünya dövlətləri qarşısında iqtisadi, mədəni, münasibətlərdə ümumi dəyərlərin müəyyənləşdirilməsi, xalqların və dövlətlərin milli maraqlarına xələl gətirmədən inteqrasiya prosesinin qaçılmaz olduğunu, bunsuz inkişaf etmiş sivil dünyanı demokratik dəyərlər, azad iqtisadi münasibətlər zəminində idarə etməyin mümkünsüzlüyünü bütün kəskinliyi ilə ortaya qoymuşdur. Başqa sözlə, inteqrasiya proseslərinin dərinləşməsi-çağdaş dünya inkişafının obyektiv zərurətindən doğur.

Bu mənada əski və çağdaş dünyanın etnodil, etnik baxımdan özünəməxsus regionlarından sayılan Qafqaz dövlətləri və xalqları bir tərəfdən qloballaşan dünyanın iqtisadi yüksəlişinə öz töhfələrini verir, digər tərəfdən isə, hazırda regionda mövcud olan etnik, separatçı münaqişə ocaqları həm Qafqaz dövlətləri, həm də Qafqazla əlaqədə olan dünya ölkələri üçün ciddi təhlükə törədir, sabit, davamlı sülhə, milli təhlükəsizliyə, xalqlar və dövlətlər arasında sosial-iqtisadi və mədəni inteqrasiyaya maneçilik törədir.

Qafqazda sülh və mədəni, iqtisadi inteqrasiya prosesi heç şübhəsiz ki, Heydər Əliyevin siyasi fəaliyyəti, qətiyyəti, cəsarəti və dəmir iradəsi ilə bağlıdır. Heydər Əliyevin siyasi fəaliyyəti təkcə Azərbaycanın deyil, bütün Qafqazın rifahı, sülh içində firavan yaşayışına istiqamətlənmişdir. Bu mənada Rusiya Xalqlar Assambleyasının sədri, tanınmış dövlət və siyasi xadim Ramazan Abdulatıpovun belə bir fikri ilə tam razılaşmaq olar ki, "Heydər Əliyevin Qafqaz tarixindəki rolunu əlli ildən sonra anlamaq və dərk etmək mümkün olacaq. Heydər Əliyev tarixi şəxsiyyət, Qafqazın fəxridir. Sovet dövründə də fəxri olmuşdur. İndi də fəxridir… Heydər Əliyevin müdrikliyi, onun siyasi istedadı elə ancaq Azərbaycana xeyir gətirmir, bütün Qafqazın sərvətinə çevrilmişdir. Belə nəhəng lider yalnız təkcə Azərbaycana deyil, bütün Qafqaza və onun hüdudlarından kənarda da lazımdır…"

Bütün bunların nəticəsində dünya birliyi artıq etiraf edir ki, hazırda Qafqazda sülh, əmin-amanlıq təkcə region ölkələri üçün deyil, bütün dünya dövlətləri üçün də iqtisadi və mədəni inteqrasiyanın əsas şərtlərindən biridir.

Bu nöqteyi-nəzərdən istər coğrafi və geostrateji mövqeyinə, istər etnodemoqrafik, etnodil, etnososial mənzərəsinə görə müasir dünyanın ən unikal məkanlarından sayılan Qafqazda ölkələr və xalqlar arasında sülh, inteqrasiya və əməkdaşlıq spesifik xüsusiyyətləri ilə səciyyələnir. SSRİ-nin süqutundan sonra Qafqaz keçmiş çar və sovet Rusiyasından miras qalmış etnik separatizmdən (Azərbaycanda Dağlıq Qarabağ, Gürcüstanda Abxaziya və Cənubi Osetiya, Şimali Qafqazda Çeçenistan və b.) xilas ola bilmir və bu bölgə hazırda etnik münaqişələrin ən qaynar nöqtələrindən, sülh və təhlükəsizlik, sosial-iqtisadi və mədəni inteqrasiya üçün narahat regionlardan biri olaraq qalır. Bu amil Qafqaz dövlətləri və xalqları arasında, eləcə də Qafqaz və digər dünya dövlətləri arasında iqtisadi və mədəni inteqrasiya prosesinə maneçilik törədir.

Bu tarixi reallıqdır ki, Qafqaz strateji mövqeyinə, iqtisadi potensialına görə Şərqlə Qərb, Cənubla Şimal arasında körpü rolu oynayır. Bu amil Qafqaz xalqları və dövlətlərinə bölgədə və dünyada sülh və inteqrasiya prosesində dominantlıq, aparıcılıq, liderlik mövqeyi qazandırır. Bu mövqedən səmərəli və beynəlxalq hüquq normalarına uyğun şəkildə istifadə edən Heydər Əliyev yaxşı bilirdi ki, "sülh mədəniyyəti"nin tərkib hissəsində təkcə sülh uğrunda deklarativ

mübarizə, bəyanatlar, bəyannamələr səviyyəsində siyasi gedişlər deyil, həm də geosiyasi-iqtisadi siyasət, coğrafi transsiyasət, azad ticarət və iqtisadi məkan uğrunda mübarizə də daxildir. Belə bir həqiqət də var ki, müasir dünyada böyük dövlətlərin başqa ölkələrin hərbi yolla ərazilərini deyil, iqtisadi yolla bazarlarını zəbt etməyə üstünlük verirlər. Militarizm olan birinci hal tarixin arxivinə verilsə də, ikinci yol-inteqrasiya, iqtisadi, mədəni yaxınlaşma prosesi çağdaş dünyanın ən aparıcı inkişaf tendensiyalarından, sivil, demokratik yollarından biri hesab edilir. Bu gün böyük dövlətləri ərazilər əldə etmək yox, iqtisadi yüksəlişin təməlində duran bazarlara yiyələnmək daha çox maraqlandırır. Bu yol xalqları, dövlətləri bir-birinə yaxınlaşdırır, millətlərin mədəni və iqtisadi baxımdan inteqrasiyasını sürətləndirir. Tarixi təcrübə göstərir ki, dünyadan təcrid olunan xalqlar və dövlətlər gec-tez iflasa məhkumdur. Tarixə "şər imperiyası" kimi düşən keçmiş SSRİ-nin süqutunu sürətləndirən əsas faktorlardan biri məhz onun iqtisadi cəhətdən qapalı olması, dünya iqtisadiyyatı ilə əlaqələrinin qurulmaması idi.

Heydər Əliyevin iqtisadi və mədəni inteqrasiya barədə dediyi aşağıdakı müdrik sözlər tarixi təcrübəni düzgün qiymətləndirmənin parlaq nəticəsidir. O deyir: "Hər bir ölkə, ən böyük bir ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz... Dünya iqtisadiyyatının inteqrasiya, iqtisadi sahədə ölkələrin bir-biri ilə əməkdaşlığı hər bir dövlət üçün mənfəətlidir və ümumiyyətlə, dünyada daha da yüksəlmək üçün bu, yeganə bir yoldur..."

İnteqrasiya barədə bu fikirlər Azərbaycan Respublikasının bu sahədə dövlət siyasətinin əsas prinsiplərini əks etdirir.

Bu baxımdan Qafqazda və dünyada sülhün alovlu təbliğatçısı olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Biz istəyirik həqiqətən Avropada təhlükəsizlik, sülh, əmin-amanlıq olsun, eyni zamanda öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülhün olmasını istəyirik" və ya "Azərbaycanda, bütün Qafqaz regionunda və bütün dünyada sülhün bərqərar olması bizim ən ümdə arzumuzdur. Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla, ələlxüsus öz qonşuları ilə qarşılıqlı anlaşma, mehriban qonşuluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir" müdrik çağırışının reallaşması üçün, sülh və inteqrasiya prosesinin sürətlənməsi məqsədi ilə hazırlanmış və hazırda reallaşmaqda olan bir sıra beynəlxalq layihələr Azərbaycan, Gürcüstan və digər Qafqaz dövlətləri, eləcə də regionun digər ölkələri, Şərq və Qərb dövlətləri arasında əməkdaşlığa, böyük gələcəyi olan pespektivlərə hesablanmışdır. Belə ki, "Böyük İpək Yolu"nun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin – "TRASEKA" proqramının həyata keçirilməsi, Xəzərin enerji ehtiyatlarından birgə istifadəyə dair "Əsrin müqaviləsi" (24 sentyabr 1994) ünvanı almış neft kontraktlarının, "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft kəməri, "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri layihələrinin əsas məqsədi Qafqazın, o cümlədən Azər-

baycanın, Gürcüstanın milli təhlükəsizliyi, xalqlarımızın rifah içində yaşaması, region ölkələrinin, ilk növbədə Qafqaz ölkələrinin iqtisadi və mədəni inteqrasiyası, regional əməkdaşlığı sürətləndirməklə, sülhün əmin-amanlığın, sabitliyin möhkəmlənməsinə birbaşa xidmət edir. XXI əsrə dünyanın bir çox dövlətlərini, o cümlədən Qafqazı vahid iqtisadi məkanda birləşdirmək, Qafqazın Asiya ilə Avropa arasında iqtisadi və mədəni körpü rolunu həyata keçirmək bu proqramların ana xəttini, leytmotivini təşkil edir.

Qafqazda sülh, mədəni və iqtisadi inteqrasiya proseslərində, heç şübhəsiz, 1997-ci ildə Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova dövlətləri tərəfindən təsis edilən və bu gün dünya sivilizasiyasında GUAM kimi tanınan regional iqtisadi təşkilatın da müəyyən rolu vardır.

Qafqazda, xüsusən də Cənubi Qafqaz dövlətlərində sülh, əmin-amanlıq, təhlükəsizlik və inteqrasiya proseslərinin intensivləşməsində maraqlı olan Qərb dövlətləri, o cümlədən də ABŞ-ın bu regiona münasibətindəki bəzi inteqrativ məqamları aşağıdakılardan ibarətdir:

– ABŞ-ın xarici siyasətində Qafqaz xüsusi önəm kəsb edir.

– Burada mövcud olan üç postsovet Cənubi Qafqaz respublikalarının müstəqilliynin, demokratiyasının möhkəmlənməsində, iqtisadi qüdrətinin yüksəldilməsində, regional möhkəm və uzunmüddətli sülhün yaranmasında maraqlıdır.

– ABŞ-ın ümumən Qafqazda, xüsusən də Cənubi Qafqazda əsas maraqları hesab olunan Azərbaycanın, Gürcüstanın və Ermənistanın ərazi bütövlüyü və dövlət müstəqilliyinin təmin edilməsi, Qafqaz regionunda, xüsusən də Şimali Qafqazda (rus-çeçen müharibəsi) qeyri-sabitliyin qarşısının alınmasına kömək göstərilməsi, nəhayət, Xəzərin enerji ehtiyatlarından səmərəli istifadəyə şərait yaratmaqla regionda möhkəm və davamlı sülhə, xalqların və dövlətlərin təhlükəsizliyinə hər vasitə ilə yardım göstərilməsinə çalışır.

ABŞ və digər Qərb dövlətləri Qafqazda göstərilən beynəlxalq maraqlarını təmin etmək məqsədi ilə region üçün aşağıdakı konseptual və strateji məsələlərin perspektivdə həllinə üstünlük verir, bunları Qafqaz siyasətinin prioriteti hesab edirlər: Xəzərin karbohidrogen ehtiyatlarının "Bakı-Tbilisi-Ceyhan" əsas ixrac neft kəməri və "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri ilə Qərbə nəql edilməsinin təhlükəsizliyinə yönələn siyasi, iqtisadi dəstəyin saxlanması; bu halda Azərbaycan, Gürcüstan, Türkiyənin milli təhlükəsizliyinin qorunması; ABŞ-ın əsas strateji müttəfiqlərindən biri kimi Gürcüstanın təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, Abxaziya, Cənubi Osetiyadakı münaqişə ocaqlarının Gürcüstanın ərazi bütövlüyü və sərhəd toxunulmazlığı, dövlət müstəqilliyi prinsipləri əsasında diplomatik yolla həll edilməsi; Azərbaycan Respublikası ilə Cənubi Azərbaycanın azərbaycanlı əhalisi arasında mədəni əməkdaşlığın inkişaf etdirilməsinin dəstəklənməsi; Azərbaycanın iqtisadi inkişafına ABŞ-ın yardımı-

na əngəl törədən və ABŞ-ın Senatı tərəfindən 1992-ci ildə qəbul edilmiş "Azadlığı dəstəkləmə Akt"ına 907-ci düzəlişin icrasının tamam dayandırılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ konfliktinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə həlli istiqamətində siyasətin davam etdirilməsi; Rusiya Federasiyasının rəhbərliyinə Cənubi Qafqazda separatizmi müdafiə etməyin (Azərbaycanda Qarabağ, Gürcüstanda abxaz və Cənubi Osetiya) perspektivsizliyinin başa salınması; əgər bu siyasət davam etdirilərsə, ABŞ tərəfindən müəyyən sanksiyaların tətbiq ediləcəyinin qaçılmaz olması; ABŞ hökuməti hesab edir ki, Rusiya tərəfindən Ermənistana 1 milyard dollar dəyərində hərbi texnika verilməsi, Abxaziyadakı separatçılara hərbi yardım göstərilməsi Azərbaycan və Gürcüstan dövlət təhlükəsizliyi, xalqların əmin-amanlığı üçün narahatlıq doğurur; nəhayət, Şimali Qafqazda hərbi münaqişələrin dayandırılması, xüsusən də çeçen-rus müharibəsinin danışıqlar yolu ilə həlli məqsədi ilə Rusiya Federasiyası ilə diplomatik əlaqələrin gücləndirilməsi və s.

Bütövlükdə Qafqazda sülh və inteqrasiya proseslərinin normallaşdırılması və bu ölkələrin sabit inkişaf yoluna çıxarılması Qərb dövlətlərinin, o cümlədən ABŞ-ın Qafqaz siyasətinin aparıcı istiqamətini təşkil edir. Qərb dövlətləri Heydər Əliyevin böyük inamla yürütdüyü Qafqazda sülh, milli təhlükəsizlik, iqtisadi və mədəni inteqrasiya siyasətinin nəticə etibarı ilə Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında əməkdaşlığa güclü təkan verəcəyini, Şərqlə Qərb arasında sosial-siyasi, iqtisadi və mədəni inteqrasiyanın üstün inkişafında müstəsna rol oynayacağını etiraf edir və dəstəkləyir.

Heydər Əliyevin siyasi tədbirləri 1994-cü ilin may ayından başlayaraq Azərbaycan ilə NATO arasında əməkdaşlığın qurulması, Azərbaycanın NATO-ya assosiativ üzv seçilməsi, Gürcüstanın NATO-ya qəbulla bağlı rəsmi müraciəti Qafqazda sabit sülhə, milli təhlükəsizliyə, iqtisadi və mədəni inteqrasiyaya beynəlxalq təminatın verilməsinə xidmət edir. Heydər Əliyevin sayəsində Qafqazda sülh və iqtisadi, mədəni inteqrasiya prosesinin başlanması regional və etnik münaqişələrin dinc yolla həll edilməsinə yönəlməkdədir. Bununla yanaşı regionda sülh və iqtisadi, mədəni inteqrasiya prosesi Qafqazı dünyanın inkişaf etmiş, iqtisadi və mədəni cəhətdən dünya ilə inteqrasiya olunmuş sabit bölgəsinə çevrilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir. XX əsrin sonu, XXI əsrin əvvəllərində Heydər Əliyevin Qafqazda sülh prosesi istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasi tədbirləri Qafqazda sülh prosesinin dönməzliyinin təmin olunması, iqtisadi və mədəni inteqrasiyanın başlanması ilə yanaşı, Qərblə Şərq, Avropa ilə Asiya arasında sivilizasiyaların qovuşmasına imkan və şərait yaratmışdır. Heydər Əliyevin aşağıdakı müdrik kəlamı Avropa və onun bir hissəsi olan Qafqazda möhkəm sülhün, əmin-amanlığın təminatına, inteqrasiyanın inkişafına və sürətlənməsinə dövlətimizin münasibətini aydın şəkildə əks etdirmiş-

dir: "…Avropa qarşısında həqiqi sülh və sabitlik yolu açılmışdır. Biz istəyirik həqiqətən Avropada təhlükəsizlik, sülh və əmin-amanlıq olsun, eyni zamanda öz problemimizin həllini, yəni Qafqazda əmin-amanlıq, sülh olmasını istəyirik".

Heydər Əliyevin Qafqazda sülh və iqtisadi, mədəni inteqrasiya sahəsində olan müstəsna xidmətləri bölgədə əmin-amanlığın, sülhün, milli təhlükəsizliyin, xalqlar və dövlətlər arasında sosial-iqtisadi və mədəni əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir. Məhz buna görə dünyanın böyük dövlət və siyasi xadimləri Heydər Əliyevi Qafqazın aparıcı lideri, "Qafqaz Evinin ağsaqqalı", fenomenal siyasət adamı adlandırmışlar. Heç şübhəsiz, bütün bunlar Heydər Əliyevin "Vətəndə sülh, bölgədə sülh, dünyada sülh!" ideyasına sədaqətinin, bu istiqamətdə müstəsna xidmətlərinin beynəlxalq səviyyədə etiraf olunması, müstəqil Azərbaycanın sülh siyasətinin real və parlaq nəticəsi kimi yüksək dəyərləndirilməsidir.

## "ƏSRİN MÜQAVİLƏSİ" VƏ QAFQAZDA SÜLH PROBLEMİ

1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında ARDNŞ ilə xarici neft şirkətləri arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" yataqlarının, bütövlükdə "Günəşli" yatağının isə suyun dərinliyində 200 metrdən çox olan hissəsinin müştərək işlənməsi haqqında "Əsrin müqaviləsi" adlı saziş imzalandı. Müqavilədə Azərbaycan, ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Səudiyyə Ərəbistanı və Türkiyənin 11 neft şirkəti ("ARDNŞ", "Bİ Pİ", "AMOKO", "LUKoyl", "Pennzoyl", "YUNOKAL", "Statoyl", "TRAO", "Mark-Dermott", "Ramko Enerji", "Delta Nimir") iştirak edirdi. Heydər Əliyevin təklifi ilə otuz il müddətində nəzərdə tutulan bu müqavilə "Əsrin müqaviləsi" adlandırıldı.

İlkin hesablamalara görə, müqavilədə nəzərdə tutulan yataqlarda 511 mln. ton (4 mln. barel) neft olduğu vurğulanırdı. Müqaviləyə əsasən, xarici şirkətlərlə imzalanmış neft sazişində ümumi gəlirin 80 faizi Azərbaycan tərəfə verilir, qalan 20 faizi isə digər şirkətlər arasında bölüşdürülür. Həmin müqavilədə adları çəkilən bütün yataqların Azərbaycanın tam yuridiksiyası altında qalacağı təsdiq edilirdi.

"Əsrin müqaviləsi"nin imzalanması ilə müstəqil Azərbaycan dövlətinin yeni iqtisadi strategiyasının və doktrinasının əsası qoyuldu. Təməli Heydər Əliyev tərəfindən qoyulan yeni neft strategiyasının gerçəkləşməsi təkcə Azərbaycanda deyil, Cənubi Qafqaz bölgəsində siyasi və iqtisadi sabitliyin möhkəmlənməsinə real zəmin yaratdı. Bununla Heydər Əliyev həm də o dövr Cənubi Qafqazda hökm sürən böhranlı siyasi, sosial-iqtisadi şəraitdə növbəti dəfə böyük siyasi cəsarət, dönməz iradə, liderlik keyfiyyəti və dərin müdriklik nümayiş etdirərək dünyanın ən nüfuzlu dövlətləri tərəfindən Qafqazda sülhün təmin olunması istiqamətində yeni doktrinalar irəli sürmələri üçün tarixi şərait yaratdı.

"Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən biri onun Qafqazda sülh prosesindəki mühüm rolundan ibarətdir. Bu müqavilə bölgənin aparıcı dövləti olan Azərbaycana xarici investisiyaların axını üçün böyük yol açdı. Dünyanın nüfuzlu dövlətlərinin tanınmış şirkətləri tərəfindən ölkəyə yatırılan böyük investisiyalar iqtisadi sahənin inkişafı ilə yanaşı, bölgədə sülhün və sabitliyin təmin edilməsinə də təsirini göstərdi.

Müqavilənin imzalanması ABŞ, Rusiya, Böyük Britaniya, Norveç, Türkiyə, Səudiyyə Ərəbistanı kimi inkişaf etmiş ölkələrlə Azərbaycan arasında dostluq əlaqələrinin, iqtisadi əməkdaşlığın genişlənməsinə, beynəlxalq miqyasda ölkəmizin dəstək qazanmasına geniş perspektivlər açdı. Bu isə adları çəkilən dövlətlərin Qafqazda sülh prosesinə maraqlarını artırmış oldu.

Azərbaycanın və Mərkəzi Asiyanın fövqəladə enerji ehtiyatları və Avropa ilə Asiya arasında körpü rolunu oynayan Qafqazın son dərəcə mühüm strateji vəziyyəti bu bölgəni dünya siyasətinin mərkəzinə çevirdi. Belə olan halda isə nüfuzlu dövlətlərlə yanaşı beynəlxalq təşkilatlar da Qafqazda davamlı sülhə nail olunması istiqamətində öz fəaliyyətlərini genişləndirdilər. Xüsusilə dünyada istehsal olunan neft məmulatlarının 65 faizini mənimsəyən ABŞ kimi qüdrətli bir dövlətin Qafqaz və ümumilikdə Xəzər bölgəsində möhkəmlənmək üçün böyük maraq göstərməsi Qafqazda sülhün bərpa edilməsi istiqamətində təşəbbüs göstərməsini tarixi zərurətə çevirdi. Dünya ölkələrinin getdikçə artan maraqları və yeni bazarlar qazanmaq mübarizəsi getdiyi bir dövrdə, birinci olaraq alternativ mənbələr əldə etmək, Fars körfəzinə nəzarəti və təzyiqi artırmaq və yeni dünyada ən qüdrətli fövqəldövlət kimi inkişafını təmin etmək niyyəti ABŞ-ın Qafqazda sülhün təmin edilməsi prosesində maraqlarını daha da artırdı. Beləliklə, "Əsrin müqaviləsi" Qafqazda sülh məsələsinə ABŞ siyasətində həyati əhəmiyyətli məsələ kimi baxılmasına gətirib çıxartdı.

Azərbaycan dövlətinin böyük uğuru hesab olunan "Əsrin müqaviləsi" bölgədə sülhün təmin edilməsi prosesində mühüm amil kimi qiymətləndirilən Azərbaycan və Gürcüstanda bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, dünya iqtisadiyyatı ilə inteqrasiyası, xarici sərmayələrin cəlb edilməsinə təkan verdi. Heç şübhəsiz, bu Heydər Əliyev diplomatiyasının bəşəriliyinin uğuru idi.

Heydər Əliyevin siyasi təcrübəsi, müdrik və uzaqgörən dövlətçilik siyasəti, idarəçilik məharəti Qafqaz bölgəsinə olan təəssübkeşliyi sayəsində "Əsrin müqaviləsi"nin imzalanması o zaman müstəqillik dövrünə təzəcə qədəm qoyan, keçid dövrünün çoxsaylı siyasi, iqtisadi, sosial çətinlikləri ilə üzləşən, müharibə şəraitində olan, separatçılığın hədəfinə çevrilən, əhalisi qaçqın və köçkün vəziyyətində yaşayan Qafqaz dövlətlərində sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi, ictimai-siyasi, iqtisadi və azad bazar iqtisadiyyatının qərarlaşması, demokratik dövlət quruculuğu istiqamətində mühüm siyasi və hüquqi islahatlara başlanması yolunda aparıcı faktora çevrildi.

"Əsrin müqaviləsi" Azərbaycan və Gürcüstanın bütün həyati əhəmiyyətli sahələri üzrə dinamik inkişaf etməsi, beynəlxalq arenada nüfuz və mövqelərinin möhkəmlənməsi, habelə sülhün və təhlükəsizliyin təmin edilməsi baxımından müstəsna rol oynamışdır. Bu müqavilənin imzalanması ilə təməli qoyulmuş yeni neft strategiyası təkcə Azərbaycanın deyil, bütün bölgənin çağdaş tarixinin ən şərəfli, parlaq səhifələrindəndir. Müəllifi Heydər Əliyev olan milli neft doktrinası Azərbaycan dövlətinin iqtisadi siyasət kursunun prioritet istiqamətini, milli iqtisadi yüksəliş xətti ilə yanaşı, Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi məsələsinin aparıcı amilini təşkil edir. "Əsrin müqaviləsi" Qafqazda sülhün təmin olunması strategiyasını müəyyənləşdirən unikal bir kon-

sepsiyaya çevrildi. "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın Qərb dövlətləri ilə münasibətlərinin strateji müstəvidə inkişaf etməsi, ölkəmizin aparıcı dünya dövlətlərinin strateji partnyoruna çevrilməsi bütün regionda sülhün, sabitliyin, davamlı inkişafın təminatçısı kimi qiymətləndirilir.

Heydər Əliyevin uzaqgörənliyi və müdrikliyinin bəhrəsi olan "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanı regionda həm lider dövlət, həm də regional və qlobal iqtisadi layihələrin aparıcı təşkilatçılarından birinə çevirdi. Həmin müqavilə Cənubi Qafqazda sülhün və əmin-amanlığın qarantı kimi Azərbaycana beynəlxalq nüfuz qazandırdı və Azərbaycanın bölgədə sülh və sabitlik prinsiplərinə sadiqliyini beynəlxalq aləmdə bir daha nümayiş etdirdi.

Beləliklə, Heydər Əliyevin zəngin siyasi dövlətçilik təcrübəsinin və demokratik dövlətçilik siyasətinin bəhrəsi olan "Əsrin müqaviləsi" yalnız yeni neft strategiyasının və iqtisadi inkişafın deyil, bütövlükdə Qafqazda sülh prosesinin bünövrəsini qoydu.


STATOIL
EXXON
TP
PENNZOIL
ITOCHU
AIOC
12 NOYAB

















## BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC NEFT KƏMƏRİNİN TƏMƏLİNİN QOYULMASI

2002-ci il sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Cümhuriyyətinin Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın prezidenti Eduard Şevardnadze və ABŞ-ın energetika naziri Spenser Abraham, eləcə də bir çox xarici ölkələrdən gəlmiş qonaqların da iştirakı ilə Bakı şəhərinin yaxınlığında yerləşən Səngəçal sahil terminalında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibəti ilə təntənəli mərasim keçirilmişdir. Bu mərasim Heydər Əliyevin banisi olduğu neft strategiyası, yeridilən ardıcıl və məqsədyönlü siyasət hələ bir neçə il öncəyədək əfsanə və xəyal hesab olunan layihənin gerçək olduğunu təsdiqlədi.

Tikintisinə 1996-cı ildən başlanmış bu terminalın ərazisi 255 hektardır. Gələcəkdə Terminalın ərazisinin 800 hektara çatdırılması nəzərdə tutulmuşdur. Texniki emaldan keçirilməsi üçün "Çıraq-1" platformasından sualtı boru kəməri ilə vurulan neft bu terminala qəbul olunur. Texniki emaldan sonra terminalda quraşdırılmış ümumi tutumu 32 min kubmetr olan çənlərə-sonra isə nasoslar vasitəsi ilə ixrac sisteminə vurulur.

Mərasimdə geniş nitq söyləyən Heydər Əliyev bu layihənin ərsəyə gəlməsi üçün Azərbaycan dövlətinin mürəkkəb, çətin və ağır yollar keçdiyini, daxildə müxtəlif xarici xidmət orqanlarına qulluq edən yüksək vəzifəli şəxsləri tərəfindən bir neçə dəfə silahlı dövlət çevrilişlərinə, geniş miqyaslı terror aktları törətməyə, körpü partlatmağa cəhd göstərildiyini və Azərbaycan dövlətinin bütün bunların qarşısının alınması və bu boru xəttinin reallaşması yolunda nümayiş etdirdiyi möhkəm iradənin əhəmiyyəti haqqında danışarkən demişdir: "Bütün bunların hamısı və göstərilən başqa siyasi təzyiqlər, müxtəlif təsirlər ona yönəlmişdir ki, birincisi, bizim neft müqaviləsini – bu işə Xəzər dənizində ilk dəfə başladıq-qəbul etmək istəmirdilər. İkincisi isə Bakı-Tbilisi-Ceyhan boru xəttinin çəkilməsinin əleyhinə çıxırdılar. Belə bir şəraitdə biz bunu başladıq, öz iradəmizi ortaya qoyduq və əvvəldən tutduğumuz yol ilə getdik". Bununla yanaşı Heydər Əliyev bu layihənin reallaşmasında Türkiyə, Gürcüstan və ABŞ hökumətinin Azərbaycana göstərdiyi köməklik və dəstəyi müstəsna qiymətləndirmişdir.

Bu layihənin həyata keçirilməsi müstəqil Azərbaycanın siyasi və iqtisadi həyatında yeni tarixi mərhələnin başlanğıcını qoydu. BTC-nin reallaşması Şərq-Qərb enerji dəhlizinin tərkib hissəsi kimi ölkələrarası beynəlxalq əməkdaşlığın genişlənməsinə stimul verdi, Azərbaycan, Gürcüstan və Türkiyənin iqtisadi yüksəlişi, yeni beynəlxalq iqtisadi əlaqələr qurmasına, yeni sərmayələr cəlb etməsi üçün geniş imkanlara real zəmin yaratdı. Ən başlıcası isə BTC-nin reallaşması Azərbaycanın regionda lider və aparıcı dövlət, həmçinin sabitliyin təminatçısı

kimi mövqeyini daha da möhkəmləndirdi, onun digər irimiqyaslı və qlobal enerji layihələrində iştirakını təmin etdi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri Şərq-Qərb enerji dəhlizi Xəzəryanı ölkələrin neft və qaz ehtiyatlarının dünya bazarlarına sabit şəkildə, təhlükəsiz çatdırılmasını təmin edəcək yeganə layihədir. Bu layihənin həyata keçirilməsinə başlandığı vaxtlarda bir çoxları bunu xəyal və əfsanə kimi qəbul etdilər. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əfsanədən reallığa çevrilməsində mühüm rolu olan Heydər Əliyev bu layihənin əfsanə qalacağını iddia edən qüvvələrin yanıldıqlarını bir daha qeyd edərək demişdir: "Mən sizə bildirmək istəyirəm ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin əleyhinə çıxanlar çox vaxt belə söyləyirdilər ki, bu, xəyaldır, mümkün deyil, Azərbaycanda o qədər neft yoxdur, olmayacaqdır. Belə danışanlar çox idi. Zaman çox keçdiyinə görə bəziləri də bu danışıqlara inanırdılar. Ancaq bunların hamısı əsassız oldu, biz öz işimizi gördük".

Heydər Əliyev ilk günlərdən Xəzər neftinin və təbii qazının Gürcüstan və Türkiyə üzərindən Qərb bazarlarına daşınmasının iqtisadi, siyasi və strateji cəhətdən bölgə ölkələri və Azərbaycan üçün ən doğru seçim olduğunu bilmiş və bu sahədə böyük fəaliyyət göstərmişdir. Bu layihənin həyata keçirilməsi, bir tərəfdən Qafqaz və Orta Asiya ölkələri ilə dünya bazarları arasında təhlükəsiz enerji körpüsü yaranmasında, digər tərəfdən isə, Şərqlə Qərbin enerji təhlükəsizliyini aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edir. Mərasimdə çıxış edən Gürcüstanın prezidenti Eduard Şevardnadze bu layihənin reallaşmasında Heydər Əliyevin müstəsna fəaliyyətindən danışarkən demişdir: "...Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi". ABŞ-ın energetika naziri Spenser Abraham isə öz çıxışında Xəzər dənizindən nefti Gürcüstan vasitəsilə Türkiyənin Aralıq dənizi sahilinə, Ceyhana, oradan da dünyaya daşıyacaq 1760 kilometrlik Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin reallaşması istiqamətində Heydər Əliyevin rolunu bu cür qiymətləndirmişdir: "Prezident Heydər Əliyevin Azərbaycanın əsas ixrac boru kəmərinin işçi qrupunu yaratdığı vaxtdan, yəni 1997-ci il sentyabrın 5-dən bəri bugünkü tədbirin iştirakçıları uzun yol keçmişlər. Ötən müddət ərzində Prezident Heydər Əliyev neft və qaz ixrac dəhlizinə verdiyi dəstəkdən geri çəkilməmişdir. Onun boru kəmərlərinin reallığa çevrilməsində göstərdiyi uzaqgörənlik və qətiyyət bu böyük və mühüm işlərin düzgün istiqamətləndirilməsini mümkün etmişdir".

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin gələcək perspektivlərindən və gələcəkdə Xəzər dənizində mövcud olan digər yataqların da istismara veriləcəyindən danışan Heydər Əliyev hətta gələcəkdə Bakı-Tbilisi-Ceyhanın tutumunun çatmayacağını və bu boru xəttinin genişləndiriləcəyinin və ya ikinci boru xəttinin çəkiləcəyinin zəruri bir məsələyə çevriləcəyini vurğulamışdır.

Azərbaycanın yeni neft strategiyasının əsasını qoyan “Əsrin müqaviləsi” imzalandıqdan 9 il sonra Heydər Əliyevin uzaqgörənliyi, dövlətin və ölkə iqtisadiyyatının inkişafının əsas qanunları haqqında geniş məlumata malik olması, böyük və misilsiz rəhbərlik təcrübəsi, xalqına sədaqəti və Vətənə sonsuz məhəbbəti ona miqyasına görə dünyada analoqu olmayan çox nəhəng layihəni yaratmaq, eyni zamanda onun həqiqi rəhbəri və bilavasitə əsas iştirakçısı olmaq imkanı verdi. Heydər Əliyevin neft konsepsiyası təkcə Azərbaycanın deyil, Cənubi Qafqazın XXI əsrdəki inkişafının əsasını qoydu və Xəzər regionundakı zəngin karbohidrogen potensialını hərəkətə gətirərək, yeni inkişaf mərhələsinə yol açdı. Demək olar ki, Heydər Əliyev Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsini reallaşdırmaqla bütövlükdə Qafqazın dünyanın ən böyük enerji mərkəzlərindən birinə çevrilməsində həlledici qüvvə rolunu oynadı.

Bakı-Tbilisi-Ceyhan texniki göstəricilərinə görə uzunluğu 1760 kilometr olan, 42 düyməlik boru kəmərinə, 8 nasos stansiyasına və 98 siyirtməli stansiyaya malik layihədir. Xəzərdən Aralıq dənizinə uzanan yol boyunca kəmər bəzi yerlərdə 2700 metr yüksəklikdən keçir. Onun marşrutu üzərində irili-xırdalı 1500-dən çox çay var. Bu layihə Şərq-Qərb enerji dəhlizini açaraq orta miqyaslı yerli neft hasilatından beynəlxalq ixrac çözümünə malik nəhəng neft istismarı əməliyyatlarına keçməyə imkan yaradır. Bu vasitə ilə gələcək uğurların möhkəm təməlini qoyduğu üçün layihənin iştirakçıları Heydər Əliyevə minnətdarlıq edirlər.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev, Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezər, Gürcüstanın prezidenti Eduard Şevardnadze və ABŞ-ın energetika naziri Spenser Abraham, eləcə də bir çox xarici ölkələrdən gəlmiş qonaqların da iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təməlinin qoyulması münasibəti ilə keçirilən təntənəli mərasimdə çıxışlar qurtardıqdan sonra Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin simvolik təməlatma mərasimi keçirildi. Hər üç dövlətin prezidentləri kəmərin ilk borusunu xüsusi olaraq qazılmış xəndəyə endirdilər və tikintinin başlanmasını ifadə edən xatirə lövhəsini açdılar. Bununla da haqqında söhbət gedən Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinin başlanması reallığa çevrildi.

## BAKI-TBİLİSİ-CEYHAN ƏSAS İXRAC NEFT KƏMƏRİ. BAKI-TBİLİSİ-ƏRZURUM QAZ KƏMƏRİ LAYİHƏLƏRİ QAFQAZDA TƏHLÜKƏSİZLİYİN, SÜLHÜN, SABİTLİYİN TƏMİNATI KİMİ

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin təməlləri qoyulanadək uzun, çətin və mürəkkəb bir yol keçilmişdir. Həmin illərdə Heydər Əliyevin səyi nəticəsində hər iki layihənin reallaşması yolunda mövcud olan saysız-hesabsız maneələr dəf olunmuş, aramsız təzyiqlər aradan qaldırılmışdır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməli qoyularkən Eduard Şevardnadze layihənin reallaşdırılmasında Heydər Əliyevin müstəsna xidmətlərini bu cür qiymətləndirmişdir: "Prezident Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq-Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi".

Azərbaycan neftinin və qazının dünya bazarına çıxaracaq əsas neft və qaz ixrac kəmərlərinin marşrutu ətrafında qızğın mübahisələr getməsinə və müxtəlif variantlar təklif olunmasına baxmayaraq Heydər Əliyev tərəddüd etmədən təkcə Azərbaycanın deyil, bütün Qafqazda təhlükəsizliyin, sülhün, sabitliyin təminatı kimi Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum marşrutunun üstündə dayandı. Bu barədə Heydər Əliyev demişdir: "Bu qərarın özü də çox mübahəsələr doğurdu. Çünki o vaxt həm bizim imzaladığımız müqaviləyə qarşı çıxış edənlər, həm də boru xəttinin məhz Bakı-Tbilisi-Ceyhan marşrutu ilə getməsinin əleyhinə çıxanlar var idi. Bunlar məlumdur. Bizə, yəni birinci növbədə Azərbaycana mane olurdular. Çünki neft sahibi bizik və nefti də haradan ixrac etmək birinci növbədə bizim hüququmuz idi".

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri Cənubi Qafqazın iki dövlətini-Azərbaycan və Gürcüstanın daimi birlikdə hərəkət etmələrini təmin etdi. Hər iki layihə regional işbirliyinin qurulmasına, Azərbaycan və Gürcüstanın iqtisadi inkişafının güclənməsinə, siyasi sabitliyin və demokratiyanın qorunmasına, bölgədə və dünyada sülh prosesinə xidmət edir. Xüsusi ilə bu layihə Azərbaycan və Gürcüstan arasında yüksək səviyyəyə qalxan çox mühüm, möhkəm, dayanıqlı əlaqələrin yeni mərhələsinin başlanmasına səbəb oldu. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməlqoyma mərasimində hər iki layihənin bölgədə sülhün təmin edilməsindəki əhəmiyyətindən danışarkən Türkiyə Cümhuriyyətinin prezidenti Əhməd Necdət Sezər demişdir: "Bu böyük layihələrin Azərbaycan, Gürcüstan və Türkiyə xalqları arasındakı dostluq və qardaşlığın daha da möhkəmləndirilməsində, bölgəmizdə sülh və əmin-amanlığın təmin edilməsində əhəmiyyəti böyükdür".

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri nəticəsində Azərbaycan və Gürcüstan hökumətlərinin öz aralarında

yaratdıqları əməkdaşlıq və etibarlılıq regionun digər ölkələri üçün modelə çevrilmişdir. Çünki həm Heydər Əliyev, həm də Eduard Şevardnadze bu kimi birgə layihələrin regional və qlobal sülhə, firavanlıq və əmin-amanlığa doğru daha yaxın bir yol olmasını yaxşı dərk edirdilər. Beləliklə, Azərbaycan və Gürcüstanın Qafqazda təhlükəsizliyin, sülhün, sabitliyin təmin olunmasında olan maraqları bu kəmərlərin uzunluğu ilə daha da gücləndi. Heydər Əliyevin neft siyasətinin əsasında Xəzərin karbohidrogen ehtiyatlarını yalnız Qafqazda sülhün təmin olunmasına yönəltmək, bu yeraltı sərvətlərindən təkcə Azərbaycan xalqının deyil, bütün Qafqaz xalqlarının rifahı naminə praqmatikcəsinə, uzaqgörənliklə, siyasi peşəkarlıqla istifadə etmək kimi yüksək humanist məram dayanır. Heydər Əliyevin adını daşıyan BTC-nin açılışı mərasimində layihənin müasir qlobal enerji layihələrindən biri kimi strateji, iqtisadi, geosiyasi, beynəlxalq əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev kəmərin regionda təhlükəsizliyin və davamlı sülhünə, əmin-amanlığın, sabitliyin bərqərar olması üçün böyük rolunun diqqətə çəkərək demişdir: "Mən şübhə etmirəm ki, bundan sonra da Bakı-Tbilisi-Ceyhan Azərbaycan xalqına, bizim qonşu, dost ölkələrimizə böyük sərmayə, fayda gətirəcəkdir. Bu gəlir, əlbəttə ki, ilk növbədə bizim iqtisadi problemlərimizin həlli üçün bizə kömək edəcəkdir. Sosial problemlərin həlli də öz əksini tapmalıdır. Amma eyni zamanda biz onu da gözəl bilirik ki, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsi işində bu kəmərin rolu çox böyük olacaqdır. Buna ehtiyac var. BTC neft kəmərinin bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində rolu olacaqdır. Bu kəmər, eyni zamanda regional əməkdaşlıq baxımından da çox gözəl nümunədir, örnəkdir".

Heydər Əliyevin təfəkkürünün məhsulu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin böyük iqtisadi və siyasi əhəmiyyəti ilə yanaşı, ümumbəşəri cəhətdən də xüsusi əhəmiyyət kəsb edir. Məhz buna görə Gürcüstanın eks-prezidenti E.Şevardnadze "xalqlarımız yalnız gələcəkdə biləcəklər ki, Qafqazın müstəqil olması üçün Heydər Əliyev nə qədər böyük işlər görmüşdür" deyirdi.

Qafqazda təhlükəsizliyin, sülhün, sabitliyin təmin olunmasında Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələrinin əhəmiyyəti haqqında danışarkən Heydər Əliyev demişdir: "Təbiidir ki, bunlar çox böyük iqtisadi əhəmiyyət daşıyır. Ancaq təkcə iqtisadi xarakter deyil, hesab edirik ki, bizim bu istiqamətdə gördüyümüz işlər siyasi xarakter daşıyır. Bu layihələr və onların həyata keçirilməsi Qafqaz bölgəsində sülhün, əmin-amanlığın, təhlükəsizliyin təminatçısı ola bilər…". Heydər Əliyevin qeyd etdiyi əsas məsələlərdən biri BTC-nin Qafqaz bölgəsində sülhün, əmin-amanlığın təhlükəsizliyin təminatçısı olacağı ilə bağlı idi. Artıq bu məsələ də reallaşmaqdadır. Əvvəla, qeyd edək ki, bu, yalnız Qafqazın, Türkiyənin deyil, bütün Avropanın (klassik

mənada) enerji təhlükəsizliyini təmin etməyə yönələn bir layihədir. Odur ki, Qafqazda sülhün təmin olunması məsələsi artıq təkcə Azərbaycanın, Gürcüstanın və Türkiyənin daxili işi kimi deyil, bütün tranzit ölkələrin maraq dairəsinə, Avropanın, daha geniş mənada, bütün dünyanın probleminə çevrilmişdir.

BTC-nin keçdiyi regionda isə əsas təhlükə təcavüzkar Ermənistan dövlətinin yaraqlılarıdır. Ermənistan yaraqlıları isə keçid dövründən və xarici havadarlarının köməyindən faydalanaraq Azərbaycan torpaqlarını işğal etmiş və hazırda bütün dünyanı narahat edən (həm də BTC-yə görə) Dağlıq Qarabağ adlı münaqişə ocağı yaratmışlar. Heydər Əliyev 1994-cü ildə Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olmaqla münaqişənin həllini hərb müstəvisindən çıxardı və elə həmin ildə "Əsrin müqaviləsi"ni imzalamaqla iqtisadi müstəviyə gətirdi. İqtisadi müstəvidə gedən müharibədə isə Ermənistan bütün beynəlxalq və regional layihələrdən kənar qalaraq məğlubiyyətə uğradı. Artıq bu gün iqtisadi inkişafdan kənarda qalmış Ermənistan sülh danışıqlarına daha meyilli yanaşmaqdadır. Beləliklə, BTC və BTƏ kimi beynəlxalq layihələri həyata keçirməklə Heydər Əliyev Ermənistanın məğlubiyyət gününü nəzərdə tutmuşdur. Ermənistanın məğlubiyyəti isə Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normalarına uyğun həlli, Qafqaz regionunda sülhün, əmin-amanlığın başlanğıcı deməkdir.

Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin də siyasətinin əsas prioritetlərindən biri Azərbaycanda, bütün regionda sülhün, əmin-amanlığın, firavanlığın təmin olunmasıdır. BTC və BTƏ kimi beynəlxalq layihələrin reallaşdırılması isə bu siyasətin həyata keçirilməsində açar rolunu oynayır və regiona iqtisadi, siyasi sabitlik gətirir.

## ERMƏNİSTANIN BEYNƏLXALQ LAYİHƏLƏRDƏN KƏNARDA QALMASI

Heydər Əliyev bir sıra qlobal layihələri həyata keçirərkən Azərbaycanın üç əsas milli marağını önə çəkmişdir. Bunlar dövlət büdcəsinin zənginləşdirilməsi və əhalinin güzəranının yaxşılaşdırılması, Azərbaycanın və ümumilikdə bölgənin dünyanın iqtisadi mərkəzlərindən birinə çevrilməsi və Avropa birliyinə inteqrasiyasının sürətləndirilməsi və ən nəhayət, təcavüzkar, militarist siyasət yeridən, terroru və separatizmi dəstəkləyən Ermənistanın bu layihələrdən kənarda qalmaqla dünyadan təcrid olunması, mövqelərinin zəifləməsi, nəticədə isə Azərbaycanın haqlı şərtlərini qəbul etmək məcburiyyətində qalmasından ibarətdir.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atəşkəsin imzalanması Azərbaycanın qısa zaman kəsiyində inkişafına səbəb oldu. Belə ki, həmin vaxtdan etibarən Azərbaycan iqtisadiyyatında, siyasətində çox böyük uğurlar əldə edərək öz tərəfdaşları ilə birlikdə iri beynəlxalq, regional layihələr həyata keçirməyə başladı. Ermənistan isə əksinə, yeritdiyi militarist siyasətin, terroru və separatizmi dəstəkləməsinin nəticəsində beynəlxalq və regional layihələrdən kənarda qaldı. Şübhəsiz ki, Ermənistan bu baxımdan böyük problemlərlə üzləşdiyini yaxşı dərk etməkdədir. Məhz buna görə bir neçə dəfə Ermənistan tərəfindən Azərbaycana iqtisadi əməkdaşlıq təklif olunmuşdur. Lakin Heydər Əliyev qətiyyətlə bildirmişdir ki, işğal olunmuş ərazilər azad edilməyincə, Ermənistanla iqtisadi əməkdaşlıqdan söhbət gedə bilməz.

Yeritdiyi militarist siyasətin nəticəsində Ermənistanın beynəlxalq və regional layihələrdən kənarda qalması Azərbaycanın iqtisadi və siyasi mövqeyini kifayət qədər möhkəmləndirdi. Heydər Əliyevin apardığı uğurlu iqtisadi və siyasi islahatların sayəsində BMT-nin “Dünya investisiyalar Hesabatı”nda Azərbaycan Mərkəzi Asiyanın aparıcı ölkəsi kimi təqdim edildi. Heydər Əliyevin sayəsində ərsəyə gəlmiş tarixi İpək yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi layihələrin həyata keçirilməsi regiona sabitlik, əməkdaşlıq gətirir və regionun problemlərinin həllində önəmli rol oynayır, regional və beynəlxalq inteqrasiyanı sürətləndirir, Azərbaycan və Gürcüstanı bir-birinə sıx birləşdirir, Avropa və Asiya arasında infrastruktur-nəqliyyat qovşağının formalaşmasına imkan yaradır.Bu layihələr həm siyasi, həm iqtisadi, həm də regional müstəvidə böyük faydalar gətirir. Şübhəsiz ki, Heydər Əliyevin müəllifliyi ilə ərsəyə gəlmiş layihələr həyata keçirildikcə Qafqazda sülh və əmin-amanlığın inkişafı zəncirvari proseslə davam etdirilir.

Yeritdiyi militarist siyasətin, terroru və separatizmi dəstəkləməsinin nəticəsində bütün beynəlxalq layihələrdən kənarda qalan Ermənistanın yalnız ümidi xaricdə fəaliyyət göstərən erməni diasporuna qalıbdır. Bu diaspora isə Ermənis-

tanın qonşu dövlətlərlə münasibətlərini korlayan ən böyük amildir. Militarizmi və terroru dəstəkləyən erməni diasporu isə Ermənistanı özündən asılı saxlayaraq bütün beynəlxalq və regional layihələrdən kənarda qalmasına və bunun nəticəsində tərk edilən ölkəyə çevrilməsinə şərait yaratmaqdadır.

Ermənistanın regional inteqrasiyadan kənarda qalması artıq beynəlxalq birlik üçün fakta çevrilmişdir. Zahirən Ermənistanın Gürcüstanla münasibətləri mövcud olsa da, bu yalnız rəsmi xarakter daşıyır. Çünki Ermənistanın Gürcüstana qarşı iddiaları mövcuddur və Ermənistan Axalkalakidə yaşayan ermənilərin vasitəsi ilə separatçılığı gücləndirməkdədir. Erməni siyasətçiləri ölkə iqtisadiyyatının gələcəyinin ancaq regional əməkdaşlıqdan asılı olduğunu və qonşularla, ilk növbədə Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılması mümkünlüyünü etiraf etsələr də, militarist siyasət yeritməyi və separatizmi dəstəkləməyi davam etdirməkdədirlər. Çünki başda S.Sarkisyan olmaqla bütün erməni siyasətçiləri milli mənafelərdən daha çox, kənar qüvvələrin geosiyasi maraqlarına uyğun fəaliyyət göstərirlər.

Ermənistan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin istismara verilməsi və bir dövlət kimi hər iki layihədən təcrid olunmasına biganə yanaşdığını bildirsə də, daxildə bu məsələ ilə bağlı təəssüflənən ermənilərin sayı az deyil. Beləliklə, Azərbaycan, Gürcüstan və Türkiyənin birlikdə gerçəkləşdirdikləri qlobal əhəmiyyətli layihələrlə bağlı ermənilərin təəssüflənməkdən başqa çarələri qalmamışdır. Lakin bütün bunlara baxmayaraq, Ermənistan real vəziyyəti qiymətləndirərək separatizmdən imtina edib özünün layihələrdə mümkün iştirakına çalışmaq əvəzinə, Şərqi Qərblə birləşdirən layihələrin reallaşmasına həmişə əngəl törətməyə çalışmışdır. Bu məqsədlə Amerika və Avropada fəaliyyət göstərən erməni diasporu bütün beynəlxalq və regional layihələri Azərbaycan və Türkiyənin "onsuz da blokada şəraitində boğulan Ermənistanın vəziyyətini daha da pisləşdirmək" istəyi kimi qiymətləndirməyə cəhd göstərirlər. Heydər Əliyevin qətiyyəti nəticəsində beynəlxalq birliyə bütün bunların şantaj olmasını və əslində Ermənistanın Qərbin Cənubi Qafqazda həyata keçirmək istədiyi çox vacib geosiyasi və geoiqtisadi layihələrin əngəlçisi olduğu çatdırıldı. Heydər Əliyev Ermənistanın Cənubi Qafqazda həyata keçirilən layihələrdən məhrum olmasının əsl səbəblərinin onun yeritdiyi militarist siyasətin, terroru və separatizmi dəstəkləməsinin nəticəsi olduğunu dünya ictimaiyyətinə çatdırmağa nail oldu. Digər tərəfdən Azərbaycan və Gürcüstanın birgə həyata keçirdikləri layihələrin geosiyasi əhəmiyyəti həddən artıq böyük olduğu üçün layihə iştirakçıları Ermənistanın şantaj xarakterli təbliğatlarına məhəl qoymadılar.

Təbii resurslardan məhrum olan, kommunikasiya dəhlizlərinə çıxışı bağlı olan Ermənistanın vacib nəqliyyat dəhlizlərində iştirak etməməsi ölkə iqtisadiyyatını iflic vəziyyətinə salıb. Ermənistan hökuməti tranzit haqları toplamaqla dövlət büdcəsini yüksəltməkdən belə məhrum olub. Demək olar ki, rəsmi Yere-

vanın işğalçı və separatçı siyasəti Ermənistanı regional dalana salıb. Heydər Əliyevin sayəsində reallaşan layihələr Ermənistanın xarici dəstəklə müharibədə əldə etdiyi hərbi nəticələrin hüquq müstəvisində rəsmiləşdirməyə nail olmamalarına gətirib çıxartdı. Əksinə, bu layihələr Azərbaycanın nüfuzunun güclənməsi, Qarabağ münaqişəsinə ədalətli münasibətin formalaşması və buna paralel olaraq Ermənistanın işğalçı siyasətinin ifşa olunması ilə müşahidə edildi. Ən əsası isə Azərbaycan bu layihələrin sayəsində Ermənistana nisbətdə qat-qat iqtisadi qüdrətini möhkəmləndirdi.

Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində regionun nəhəng iqtisadi layihələrinin həyata keçirilməsi ölkə iqtisadiyyatına qoyulan ümumi sərmayənin həcmini 21 milyard dollara çatdırdı. Bu gün təkcə neft-qaz layihələri üzrə Azərbaycan iqtisadiyyatına 10 milyon dollar sərmayə yatırılır. Beynəlxalq və regional layihələrdən kənar qalan Ermənistan isə praktiki olaraq heç nəyə nail olmamışdır. Erməni ekspertlərinin ölkənin 2020-ci ilədək gözlənilən inkişaf perspektivləri ilə bağlı işlənilən inkişaf ssenarisinə görə Ermənistanın büdcəsinin 2020-ci ildə 7,6 milyard dollara çatacağı ehtimal olunur. Halbuki ən yaxın zaman intervalını götürsək, 2015-ci ildə Azərbaycanın dövlət büdcəsinin 25 milyard dollar təşkil edəcəyi gözlənilir. Ermənistan isə yeritdiyi militarist siyasəti, terroru və separatizmi dəstəkləməkdən imtina etmədiyi halda, heç 2030-2040-cı illərdə də belə bir büdcəyə malik olmayacaq.

Beynəlxalq layihələrdən kənarda qalan Ermənistanın yaxın 15-20 ili əhatə edə biləcək konkret strateji inkişaf proqramı mövcud deyil. Ermənistanın dövlət büdcəsinin isə təqribən 30%-i xaricdən alınan ianələr və qrantlar hesabına formalaşır. Qeyd etdiyimiz kimi, işğalçı ölkənin iqtisadiyyatının təlatümlü vəziyyətdə olduğunu erməni ekspertlərinin özləri də etiraf edirlər. Beləliklə, Heydər Əliyevin düşünülmüş, konsepsual siyasətinin nəticəsində Ermənistanın Dağlıq Qarabağ problemini mövcud vəziyyətdə saxlaması bu ölkəyə böyük zərbə vurur. Atəşkəs haqda saziş imzalanandan etibarən Qafqazda həyata keçirilən beynəlxalq və regional layihələrdən kənarda qalması Ermənistan iqtisadiyyatını ağır duruma sürükləyib. Məhz buna görə erməni rəsmiləri artıq Azərbaycanın atəşkəs rejiminə tam nəzarət etməsini və istədiyi vaxt situasiyanı dəyişməyə qadir olmasını etiraf etməkdədirlər. Hələ 1998-ci ilin əvvəlində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində müəyyən qədər liberallıq göstərdiyi üçün istefaya məcbur edilmiş L.T.Petrosyan "Nezavisimaya qazeta"da dərc olunmuş özünün erməni xalqına müraciətində bildirmişdir: "Ermənistan ictimaiyyəti o vaxt üçün təklif edilən sülh planını (Dağlıq Qarabağ ətrafındakı rayonların azad edilməsi və Dağlıq Qarabağa Azərbaycan tərkibində yüksək özünüidarə statusunun verilməsi) rədd etməklə tarixi səhvə yol verdi və əvvəl-axır bunun fərqinə varacaq". Bütün bunlar onu göstərir ki, beynəlxalq və regional layihələrdən kə-

narda qalmış erməni xalqı ağır iqtisadi şəraitdə yaşamalarına baxmayaraq hələ də daşnakların radikalizmi və böyük vədləri üzərində ifratçılıq əhvalını konstruktivizmdən üstün tutmaqdadır.

Ermənistanın Qafqazda həyata keçirilən beynəlxalq və regional layihələrdən kənarda qalması həm də bu ölkəni faktiki olaraq tərəfdaşsızlıq vakuumuna sürükləyib. Belə olan halda isə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi hərbi müstəviyə keçərsə, Yerevan üçün çox böyük bir təhlükəli hal yaranacağı aydın olur.

Beləliklə, bütün bunlar bir daha sübut edir ki, regionda həyata keçirilən bir sıra iri layihələrdən uzaq düşən, iqtisadi cəhətdən digər dövlətlərdən asılı vəziyyətdə qalan Ermənistan cəmiyyətində, sözün əsl mənasında faciəli vəziyyət yaşanılır. Artıq işğalçı ölkənin bəzi siyasi dairələri Heydər Əliyevin apardığı xarici siyasət qarşısında rəsmi Yerevanın aciz qaldığını açıq-aşkar şəkildə etiraf etməyə məcbur olurlar.

## RUSİYA FEDERASİYASI TƏRƏFİNDƏN ERMƏNİSTANIN SÜRƏTLƏ SİLAHLANDIRILMASI

Rusiya Federasiyasının Ermənistanla mövcud olan münasibətləri hərbi ittifaq səviyyəsində qurulmuşdur. Məhz buna görə də hər iki dövlət müdafiə və ya hərbi əməkdaşlıq sahəsində birgə siyasət yürütməkdədirlər. SSRİ süquta uğradıqdan sonra Rusiya bu əməkdaqşlıq çərçivəsində Ermənistanı sürətlə silahlandırmağa başlamışdır. Rusiyanın Ermənistanı silahlandırması isə ilk öncə Qafqazda mövcüd olan münaqişə tərəflərinin, xüsusilə Azərbaycan və Ermənistanın yaranmış problemin həlli üçün danışıqları beynəlxalq normalar əsasında davam etdirmələrinə öz mənfi təsirini göstərir. Rusiya bir tərəfdən Qafqazda sülhün və sabitliyin təmin olunması istiqamətində özünün maraqlı olmasını nümayiş etdirir, digər tərəfdən isə, Ermənistanı silahlandırma siyasətini davam etdirərək böhranın növbəti mərhələsinin başlanmasına şərait yaradır. Bu isə Qafqazda sülhün və əmin-amanlığın bərpa edilməsi yolunla müstəsna əhəmiyyətə malik olan Heydər Əliyevin "Ümumqafqaz Evi"nin yaranması yolunda əsas maneələrdən birinə çevrilmişdir.

Heç şübhəsiz, Rusiya postsovet məkanında öz təsir dairəsini yenidən gücləndirmək naminə "Ümumqafqaz Evi"nin yaranması ideyasının əleyhinə olan mövqeyini Ermənistan tərəfindən səsləndirir. Rəsmi Moskva yaxşı dərk edir ki, Heydər Əliyevin "Ümumqafqaz Evi" Qafqazdakı münaqişələrin həlli istiqamətində fəaliyyət göstərən bir sıra nüfuzlu beynəlxalq təşkilatlarından daha səmərəli ola bilər. Ona görə ki, BMT-nin Qarabağ münaqişəsi ilə bağlı dörd qətnaməsi var. Həmin sənədlərdə Ermənistanın silahlı birləşmələrinin qeyd-şərtsiz işğal etdikləri Azərbaycan ərazilərini tərk etmələri göstərilib. Lakin BMT özü qərarlarının yerinə yetirilməsi istiqamətində heç bir tədbir görmür. Əksinə, bu məsələni və bu istiqamətdə bütün səlahiyyətləri Minsk qrupu adlı quruma həvalə edibdir. Bu qurumda isə Rusiya aparıcı mövqelərdən birini tutubdur. Məhz buna görə də Heydər Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə Minsk qrupu tərəfindən təqdim edilmiş üç təklifi mətbuatda dərc etdirərək həmin təkliflərin heç birinin Azərbaycanın və ümumilikdə Qafqazda sülhün təmin olunması xeyrinə olmadığını aşkar şəkildə sübuta yetirdi.

Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyasının reallaşdırılması ilk növbədə Qafqazda separatizmə və terrora, rəsmi Moskva başda olmaqla bir sıra böyük qüvvələrin separatizmi dəstəkləməsinə son qoyulması və bununla da bölgədə sülhün və təhlükəsizliyin təmin edilməsinə nail olunması məqsədini güdür. Buna görə də Rusiya Ermənistanı silahlandırmaqla "Ümumqafqaz Evi" ideyasının reallaşmasının qabağını alır. Digər tərəfdən, beynəlxalq təşkilatların Qafqazda sülhün təmin olunması istiqamətində həyata keçirdikləri tədbirləri nəticəsiz qoyur. Rusiya isə Gürcüstan və Azərbaycana qarşı destruktiv siyasət apararaq separat-

çıları Tiflisin və Bakının əleyhinə silahlandırdığı üçün bölgədə mövcud olan münaqişələrdən ən çox əziyyət çəkən Azərbaycan və Gürcüstan bütün günahları Rusiyada görür. Əslində isə Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyasının reallaşdırılması prosesində Rusiyanın da iştirakı vacibdir. Çünki Rusiya Federasiyasının özü də Qafqaz bölgəsinə aid olduğu üçün burada mövcud olan problemlərin həllində maraqlı olmalıdır. Bu istiqamətdə Azərbaycan və Rusiya əlaqələrinin möhkəmləndirilməsində, Rusiyanın bölgədə sülhün təmin edilməsi prosesinə qoşulmasında, bu böyük dövlətin "Ümumqafqaz Evi" ideyasının reallaşdırılmasında marağının artırılmasında Heydər Əliyevin fəaliyyəti müstəsna əhəmiyyət kəsb edir.

Rusiya Federasiyasının Ermənistanı sürətlə silahlandırması bu dövlətin Dağlıq Qarabağda və onun ətrafında olan ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirməsi nəticəsində Dağlıq Qarabağ bölgəsinin ətrafındakı yeddi rayondan 700 min, Dağlıq Qarabağın özündən isə 50 min azərbaycanlının qovulmasına, əvvəllər Ermənistanda yaşamış 250 min azərbaycanlının da etnik təmizləmə siyasətinə məruz qalmasına, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində on ildən artıq bir müddət davam edən danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqe tutmasına, beynəlxalq hüququn bütün normaları və prinsiplərini kobudcasına pozmasına, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən dörd qətnaməsinə məhəl qoymamasına, Dağlıq Qarabağda heç bir beynəlxalq təşkilat tərəfindən tanınmayan qanunsuz referendumun keçirilməsinə, Heydər Əliyevin güzəştli və konstruktiv mövqe nümayiş etdirərək Azərbaycanın ərazi bütövlüyü çərçivəsində Dağlıq Qarabağda yaşayan ermənilərə maksimum geniş muxtariyyət verilməsi, orada yaşayan bütün insanların təhlükəsizliyinin təminatı, yurdundan didərgin düşmüş insanların Dağlıq Qarabağa və onun ətrafındakı rayonlara qaytarılması və sülhün bərqərar edilməsi təklifini rədd etmələrinə təkan vermişdir. Belə mövqe nümayiş etdirərək beynəlxalq hüquq normalarına zidd çıxan Ermənistan isə "Ümumqafqaz Evi"nin yaranması yolunda əsas maneələrdən biri kimi qiymətləndirilmişdir.

Heydər Əliyevin "Ümumqafqaz Evi" ideyasının məzmun və mahiyyətlərindən biri də bölgədə yaşayan milli azlıqlara hörmətlə yanaşmaqdan ibarətdir. Ermənistan isə həyata keçirdiyi etnik təmizləmə siyasətinin nəticəsində nəinki bölgədə, həm də dünyada analoqu olmayan milli azlıqların yaşamadığı bir dövlətə çevrilmişdir. Belə olan halda isə bu kimi dövlətin Rusiya Federasiyası tərəfindən silahlandırılması "Ümumqafqaz Evi" yaradılmasına mənfi təsir göstərir.

"Ümumqafqaz Evi" ideyasının gerçəkləşməsi üçün beynəlxalq münasibətlərin əsas prinsipləri qorunmalıdır. Ermənistan isə tam bunun əksinə olaraq BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qətnamələrin həya-

ta keçirilməməsi məsələsinə heç məhəl qoymaq istəmir. Beynəlxalq mübahisələrin və münasibətlərin nizama salınması üçün universal mexanizm hesab olunan BMT-nin qətnamələrinə məhəl qoymayan Ermənistan heç şübhəsiz, regional münasibətlərin nizamlanması prosesinə də öz mənfi təsirini göstərir.

Heydər Əliyevin müəllifi olduğu "Ümumqafqaz Evi" ideyasının reallaşdırılması yolunda göstərdiyi konkret səylər Azərbaycan dövlətinin beynəlxalq, regional və dövlətlərarası münasibətlər sahəsində atdığı praktiki addımlarda, bağlanan müqavilələrdə öz əksini tapmışdır. Heydər Əliyevin sayəsində Azərbaycanın bütün regionun sosial-iqtisadi inkişafa xidmət edən qlobal iqtisadi layihələrin reallaşması istiqamətində atdığı ardıcıl addımlar bütün dünyada sülhsevər ideya kimi tanınmış "Ümumqafqaz Evi" ideyasının gerçəkləşməsinə əlverişli zəmin yaratmışdır. Lakin Rusiya Federasiyası tərəfindən sürətlə silahlandırılması nəticəsində Ermənistanın təcavüzkar siyasətini daha da genişləndirməsi "Ümumqafqaz Evi"nin yaranması yolunda əsas maneələrdən biri kimi qiymətləndirilir.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTANIN BEYNƏLXALQ ANTİTERROR KOALİSİYASINDA İŞTİRAKI

2001-ci il sentyabrın 11-də Nyu-York vaxtı ilə saat 8.46-da (Bakı vaxtı ilə 17.46) "Amerika Eyrlaynz" aviaşirkətinin Bostondan Los-Ancelesə uçan (11-ci reys) "Boinq" sərnişin təyyarəsi içindəki 102 sərnişinlə birlikdə Nyu-Yorkdakı Dünya Ticarət Mərkəzinin şimal binasına çırpıldı. 17 dəqiqə sonra "Yunayted Eyrlaynz" şirkətinə məxsus daha bir "Boinq" sərnişin təyyarəsi (175-ci reys, Boston-Los-Anceles) içindəki 62 nəfərlə birlikdə ticarət mərkəzinin cənub binasına dəydi. ABŞ Federal Aviasiya İdarəsi Nyu-York ətrafında uçuşlara qadağa qoyduqdan bir neçə dəqiqə sonra-saat 9.55-də (Bakı vaxtı ilə 18.55) "Amerika Eyrlaynz"in Vaşinqtondan Los-Ancelesə uçan sərnişin təyyarəsi (77-ci reys) ABŞ Müdafiə Nazirliyinin (Pentaqonun) binasına çırpıldı. Nəticədə nazirliyin 125 əməkdaşı, təyyarədə olan 93 sərnişin həlak oldu. 10.25-də isə "Yunayted Eyrlaynz"ın Nyu-Yorkdan San-Fransiskoya uçan (93-cü reys) daha bir sərnişin təyyarəsi Somerset qraflığında, Pitsburqdan 130 kilometr aralıda yerə dəyib partladı. Həmin gün saat 17.36-da ilk dəfə olaraq ABŞ hökuməti terror aktlarının arxasında Üsama bin Laden və onun "Əl-Qayidə" təşkilatının dayandığını iddia etdi. Hadisədən bir neçə saat sonra Üsama bin Laden terror aktları ilə əlaqəsini təkzib etsə də, sonralar bunun əksini təsdiqləyən çoxlu faktlar üzə çıxdı.

Beləliklə, 2001-ci ilin 11 sentyabr çağdaş tarix üçün yeni istinad nöqtəsi oldu. Amerikanı sarsıdan partlayışlar beynəlxalq terrorizm kabusunu dünya üçün nə dərəcədə dəhşətli təhlükə törətdiyini təsdiqlədi. Bu hadisə dünyanı da iki yerə ayırdı: bir tərəfdə insanlığı təhdid edən terror şəbəkəsi, digər yanda isə onunla mübarizəyə qalxan beynəlxalq koalisiya. Amerikanı yerindən oynadan 11 sentyabr hadisələri dünya ictimaiyyətini dünya gerçəkliyinə yenidən baxmağa təhrik etdi. Çünki Nyu-York və Vaşinqtonda həyata keçirilən misli görünməmiş terror təkcə Birləşmiş Ştatları deyil, bütövlükdə dünyanı və beynəlxalq sülhü təhdid edən aksiya idi.

11 sentyabr hadisələri göstərdi ki, dünyanın ən böyük fövqəldövləti belə beynəlxalq terror şəbəkəsi ilə ayrılıqda mübarizə aparmaq gücündə deyil. Məhz buna görə də Amerikanı sarsıdan bu faciədən dərhal sonra ABŞ prezidenti Corc Buş dünya dövlətlərinə müraciət edərək onları beynəlxalq terrorizmlə mübarizəyə çağırdı. ABŞ hökuməti dövlətlərin bu dəstəyindən dərhal yararlanaraq beynəlxalq terrorizmə qarşı antiterror koalisiyasını yaratmağı bacardı. Vaşinqton tarixdə ilk dəfə olaraq NATO-nun 5-ci maddəsinə istinad edərək alyans üzvlərindən yardım istədi. NATO üzvü olmayan onlarla dövlət antiterror koalisiyasında bu və ya digər şəkildə iştirak etdi. BMT-nin tələbi ilə dünya dövlətləri bir neçə ayda terrorla mübarizənin əsas prinsiplərini qanunlarına daxil etdilər.

Dünyanın bir sıra böyük və nüfuzlu dövlətləri ilə yanaşı, Azərbaycan və Gürcüstan respublikaları da beynəlxalq antiterror koalisiyasında yer aldılar. Məhz Heydər Əliyevin və Eduard Şevardnadzenin nümayiş etdirdiyi bu prinsipiallıq hər iki respublikanın istər regional, istərsə də beynəlxalq müstəvidəki mövqeyini bir daha möhkəmlətdi.

Azərbaycan və Gürcüstan respublikaları beynəlxalq sülhün və sabitliyin qorunub saxlanmasına yönəlmiş birgə tədbirlərdə iştirak etməklə, beynəlxalq və regional təhlükəsizliyə töhfə vermək üçün davamlı səylər göstərmiş oldular.

2001-ci il 11 sentyabr hücumlarından sonra terrorçuluqla mübarizə beynəlxalq gündəliyin ən vacib məsələlərindən birinə çevrildi. Beynəlxalq ictimaiyyətin terrorçuluğa qarşı mübarizəsini tam dəstəkləyən Azərbaycan və Gürcüstan respublikaları istənilən pərdə altında həyata keçirilən terror fəaliyyəti əleyhinə bir sıra mühüm addımlar atmışdırlar. Xüsusi ilə Azərbaycan Respublikası beynəlxalq terrorçu təşkilatlara qarşı mübarizəni dəstəkləmək məqsədi ilə öz hava məkanını və hava limanlarını koalisiya üçün açıq elan etmişdir. Azərbaycan və Gürcüstan respublikaları, həmçinin qlobal və regional səviyyədə terrorçuluğa qarşı mübarizə məqsədi ilə qəbul edilmiş bütün konvensiyaların iştirakçısına çevrildilər. Azərbaycan və Gürcüstan respublikalarından fərqli olaraq ilk vaxtlarda işğalçı Ermənistan beynəlxalq antiterror koalisiyasına qoşulmaqla bağlı gözləmə mövqeyi tutmağa üstünlük verdi.

Azərbaycan Respublikası ən həssas bölgələrdə vəziyyətin sabitləşməsində yaxından iştirak edir. Daha dəqiq desək, Azərbaycan sülhməramlıları Serbiyanın Kosovo əyalətində və Əfqanistanda NATO-nun başçılığı ilə həyata keçirilən sülhməramlı əməliyyatlarda, İraqda beynəlxalq koalisiyanın tərkibində təhlükəsizliyin təmin olunmasında iştirak edirlər.

Azərbaycan və Gürcüstan respublikaları silahlara nəzarət və onların yayılmaması sahəsində müvafiq beynəlxalq müqavilələrin iştirakçıları kimi beynəlxalq təhlükəsizliyin təmin olunmasına yönəlmiş səyləri tam dəstəkləyirlər. Beynəlxalq silahların yayılmaması rejiminin zəifləməsindən ciddi narahatçılıq keçirən hər iki Cənubi Qafqaz respublikaları adekvat nəzarətin tətbiqi üçün beynəlxalq ictimaiyyət və müvafiq təşkilatlarla əməkdaşlıq yaratmışlar. Azərbaycan Respublikası beynəlxalq antiterror koalisiyasının üzvü kimi dəfələrlə terrorla mübarizəyə qalxan beynəlxalq koalisiya üzv olan böyük dövlətlərin qarşısında Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə silahlara nəzarət mexanizminin tədbiq olunmamasından narahatlığını, və beynəlxalq nəzarətdən kənarda qalan bu ərazilərdə çoxlu silah və sursat toplanmasının regional sülhə ciddi təhdidlər yaratdığını bildirmişdir.

Azərbaycan və Gürcüstan respublikalarının beynəlxalq antiterror koalisiyasında iştirakı və antiterror əməliyyatlarını dəstəkləməsi Amerika Birləşmiş Ştatları ilə hər iki Cənubi Qafqaz dövlətləri arasında qarşılıqlı, faydalı münasibətlərin genişlənməsinə xidmət etdi. Rəsmi Vaşinqton Gürcüstanla, xüsusilə də

Azərbaycanla əməkdaşlığa olan marağını təkcə strateji-çoğrafi mövqe və zəngin karbohidrogen ehtiyatları ilə deyil, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklə fəal inteqrasiyaya söykənən dövlətçilik kursunun dönməzliyi ilə şərtləndirir. Azərbaycan və Gürcüstan beynəlxalq antiterror koalisiyasına qoşulmaqla Amerika Birləşmiş Ştatları ilə strateji müttəfiqliyinin dönməz xarakter daşıdığını nümayiş etdirdi. Bu isə hər şeydən öncə, Cənubi Qafqazda və bütövlükdə regionda sülhün, təhlükəsizliyin, qlobal enerji və kommunikasiya layihələrinin həyata keçirilməsi baxımından böyük əhəmiyyət kəsb etdi.

2001-ci ildən Azərbaycan və Gürcüstan respublikaları ilə ABŞ münasibətləri strateji müttəfiqlik istiqamətində inkişaf etməyə başladı və hər üç ölkə arasındakı əlaqələr bütün sahələrdə-siyasi, iqtisadi, regional əməkdaşlıq, beynəlxalq təhlükəsizlik və hərbi məsələlər üzrə genişləndirilərək, daha da inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi. Xüsusilə ABŞ-Azərbaycan münasibətlərinin strateji müttəfiqlik səviyyəsinə çatması məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində gerçəkləşmişdir. Bu baxımdan beynəlxalq münasibətlərə əsaslı təsir göstərən 11 sentyabr hadisələrindən dərhal sonra Heydər Əliyevin terrorizmi pisləyən bəyanatla çıxış etməsini xüsusi qeyd etmək lazımdır. Həmin vaxt Heydər Əliyev Azərbaycanın antiterror koalisiyasında fəal iştirak edəcək dövlətlərdən biri olacağını qətiyyətlə bildirdi. Rəsmi Bakının ilk gündən Əfqanıstana və İraqda həyata keçirilən antiterror əməliyyatlarına siyasi və hərbi dəstək verməsi Azərbaycan rəhbərliyinin rəsmi mövqeyinin əməli fəaliyyətə əsaslandığını göstərdi. ABŞ prezidenti Corc Buş bu faktı bir neçə dəfə məmnunluqla vurğulamış və Heydər Əliyevin rəhbərliyi altında başlanmış, hazırda isə prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən antiterror siyasətini təqdirəlayiq hesab etmişdir.

2003-cü ilin fevral ayında Heydər Əliyev ABŞ-da səfərdə olarkən prezident Cors Buş beynəlxalq terrorizmlə mübarizə, antiterror koalisiyasında Azərbaycanın iştirakı və xidmətləri haqqında danışarkən Azərbaycanda bu sahədə görülən işlərdən çox məmnun qaldığını söyləmiş və Azərbaycanın Amerikanın yaxın dostu olduğunu bildirmişdir. Heydər Əliyev isə bu xüsusda demişdir: “Mən bu yaxınlarda cənab Corc Buşdan antiterror koalisiyasında Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirən çox xoş bir məktub aldım. Biz sentyabrın 11-də ABŞ-da baş vermiş dəhşətli terror hadisəsindən dərhal sonra antiterror koalisiyasına qoşulmuşuq, bu koalisiyada öz vəzifəmizi yerinə yetiririk və bundan sonra da yerinə yetirəcəyik. Beləliklə, biz bu sahədə də Amerika-Azərbaycan əlaqələrini inkişaf etdiririk, daha da yüksəklərə qaldırırıq”.

Beləliklə, Heydər Əliyevin və Eduard Şevardnadzenin uzaqgörən siyasətlərinin sayəsində Azərbaycan və Gürcüstanın beynəlxalq antiterror koalisiyasında iştirakı və onların antiterror əməliyyatını dəstəkləməsi Qafqaz bölgəsində və dünyada sülhün qorunması istiqamətində böyük töhfə kimi qiymətləndirilmişdir.

## "CƏNUBİ QAFQAZDA SÜLH, TƏHLÜKƏSİZLİK VƏ ƏMƏKDAŞLIQ PAKTI"NIN YARADILMASI İLƏ BAĞLI TƏŞƏBBÜŞ

Beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsi yolunda 1999-cu il dekabr ayında ATƏT iştirakçılarının İstanbulda keçirilmiş zirvə görüşü yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilmişdir. Sammitdə Qərbi və Şərqi Avropa dövlətləri iştirak etmiş və qəbul olunmuş bütün sənədlər BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən dördü-ABŞ, Böyük Britaniya, Fransa və Rusiya dövlətləri tərəfindən imzalanmışdır.

Sammitdə Xəzərin Azərbaycan sektorundan çıxarılan neftin ixrac ediləcəyi marşrutun müəyyənləşdirilməsi ilə bağlı Rusiya ilə ABŞ arasında çoxdan bəri davam edən qarşıdurma Heydər Əliyevin sayəsində aradan qaldırıldı. Bununla yanaşı Heydər Əliyevin siyasi fəaliyyəti, məntiqi və əsaslı dəlilləri sayəsində Xəzərin Azərbaycan sektorundan çıxarılan neftin ixrac ediləcəyi marşrutun son variantı kimi Bakı-Ceyhan neft kəmərinin çəkilişi haqqında İstanbulda imzalanmış müqavilə hər şeydən öncə, Rusiya və ABŞ-ın geostrateji nüfuz uğrunda mübarizəsini, daha dəqiq desək, Xəzərin enerji daşıyıcıları uğrunda mübarizəsini Azərbaycanın və ümumilikdə Qafqazın mənafeyinə zidd olan məsələlərin neytrallaşdırılmasına xidmət etdi.

Heydər Əliyevin bu sahədə həyata keçirdiyi gərgin siyasi fəaliyyət nəticəsində ATƏT-in İstanbul sammiti ilə eyni vaxtda Azərbaycan, Türkiyə, Türkmənistan, Gürcüstan, və Qazaxıstan respublikaları arasında Bakı-Tbilisi-Ceyhan neft və qaz kəmərlərinin inşası haqqında sənədlər imzalanmışdı. İmzalanma mərasimində ABŞ prezidenti B.Klinton da iştirak etmişdir. Sənədlərə imza atmış dövlətlər bununla həmrəy olduqlarını təsdiqləmiş, bir-birləri ilə uzunmüddətli əməkdaşlıqlarını nümayiş etdirmişdirlər.

ATƏT-in İstanbul sammitində Avropanın gələcək təhlükəsizliyi haqqında qəbul olunmuş xartiya və ATƏT üzvü olan bütün ölkələrin rəhbərlərinin imzaladığı bu tarixi sənəd Azərbaycanın ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb etmişdir.

Sammit çərçivəsində Heydər Əliyev Dağlıq Qarabağ və Qafqazda mövcud olan digər münaqişələrin mahiyyəti, dinc vasitələrlə tənzimlənməsi ilə bağlı ABŞ prezidenti B.Klintonla, Fransa prezidenti J.Şirakla, Türkiyə prezidenti S. Dəmirəllə, AFR kansleri H.Şröderlə, İsrailin baş naziri E.Barakla, Avropa Kommisiyasının sədri R.Prodi ilə, ABŞ, Fransa və Rusiya xarici siyasət idarələrinin rəhbərləri ilə, Qazaxıstan prezidenti N.Nazarbayevlə, Gürcüstan prezidenti E.Şevardnadze ilə, Ermənistan prezidenti R.Köçəryanla, Ukrayna prezidenti L.Kuçma və digər dövlət xadimləri ilə görüşərək geniş müzakirələr aparmışdır.

1999-cu il dekabr ayında ATƏT iştirakçılarının İstanbulda keçirilmiş zirvə görüşü zamanı Heydər Əliyevin Qafqazda sülhün bərpa edilməsi istiqamətində irəli sürdüyü təqdirəlayiq təkliflərdən biri də Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması ilə bağlı təklifi olmuşdur. Heydər Əliyevin irəli sürdüyü təklif istər Cənubi Qafqazın, istərsə də qonşu regionların təhlükəsizliyinin təmin olunmasını nəzərdə tuturdu. Heydər Əliyevin Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması ilə bağlı irəli sürdüyü təklif sammit iştirakçılarının böyük marağına səbəb oldu. Məhz buna görə bu təklifin reallaşdırılması isə üzv dövlətlər tərəfindən Şimalla Cənubun, Qərblə Şərqin əməkdaşlığının möhkəmləndirilməsi istiqamətində böyük təkan kimi qiymətləndirildi.

Xarici qoşunların regiondan çıxarılması, ikili standartın, terrorizmin, ekstremizmin, separatizmin qarşısının alınması və Cənubi Qafqazla yanaşı qonşu regionların təhlükəsizliyinin təmin olunması ilə bağlı Heydər Əliyevin irəli sürdüyü Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması təklifi sammit iştirakçıları tərəfindən böyük maraqla dəstəkləndi.

ABŞ, Fransa, Böyük Britaniya, Almaniya kimi Qərbin böyük dövlətləri Heydər Əliyevin Rusiyanın regionda hərbi bazalar şəbəkəsini genişləndirməyə cəhd göstərməsini, Ermənistanda Rusiyanın müasir silahlarla təchiz edilmiş hərbi bazalarının yerləşməsini, Ermənistan ərazisindəki rus qoşunlarının həm sayına, həm də hərbi gücünə görə sovet dövründə olduğundan qat-qat üstün olmasını Qafqazda təhlükəsizliyin təmin edilməsinə mane olan ilkin şərt kimi göstərməsini və bununla əlaqədar regionların təhlükəsizliyinin təmin olunması ilə bağlı irəli sürdüyü Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması təklifini dəstəklədilər. Bu təşəbbüsə görə, Təhlükəsizlik Paktını Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ ilə bərabər Ermənistanla Rusiya da imzalamalı idi. Lakin Heydər Əliyev tərəfindən "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nın yaradılması ilə bağlı irəli sürülən təklif Rusiya və Ermənistan tərəfindən müəyyən qədər narazılıqla qarşılandı. Rusiya ABŞ-ın regiondan kənar bir dövlət kimi bölgədəki proseslərə müdaxiləsinə öz etirazını bildirdi. Lakin qeyd etdiyimiz kimi, Heydər Əliyevin bu təşəbbüsünün Qafqazda sülhün təminatının çağdaş dünyanın iqtisadi və mədəni inteqrasiyasında, regionda sülhün, təhlükəsizliyin təminatında mühüm amil olduğu xüsusi vurğulanmış və sammit iştirakçıları olan dövlət başçıları (xüsusi ilə Türkiyə Cümhuriyyəti) tərəfindən geniş müdafiə olunmuşdur.

Bu ideyanın davamı olaraq Tbilisidə Türkiyə Cümhuriyyətinin doqquzuncu prezidenti Süleyman Dəmirəl tərəfindən 2002-ci il yanvarın 15-də "Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nın təşkili üzrə ATƏT-in 1999-cu ilin dekabr ayında keçirilmiş İstanbul zirvə görüşündə Heydər Əliyev tərəfindən irəli sürülən ideyanın geniş və ətraflı müzakirəsi razılaşdırılmışdır. Əlbəttə, bütün

bunlar Qafqazda, xüsusən də Cənubi Qafqazda sülhün möhkəmlənməsində müstəsna əhəmiyyətə malikdir.

1999-cu il dekabr ayında ATƏT iştirakçılarının İstanbulda keçirilmiş zirvə görüşü zamanı Heydər Əliyev tərəfindən "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nın yaradılması ilə bağlı təşəbbüs irəli sürməsi və onun sammit iştirakçıları tərəfindən müdafiə olunmasından az sonra Rusiya və Ermənistan müdafiə nazirləri Moskvada hərbi əməkdaşlıq haqqında müqavilə imzaladılar. Belə bir hərbi müqavilənin imzalanması beynəlxalq birlik tərəfindən Heydər Əliyevin "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nın yaradılmasını müdafiə edən İstanbul sammiti iştirakçılarına meydan oxumaq kimi qiymətləndirildi. Müqaviləyə görə Ermənistan Rusiyadan müasir silahlar almalı idi.

Bütün bunlara baxmayaraq, Heydər Əliyev tərəfindən "Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq Paktı"nın yaradılması ilə bağlı təşəbbüs irəli sürməsi və onun sammit iştirakçıları tərəfindən müdafiə olunması Cənubi Qafqazda etibarlı regional təhlükəsizlik sisteminin formalaşdırılmasına və regionun bütün dövlətlərinin sabit inkişafına zəmin yaratdı.

## QAFQAZDA DÖVLƏTLƏRARASI VƏ MİLLƏTLƏRARASI ƏMƏKDAŞLIĞIN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

SSRİ-nin süqutundan sonra Qafqaz xalqlarının ictimai-siyasi, iqtisadi, mədəni həyatlarının yeni mərhələsi başlandı. Qafqaz bölgəsində yerləşən respublikaların dövlət müstəqilliklərini bərpa etməsi regional əməkdaşlıq məsələsini gündəmə çıxarmış oldu. Şübhəsiz ki, heç bir dövlət özünə qapılma şəraitində inkişaf edə bilməz. Məhz bu səbəbə görə də müstəqil Azərbaycanın memarı və təminatçısı Heydər Əliyev respublikanın inkişaf strategiyasında Qafqaz dövlətləri ilə içtimai-siyasi, iqtisadi, mədəni əlaqələrin genişlənməsi məsələsinə böyük önəm vermiş oldu. Bu məsələdə Heydər Əliyev ilk öncə, Qafqaz dövlətləri və millətləri arasında mövcud olmuş tarixi əməkdaşlıq ənənələrindən geniş şəkildə istifadə etmişdir. Bununla da, ümumqafqaz mədəni və mənəvi dəyərlərinin və mentalitetinin mahir bilicisi olan Heydər Əliyev Qafqazda sülh, əmin-amanlıq və təhlükəsizliyin təmin olunmasında mühüm əhəmiyyət kəsb edən regional əməkdaşlığın inkişaf etməsində müstəsna rol oynamışdır.

Qafqaz respublikalarının sosial-iqtisadi inkişafının əsas meyarı olan regional əməkdaşlığın inkişafı məsələsinə böyük önəm verən Heydər Əliyev hər bir dövlətin və xalqın milli maraqlarını nəzərə alaraq “Ümumqafqaz Evi” ideyasının reallaşması istiqamətində məqsədyönlü siyasi tədbirlər həyata keçirmişdir. Bütün bu tədbirlər isə Qafqazda dövlətlərarası və millətlərarası əməkdaşlığın inkişafına yönəlmişdir. Heydər Əliyev Qafqazda ictimai-siyasi qeyri-sabitliyin, milli və siyasi münaqişələrin, iqtisadi və mədəni böhranın aradan qaldırılmasını yalnız “Ümumqafqaz Evi” çərçivəsində regional əməkdaşlığın inkişafında görürdü və bu istiqamətdə hərəkət edirdi. Bütün bunlara nail olmaq üçün Heydər Əliyev ilk növbədə, Cənubi Qafqazın aparıcı dövləti hesab olunan Azərbaycanda ictimai-siyasi sabitliyi, iqtisadi və mədəni inkişafı təmin etmiş oldu. Azərbaycanın bir müstəqil dövlət kimi ictimai-siyasi, iqtisadi və mədəni sahələrinin inkişaf etdirilməsi və demokratik, hüquqi dövlət quruculuğu isə Qafqazda dövlətlərarası və millətlərarası əməkdaşlığın inkişafına öz təsirini göstərmiş oldu.

Qafqazın milli münaqişə və separatizm ocağına çevrilməsi, Azərbaycan torpaqlarının 20%-nin işğal edilməsi, gürcü-abxaz, gürcü-osetin münaqişələri, rus-çeçen müharibəsi və sair siyasi münaqişələr dövlətlərarası və millətlərarası əməkdaşlığın inkişafının qarşısını aldığı üçün Heydər Əliyev ilk öncə bölgədə sülh, əmin-amanlıq və təhlükəsizliyin bərpa edilməsi məsələsini ön plana çəkmiş oldu. Bununla o, Qafqazda sülh təşəbbüsünü dəstəkləyən ilk dövlət başçısı kimi qiymətləndirildi.

Qafqazda dövlətlərarası və millətlərarası əməkdaşlığın inkişafında Heydər Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasi tədbirlərin uğurlu nəticəsi kimi Azərbaycan-Gürcüstan əlaqələrini göstərmək olar. Heydər Əliyev və Eduard Şevardnadzenin sayəsində Azərbaycan və Gürcüstan arasında əməkdaşlığın möhkəmləndirilməsi təkcə Qafqazda sülhün təmin edilməsi istiqamətində deyil, həm də bölgədə dövlətlərarası və millətlərarası əməkdaşlığın inkişafına da müsbət təsir göstərmişdir.

Qafqazın aparıcı lideri və "Ümumqafqaz evinin ağsaqqalı" Heydər Əliyevin Azərbaycan-Dağıstan əlaqələrinin möhkəmləndirilməsində müstəsna rolu olmuşdur. Azərbaycan-Dağıstan əlaqələrinin möhkəmləndirilməsi isə hər şeydən öncə, Qafqazda sülh, əmin-amanlıq və təhlükəsizliyin təmin olunmasına xidmət edir.

1996-cı il martın 5-də Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov Azərbaycana rəsmi səfər etmişdir. Qeyd etmək lazımdır ki, başda Məhəmmədəli Məhəmmədov olmaqla Dağıstan nümayəndə heyəti belə geniş tərkibdə Azərbaycana ilk dəfə gəlirdi. Bu rəsmi səfərin isə Heydər Əliyev Azərbaycanla Rusiya arasında, Rusiya Federasiyasının ayrı-ayrı regionları, subyektləri ilə əlaqələrin daha da möhkəmləndirilməsində və genişlənməsində xüsusi əhəmiyyət daşıdığını qeyd etmişdir. Heydər Əliyev başda Məhəmmədəli Məhəmmədov olmaqla Dağıstan nümayəndə heyətinin Azərbaycana rəsmi səfərinin hər iki dövlət arasında əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində olan əhəmiyyəti haqqında demişdir: "Mən ümidvaram ki, biz Rusiya ilə Azərbaycan arasında, Dağıstan ilə Azərbaycan arasında əməkdaşlıqla bağlı bütöv bir sıra məsələlər barəsində fikir mübadiləsi etmək üçün yaxşı imkan tapmışıq". Öz növbəsində, Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov da Heydər Əliyevlə görüşünün hər iki respublika arasındakı əməkdaşlığın inkişafında olan əhəmiyyətini yüksək səviyyədə qiymətləndirərək demişdir: "Biz təəssüflənirik ki, son vaxtlar Azərbaycan rəhbərliyi ilə görüşə bilməmişik. Lakin indi, sizin xalqınız bizim hamımızın hörmət etdiyi Heydər Əliyevi öz prezidenti seçdiyi bir vaxta biz öz yaxşı əlaqələrimizi bərpa etməliyik".

Heydər Əliyev Dağıstanın Azərbaycan üçün yaxın qonşu, tarixi dost, hər iki xalqın həmişə birlikdə olduğunu, əsrlər boyu yaxşı münasibət saxladığını qeyd etmişdir. O, Məhəmmədəli Məhəmmədovla Azərbaycanla Dağıstan arasında münasibətlərin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi ilə bağlı bir sıra məsələlərin müzakirə olunmasının zəruriliyini bildirmişdir. Belə məsələlərdən biri Dağıstanda yaşayan azərbaycanlıların vəziyyəti ilə bağlı olmuşdur. Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov bildirmişdir ki, Dağıstanda bütün xalqlar bərabərhüquqa malikdir. Azərbaycanlılara gəldikdə isə Dağıstanda Azərbaycan dilində qəzet çıxdığını, televiziya və radio verilişlərinin aparıldığını, azərbaycanlıların yığcam yaşadığı yerlərdə rəhbər kadrların seçilmə-

sində üstünlüyün onlara verilməsini qeyd etmişdir. Heydər Əliyev isə Dağıstanda yaşayan azərbaycanlıları bu ellərin yerli əhalisi olduğunu bildirmişdir.

Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov Heydər Əliyevin Qafqazda sülh, əmin-amanlıq və təhlükəsizliyin təmin edilməsində aparıcı rol oynadığını və əhəmiyyətini bu cür ümumiləşdirmişdir: "… Biz indi də nəinki Azərbaycanda, həm də Qafqazda sülhün və sabitliyin bərpa edilməsinə olan bütün ümidlərimizi sizin adınızla bağlayırıq". Bununla yanaşı, Məhəmmədəli Məhəmmədov Azərbaycan və Dağıstan xalqlarının həmişə dostluq şəraitində yaşadıqlarını, hazırda hər iki respublika arasında olan sərhədin müvvəqəti olduğunu, Qafqazda sülhün bərpa ediləcəyini və xalqların bir-biri ilə əvvəllər olduğu kimi, yenə də ünsiyyət saxlaya biləcəklərinə ümidvar olduğunu bildirmişdir.

Heydər Əliyev Azərbaycan-Dağıstan əməkdaşlığı məsələsinə toxunaraq qeyd etmişdir ki, bizim aramızda sərhəd olmamalıdır, o, çox böyük çətinliklər yaradır. Bununla yanaşı o, Azərbaycanın əsas nəqliyyat kommunikasiyalarının Dağıstan və Şimali Qafqazdan keçdiyini, Şimali Qafqazda yaranmış vəziyyətin isə Azərbaycan iqtisadiyyatına güclü təsir göstərdiyini və ziyan vurduğunu bildirərək Qafqazda sülh və əmin-amanlığın tezliklə bərpa olunmasının vacibliyini qeyd etmişdir.

1996-cı il martın 5-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev və Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov tərəfindən dostluq və əməkdaşlıq haqqında bəyannamə imzalanmışdır. Bəyannamədə imzalanmış sənədlərin hər iki respublika arasında münasibətlərin daha da möhkəmlənməsinə və genişlənməsinə xidmət edəcəyi, Dağıstan ilə Azərbaycan arasında münasibətlərin daha da inkişaf etdirilməsi, xalqlar arasında dostluq və əməkdaşlığın möhkəmləndirilməsi və genişləndirilməsi, strateji məsələlərdə, digər məsələlərdə yekdillik və tam qarşılıqlı anlaşmaya nail olunması istiqamətində birgə fəaliyyətin vacibliyi və sair mühüm məsələlər əks olunmuşdur. Hər iki respublika rəhbəri bu bəyannaməni imzalamaqla Azərbaycan xalqı ilə Dağıstan xalqı arasında tarixi, ənənəvi əlaqələri, dostluq və qardaşlıq əlaqələrini bir daha təsbit etmiş oldular.

Heydər Əliyev 1996-cı il martın 5-də Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədovun Azərbaycana rəsmi səfərini hər iki xalqın bir-birinə yaxınlaşması üçün birtərəfli deyil, ikitərəfli addım kimi qiymətləndirmiş və Azərbaycan-Dağıstan əlaqələrinin daha da möhkəmləndirilməsi üçün Məhəmmədəli Məhəmmədovun Dağıstana dəvətini qəbul etmişdir.

1996-cı il martın 5-də Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədovun Azərbaycana rəsmi səfəri çərçivəsində Heydər Əliyevlə keçirdiyi görüş zamanı Dağıstan Respublikası ilə Azərbaycan arasında, habelə Rusiya Federasiyası ilə Azərbaycan arasında qarşılıqlı münasibətlərə aid bir sıra məsələlər müzakirə olunmuş, hər iki ölkə vətəndaşlarının yükdaşıma

nəqliyyatı vasitələrinin sərhədi keçmək rejimini sadələşdirmək məsələsi qarşıdakı müzakirələrin ən mühüm məsələlərindən biri kimi qoyulmuş və ümumilikdə bu görüş bütün məsələlərdə ümumi razılığın əldə olunmasını və hər iki xalq arasında dostluğun daha da möhkəmləndirilməsinə, Rusiya Federasiyası ilə Azərbaycan arasında daha yaxşı qarşılıqlı anlaşmaya xidmət etmişdir.

Heydər Əliyevin Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədovla imzaladığı sənədlər şübhəsiz ki, tarixi əhəmiyyətə malikdir. Belə ki, onlar Azərbaycan və Dağıstan xalqlarının əlaqələrinin möhkəmləndirilməsində müstəsna əhəmiyyət kəsb etməkdədir. Heydər Əliyev imzalanmış bu sənədlərin əhəmiyyətini yüksək səviyyədə qiymətləndirərək demişdir: “Mən əminəm ki, bu sənədlər xalqlarımızın xoşbəxt gələcəyini təmin edəcəkdir”.

Heç şübhəsiz, Azərbaycan-Dağıstan əlaqələrinin möhkəmləndirilməsində Heydər Əliyevin müstəsna xidmətləri və əhəmiyyətli rolu olmuşdur. Bu böyük şəxsiyyətin sayəsində Azərbaycan Respublikası ilə Dağıstan arasında səmimi münasibətlər daha da inkişaf etdirilmiş və hər iki xalqın gələcək səadəti və rifahı naminə əməkdaşlıq genişləndirilmişdir. Azərbaycan-Dağıstan əlaqələrinin möhkəmləndirilməsində Heydər Əliyevin rolunu Dağıstan Respublikasının Dövlət Şurasının sədri Məhəmmədəli Məhəmmədov bu cür qiymətləndirmişdir: “Dağıstanlılar Heydər Əlirza oğlunu yaxşı tanıyırdılar və onun Dağıstana xoş münasibətini həmişə xatırlayacaqlar, çünki onun bu münasibəti sayəsində xalqlarımız arasında dostluq və mehriban qonşuluq ənənələri yaranmışdır və uzun illərdən bəri mövcuddur. Onun adı xatirimizdə həmişə qalacaqdır”.

Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci il noyabr ayının 4-də Bakıda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Şeyx Şamilin 200 illik yubileyinə həsr edilmiş təntənəli gecə təşkil edilmişdir. Azərbaycan dövlət başçısının Şeyx Şamilə verdiyi yüksək qiymət heç şübhəsiz, Qafqazda dövlətlərarası və millətlərarası əməkdaşlığın inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Şeyx Şamilin 200 illik yubileyinə həsr edilmiş təntənəli gecədə geniş nitq söyləyən Heydər Əliyev Şeyx Şamili Qafqaz xalqlarının qəhrəmanlıq, müstəqillik və milli azadlıq mübarizəsinin simvolu kimi qiymətləndirmiş və onun mübarizəsinin Qafqaz xalqlarının birləşdirilməsində olan əhəmiyyətini bu cür qiymətləndirmişdir: “...Şeyx Şamil mübarizəsinin ən dəyərli tərəflərindən biri odur ki, o, mübarizəsi ilə Qafqaz xalqlarını birləşdiribdir, həmrəy edibdir və Qafqaz xalqlarını bir-birinə daha doğma edibdir”.

Şeyx Şamilin 200 illik yubileyinin təntənəli şəkildə keçirilməsinin və bununla yanaşı Qafqazla bağlı digər böyük şəxsiyyətlərin yubileylərinin qeyd olunmasının Qafqazda sülhün, əmin-amanlığın, təhlükəsizliyin və əməkdaşlığın təmin edilməsi istiqamətində olan əhəmiyyətindən danışarkən Heydər Əliyev demişdir: “Bu yubiley mərasimləri, o cümlədən bu günkü təntənəli gecə Şeyx Şamilin

